ƏFŞAR SÜLEYMANİ
MOLLA YUSİF

# İRAN-ABŞ MÜNASİBƏTLƏRİ: MALİYYƏ EKSPERTİ A.Ç.MİLSPONUN İRANDA FƏALİYYƏTİ

**(1922-1927 və 1943-1945-ci illər)**

Qanun - 2007

Az2

*Redaktor:*
**Şəmsiyyə BƏYLƏRQIZI**

**Əfşar Süleymani Molla Yusif. İran-ABŞ münasibətləri: maliyyə eksperti A.Ç.Milsponun İranda fəaliyyəti (1922-1927 və 1943-1945-ci illər).** Bakı, Qanun, 2007, 196 səh.

Ə.Süleymaninin əsəri İran tarixində və ictimai fikirində dərin iz qoymuş maraqlı bir məsələni - doktor Artur Milsponun Tehrandakı fəaliyyətini əhatə edir. Bu fəaliyyət öz iqtisadi nəticələrinə və siyasi məzmununa görə biri-birindən müəyyən dərəcədə fərqlənən iki dövrü, 1922-1927 və 1943-1945-ci illəri əhatə edir.

Q $\frac{1500005104}{\text{AB 022051}}$ sifarişli - 07

Az2

© Qanun — 2007

# MÜNDƏRİCAT

**ÖN SÖZ.**
Əfşar Süleymaninin “İran_ABŞ münasibətləri:
maliyyə eksperti A.Ç.Milsponun İranda fəaliyyəti
(1922-1927 və 1943-1945-ci illər) adlı kitabı haqqında” .......................... 4
GİRİŞ .......................................................................................... 9

**I FƏSİL.**
**XX əsrin birinci yarısında İranda ictimai-siyasi vəziyyət**
1.1. Məşrutə hərəkatının İranın ictimai-siyasi həyatına təsiri ................ 25
1.2. İran və birinci dünya müharibəsi .................................................. 44
1.3. Məhəmməd Rza Pəhləvinin hakimiyyətə gəlməsi ........................... 55

**II FƏSİL.**
**ABŞ-ın maliyyə eksperti Artur Milsponun İrana ilk ezamiyyəti**
2.1. Milsponun İrana dəvət olunmasının səbəbləri ................................ 69
2.2. Milsponun fəaliyyətinin əsas istiqamətləri .................................... 78
2.3. Milspo missiyasının uğurlarının səbəbləri
və onun əleyhidarları ................................................................ 90

**III FƏSİL.**
**Artur Milsponun İrana ikinci ezamiyyəti**
3.1. Milsponun İrana ikinci ezamiyyətinin səbəbləri ........................... 106
3.2. Milspoya fövqəladə səlahiyyətlərin verilməsi ............................... 115
3.3. Milsponun İranda fəaliyyətinə xitam verilməsi ............................. 161

NƏTİCƏ .......................................................................................... 171
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ............................................... 181

# ÖN SÖZ

## ƏFŞAR SÜLEYMANİNİN "İRAN-ABŞ MÜNASİBƏTLƏRİ: MALİYYƏ EKSPERTİ A.Ç.MİLSPONUN İRANDA FƏALİYYƏTİ (1922-1927 VƏ 1943-1945-Cİ İLLƏR)" ADLI KİTABI HAQQINDA

İranın XX əsrdə keçdiyi yolun və xaricilərin İranda fəaliyyətinin öyrənilməsi bu gün də öz aktuallığını, elmi və siyasi əhəmiyyətini saxlayan məsələlərdəndir. İran İslam inqilabının qələbəsindən sonra istər İranda, istər Qərb ölkələrində və istərsə də Rusiyada bu ölkənin tarixinə, onun ayrı-ayrı məqamlarına maraq hədsiz dərəcədə güclənmişdir. Müasir tarixinin heç bir dövründə İran, İslam Respublikası dövründə olduğu qədər müstəqil olmamış, xarici asılılığa belə formada son qoya bilməmişdi. Bu son 30 ilə yaxın bir dövrdə İranda gedən sosial-siyasi proseslərin ən maraqlı və Ölkənin milli maraqlarının qorunması baxımından ən əhəmiyyətli yekunu sayıla bilər. Əslində, XX əsrdə İranın keçdiyi tarixi yola marağın artması, dünyanın müxtəlif ölkələrində iranşünaslıq mərkəzlərinin açılması, biri-birindən dəyərli elmi araşdırmaların meydana çıxması ilk növbədə bununla izah edilməlidir. Təkcə ABŞ və Rusiyanın timsalında bu prosesi izləməli olsaq, son illərdə Mark Gazirovski və Malkolm

Börn tərəfindən Nyu Yokda nəşr edilmiş "Məhəmməd Müsəddiq və İranda 1953-cü il çevrilişi", Moskvada isə boyük iranşünas alim S.Əliyev tərəfində nəşr ediliş "İran tarixi: XX əsr" adlı elmi cəhətdən zəngin, məzmun etibarilə çox qiymətli əsərlərin adlarını çəkə bilərik. Bu əsərlərdə və eləcə də son illərdə meydana çıxan digər araşdırmalarda İran tarixinin dönüş məqamlarının dəyərləndirilməsində yeni yanaşma, faktların və hadisələrin obyektiv izah tərzini müşahidə edə bilərik. Eyni ilə bu sözləri uzun müddət İran İslam Respublikasının Azərbaycanda səfiri işləmiş Əfşar Süleymaninin "İran-ABŞ münasibətləri : maliyyə eksperti A.Ç.Milsponun İranda fəaliyyəti" adlı kitabına da aid etmək olar.

Ə.Süleymaninin əsəri İran tarixində və ictimai fikirində dərin iz qoymuş maraqlı bir məsələni - doktor Artur Milsponun Tehrandakı fəaliyyətini əhatə edir. Bu fəaliyyət öz iqtisadi nəticələrinə və siyasi məzmununa görə biri-birindən müəyyən dərəcədə fərqlənən iki dövrü, 1922-1927 və 1943-1945-ci illəri əhatə edir. Müəllif əsərin yazılmasında çoxlu sayda ilk mənbələrdən, mətbuat materiallarından və mövzuya yaxın olan elmi ədəbiyyatdan, habelə, Artur Milspo özü də daxil olmaqla dövrün ictiami-siyasi xadimlərinin müxtəlif illərdə nəşr olunmuş xatirələrindən istifadə etmişdir. Ə.-Süleymaninin ABŞ-m maliyyə eksperti A.Milsponun İranda fəaliyyətini araşdıran əsərinin bu mövzuya aid nəşr edilmiş digər kitablardan ən mühüm fərqi bu əsərin zəngin mənbələr əsasında yazılması, mövzuya aid həm İranda, həm Rusiyada və həm də Qərb ölkələrində nəşr edilmiş kitabların dərin elmi təhlilinin verilərək, onların vahid bir süjet xəttində birləşdirilməsindədir. Bu kitabın Bakıda nəşr edilməsi elmi baxımdan əhəmiyyətlidir. Ona görə ki, elmi ictimaiyyətimiz ABŞ-m İrandakı fəaliyyəti haqqında indiyə qədər mövcud olanlardan fərqli bir nöqteyi-nəzərlə tanış olur, proble-

min İran tarixşünaslığı haqqında müfəssəl məlumat əldə edir. Eyni zamanda bu kitabın Bakıda nəşr edilməsi siyasi baxımdan ona görə əhəmiyyətlidir ki, yeni müstəqillik əldə etmiş ölkəmiz müxtəlİf beynəlxalq təşkilatlardan və ayrı-ayrı ölkələrdən dəvət edilmiş ekspertlərin, o cümlədən maliyyə ekspertlərinin xidmətindən istifadə edir, onların fikir və mülahizələrini sərf-nəzər etməli olur. Məhz bu zaman hansı ölkədə cərəyan etməsindən asılı olmayaraq, tarixi təcrübənin öyrənilməsi işə bir qayda olaraq fayda gətirir.

Əsərin əvvəlində XX əsrin birinci yarısında İranda gedən ictimai-siyasi prosesin geniş təhlili verilmişdir. Burada məşrutə hərəkatının ölkənin sosial-siyası həyatına təsiri, Səttar xan Sərdari - milli başda olmaqla Təbrizin məşrutə hərəkatındakı rolu, birinci dünya müharibəsi dövründə İranda cərəyan edən hadisələr və imperialist güclərin İran uğrunda mübarizəsinin real mənzərəsi yaradılmışdır. Müəllif birinci dünya müharibəsindən sonra İranda gedən ziddiyətli hadisələr fonunda Rza Pəhləvinin hakimiyyətə gəlməsinin səbəblərini və ölkədə Pəhləvi diktaturasınm qurulmasında xarici dövlətlərin oynadığı neqativ rolu zəngin material əsasında təsvir edə bilmişdir, Kitabda İranın parlamentarizm tarixi və onun dövrləşdirilməsi haqqında Ə.Süleymaninin mühakimələri də eyni dərəcədə ciddi maraq doğurur. İran məclisində doktor Müsəddiqin fəaliyyəti, onun xarici güclərə qarşı ölkənin suverenliyi uğrundakı mübarizəsi, xaricilərə neft konsessiyalarının verilməsinə qarşı dayanması əsərin maraqlı məqamlarındandır. XX əsrin böyük milli lider olaraq, Məhəmməd Müsəddiq bu gün də dünyanın maraq dairəsinə daxildir və 50-ci illərin əvvəllərində ona qarşı mübarizə aparan ölkələrin özündə belə, onun haqqında əfsanələr dolaşırdı.

Kitabda doktor Milsponun 1922-ci ildə İrana dəvət olunmasının səbəbləri, onun fəaliyyətinin əsas istiqamətləri, ABŞ maliyyə eks-

pertinin uğurlannın səbəbləri və əleyhdarları arasında gedən mübarizə zəngin material əsasında təqdim edilmişdir. Müəllif haqlı olaraq yazır ki, Milspo birinci missiyası zamanı İranın maliyyə problemlərinin stabilləşdirilməsi istiqamətində müəyyən dərəcədə səmərəli fəaliyyət göstərmişdir. Ötən əsrin 20-ci illərinin əvvəllərində İranın iqtisadi-maliyyə durumunu dəyərləndirərək, müəllif yazır: "Hər halda, doktor Milspo işə başlayan zaman dövlətin maliyyə sistemi elə bir dərəcədə laxlamış və xəzinə o dərəcədə boşalmış, korrupsiya isə eb bir formada vüsət almışdı ki, heç bir tədbir fayda vermirdi. "Belə bir şəraitdə İranın Amerika iqtisadi və maliyyə müşavirlərini dəvət etməsi uzun müddət İngiltərə və Rusiya arasında əzilən Ölkənin daha uzaqda yerləşən və birinci dünya müharibəsindən sonra kiçik xalqların dostu immici qazanan ölkəyə üstünlük verməsi zərurətindən irəli gəlirdi. Məhz ənənəvi təcridçilikdən beynəlmiləlçiliyə yeni keçən ABŞ Avropa bürokratiyasından fərqli olaraq həb ki, beynəlxalq əlaqələrdə siyasi və iqtisadi maraqlar güdmürdü. Fikrimizcə, müəllifin belə mülahizəsi həqiqətə uyğundur və həmin dövrün reallığını əks etdirir.

Əsərin sonuncu bölümü də eyni dərəcədə maraqlıdır. Burada söhbət Milsponun İrana ikinci səfərinin səbəblərindən, ona fövqəladə səlahiyyətlər verilməsindən və Amerika ekspertlərinin fəaliyyətinin dayandırılmasından gedir. İrana birinci səfərindən fərqli olaraq Milsponun ikinci səfərində təmsil etdiyi ölkənin maraqlan müəllif tərəfindən diqqətlə izlənilmiş və bu səfərin nəticələri ABŞ-m geosiyasi maraqları fonunda izah edilmişdir.

Yeri gəlmişkən, ikinci dünya müharibəsi illərində müttəfiq olmaları ilə yanaşı Tehrandakı sovet səfirliyi və İranda "Ford" gizli adı altında fəaliyyət göstərən sovet rezidenti doktor Milspo və onun missiyasına daxil olan ekspertlər haqqında son dərəcə məxfi məlu-

matlar toplayıb Moskvaya göndərmişdilər. Bu məlumatlarda İranın maliyyə vəziyyəti, daxili və xarici ticarəti, sənayesi və kənd təsərrüfatı, Milspo qrupunun tərkibi, onun strukturu, nazirliklərdəki təmsilçiləri və geniş əks olunmuşdu. "Ford"un məlumatları isə daha çox ABŞ-ın İrandakı maraqlan, Amerika müşavirlərinin SSRİ-nin əleyhinə fəaliyyətləri, İran ordusunda və jandarmasındakı islahatlar, amerkanların İran neftinə marağı, onların İranın daxili və xarici siyasətinə münasibəti, digər məsələlər əhatə olunmuşdu.

Ə.Süleymaninin İranda doktor Milsponun fəaliyyətinə həsr olunmuş əsərinin Azərbaycan elmi ictimaiyyəti və bütövlükdə tarixə maraq göstərən oxucular üçün maraq doğuracağını nəzərə alaraq, onun nəşr edilməsini məqsədəuyğun hesab edirik.

**Cəmil Həsənli,**
**tarix elmləri doktoru, professor**

# GİRİŞ

**Mövzunun aktuallığı.** XX əsrdə İranın daxili və xarici siyasətində bir sıra mühüm hadisələr baş vermişdir. Bu hadisələr həm ölkə daxilində gedən poseslərlə yanaşı, ölkənin beynəlxalq münasibətlərində və eyni zamanda regionda baş vermiş mühüm dəyişikliklərlə sıx əlaqədar olmuşdur. Qeyd etmək lazımdır ki, əvvəllər olduğu kimi, XX əsrin birinci yarısında da dünyanın aparıcı dövlətlərinin xarici siyasətində İrana mühüm əhəmiyyət verilmiş, bu ölkənin geosiyasi və strateji mövqeyi diqqət mərkəzində olmuş, təbii sərvətlərindən istifadə etmək isə imperialist dövlətlərin diplomatiya hədəfi olmuşdur. Fövqəldövlətlər, ələlxüsus ABŞ, ciddi səylərlə İranın daxili və xarici siyasi həyatında fəal iştiraka can atır, bu məqsədə nail olmaq üçün isə müxtəlif üsullardan istifadə olunurdu. Bu istiqamətdə amerikalı mütəxəssislərin xüsusi missiya adı altında İrana ezam olunmaları əsas vasitələrdən biri hesab olunurdu.

İranda xaricilərin, xüsusilə xarici müşavirlərin fəaliyyətinin və İranı tərk etdikdən sonra onların qələmə aldıqları xatirələrin, eləcə də bu mütəxəssislərin müxtəlif iqtisadi və siyasi hadisələrlə əlaqələrinin araşdırılması ilə keçmişin hələ də qaranlıq qalmış bir çox

hadisələrinin işıq üzü görməsinə şərait, keçmişdəki hadisələrin isə daha dəqiq və sistemli şəkildə öyrənilməsinə imkan yaranır.

Nəinki İranın özündə, eləcə də regionda baş verən hadisələrlə əlaqədar olaraq İran tarixinin ən məsul dövrlərində 7 il müddətində ölkəmizdə ezamiyyətdə olan bir şəxsin fəaliyyətinin araşdırılmasının ciddi siyasi və elmi əhəmiyyəti var. Milsponun İrandakı fəaliyyətinin hərtərəfli və dərindən tədqiq edilməsi, habelə, ABŞ diplomatiyasının bu kimi missiyalardan iqtisadi ekspansiya məqsədilə istifadə etdiyi, metodların öyrənilməsi baxımından da aktuallıq kəsb edir. Milspo, iqtisadi müşavir qismində məsuliyyətli bir vəzifəni öhdəsinə götürmüşdür. Nəticədə isə İranda iqtisadi proseslər və siyasi hadisələrlə əlaqəli olmuş, eləcə də həmin dövrün İran hökumətinin və parlamentin bir çox üzvləri ilə yaxından əlaqəli idi və hətta bir çox ictimai-siyasi dairələrlə dostluq əlaqələri yarada bilmişdi. Buna görə də doktor Milsponun İran üzrə fəaliyyətinin öyrənilməsi aktualdır və mühüm elmi-siyasi əhəmiyyət kəsb edir:

Qeyd edək ki, Milsponun hər iki ezamiyyət dövründə fəaliyyəti biri-birindən tamamilə fərqli idi. Bu fərqli cəhətlər bir tərəfdən ABŞ dövlətinin siyasətinin birbaşa nəticəsi idisə, digər tərəfdən Milsponun öz nöqteyi nəzərinin müəyyən tənəzzülə uğramasının təzahürüdür. İkincisi, İranın daxili vəziyyəti və regionun siyasi durumu əsaslı dəyişikliklərə məruz qalması da bu missiya fəalyyətində təsirsiz qalmadı. Regionda fəaliyyət göstərən müəyyən qüvvələr Milsponun İranda olmasından müxtəlif məqsədlər güdmüşlər. Üçüncüsü, nəinki həmin illərdə ABŞ hökumətinin İranla bağlı maraqlarının qəbul edilməsinə təsir gös-

tərmiş, həm də sonrakı illərdə də Amerikanın İranla bağlı xarici siyasətinə şübhəsiz təsir göstərmişdir. Milsponun hər iki ezamiyyətinin müqayisəli tədqiqi, ABŞ-ın İranla bağlı mövqeyinin dəyişilməsi prosesinin dərk edilməsi və bu tənəzzülatın beynəlxalq aləmdə baş verən ciddi dəyişiklərlə bağlılığı aydın görünür. Bu baxımdan da Mılsponun İrandakı missiyasının tədqiqi aktuallıq kəsb edir. Beşincisi, həmin dövrdə İranın dövlət xadimlərinin fəaliyyəti, bütövlükdə onların qərb ölkələrilə bağlılıqları ilə müəyyən olunurdu. Çünki ölkədə qərar qəbul edənlər İranı xarici müşavir və ekspertlərdən asılılıqdan qurtarmaq və onlara dövlətdə ən mühüm və həssas işlərə nəzarət etmək imkanı verməmək üçün yerli mütəxəssislərin hazırlanması məqsədilə xarici müşavirlərin bilik və təcrübələrindən layiqincə istifadə etmirdilər. İranlı mütəxəssislər bilik və təcrübəyə yiyələnməklə, xarici müşavirlərin fəaliyyətini daima nəzarətdə saxlamaları, İranın milli maraq və mənafeyinə cavab verə bilərdi.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Dissertasiya mövzusu kimi seçilmiş tədqiqat işinin məqsədi müxtəlif illərdə İranda ABŞ-ın maliyyə missiyasına rəhbərlik etmiş Milsponun fəaliyyətini tədqiq etmək, ələlxüsus 1943-1945-ci illərdə İrana yenidən ezam olunmasında əsas məqsədinin və ABŞ hökumətinin, o cümlədən bu ölkənin transmilli şirkətlərinin onun qarşısında qoyduğu başlıca vəzifələrin araşdırılmasıdır.

Müəyyən olunmuş məqsədə çatmaq üçün dissertantın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

- 20-ci illərdə İranın ictimai-siyasi və iqtisadi vəziyyətini qısa şəkildə tədqiq etmək;

- O, dövrdə ölkədə hökm sürən ağır ictimai-siyasi durumun İran dövlətinin beynəlxalq əlaqələrinə təsirini işıqlandırmaq;

- ABŞ-ın beynəlxalq əlaqələrin genişləndirilməsində texniki-iqtisadi yardım adı altında xarici ölkələrə müxtəlif təyinatlı missiyaların ezam edilməsi və bu missiyaların Vaşinqtonun iqtisadi-siyasi və hərbi-strateji maraqlarına xidmət etməsini araşdırmaq;

- Milsponun birinci missiyası **(1922-1927-ci illər)** zamanı İranın maliyyə problemlərinin nizama salınmasında nisbətən səmərəli fəaliyyətini işıqlandırmaq;

- İkinci Dünya müharibəsi illərində İranla ABŞ arasında bir çox sahələrdə münasibətlərin bərqərar edilməsini və tədricən bu əlaqələrin genişlənməsini araşdırmaq;

- Milsponun Tehrana ikinci missiyasının **(1943-1945-ci illər)** əsas məqsədini açmaq onun ABŞ dövlətinin iqtisadi-siyasi maraqlarına xidmət etməsini araşdırmaq və missiyanın Amerikanın transmilli şirkətləri ilə əlaqəsini işıqlandırmaq;

- Milspo İrandan çıxarılandan sonra onun başqa xarici ölkədə ezamiyyəti dövründə, yenə də ABŞ maraqlarına xidmət etməsini araşdırmaqla Vaşinqtonun inkişaf etməkdə olan ölkələrə münasibətinin hədəfini açmaq və bu ölkələrin ABŞ diplomatiyasında yerini müəyyən edən başlıca amilləri müəyyən etmək;

Müasir dövrdə və keçmişdə müxtəlif ölkələr tərəfindən müxtəlif sahələr üzrə xarici müşavirlərin dəvət olunması zahirən adi təcrübə və faydalı bir iş kimi görünə bilər. Lakin tarixi təcrübə göstərir ki, fövqəldövlətlərin bu kimi tədbirlərini sadələşdirmək olmaz. Əcnəbi müşavirlərin və ekspertlərin fəaliyyətinin onların mənsub olduqları dövlətdən aldıqları göstərişlərin tədqiqi və

araşdırılması olduqca zəruri bir məsələdir. 1922-1927-ci və 1943-1945-ci illərdə İranın ictimai-siyasi həyatında fəal rol oynayan Qəvvamüssəltənə tərəfindən Amerika müşavirlərinin ölkəyə dəvət olunması ola bilsin ki, müsbət addım sayılır, lakin dəvət edilmiş ABŞ məsləhətçisinin, yəni cənab Artur Çester Milsponun İranda fəaliyyəti başqa bir məqamı sübut edir. İranın dövlət xadimlərinin xarici müşavirlərə şərtsiz və tam etibar etməsi, həyati əhəmiyyətli mühüm dövlət işlərinin onların ixtiyarına verilməsi, bir tərəfdən idarəçiliyin bərbad halda olmasını, digər tərəfdən də İran gənclərinin istedadlarından istifadə edilmədiyini sübut edir. Dövlətin mütəxəssislərə olan əsas ehtiyacının ödənilməsi üçün iranlı mütəxəssislərin hazırlanması, milli mütəxəssislər hazırlayıb onların bacarıq və biliyindən dövlətin mühüm sahələrində istifadə etmək əvəzinə, mənsub olduqları ölkənin maraqlarına xidmət edən əcnəbilərdən müşavir kimi istifadə olunması İranın milli mənafeyinə uyğun deyildi. Xatırladırıq ki, Milspo İrana birinci ezamiyyəti dövründə ölkəmizin iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün müəyyən müsbət nəticələrə nail olmasına baxmayaraq, bununla belə, ikinci ezamiyyəti zamanı öz əməlləri ilə o dövrün Məclisi və hökuməti  üçün elə bir şərait yaratdı ki, öz dövlətinin siyasətini istiqamətləndirməklə Amerika məsləhətçilərindən istifadə rejimi vasitəsilə Amerikanın protektoratlığını qurmağa çalışdığını göstərdi. Bu tədqiqatın məqsədi, bu nəzəri müddəanı sübut etməkdən ibarətdir. Bu məqsədlə müxtəlif mənbələrdən Milsponun əməlləri və fəaliyyəti haqqında tam məlumat toplanmışdır.

Doktor Milspo özünün sayca ikinci ezamiyyətində göstərdi ki, əgər İranda daxili və xarici şərait imkan versəydi, onda birin-

ci ezamiyyət zamanında ikincidə edilənləri həyata keçirməyə cəhd göstərilərdi **(Bu hərəkət 1919-cu il müqaviləsi vasitəsilə İranı özünə tabe etməyə çalışan və məğlubiyyətə uğrayan İngiltərənin fəaliyyətinə bənzəyir).**

Mühüm məqamlardan biri budur ki, onun peşəkarlıq dərəcəsi və təcrübəsi, həmçinin birinci ezamiyyət dövründə onun fəaliyyətinin müsbət nəticəsi, ikinci ezamiyyət zamanı onun fəaliyyətinin və uğursuzluğunun onun səriştəsizliyinə və ya yerli şəraiti və onların xüsusiyyətlərini bilməməsinə aid etməyə imkan vermir. Halbuki o, İranın maliyyə və iqtisadi vəziyyətini gözəl bilirdi. Deməli, Milspo ikinci ezamiyyəti zamanı məsləhətçilərdən istifadə etməklə İranda protektoratlıq rejimi qurmağa çalışırdı. Bu cəhd şüurlu surətdə edilirdi və Amerika hökumətinin göstərişləri və rəhbərliyi altında onun siyasətinin davamı kimi həyata keçirilirdi. İranda sonrakı dəyişikliklər göstərdi ki, Amerika İranın üzərində özünün tam nəzarətini və təsirini qurmaq niyyətini güdmüşdür. Milspo İranı tərk edəndən 9 il sonra doktor Müsəddiqin milli hökumətinin süqutu bunu sübut edirdi ki, Amerika hökuməti Milspo və onun kimi adamların təcrübə, bilik və nüfuzundan İranda tam yararlanmışdır.

**Problemin öyrənilmə dərəcəsi.** Doktor Milsponun İrana ezamiyyətləri haqqında tədqiqatın yazılması üçün mövzunun tarixi xarakter daşıdığını nəzərə alaraq, müxtəlif mənbələrdən istifadə olunmuşdur. Bu mənbələrə kitablar, jurnallar, qəzetlər və göstərilən hadisələr haqqında yazılmış ayrı-ayrı məqalələr aiddir. Aydındır ki, özündən sonra müəyyən zaman keçmiş və hadisə iştirakçıları ilə birbaşa əlaqənin olmadığı və onların baş vermə sə-

bəblərinin qeyri-müəyyən qaldığı hadisələrə aid tarixi mövzular üzrə tədqiqatlar bu hadisələri müşahidə etmiş və ya onların iştirakçısı olmuş və göstərilən hadiləsələr haqqında yazmış şəxslərin memuarlarına müraciət edilməsini tələb edir. Tarixi mənbələr əsasında aparılan araşdırmalar müəyyən məhdudiyyətlərə malik olur. Bunların sırasında hadisələrin ünsürlərinin və ya əsas səbəbləri üzrə tədqiqat imkanlarının olmaması və digərləri tərəfindən yol verilmiş obyektivlikdən uzaq mülahizələrin hazırda mövcud olmasına işarə etmək olar. Bununla belə dissertant bir tərəfdən hadisələrə ayrı-ayrılıqda baxmamağa üstünlük vermiş, hadisələr arasında əlaqə tapmağa çalışmış, digər tərəfdən isə hər hansı bir hadisə ilə bağlı irəli sürülmüş fərziyənin sübuta yetirilməsi üçün yalnız iri həcmli əsərləri olan müəlliflərin qeydlərindən və mötəbər qaynaqlardan istifadə etmişdir ki, onların doğruluğu şübhə doğurmur. Metodologiya baxımından bu tədqiqatda o dövrdə yaşamış və Milspo haqqında yazmış bir çox dövlət xadimlərinin, siyasətçilərin və media nümayəndələrinin indiyədək məlum olmayan fikir, mülahizə və baxışlarından istifadə olunmuşdur. Bir çox müəlliflər Milsponun hər iki ezamiyyəti zamanı İrandakı fəaliyyəti barəsində obyektiv fikir yürütmüş, onun əməllərini olduğu kimi qiymətləndirmişlər. Məhz bu da belə bir obyektiv nəticəyə gəlməyə imkan verir ki, tabeliyində olan amerikalı ekspert və müşavirlərdən istifadə etməklə İranda asılılıq rejimi qurmağa çalışmışdır. Xatırladaq ki, o dövrdə İranda ictimai-siyasi və dövlət xadimlərinin Amerikaya dostcasına etimadla yanaşmaları xüsusi maraq doğurur. Belə dostluq və etibarlı münasibətləri belə bir faktı sübut edir ki, o

dövrün dövlət xadimləri ABŞ-a, İngiltərə və Rusiyaya müqavimət göstərə biləcək əks qütb kimi baxırdılar və bu dövləti üçüncu qüvvə hesab edirlər. Buna görə də məhz Amerikadan müşavirlərin və ekspertlərin dəvət olunmasına üstünlük verirdilər. Lakin Milspo və bütövlükdə Amerikanın ikinci dünya müharibəsi dövründə və müharibədən sonrakı illərdəki fəaliyyəti İranın Amerikaya bəslədiyi bu dostluq münasibətlərinin dəyişdirilməsinə səbəb oldu. ABŞ soyuq müharibənin ilk illərindən başlayaraq, Milsponun ölkəyə qayıtmasına qədər İranın müstəqil xarici siyasətdən əl çəkərək Qərbin xarici siyasət orbitinə keçməsi istiqamətində səy göstərdi. Lakin 50-ci illərin əvvəllərindən İranda neft sənayesinin milliləşdirilməsi uğrunda xalqın milli qüvvələr ətrafında birləşməsi, Qərbin aparıcı dövlətlərilə İranın münasibətlərini gərginləşdirdi. Nəticədə 1953-cü ilin avqust ayının 18-də (hicri şəmsi təqvimilə 28 mordad 1332-ci il) ABŞ-İngiltərə alyansı İranda hərbi çevriliş etməklə doktor Müsəddiqin milli hökumətini devirməyə nail oldu. Əlavə edək ki, Milspo həmin siyasi xadim idi ki, 14-cü çağırış Məclisin deputatı olan zaman İranda Amerika məsləhətçilərinin və Milsponun fəaliyyətinin dayandırılması üçün qəti və barışmaz mövqedən çıxış edirdi. 1979-cu il fevralın 11-ə qədər ABŞ hakim dairələri İrana öz siyasətini diqtə etməsi, iki ölkə arasında münasibətlərin gərgin məcrada inkişaf etməsinə səbəb olmuşdur. Tədqiqat mövzusunun yazılması zamanı fars, rus və qərb dillərində qələmə alınmış ədəbiyyatdan tənqidi yanaşma üsulu ilə istifadə olunmuşdur. Xüsusilə Artur Milsponun amerikalıların İrana səfərindən bəhs edən kitabında (9) öz əksini tapmış məlumatlar dissertasiyanın

yazılmasında mühüm rol oynamış və bu əsərdən ilkin mənbə kimi istifadə etməklə bu missiyanın İrandakı fəaliyyətilə bağlı bəzi qaranlıq məqamlara aydınlıq gətirilmişdir. Milsponun İranda işlədiyi illərdə dövlətin xarici siyasətinin inkişaf istiqamətləri, bir sıra İran müəlliflərinin əsərlərində öz şərhini tapmışdır. İranlı müəlliflərin əsərlərinin çoxunda Milspo missiyasına tənqidi yanaşma və kəskinlik öz ifadəsini tapmamışdır. Lakin bununla belə İranlı müəlliflərdən Əhəmədi Mətin Darafərin **(2)**, Abbas Məsudi **(3)**, Əbdülsəməd Kambaxi **(4)**, Əbdülhüseyn Zərrinkub **(5)**, Əbdülrza Huşəng **(7)** və Əbdülhüseyn Həmzəvinin (6) əsərlərində XX əsrin 20-ci və 40-cı illərində İranın xarici ölkələrlə iqtisadi və siyasi əlaqələrinə dair bir sıra dəyərli fikirlər irəli sürülmüş və bu əsərlərdə qeyd olunan faktlardan da yeri gəldikcə istifadə olunmuşdur. Doktor Cavad Şeyxülislamın əsərin-də **(16)** 1941-ci ildə İranın müttəfiq dövlətlər tərəfindən işğalından başlayaraq, 1953-cü il hərbi çevrilişlərdən baş vermiş hadisələrdən bəhs olunur. Əsərdə amerikalıların İrandakı fəaliyyəti, xüsusilə də Artur Milsponun missiyası geniş təhlil süzgəcindən keçirilir. Lakin bu kitabda da amerikalı müşavirin kölgədə qalan fəaliyyət cizgilərinə toxunulmur.

Sovet tarixçisi Q.L.Bondarevskinin **(150)** fars dilində tərcümə edilmiş əsərində, amerikanın İranda nüfuz dairələrinin genişləndirilmə tarixindən bəhs olunur. Bundan əlavə Barri Rubinin **(151)**, Valentin Berejkovun **(152)**, Bolad Bevinin **(11)** əsərlərində İranda fövqəldövlətlərin öz nüfuz dairələrini genişləndirmək uğrunda açıq və qapalı mübarizələrindən, böyük dövlətlərin başçılarının məxfi yazışmalarından, 1943-cü il Tehran Konfransında baş ver-

miş hadisələrdən ətraflı bəhs olunur. Həmçinin hadisələrin mahiyyətini açmaq üçün mühüm mənbələrdən biri kimi Mehdiqulu Hidayətin **(35)** xatirələrindən də istifadə edilmişdir. Fars dilində nəşr edilmiş əsərlər arasında Rəhim Rzazadə Malekin **(92)** yazdığı monoqrafiyada İran və ABŞ arasında qarşılıqlı münasibətlər təhlil olunmuş və ABŞ-ın İranda güddüyü məqsədlər qələmə alınmışdır. ABŞ-İran münasibətləri İkinci Dünya müharibəsinin ilk illərindən başlayaraq yüksələn xətt boyu inkişaf etməyə başlayır. Bu iki dövlət arasında əlaqələrin intensiv inkişafı qeyd olunduğu kimi İranlı alimlərin diqqətindən yayınmamış və bu əlaqələrin araşdırılmasına ayrıca monoqrafik əsərlər həsr edilmişdir. Bu baxımdan Ələm Əbdül Əmrin "İkinci Dünya müharibəsindən sonra İran-ABŞ arasında siyasi münasibətlər" diqqəti cəlb edir. Müəllif bu əsərində Milspo missiyasının fəaliyyətinə iki dövlət arasında iqtisadi əlaqələrin genişlənməsinə imkan verən bir vasitə kimi baxır. İran-ABŞ münasibətlərini ayrıca kitab şəklində araşdıran iranlı tədqiqatçılardan biri də Mehdi Kianfərdir. Onun "Amerikanın İrandakı siyasəti" **(32)** adlı əsərində əsasən iki ölkə arasında siyasi münasibətlərə işarə edilir, Milsponun İran fəaliyyətinə ötəri toxunulur. Dissertasiya üzərində işləyərkən Müsəddiqin xatirələrindən də geniş istifadə olunmuşdur. **(47,54,72)**. 40-cı illərin sonu və 50-ci illərin əvvəllərində İranın ictimai-siyasi həyatında fəal rol oynayan, eləcə də bu ölkədə xalqın milli sərvət sayılan neft uğrunda mübarizəsinə rəhbərlik edən Müsəddqiqin bu əsəri ilkin mənbə kimi qiymətlidir. Əlavə edək ki, Müsəddiqin özü də ABŞ-ın dünya siyasətində mövqeyini düzgün qiymətləndirə bilmədiyi üçün, İranda neftin milliləşdirilməsi uğrunda mübarizə uğursuz-

luqla sona yetdi və nəticədə Vaşinqtonun bu ölkədəki mövqeyi möhkəmləndi. Dissertant tədqiq olunan dövrdə baş verən hadisələri hərtərəfli izləmək məqsədilə tənqidi yanaşma və müqayisəli metodlardan istifadə etməklə fars dilində çap olunmuş "Ajir" (8), "Dad" **(13)**, "Dəmavənd" **(14)**, "Əsre Eqtesad" **(23)**, "Ettelaat" **(24)**, "İran" **(28)**, "İrane ma" **(29)**, "Keyhan" **(30,36)**, "Mərde emruz" **(37)**, "Mehre İran" **(38)**, "Rəhbər" **(41)**, "Raade emruz" **(42)**, "Setare" **(46)**, "Tufan" **(58)** qəzetlərinin müxtəlif saylarında çap edilmiş çoxsaylı məqalə və məlumatlardan bəhrələnmişdir.

Azərbaycan dilində çap olunmuş əsərlər sırasında amerikalıların İrandakı fəaliyyətini özündə əks etdirən çoxsaylı məqalələrdən, o cümlədən Atamoğlan Məmmədlinin yazdığı "İran İkinci Dünya müharibəsi illərində" adlı kitabdan istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, dissertasiya işinin yazılmasında rus müəlliflərinin əsərlərindən də geniş istifadə olunmuşdur. Rus müəlliflərindən A.K.Lavrentyev **(70. 11)** qeyd edirdi ki, amerikalıların İrana müdaxilələri, eləcə də onun iqtisadi həya-tına soxulmaları müharibənin sonralarına doğru daha intensiv xarakter almışdır. Belə ki, 1944-1945-ci illərdə ABŞ mallarının İrana idxalı kəskin şəkildə artırıldı.

Moskva dövlət Universitetinin nəşr etdirdiyi "İran tarixi" kitabında qeyd olunurdu ki, Milspo İranda fəaliyyət göstərən zaman açıq antisovet mövqe tutmuş və Rza şah ilə aralarındakı fikir ayrılığı onun İranı tərk etməsinə səbəb olmuşdur. Buna həmçinin ingilislər də kömək etmişlər **(134. 324).**

Başqa bir rus müəllifi olan A.V.Başkirov ingilis və amerika müstəmləkəçilərinin İrana ekspansiyasını qələmə almışdır. O,

yazırdı ki, Milspo missiyasının üzvləri İrana ikinci ezamiyyətləri zaman iranlı tacirlərdən çoxlu rüşvət almışdılar **(121, s.50)**.

Digər rus müəllifi S.Q.Ağayev isə İranın xarici siyasətinə həsr etdiyi əsərində İran rəhbərlərinin Milsponun nümayəndə heyətinə münasibətini qələmə almış, hələ 1926-cı ilin sonunda kabinet üzvlərinin və Məclis deputatların iştirakı ilə keçirilən iclasda Artur Milsponun hərəkətlərindən Rza Şahın narazılığını qeyd etmişdir **(114, s.61).**

Ümumiyyətlə, Sovet tarixşünaslığında İranın xarici siyasəti daima tənqid hədəfində olmuşdur. ABŞ-İran münasibətlərinin inkişafına qısqanclıqla yanaşan Sovet müəllifləri Tehranın Vaşinqtonla yaxınlaşmasını bu əlaqələrin İran xalqının milli maraqlarına cavab verməsi kimi qiymətləndirərək, İranın milli sərvətlərinin, ələlxüsus neftin transmilli şirkətlər tərəfindən talan edilməsi ilə nəticələnəcəyini qeyd edirdilər. Onlar Milsponun missiyasına da obyektiv yanaşaraq, bu missiyanı ekspansiya kimi qiymətləndirmişlər. Bu baxımdan Sovet İttifaqının tanımış İranşünas alimlərinin fikir və mülahizələri diqqəti cəlb edir. Professor M.S.İvanov "İran tarixi oçerki" əsərində **(133)** qeyd edir ki, Milspo ABŞ-ın iri neft şirkətlərilə əlaqəli idi və onların İrana soxulmalarına çalışırdı. (305-306). Əsərinin başqa bir hissəsində professor İvanov belə qeyd etmişdir: "Milsponun proqramı - İranın milli və siyasi suverenliyinin ləğv olunması deməkdir " **(s. 404)**. Böyük Sovet Ensiklopediyasında Milsponun İrandakı fəaliyyətlərinə bu mövqedən qiymət verilərək yazılır ki, bu missiyanın əsas məqsədi ABŞ-ın İranda mövqeyini möhkəmlətmək olmuşdur **(XVI cild, 781)**. Bu mənbədə daha sonra qeyd edilir ki,

Milsponun fəaliyyəti təkcə İranla məhdudlaşmır. O, başqa ölkələrdə də müşavir qismində fəaliyyət göstərərkən ABŞ-ın maraqlarına xidmət etmişdir. Tanınmış iranşünas alim S.Əliyev özünün İran tarixinə həsr etdiyi son fundomental əsərində qeyd edir ki, Milspo 1949-cu ildə İranda iki ABŞ transmilli neft şirkətinin görünməsində əsas rol oynamışdır **(117, s.156)**.

Yaxın və Orta Şərq ölkələrinin tarixinin müxtəlif səhifələrini və ayrı-ayrı aspektlərini araşdıran sovet alimlərindən Z.Z.Abdullayev, S.L.Ağayev, Q.M.Akopov, R.D.Əlibəyli, A.B.Başkirov, Q.L.Bandarevskiy, A.M.Vasilev, A.M.Denin, O.S.Melikov, M.Nişanov, E.A.Orlov, M.B.Popov, E.M.Primakov, B.V.Parkov, O.E.Turanova, P.A.Ulyanovski və digərlərinin zəhmətlərini xüsusi vurğulamaq lazımdır. Bu müəlliflərin əsərləri soyuq müharibə dövrünün məhsulu olsa da, qələmə aldıqları kitablarda İranın yeni müstəmləkəçi dövlətlərlə münasibətləri müəyyən mənada obyektiv işıqlandırılmış və dissertant əsər üzərində işləyərkən o dövrdə cərəyan edən hadisələrin obyektiv araşdırılması üçün müqayisəli metodun tətbiqindən istifadə etmişdir.

İngilis dilli mənbələr sırasında əsasən ilkin mənbə kimi Artur Milsponun "Amerikalılar İranda" adlı əsəri **(156)** və "Tayms" jurnalında çıxmış materialları da **(157)** qeyd etmək lazımdır ki, bunlardan da lazım gəldikdə istifadə olunmuşdur.

Ümumiyyətlə, elmdə və xüsusilə beynəlxalq münasibətlər nəzəriyyəsində qəbul edilmiş elmi metodlar, o cümlədən dialektik, məntiqi, müqayisəli və hüquqi, tarixi və sistemli analiz metodları tədqiqatın metodoloji əsasını təşkil edir. Müxtəlif fakt və materialları toplayaraq müqayisəli təhlil metodunun köməyilə

ümumiləşdirmələr aparılmış, bununla da hadisələrin obyektiv araşdırılmasına nail olmuşdur.

Dissertasiyanın elmi yeniliyi.

1) Hər şeydən öncə, bu mövzu İranın siyasi elmində ilk dəfə olaraq kompleks şəklində elmi-tədqiqat obyekti kimi araşdırılır, ümumiləşdirmələr aparılmaqla hadisələr arasında məntiqi əlaqə müqayisəli təhlil üsulu ilə müəyyən edilir;

2) Tədqiqatın elmi yeniliyi həm də ondan ibarətdir ki, İranda və yaxud hər hansı başqa bir xarici ölkədə indiyə qədər "doktor Milsponun İrana ezamiyyəti" mövzusunda kitab şəklində tədqiqat işi çap olunmamışdır;

3) Çoxlu materialların, eləcə də indiyə kimi məxfi saxlanılan sənədlərin və arxiv materiallarının müqayisəli-tənqidi üsulla araşdırılması ilə elmi dövriyyəyə yeni mənbələr, faktlar və materaillar cəlb edilmişdir;

4) İlk dəfə olaraq İranda amerikapərəst, Vaşinqtondan asılı və onun iqtisadi-siyasi və hərbi strateji maraqlarına xidmət edən bir hökumətin qurulmasında Milsponun fəal və yaxından iştirakı araşdırılır;

5) Tədqiqat işi nəticəsində əldə olunan nəticələrdən biri də Milsponun fəaliyyətinin ABŞ-ın İran üzrə siyasətilə sıx əlaqədə olmasının sübuta yetirilməsidir.

Tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti. Milsponun İrana hər iki ezamiyyətinə dair aparılmış tədqiqatın özü, elmi aspektdən İran tarixi ilə məşğul olan tarixçi şərqşünaslar üçün də mənbə ola bilər. Qeyd etmək lazımdır ki, əldə olunmuş elmi nəticələrin və ümumiləşdirmələrin də müəyyən prtaktiki əhəmiyyə-

ti vardır. Tarixi hadisələrdən istifadə və tarixi təcrübə baxımından xarici müşavirlərin fəaliyyətləri ilə tanışlıq, bir çox ölkələr, xüsusilə üçüncü dünya ölkələri üçün faydalı olacaqdır. Digər tərəfdən XX əsrin əvvəllərindən İranda baş vermiş tarixi hadisələrlə tanışlıq və bu olayların digər ölkələr ilə əlaqələri, xüsusilə də birinci və İkinci Dünya müharibəsi şəraitində və ondan sonrakı dövrdə, tarixçilər, beynəlxalq münasibətlər və siyasi elmlərlə məşğul olan tədqiqatçılar üçün maraqlı olacaqdır.

Dissertasiyanın aprobasiyası. Müəllif, Dissertasiya işi üzrə 1999-cu il yanvarın 21-də və aprelin birində Ukrayna Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda keçirilmiş seminarlarda, Milsponun fəaliyyəti və xarici dövlətlərin İranda öz nüfuz dairələrini genişləndirmələri uğrunda rəqabət haqqında çıxışlar etmişdir. Milsponun İrana birinci və ikinci ezamiyyəti haqqında müəllifin üç məqaləsi Ukraynanın A.Krimski adına MEA-nın Şərqşünaslıq İnstitutunun "Sxidniy svit" jurnalının 1998-ci il tarixli 3-4 № də dərc olunmuşdur. Bundan əlavə Azərbaycan Respublikasında fəaliyyət göstərən Xəzər Universitetinin "Azərbaycan araşdırma jurnalı"-nın **(1027-3875)** 2005-ci il buraxılışında, Azərbaycanın Dillər Universitetinin "Elmi xəbərlər" jurnalının №2 saylı 2006-cı il buraxılışında və Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər fakültəsinin "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnalının №2 saylı 02.2005 tarixli buraxılışında və Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisad elmlər: nəzəriyyə və praktika" adlı elmi və nəzəri jurnalının 21 səhifəsində **(2006)** "Məhəmmədrza Pəhləvinin hakimiyyəti dövründə İranın siyasi

və iqtisadi vəziyyəti" adlı məqalədə, Milsponun İrandakı missiyaları, onun fəaliyyətinin əsas istiqamətləri, habelə İranın o zamanki sosial, iqtisadi və siyasi durumu, eləcə də daxili və xarici siyasəti barədə müəllifin məqalələri dərc olunmuşdur.

**Dissertasiyanın strukturu:** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# XX ƏSRİN BİRİNCİ YARISINDA İRANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

## 1.1. Məşrutə hərəkatının İranın ictimai-siyasi həyatına təsiri

Xarici müşavirlərdən istifadə olunması İranda baş vermiş siyasi və iqtisadi dəyişikliklərdə yeni hadisələrdən biridir. Müxtəlif sahələrdə xarici müşavirlərin iştiraki hələ Qacarlar sülaləsinin hakimiyyəti zamanı İran və Rusiya arasında müharibənin əvvəllərində Avropa siyasətindən o qədər də baş açmayan Fətəli şah, yardım üçün Əmir Kəbirə müraciət etmişdi. Əmirkəbir general Qordonun başçılığı altında hərbi ekspertlər qrupunu İrana göndərmişdi. Onlar İran ordusunun təlimi və yenidən qurulması ilə məşğul olurdular. Amma "Tilzit" sülh müqaviləsinin imzalanması və İngiltərənin ultimatumundan sonra İranda fransız məsləhətçilərinin fəaliyyəti dayandırıldı. Bundan sonra ingilis hərbi ekspertlər işə başladılar.

O, Nəsrəddin şahın öz hakimiyyəti dövründə, Rusiya vasitəsilə Avropaya gedən zaman rus kazakları ona möhtəşəm bir pa-

rad nümayiş etdirdilər. Bunu çox bəyənən Nəsrəddin şah xahiş etdi ki, bu cür qoşun rus müşavirləri tərəfindən İranda da yaradılsın. Yalnız ötəri istəkdən irəli gələn bu hərəkət xüsusi qoşun növünün yaradılmasına gətirib çıxardı ki, bu da İranın sonrakı taleyində əhəmiyyətli rol oynadı. Rusiyada Oktyabr İnqilabından sonra ingilis zabitləri İran kazakları üzərində nəzarəti ələ keçirdilər. Belə bir hal İkinci Dünya müharibəsi başlananadək, yəni amerikalı müşavirlərin gəlişinədək davam etdi.

Qeyd etmək lazımdır ki, XX əsrin birinci yarısı İran və bütövlükdə bütün dünya üçün olduqca mühüm və ibrətamizdir. Biz, İranın daxili aləmində mühüm hadisələrin və proseslərin şahidi olmuşuq. Bundan əlavə, əsrin ikinci yarısında baş vermiş bütün hadisələr əsrin birinci yarısında baş verənlərdən irəli gəlmişdir.

Yüz otuz illik idarəçilikdən sonra Qacarlar sülaləsinin hakimiyyətinin süqutunu və konstitusiyalı monarxiya ilə başa çatmış inqilabı, İran daxilində baş verən ən mühüm hadisələr adlandırmaq olar. Həmçinin Rza xan başda olmaqla şahənşah Pəhləvilər sülaləsinin hakimiyyətə gəlişi və 16 illik hakimiyyətdən sonra taxt-tacın oğlu Məhəmməd Rza şaha keçməsi də bu qəbildəndir.

Beynəlxalq sferada baş verən hadisələr arasında, birinci dünya müharibəsini, Rusiyada 1917-ci il inqilabını və İkinci Dünya müharibəsini sadalamaq zəruridir.

XX əsrin əvvəllərindən etibarən, xüsusilə Konstitusiya İnqilabından (1906-cı il) sonra İran cəmiyyətində tarixi və siyasi nöqteyi-nəzərindən bu dövrədək görünməmiş yeni hadisələr baş verdi. Bu səbəbdən İran hökmdarları bu dövrdə qorxuya, amansızlığa və özbaşınalığa əsaslanaraq hakimiyyətlərini davam etdirə

bilmirdilər. Bu cür şəraitin yaranmasında İranda idarəçilik metodlarına xarici problemlərin təsirini də nəzərdən qaçırmaq olmaz. İranın siyasi taleyinə nüfuz edən bu həlledici xarici və daxili hadisələrin hər birinin ardınca, ölkənin siyasi və tarixi həyatında çoxsaylı dəyişikliklər baş vermişdir. Özünün ilkin səbəblərinə görə bu dəyişikliklərin bir hissəsi XIX əsrin sonlarında iranlıların Qərbdəki cəmiyyətlərinin siyasi təşkilati əsasları ilə tanış olma, İranın siyasi quruluşuna və idarəçilik metodlarına onların düşüncə tərzinin təsiri idi. Bu, dövlətin konstitusiyalı-monarxiya quruculuğuna gətirib çıxarmış inqilabı sona yetdi. Bu, öz növbəsində Məclis, konstitusiya, ictimai rəy, siyasi partiyalar və s. kimi o dövrədək İran cəmiyyətində mövcud olmamış yeni anlayışların və qurumların meydana gəlməsinə səbəb oldu. Digər tərəfdən beynəlxalq aləmdə baş vermiş Birinci Dünya müharibəsi kimi hadisələr, toqquşmalar və köhnə imperiyaların süqutu nəticəsində İranda dinc həyatın əsasları güclü surətdə sarsılmış, bunun ardınca isə siyasi və ictimai tarazlıq da pozulmuşdu.

Neft problemi, sol dünyagörüşü, inqilab, hərbi çevrilişlər, terrorizm, siyasiləşmiş ruhanilər və bu dövrədək İranda mövcud olmamış universitetin yaradılması kimi hadisələri də daxili amillər qrupuna şamil etmək olar.

Siyasi və mədəni hadisələrlə yanaşı Qərb dünyasının texnoloji və texniki inkişafını, XX əsrin əvvəllərindən tədricən İrana nüfuz etməyə başlamış kəşflərini də nəzərə almaq zəruridir. Çünki neft emalı texnologiyası, paravozun, təyyarənin kəşfi kimi elmi nailiyyətlər o dövrədək iranlılara da tanış deyildi və İrandakı tarixi dəyişikliklərdə mühüm rola malik olmuşdu.

Qeyd etmək lazımdır ki, Nəsrəddin şahdan sonra onun yerinə 44 yaşlı oğlu Müzəffərəddin şah taca çıxdı. O, Mirzə Ələsgər xan Əminossoltanı və Mirzə Əlixan Əminoddövləni vəzifələrindən kənarlaşdırdıqdan sonra Sultanməcid Mirzə Eynüddövləni özünə vəzir seçdi. O, Fətəli Şah Qacarın nəvələrindən biri idi. Xəstə və zəif iradəli Müzəffərəddin Şah praktiki olaraq idarəçiliyi diktator Eynüddövləyə vermişdi. Onun və digər saray əyanlarının törətdikləri özbaşınalıqlar, çoxsaylı daxili problemlər və hakimiyyət qulluqçularının yeritdiyi amansız tədbirlər, İranda öz nüfuzlarını artırmağa çalışan ingilislərin bəzi intriqaları, həmçinin böyük vəzir Mirzə Tağı xan Əmir Kəbirin hakimiyyəti dövründə aparılmış islahatlar, İranda və xaricdə İran qəzetlərinin yayılması, diktatura əleyhinə xalqın üsyanına səbəb olurdu. Nəticədə konstitusiyalı monarxiya rejimi meydana gəldi.

Tehran valisi tərəfindən ən nüfuzlu tacirlərdən biri olan Ağa Seyid Haşemin xalqın gözü qarşısında çubuqla döyülməsi, inqilabın ilk qığılcımlarının alovlanmasına səbəb oldu. Tacirlər etiraz əlaməti olaraq öz dükanlarını bağlayaraq Tehrandakı Şah məscidinə toplaşdılar. Din xadimlərindən ikisi - Seyid Məhəmməd Təbatəbayi və Ayətullah Seyid Abdulla Bohbohani, Eynüddövlənin amansızlığına etiraz əlaməti olaraq, xalq ilə həmrəylik nümayiş etdirməklə onlarla birlikdə Şah məscidinə yollandılar. Azadlıqsevər natiqlər xalqı Eynüddövlənin amansız idəriçiliyi əleyhinə  üsyana çağırdılar. Çıxış edənlər arasında Malekolmotəkellemin, Seyid Camal Vayezi İsfahani də var idi.

Bu vaxtadək xalqın tələbi Eynüddövlənin vəzifədən kənarlaşdırılması və bəzi dəyişikliklərin tətbiq edilməsindən ibarət idi.

Bir müddətdən sonra tacirlər və etiraz edən üləmalar müqəddəs "Əbdüləzim" məqbərəsində toplaşaraq Müzəffərəddin şahdan "Ədalətxana" adı altında Məclis yaradılmasını tələb etdilər. Onun üzvləri alimlər, tacirlər, torpaq sahibləri və əhalinin digər təbəqələri arasında seçilməli, Şah isə ona başçılıq etməli idi. Müzəffərəddin şah bu təkliflə razılaşdı, lakin bu vədin yerinə yetirilməsi istiqamətində heç bir tədbir görmədi, Tehranın bəzi üləmaları Qum şəhərinə getdilər və onların tələblərinin yerinə yetirilmədiyi təqdirdə Kərbəlaya üz tutacaqları məsələsilə şahı hədələdilər. Üləmalar Qum şəhərinə gedən zaman tacirlər də öz dükanlarını bağladılar. Eynüddövlə bazarların açılması əmrini verdi və mağaza sahiblərini dükanlarını bağladıqları halda qarət və talana məruz qalacaqları ilə hədələdi. Bu fərman verildikdən sonra tacirlərin bir qrupu İngiltərənin səfiri ilə görüşüb, İngiltərə Səfirliyində oturaq aksiya keçirmək üçün razılıq verməsini ondan xahiş etdilər. Əvvəlcə onların sayı az idi, sonradan isə aksiyaçıların sayı artaraq 12 minə çatdı. Onlar öz çadırlarını qurmuş və ingilis Səfirliyinin bağında yerləşmişdilər. Bu addımlar nəticəsində Şahın əmri ilə Eynüddövlə vəzirlikdən kənarlaşdırıldı və onun yerinə əvvəllər xarici işlər naziri olmuş Mirzə Nəsrullah xan Naini (Moşiroddovlə) təyin olundu.

Eynüddövlənin vəzirlikdən kənarlaşdırılması və Moşiroddövlənin vəzifəyə gətirilməsi, həmçinin İngilis səfirinin vasitəçiliyilə Şahın ingilis Səfirliyini bir növ ələ keçirmiş tətilçilərin şərtləri ilə razılaşdığını göstərirdi.

Bundan sonra Şah Mirzə Nəsrullah xan, Moşiroddövləyə göndərdiyi fərmanda Milli Şura Evinin açılmasına dair sərəncam

verdi. Bu fərman həm də konstitusiya haqqında 5 avqust 1906-cı il fərmanının (h. s. 1324, cəmadiülsani ayının 14-də) verilməsi hesab olunurdu. Bu fərmanın verilməsindən sonra Qacar tayfasının başçısı Azadülmülk, üləmaları Qumdan qaytarmaq üçün oraya yollandı. Onların qayıtmaları üçün tacirləri toplayıb oraya pul göndərdilər. İngilis Səfirliyində tətil edən xalq, cəmadiülsani ayının 19-dan etibarən oranı tərk etməyə başladılar. 1906-cı il avqustun 10-da bütün Tehran bu münasibətlə çilçırağa büründü.

1906-cı il avqustun 19-da (h.ş. 1324-cü il, cəmadülsani ayının 27) bazar günü deputatlarsız Məclis açıldı. Açılışda 500 üləma, şahın yaxın qohumları və Tehranın bir neçə min sakini iştirak etdi. Onlar binadan kənardakı küçələrdə toplaşmışdılar. Müzəffəréddin şah xəstə olduğundan, onun müavini Azadülmülk onun adından Məclisi açdı. Tehranda seçkilər cümə axşamı sentyabrın 13-də (1906), (rəcəb ayının 23-ü) başlayaraq oktyabrın birində (şaban ayının 12-i) başa çatdı. Oktyabrın 7-də (şabanın 18-i) bazar günü Gülüstan sarayında Məclis öz işinə başladı. Özünün son günlərini yaşayan xəstə Şah böyük çətinliklə açılış mərasimində iştirak etdi. O, titrək və zəif bir səslə dedi: "Artıq 10 ildir ki, mən bu günün arzusunda idim və Allahın köməyi ilə bu gerçəkləşdi və biz məqsədimizə çatdıq". Sonra o, həyəcanlanmağa başladı. Onun sönməkdə olan gözləri yaşla doldu. O, titrəyən əllərilə konverti Nizamülmülkə uzadaraq dedi: "Bu mənim nitqimdir, oxu". Mərasim məktubun oxunuşundan sonra başa çatdı **(48, s.127)**.

Məclisin açılışından sonra konstitusiyanın tərtib edilməsi ilə əlaqədar məsləhətləşmələr və mübahisələr başladı. Bu müəyyən

çətinliklər törətdi. Belə ki, üləmalar onu öz xeyirlərinə tərtib etməyə çalışırdılar. Həqiqi azadlıq tərəfdarları isə milli qüdrəti ələ almaq niyyətində idilər. Saray əyanları Şahın simasında bütün qüvvələri cəmləşdirməyə çalışır, Məclisi isə məsləhətçi orqana çevirmək istəyirdilər. Sonda azadlıq tərəfdarları qələbə çaldılar, 51 maddədən ibarət ölkənin "Əsas qanunu" (konstitusiya) tərtib edilərək təsdiqləndi və 1956-cı ilin dekabr ayının 30-da Müzəffərəddin şah və vəliəhd Məhəmmədəli Mirzə tərəfindən imzalandı. Qanunun mətni Məclisə qaytarıldıqdan sonra, deputatlar biri-birini qucaqlayaraq öpdülər, bəzilərinin gözlərində hətta sevinc yaşları da göründü. Tehranda təntənəli şənliklər təşkil olundu. "Əsas qanunun" tərtib olunmasında Belçika və Fransa kimi mütərəqqi Avropa ölkələrinin konstitusiyalarından istifadə olunmuşdur. Bu da ki, konstitusiya uğrunda inqilabın nəticələrində istifadə olunmuş qərb ideologiyasının ilkin təsiri oldu. Digər tərəfdən, nə qədər ki, bu qanunda dövlətə münasibətdə əhalinin vəzifələri haqqında və xalq qarşısında dövlətin öhdəlikləri haqqında danışılmırdı, qanunun işlənilib hazırlanması məqsədilə komissiya yaradıldı. Bu komissiya 170 maddədən ibarət konstitusiyaya əlavə hazırladı. Bundan əlavə Şeyx Fəzlullah Nurinin təklifi ilə qəbul olunan qanunların islam prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi prosesinə 5 nəfər ən maarifpərvər din xadimi cəlb edilsin.

Müzəffərəddin Şah konstitusiyaya dair qanun imzalandıqdan 5 gün sonra vəfat etdi və onun oğlu Məhəmmədəli Mirzə taxt-taca sahib oldu. O, əvvəlcə konstitusiya ilə razılaşdı. Lakin taxt-taca yetişəndən sonra onu ləğv etməkdən ötrü ədavət yaratmağa başladı və bu işdə Rusiyanın ciddi yardımından istifadə

etdi. Konstitusiya quruluşu əleyhinə Rusiyanın etirazının səbəbləri aşağıdakı məqamlardan ibarət idi:

a) Məmmədəli şahın Rusiyadan tam asılılığı, konstitusiya quruluşu və Rus hökumətinin Məclis tərəfdarlarına etimadsızlığı.

b) Konstitusiya hərəkatı rəhbərlərindən bəzilərinin İngiltərənin agentlərinə çevrilməsi məsələsində Rusiyanın əminliyi.

Məmmədəli şah tərəfindən "Məşrutə" tərəfdarlarının ciddi qəbul edilməməsi ilk dəfə özünü tac qoyma mərasimində büruzə verdi. Belə ki, qeyd olunan mərasimə məşrutə tərəfdarlarından heç biri dəvət olunmamışdı. Bundan başqa "əsas qanuna" əlavələr işlənilib hazırlanan və şaha təqdim edilən zaman, şah onu imzalamaqdan imtina etdi. Bu addım xalqın və üləmaların geniş narazılıqlarına səbəb oldu. Hətta bununla əlaqədar Nəcəf üləmaları tərəfindən məktub da göndərildi ki, bu reaksiya sonda şahı bu əlavələri imzalamağa vadar etdi.

Milli Məclisin ilk çağırışı konstitusiya dövrü ərzində çağırılmış bütün məclislərdən ən sədaqətlisi olmaqla yanaşı inqilabi xarakter daşıyırdı. Məhəmmədəli şahın müxtəlif fitnə-fəsadlarla əyalətlərdə deputatların seçilməsini gecikdirməyə çalışması və bununla da Məclisin açılış prosesini ləngitməsi, məşrutəçilərə yaxşı məlum idi. Konstitusiyanın VI fəslində aşağıdakı məqamlar qeyd olunmuşdu: "Tehrandan olan deputatlar seçkilərdən və Tehrana gəlişdən dərhal sonra Məclisin iclasını açmaq hüququna malik idilər və əyalətlərdə seçilən deputatların iştirakı olmadan da onların səsləri həqiqi, qəbul etdikləri qərarlar isə qanuni olacaqdır". "Əsas qanu-nun" 4-cü bəndinə əsasən, Milli Məclisin ilk çağırışı 162 deputata şamil olmalı idi. (60 deputat Tehrandan, qalanları əyalətlərdən).

Birinci Məclis özünün ikinci iclasında Murtuza Quluxan Hidayəti (Saniəd-dövlə) sədr seçdi. Vosuqəddövlə birinci müavin və Hacı Əminolzərbə ikinci müavin oldu. Məclisin birinci çağırışı qanunverici orqan olmaqla bərabər, həm də Milli və Təsisçilər Şurası idi. Bu Məclisin fəaliyyəti bütün məclislərdən daha məhsuldar oldu. Məclisin birinci çağırışı 7 ay fəaliyyəti ərzində bütün digər məclislərin birlikdə gördükləri işlərdən daha çox tədbirlər görmüş və həyata keçirdiyi ən mühüm tədbirlər aşağıdakılardan ibarət idi:

- nəsli-köçəri tayfa münasibətlərinin ləğvi, özlərini nəzarətsiz yerli və kiçik hökmdar hesab edən amansız və qüdrətli feodalların, köçəri tayfa başçılarının, nüfuzlu ruhanilərin hegemonluğuna son qoyuldu, əyalət şəhərləri və vilayət valilərinin nüfuzlarına zərbə vuruldu. Maliyyə və iqtisadiyyat sahələrinin idarəçilik qaydalarında əhəmiyyətli dəyişikliklər edildi. Dövlət büdcəsindən əmək haqqı alan və Avropa ölkələri nümunəsində Nazirlər Şurası, valiliklər və komandanlıqlar yaradıldı. Lakin valilər və komandanlar dövlətdən əmək haqqı almadılar. Çünki idarə etdikləri ərazilər onlara icarəyə verilirdi ki, onlarda öz növbələrində özləri üçün məqğul olan istənilən yollarla əhalidən vergi toplamaqla məşqul idilər. Lazımsız nazirliklər ixtisara salındı. Milli Bank Təsis edildi. Büdcədə islahatlar aparıldı və sabitləşdirildi. Qeyd etmək lazımdır ki, büdcə Müzəffərəddin şahın dövründə demək olar ki, dağıdılmışdı. Şah qulluqçularının, onların qohumları və saray əyanlarının saxlanılması nəzərə çarpacaq dərəcədə ixtisara salındı. Adi işçilər ayda 10 tüməndən 100 tümənə qədər maaş aldıqları halda, saray qulluqçuları və əyanları 2-3 min tümən məvacib alırdılar. Birinci Məclisin fəaliyyəti o dərə-

cədə qətiyyətli və inqilab xarakterli idi ki, Məclis deputatlarından biri Bohbohaniyə demişdir ki, birinci Məclisin 7 aylıq fəaliyyəti ərzində nail olduğu nəticələrə, Nəsrəddin şah özünün bütün qüdrəti ilə 50 illik idarəçiliyi ərzində nail ola bilməmişdir.

Məclis tərəfindən qətiyyətli addımların atılmasının səbəbi Saray ilə Məhəmmədəli şah arasındakı fikir ayrılığı idi. Məclisin Azərbaycandan olan deputatları olduqca nüfuzlu və mütərəqqi şəxslər idilər və Məclisin mövqeyini möhkəmləndirdilər. Lakin Məhəmmədəli şahın sui-qəsdi və Rusiyanın himayədarlığı Məclisin topla bombardman edilməsi ilə nəticələndi. Diktaturanın bir ilindən sonra Tehranın inqilabçılar tərəfindən ələ keçirilməsi və Məhəmmədəli şahın devrilməsi ilə hadisələr başa çatdı. Bundan sonra Məclis yenidən öz işinə başladı.

Bir müddətdən sonra Məhəmmədəli şah konstitusiyaya narazılığını bildirmək üçün Mirzə Ələsgər xan Atabəyi özünün Baş vəziri təyin etdi. O, Əminolsəltənə kimi tanınırdı və Qacar diktaturasının müdafiəçisi idi. Bundan sonra Abbas Ağa Sərraf Təbrizi adlı konstitusiya tərəfdarlarından biri Əminossəltənəni qətlə yetirdi. Bir müddətdən sonra isə Məhəmmədəli şah ova çıxan zaman ona əl qumbarası atıldı və nəticədə onun mühafizəçilərindən bir neçəsi öldürüldü. Lakin şahın özü salamat qaldı. Mehi Məlikzadə özünün "İranın konstitusiyalaşma tarixi" əsərinin dördüncü cildində **(31)** Məhəmməd Əli şah əleyhinə terrorçuluq aktı haqqında qərarın qəbul edilməsini 17 inqilabçı komitəsinin üzərinə qoyur. Əl qumbarasının partlaması və şahın bir neçə yaxın adamının öldürülməsi konstitusiya quruluşu tərəfdarlarının yatırılması üçün bəhanə oldu.

Bu məsələ ilə əlaqədar Məclisin təəssüflənməsinə baxmayaraq, 1908-ci ildə (h. ş. 1286-cı ildə) Məhəmmədəli şahın əmrilə bir sıra mücahidlər həbs olunaraq "Bağe şahi" həbsxanasında qətlə yetirildilər. Onlardan ən tanınmışları Malekül-mo-təkəllemin və Mirzə Cahangirxan Samur Esrafil idi. Ayətullahlardan Təbatəbayi və Bohbohani sürgün edildilər. Rusların yardımı ilə Məclisin güllləbaran edilməsindən və bağlanılmasından keçən bir il müddət "kiçik diktatura" adı ilə tanınır. 1908-ci il iyunun 23-də Birinci Milli Məclisin güllləbaran edilməsi İranın müasir tarixində ilk hərbi çevriliş hesab olunur. Bu çevrilişin uğur qazanmasında rus zabitlərinin həlledici rolu və Nəsrəddin şahın İran-kazak briqadası yaratmaqda yol verdiyi böyük səhv başlıca rol oynadı.

Çevrilişdən sonra Məhəmmədəli şahın sevincini rus jurnalistlərindən biri Bakarov öz məqalələrindən birində belə xarakterizə edirdi: "Mən həmin günlərdə İran haqqında unutmuşdum, özümü Rusiyada təsəvvür edirdim, çünki havam və vaxtım Rusiyanın böyüklüyü və iftixarı ilə keçirdi..." Şah Lyaxova demişdi: "Siz mənim taxt-tacımı qoruyub saxladınız və mən nə qədər ki sağam, sizə və sizin böyük imperatorunuza minnətdar olacağam" **(31, c. 4, s.172-174)**.

Məhəmmədəli şah hərbi əməliyyatlar başa çatdıqdan sonra rus imperatoru II Nikolaya teleqram göndərdi və onun taxt-tacını qoruyub saxlayan rus zabitlərinə təşəkkür etdi. O, rəsmən bəyan etdi ki, özünü rus imperatorunun himayəsi altında hiss edir.

Digər bir rus müxbiri Mamontov da bu çevrilişin şahidi olmuşdu. O, öz xatirələrində yazırdı: "Həyatım boyu Məclis qarşısındakı mənzərə kimi dəhşətli səhnə görməmişdim və bunu heç

vaxt unuda bilmərəm. İnsan və at cəsədləri, pulemyot güllələrinin dolu kimi yağması, dözülməz isti və toz, ağır və sıx havanı heç kim yaddan çıxara bilmirdi" **(153)**.

Məclisin güllələbaran edilməsi haqqında xəbərlər İranın digər şəhərlərinə yetişəndən sonra əhali üsyan qaldırdı və diktatura ilə mübarizəyə başladı. Səttar xan və Bağır xanın rəhbərliyi altında Təbrizin qəhrəman əhalisi silaha sarılaraq diktatura ilə mübarizəyə başladı. Şah bu üsyanı yatırmaq üçün Eynüddövlənin başçılığı altında qoşun hissələrini oraya göndərdi. Bu barədə Əhməd Kəsrəvi ətraflı məlumat verir. Sonra isə İranın şimalında yerləşən Mazandaran əyalətində iki feodallarından biri olan Məhəmməd Vəlixan Tonkabaninin başçılığı altında xüsusi dəstə şahın əmri ilə qoşuna köməyə göndərdi. Təbriz şəhərinin mühasirəsi on ay davam etdi. Şəhərə ərzaq buraxılmamasına baxmayaraq, əhali təslim olmadı. Nəhayət, Eynoddövlə mühasirəni açmalı oldu. Təbrizdəki üsyan ilə eyni zamanda, Gilanda və bəxtiyari tayfaları arasında da üsyanlar başlandı.

Mazandaran və Gilan əhalisinin bir hissəsi Məhəmməd Vəlixan Tonkaboninin rəhbərliyi altında, həmçinin Əliquluxan Sərdar Əsədin rəhbərliyi altında bəxtiyarilərin bir hissəsi Tehran üzərinə yollandılar. Onlar hökumət qoşunlarını məğlub edərək Tehranı ələ keçirdilər. Tehranın süqutu ilə kiçik diktatura dövrü başa çatdı.

Rus qoşunlarının Təbrizi işğal etmələrinə, onların Gilana daxil olmalarına və Ənzəli limanına üç min desant çıxarmalarına baxmayaraq, onlar Məhəmmədəli şahı taxtda saxlaya bilmədilər. Çünki artıq gec idi. Azadlıqsevər xalq qarşısında gücsüzlüyünü hiss edən Məhəmmədəli şah 1909-cu ildə (h. 1327-ci il cəmadiol-

sani ayında) Rusiya Səfirliyində gizləndi. Bunu bilən kazakların komandanı Lyaxov üsyançı qoşunun komandanı Tonkaboninin və Sərdar Əsədin yanına gedərək onlara təslim oldu. Tehran tutulan günün ikinci yarısında, beş yüz deputatın iştirakı ilə Bəharestan sarayında "Fövqəladə Ali Məclis" adı ilə iclas keçirildi. Bu məclis Məhəmmədəli şahı taxtdan saldı və onun 12 yaşlı oğlunu İran şahı təyin etdi. Qacarlar tayfasının başçısı yaşlı Azadülmülk qəyyum oldu. Bir il və 20 gün davam edən kiçik diktatura dövrü beləcə sona yetdi. Məhəmmədəli şah töhmətlə İrandan qovulduqdan sonra Rusiyaya gedərək Odessada məskunlaşdı.

Yeni Məclis çağırılanadək və seçilənədək idarəçilik işlərini İnqilab Komitəsi öz üzərinə götürdü. Azadülmülk, Əhməd şahın həddi-büluğa çatması ilə əlaqədar dövlətin idarəçiliyi funksiyasını öz üzərinə götürdü və Nazirlər kabinetini təşkil etdi. Sərdar Əsəd daxili işlər naziri, Sepahdar Tonkaboni müdafiə naziri, Yefrəm xan isə polis komandanı vəzifəsinə təyin olundu.

Rus və ingilis səfirliklərinin nümayəndələri ilə üsyançılar arasında uzun sürən danışıqlardan sonra hicri şəmsi təqvimilə rəcəb ayının 16-da 6 bənddən ibarət saziş imzalandı. Bu sazişə uyğun olaraq Məhəmmədəli Mirzə özündə saxladığı bütün çarizmdən qalan qiymətli daş-qaşları İran hökumətinə qaytararaq 15 gün ərzində İran ərazisini tərk etdi. Hökümət hər il ona yüz min tümən təqaüd ödəməyi öhdəsinə götürdü. Onun İrana ikinci müdaxiləsindən və Varamin altında məğlubiyyətindən sonra bu təqaüdün ödənilməsi də dayandırıldı.

Bu mövzu araşdırılarkən şeyx Fəzlullah Nurinin fəaliyyətinə diqqət yetirmək lazımdır. O, əvvəlcə konstitusiyanın radikal tə-

rəfdarlarından biri idi, bir müddətdən sonra isə onun əleyhdarına çevrildi. Onun fikrincə, qərbpərəst ziyalılar İran Milli Məclisini ələ keçirmişdilər və onu qərb parlamentləri idarə olunan qaydada idarə etmək niyyətində idilər. O, konstitusiyanın şəriətə uyğun olmasını və onda islam qanunlarına əməl olunması tələbini irəli sürürdü.

Tehranın ələ keçirilməsilə kiçik diktatura dövrünə son qoyuldu. Məşrutəçilər diktatura tərəfdarlarının çoxunu azad etdilər və hətta onları hakimiyyətdə saxladılar. Şeyx Fəzlullah Nuri barədə ölüm hökmü çıxarıldı və o Topxana meydanında asıldı.

Şeyx Fəzlullah Nurinin edamı bunu göstərdi ki, qərbpərəst əhval-ruhiyyəli ünsürlər məşrutə inqilabını ələ keçirmişdilər. Şübhəsiz ki, onlar öz təşviqat və ədavətləri ilə şeyx Fəzlullah Nurini diktaturanın tərəfdarı və azadlığın əleyhidarı kimi təqdim edə bilmişdilər. Ancaq zaman keçdikdən sonra İran xalqı Milli Məclisdə qanunvericiliyin heç vaxt İslam qanunları əsasında həyata keçirilmədiyini başa düşdükdən sonra şeyx Fəzlullah Nurinin haqlı olduğunu bildilər. Milli Məclisin bir çox deputatları Məşrutə inqilabından əvvəlki feodallar, tayfa başçıları və diktatorlar idilər. Onlar xarici qüdrətlərə, xüsusilə İngiltərəyə arxalanırdılar. Onlar təfəkkür nöqteyi-nəzərindən qərbin ardıcılları idilər. (Əlbəttə, nəzərə almalıyıq ki, bəzi dövlət xadimləri Rusiya, digərləri isə Amerikaya meyil edirdilər. Üçüncülərin isə İranın xilas yolunu qərbin qüdrət və imkanlarından istifadədə görürdülər. **(Aydındır ki, bu yol özü ilə asılılıq və qərbin nüfuzunu gətirmədiyi halda faydalı ola bilərdi)**.

Qeyd etmək lazımdır ki, Məşrutə İnqilabına gətirib çıxaran bir sıra mühüm amillər var idi:

1. Mütərəqqi düşüncəli vəzir Mirzə Tağı xan Əmir Kəbir tərəfindən 1852-ci ildə (hicri təqvimi ilə 1268-də) Tehranda texniki məktəb olan Darülfumin açılışı;

2. Mirzə Mülküm xan İstifani tərəfindən Londonda "Qanun" qəzetinin nəşri və onun mövcud qadağalara baxmayaraq İrana gətirilməsi;

Bu qəzet dövlətdə qanunların mövcudluğunun zəruriliyi, habelə demokratiya, vətəndaş hüquqları və digər mövzular barədə materiallar dərc edirdi.

3. Qahirədə "Sürəyya", "Hekmət" və "Pərvəreş", İstanbulda "Axtar", Kəlküttədə "Cabalolmatin" və Qafqazda "İrşad" adlı qəzetlərin nəşri;

Adları sadalanan qəzetlər fars dilində çap olunurdu.

4. Diktatura əleyhinə çıxışlar və İrana iki səfəri zaman Seyid Cəmaləddinin apardığı təşviqat kompaniyası və Mirzə Şirazini tütündən istifadə edilməsinə dair fitva verməyə vadar edən çıxışları və bu baxımdan əsarətli müqavilənin ləğv olunması. Qeyd etmək lazımdır ki, bu xalqın həyəcanlanmasında mühüm rol oynadı;

5. Nəsrəddin şahın 1896-cı ildə Mirzə Rza Kermani tərəfindən qətlə yetirilməsi. O, Seyid Cəmaləddin Əsədabadinin şagirdlərindən və ardıcıllarından idi. Bu hadisə ictimai rəyə də güclü təsir göstərmişdir. Onun xəstə varisinin taxta çıxması da iki səbəbdən konstitusiya hərəkatının inkişafına kömək etmişdir.

5.1. Öz atasının, Nəsrəddin şahın amansız və diktator xarakterinə malik olması, formalaşmaqda olan demokratik və konstitusiya hərəkatı ilə mübarizə aparmaq üçün ona imkan vermirdi.

5.2. Ölkənin milli sərvətlərinin yadlara satılmasında yeni şahın heyrətamiz israfçılığı və onların ölkədə iqtisadi ağalığının möhkəmləndirilməsinə kömək edilməsi, eləcə də Rusiya və İngiltərədən alınmış ağır və çoxsaylı istiqrazlar.

6. Əsasən Nəsrəddin şahın hakimiyyətinin son illərində iranlıların qonşu ölkələrə - Rusiya, Türkiyə və Hindistana səfərləri.

7. Rusiya ilə Yaponiya arasındakı müharibə və o zaman Rusiyanın məğlubiyyəti barədə, eləcə də Afrikanın cənubunda məskunlaşmış ingilis və hollandlar arasında ingilisbur müharibələri haqqında məlumatların alınması. Rusiyanın məğlubiyyəti iranlıların Rusiya monarxiyası ilə və öz qüvvələrini zəiflədən diktatura rejimi ilə mübarizə qətiyyətini xeyli möhkəmləndirdi .

8. Mirzə Əbdülrəhim Tocarzadə Təbrizi tərəfindən yazılmış "İbrahim Beykin səyahəti" kimi kitabların çapı və Seyid Cəmaləddin Əsadabadi, Mirzə Mülküm xan və digərlərinin məqalələrinin nəşri.

9. Əmir Kəbir Mirzə Tağı xan, sepahsalar Mirzə Hüseyn xan, Mirzə Yusif xan Moşirəddövlə və Hacımirzə Əlixan Əminoddövlə kimi mütərəqqi düşüncələri təhsilli adamların meydana gəlməsi.

10. "Texniki məktəb", Tehranda "Rəşidiyyə" məktəbi, Təbrizdə "Loğmaniyyə", "Müzəffəriyyə" və "Kamaliyyə" kimi avropa tipli orta məktəblərin açılması. Təhsil almaq üçün iranlıların Avropaya səfər etməsi.

11. Seyid Camal İsfahani və Hacı Seyid Nəsrullah Beheşti (Malekul motekellemin) kimi mütərəqqi ruhiyyəli ruhanilərin ictimai rəyin oyanması və qızışdırılmasına yönəldilmiş çıxışları

böyuk təsir göstərirdi. Onlar məşrutə hərəkatının əvvəllərindən görkəmli natiqlər və təşviqatçılar sırasında idilər.

12. İki qüdrətli qonşu Rusiya və İngiltərənin İranın daxili işlərinə müdaxiləsinin dözülməzliyi.

Bütün bu ünsürlər xalqın oyanışında əhəmiyyətli rola malik oldu və hakim olan mütləqiyyət rejiminə müqavimət üçün şərait yaratdı. Bütün bunlardan sonra Müzəffərəddin şah 1906-cı ilin oktyabr ayının 7-də konstitusiyaya dair fərmanı imzalamaq məcburiyyətində qaldı.

Belə bir şəraitdə, 1909-cu ildə (1327-ci ilin zilhiccə ayında) Məclisin ikinci çağırışı açıq elan edildi və Baş komandan Tonkaboni Məclisin qərarı ilə Baş nazir vəzifəsinə təyin olundu. İnqilabi direktoriya buraxıldı və Azadülmülkün qəyyumluğunu təsdiq etdi. Hökumətin başlıca vəzifəsinin həlli üçün əsas tədbirlər üzrə deputatlar arasındakı ziddiyyətlər üzündən Məclisdə fikir ayrılığı yarandı və deputatlar bir neçə partiyaya parçalandı. Onların arasında iki radikal partiya olan Xalq Demokratlar Partiyası və Mötədil İnqilabçılar Partiyası öz aralarında mübarizəyə başladılar. Digər tərəfdən Tonkaboni və Sərdar Əsəd arasında olan münasibətlər pozuldu. Sərdar Əsəd demokratların dəstəyi sayəsində Baş nazir seçildi. 1910-cu ildə (h.1328) Azadülmülk vəfat etdi və onun yerinə qəyyum vəzifəsinə Naserolmülk təyin olundu, Mostofulməmalik isə Baş nazir oldu. Bu dövrdə İranın maliyyə vəziyyəti olduqca ağır idi. Məclis 1910-cu ilin (h. 1228) sonunda maliyyə məsələlərində ABŞ-dan yardım xahiş etmək və İrana iqtisadi ekspert yollamaq haqqında qərar qəbul etdi. Rusiyanın etirazlarına baxmayaraq, Morqon Şuster üç il müddətinə İranın

Baş xəzinədarı vəzifəsinə təyin olundu. O, özünə köməkçi qismində daha 4 amerikalıya da səlahiyyət verdi. Bundan əlavə, jandarmeriyada nizam-intizam yaratmaq üçün İsveçdən polkovnik Yarl Karlson, bir ildən sonra isə polisə rəhbərlik üçün mütəxəssislər qrupu dəvət olundu. Məclis maliyyə məsələlərində Şusterə tam hüquqlar verdi. Rusiya və İranın gömrük xidmətlərinin başçıları və Belçikalı Vaus bu qərara qarşı etirazlarını bildirdilər.

Şuster vergilərin yığılmasını nizamlamaq məqsədilə xüsusi vergi jandarmeriyası yaratdı. 1910-cu ilin noyabrında (h. 1329 zilhiccə ayında) Rus hökuməti Şuster və onun köməkçilərinin vəzifədən kənarlaşdırılmasına dair qərar qəbul etdi. Şuster, Rusiyanın əlaltıları olan Belçikalılar tərəfindən idarə olunan Gömrük İdarəsini özünə tabe etməyə cəhd göstərdi. Məclis, konstitusiya quruluşu əleyhinə üsyan qaldırmış Məhəmmədəli şahın qardaşı Mənsur Mirzə Şuaüssəltənənin əmlakını müsadirə etmək qərarına gəldi və Şuster müsadirə üçün öz jandarmalarını göndərdi. Rus kazakları Şuaüssəltənənin Rusiya İstiqraz Bankına borclu olması bəhanəsi ilə jandarmların gəlişinədək onun mülklərini tutdular. Şuster onları mühasirəyə almağı əmr etdi. Rusiya belə bir vəziyyətdən istifadə edərək İrana ultimatum elan etdi və ilk öncə İrandan hərəkətlərinə görə üzr istəməsini tələb etdi, daha sonra isə Şusterin və onun amerikalı ekspertlərin fəaliyyətinə son qoyması kimi tələblərilə yanaşı, hərbi qüvvələrinə Tehran üzərinə hərəkət etmək əmrini verdi. İran hökuməti hərbi qüvvəyə tabe olmaq məcburiyyətində qaldı və Amerikalı müşavirlərin xidmətinə xitam verdi. Rusiya hökuməti bu qələbə ilə kifayətlənmədi və tezliklə İran hökumətinin Məclisi buraxmağa,

bir çox qəzetlərin fəaliyyətini dayandırmağa və belçikalı Nausu gömrük xidmətinin komandanı təyin etməyə məcbur etdi.

1907-ci ildə Rusiya ilə müqavilə bağlamış İngiltərə hökuməti, olduqca yaxın əməkdaşlıq edərək İran xalqının çıxışlarının yatırılması ilə razılaşmışdı. Bu fəaliyyətlər əleyhinə ruhanilər hay-küy qaldırmışdılar. Günlərin birində çadra altında silah gizlətmiş qadınlar Məclisə gələrək örtüklərini atmış və deputata bildirmişlər ki, əgər onlar Rusların ultimatumuna tabe olsalar onlar öz uşaqlarını və ərlərini öldürüb öz həyatlarına son qoyacaqlar. Bununla da Məclis Rusların diqtəsinə tabe olmadı. Lakin hökumət hicri şəmsi təqvimi ilə 1330-cu il məhərrəm ayının 7-də Məclisi buraxdı. Şuster isə İranı tərk etdi. Bu zaman Təbrizi işğal etmiş Rus qoşunları orada vəhşiliklər törətdilər. Məhərrəm ayının 10-da Aşura günü onlar inqilabçıların çoxunu o cümlədən tanınmış alim və ilahiyyatçı Saqatolislam Təbrizini asdılar və amansız, irticaçı Hacı Şocaoddovlə Səmədxan Marağini, Azərbaycana vali təyin etdilər. Ruslar Rəşt və Ənzəli şəhərlərində də insanlara işgəncələr verir, onları qətlə yetirirdilər. Məşhəd şəhərində Yusif Xarati adlı Rusiya agentlərindən biri süni üsyan qaldırdı. Rus silahlı qüvvələri bundan istifadə edərək rus vətəndaşlarının həyatına yaranmış qorxu təhlükəsi bəhanəsi altında Məşhədi işğal etdilər. İmam Rza Məscidi top atəşinə tutuldu. Məscidin bütün xəzinəsi ələ keçirilərək Rus bankına verildi. Daha qiymətli əşyalar seçildikdən sonra əhəmiyyətsiz və dəyəri az olan mallar geri qaytarıldı. Xəzinənin mühafizəçisi ölüm hədəsi qarşısında xəzinənin tam olaraq qaytarıldığını təsdiq etməyə vadar edildi. Bu zaman Osmanlı hökuməti İranın üzləşdiyi çətinliklərdən istifadə edərək

sərhəd boyu ərazinin bir hissəsini ələ keçirdi. 1907 və 1909-cu illərdə (h. ş. 1325-1327) onlar Soucbulaq (indiki Məhabad) adlanan yeri tutdular. Lakin Rusiya və İngiltərənin təzyiqləri altında geri çəkilməyə məcbur oldular. Təkrar işğaldan sonra Rusiya və İngiltərə nümayəndələrinin iştirakı ilə Sərhəd Komissiyası yaradıldı. 1913-cü ildə (h. 1331) İran ilə Osmanlı Türkiyəsi arasında sərhədlərin demarkasiyası prosesi başladı və nəticədə iki mühüm məntəqə Osmanlı Türkiyəsinə verildi. Bunlardan biri İranın şimalında, digəri isə Xanəgeynin cənubunda yerləşirdi.

## 1.2. İran və birinci dünya müharibəsi

1914-cü il iyulun 20-də (h. ş. 28 şaban 1332) Naserolmülkün regentlik müddəti başa çatdı. Belə ki, Əhməd şah həddi-büluğa çatdı və tac qoydu. Bu hadisədən bir neçə həftə keçməmiş birinci dünya müharibəsi başladı. Belə ki, bir tərəfdən İranın iki qonşusu cənub və şimaldan İngiltərə və Rusiya, eləcə də onun qərb qonşusu Osmanlı Türkiyəsi (Avstriya və Almaiyanın müttəfiqi) öz aralarında düşmənçilik edirdilər. Onun sərhədlərində qarşı-qarşıya duran qüvvələrin arasında hərbi əməliyyatlar alovlanırdı. İranın Baş naziri Mustafiülməmalikin 1914-cü ildə (h. ş. 1333) bitərəflik elan etməsinə baxmayaraq, mərkəzi hökumətin zəifliyi ucbatından təcavüzkarlar İrana hücum edirlər. Bundan başqa, Almaniya və Osmanlı Türkiyəsi, Rusiya və İngiltərə siyasəti nəticəsində İrana vurulan ziyandan istifadə edərək sadə xalqı islam ci-

hadına və Türkiyəyə yardıma çağırır. Bu çağırış məclisin bəzi deputatları tərəfindən dəstəklənir. İslam ittifaqı tərəfdarları Müstafiülməmalikin bitərəflikdən imtina etmək fikrində olmadığına əmin olan zaman, Tehrandan Qum şəhərinə üz tutur və Milli Müdafiə Komitəsi yaradaraq xalqı Rus və İngilislər əleyhinə cihada çağırırlar. Nəhayət, onlar Kermanşaha köçür və orada qazı Nizamüssəltənənin rəhbərliyi altında hökumət yaradırlar. Bununla da 1916-cı ildə (h. ş. 1335) İranda iki hökumət meydana gəlir. Biri Tehranda bitərəfliyə əməl edən hökumət, digəri isə Kermanşahda mühacirlikdə olan hökumət. Rus və Türk əsgərləri İranın şimal və qərbini işğal etdilər. Tehranda almanlar gənc Əhməd şaha təzyiq göstərirdilər. Vasmus adlı olduqca ağıllı və fəndgir bir alman, İranın qərbində və cənubunda yaşayan tayfaları İranda olan ingilislər əleyhinə qızışdırmaqla məşğul idi. İraqda ingilis qoşunlarının irəliləməsi mühacir hökuməti Kermanşahı tərk etməyə, İstanbul və Berlinə getməyə vadar etdi. Birinci Dünya müharibəsi alovlandıqdan sonra, İngilis və Rusiya hökumətləri 1907-ci il müqaviləsinə yenidən baxdılar və 1915-ci ildə yeni bir müqavilə bağlandı. Bu müqavilədə bitərəf zona ləğv olundu, İran isə iki hissəyə bölündü. Şimal hissə Rusiyanın, cənub isə İngiltərənin nüfuzu altında qaldı. Onlar həmçinin razılığa gəldilər ki, Rusiya öz zonasında 15 min kazak yerləşdirə bilər. İngiltərə isə "Cənub polisi" adlanan həmin sayda qüvvəni cənubda yerləşdirməli idi. Bundan başqa hər iki ölkə nümayəndələrindən ibarət komissiya İranın iqtisadiyyat nazirliyinə nəzarət edəcəkdilər.

Rusiyada 1917-ci ilin oktyabr inqilabından sonra Sovet Rusiyasının İranın daxili işlərinə qarışması dayandı və ölkə bir qə-

dər dinc nəfəs aldı. O, dövrdə Samsamolsəltənə Bəxtiyari İranın Baş naziri idi. 1918-ci il yanvar ayının 15-də (h. 1336, rəbiolsani ayının 1-də) Rusiya hökuməti 1915-ci il müqaviləsini ləğv etdi. Onun bir tərəfli ləğv olunması praktiki olaraq, müqavilənin mövcudluğuna son qoydu.

Qeyd edək ki, müqaviləyə uyğun olaraq İranda 15 min əsgər saxlamalı olan ingilislər praktiki olaraq ölkənin cənubunda və Farsda polisin sayını 8 minə çatdırmışdılar. Bu qüvvələr iki briqadaya bölünmüşdü. Onlardan biri Bəndər-Abbas limanının ətrafında, Kermanda və Fars əyalətinin cənubunda yerləşmişdi. Təqribən 6 min iranlı polis qüvvələrində xidmət ediridi. Bu qüvvələr ingilis pulları hesabına saxlanılır və ingilis zabitlərinin rəhbərliyi altında təlim keçirdilər. Onların vəzifəsi Fars, Kerman, İsfahan və Yəzd əyalətlərində İranın cənubunda olan kommunikasiyaları mühafizə etməkdən ibarət idi. Bütün bu qruplaşmalar İran hökumətinin rəsmi razılığı olmadan və yalnız sepahdar Tonkaboninin kabinetinin 1916-cı il avqust tarixli (h. ş. 1334-cü li şəvval tarixli) qeyri-rəsmi sazişi və onun ardınca gələn Vosuqəddövlə kabinetinin şərti razılığı əsasında yaradılmışdır.

Hindistanda yerləşmiş general ser Persi Sayks və ingilis ordusu zabitlərinin bəziləri bu qüvvələrə komandanlıq edirdilər. Qəzetlər və müxtəlif partiyalar dəfələrlə bu birləşmələr əleyhinə etiraz edərək, onları işğalçı xarici qüvvə hesab edirdilər. Bununla belə, birinci dünya müharibəsi bitdikdən sonra onlar İranda qalmaqda davam edirdilər və orada xidmət keçirdilər. Nəticə etibarı ilə seyid Ziyaəddin Təbatəbayi bu qüvvələrin ləğvi ilə əlaqədar ingilislər ilə danışıqlara başladı və bu birləşmələrə daxil olan in-

gilis zabitlərinin sayının ixtisarına nail oldu. Seyid Ziyaəddin kabinetinin süqutundan sonra bu birləşmələrin əhəmiyyətsizliyini anlayan ingilislər İran hökumətinə onların saxlanılmasını zorla qəbul etdirə biləcəklərinə ümid bəsləməyərək, onları tamamilə buraxdılar. Bütün avadanlıqlar, silahlar və hətta onların istifadə etdiyi canlı qüvvələr belə məhv edildi (1922-ci ildə 1340).

Birinci Dünya müharibəsi bitdikdən sonra, İranın ən mühüm vəzifəsi İran nümayəndə heyətinin Parisdə Versal Konfransında iştirakından ibarət idi. İran bu sülh konfransına iddia verməli idi. Bu iddia kitab şəklində üç hissədə hazırlanmışdı. Siyası, iqtisadi və hüquqi müstəqillik. Orada Çar Rusiyası tərəfindən ələ keçirilmiş, həmçinin müvafiq təslimçilik sazişləri əsasında itirilmiş ərazilərin qaytarılmasını, Rusiya və İngiltərə arasında 1907-ci il müqaviləsinin dərhal ləğv olunması tələb olunurdu. Təəssüflər olsun ki, İngilislərin səyləri ilə İran nümayəndə heyətinə konfransda iştirak etməyə və sülh konfransının iştirakçılarına öz tələblərini təqdim etməyə razılıq verilmədi. Rusiyada 1917-ci il Oktyabr İnqilabından sonra, İngiltərə İranın daxili siyasət aləmində tək qaldı. İranın şimalının boş qaldığını görən və Qafqaz və Qara dəniz vasitəsilə İranın bu hissəsinin almanlar tərəfindən ələ keçməsi ehtimalı səbəbindən Hindistana gedən yolun açılacağından narahat olaraq, onlar bir tərəfdən Bəluçestan vasitəsilə Xorasana qoşun göndərdilər, digər tərəfdən isə İraq ərazisindən Həmədana, Qəzvin və Rəştə daxil oldular. 1918-ci ildə isə öz qüvvələrini Denstervillin komandanlığı altında Ənzəli limanı vasitəsilə Bakıya göndərdilər. Beləliklə Birinci Dünya müharibəsi sona çatan zaman onlar praktiki olaraq bütün İrana nufuz

etdilər. Müharibə müttəfiqlərin qələbəsi ilə başa çatdı və İngiltərənin xarici işlər naziri Lord Kerzon 1919-cu ilin avqustunda vəziyyətdən istifadə edərək İran və İngiltərə arasında danışıqlara başladı. Bu müqavilənin şərtlərinə görə İngiltərə, İran ordusunun maddi təchizatına yardım etməli, İrana iki milyon lirə həcmində istiqraz verməli və dəmiryol tikintisində kömək göstərməli idi. Həmçinin razılıq əldə olundu ki, mütəxəssislərdən ibarət komissiya yaradılacaq və gömrük rüsumlarına yenidən baxılacaqdır. İngilislər ilə birlikdə bu müqaviləni tərtib edən İranın Baş naziri Vosuqəddovlə İran iqtisadiyyatını qaydaya salmaq məqsədilə ingilis mütəxəssislərinin dəvət edilməsilə razılaşdı. İranlıların əksəriyyəti bu müqavilədən həyəcanlandılar. Vətənpərvərlər o zaman bolşeviklərdən heç də az təhlükə görmədilər. Hökumət onu məclisdə təsdiq etdirmədən müqaviləni yerinə yetirməyə başladı. Hökumət, Sidney Armit Smit adlı ingilis müşavirinə İran tərəfindən İngilis-İran Neft Kompaniyası ilə müqavilə bağlamağı təklif etdi. Bu müqavilə 1920-ci il dekabr ayının 27-də imzalandı. Həmin gün daha bir müqavilə imzalandı ki, ona əsasən İngilis-İran Neft Kompaniyası öz borcu hesabına İran hökumətinə bir milyon lirə ödəməli idi. İran xalqı 1919-cu il müqaviləsinin əleyhinə etiraz edirdi və bu müqavilənin İranı böyük Britaniyadan asılı vəziyyətə salacağı ehtimal edilirdi. Buna görə də hər yerdə bu müqavilənin əleyhinə etirazlar başlandı. Şəxsən bu müqaviləyə imza atmış Vosuqəddovlə, etiraz edənləri sürgün etməklə və qəzetlərin fəaliyyətini dayandırmaqla etiraz dalğasının qarşısını almağa başladı. Əhməd Şahı isə Avropaya göndərdi. Yenicə təsis edilmiş və fəaliyyətə başlamış Millətlər Liqası

müqavilənin onun nizamnaməsinə zidd olduğunu müəyyən etdi və bu səbəbdən onu tanımadı. Amerika hökuməti, həmçinin, müqavilənin prezident Vilsonun bəyan etdiyi prinsipləri pozduğunu bildirdi. Onu qanuni hesab etməməklə ingilis hökumətinə bildirdi ki, Amerika bu müqaviləni müdafiə etməyəcək. Bu müqavilənin imzalanmasına görə məsuliyyət daşıyan Vosuqəddovlə hökuməti istefaya getməli oldu. Hakimiyyət idarəçiliyini öz əlinə götürmüş Moşirəddovlə Həsən Pirniya bu müqavilənin fəaliyyətini dayandırdı.

İranın mərkəzi hökumətinin zəifliyi İngiltərənin böyük siyasi nüfuzu həmçinin dağılmış iqtisadiyyatı, İranın müxtəlif rayonlarında yerli tayfa başçılarının baş qaldırmasına və İran daxilində öz dövlətlərini yaratmalarına kömək edirdi. İranın cənubunda Qaşqay tayfasının başçısı Sovlatəddövlə, Kürdüstanda İsmayıl ağa Simtoqu, Gilanda Ehsanullaxan, Mazandaranda Əmir Moayed Mazandarani, Bəluçestanda Dost Məhəmmədxan və digərləri üsyan qaldıraraq öz müstəqilliklərini elan etdilər.

Qeyd etmək lazımdır ki, 1917-ci ildə Rusiyada inqilab başlanan zaman Təbrizi işğal etmiş rus əsgərləri arasında ziddiyyət yarandı. Nəticə etibarı ilə bütün ruslar 1918-ci ildə Azərbaycanı tərk etdilər. Mərkəzi hökumətin nümayəndələri və hətta Məhəmməd Həsən Mirzə (Əhmədşahın varisi) Təbrizdə idi. Ruslar getdikdən sonra hakimiyyət praktiki olaraq İsmayıl Novbarinin başçılıq etdiyi Milli Demokratlar Təşkilatının əlinə keçdi. Bu vaxt Osmanlı Türkləri təcili qaydada rusların tərk etdiyi mövqeləri tutdular. Osmanlıların öncül dəstələri 1918-ci il iyunun 18-də Təbrizi ələ keçirdilər. Osmanlı hərbiçiləri İsmayıl Novbarini sürgün etdilər

və Macolsəltənə Qacarı Azərbaycanın hakimi təyin etdilər. Novbaridən sonra Şeyx Məhəmməd Xiyabani Təbrizdə üsyan qaldırdı. Xiyabani çarizmin devrilməsindən sonra Demokrat Partiyasını yaratmış və dördüncü çağırış Məclisə Azərbaycandan deputat seçilmişdir. O, 1919-cu il İngilis-İran müqaviləsinin əleyhidarı idi. Ondan başqa bu müqavilənin denonsasiya edilməsində din xadimi Seyid Həsən Müdərris və digərləri böyük rol oynamışlar. Demokratların İranın azadlığı və istiqlaliyyəti uğrunda Vosuqəddövlənin əleyhinə yönəldilmiş üsyanı 1920-ci il aprelin 16-da (h. 1299-fərvərdinin 27-də) başladı və 6 aydan çox bir müddətdə davam edərək Xiyabaninin ölümü ilə nəticələndi.

1920-ci ildə (h.ş. 1299-cu ilin əvvəlləri) Pirniya hökuməti istefaya çıxdı və onun yerinə heç bir hökumət gəlmədi. İran, 1921-ci il fevralın 26-da (h.ş. 1339, cəmadiül ayının axırı) bolşevik hökuməti ilə imzalanmış xüsusi müqaviləyə uyğun olaraq, Rusiyanın yeni hökumətini tanıdı.

Qacarlar sülaləsinin sonuncu şahının hakimiyyəti İngilis səfirinin, nüfuzlu və kobud daxili quldurların təsiri altında idi. Dövlət xəzinəsi tamamilə boşalmışdı. Əyalətlərdə və şəhərlərdə mərkəzi hakimiyyətin heç bir izi görünmürdü. Aclıq və çatışmazlıqlar xalqı və ölkənin bir çox rayonlarını bürümüşdü. Bəzi rayonlarda ərzaq çatışmazlığına baxmayaraq, qida məhsullarını aclıq çəkənlərə çatdırmaq qeyri-mümkün idi. Xaricilərin müdaxiləsi və ölkə daxilindəki xaos, ölkə daxili əlaqələri tamamilə dağıtmışdı. Ümidsizlik və çaşqınlıq vətənpərvərlərin ürəyini bürümüşdü. Hamıya elə gəlirdi ki, İran dövlətçiliyinin min illik gəmisi tezliklə batacaqdır. Bu zaman baş komandan Rza xan qacar-

lar sülaləsini devirmək üçün zəmin hazırlayırdı. O, 1921-ci il 21 fevral tarixində (h. ş. 3 esfənd 1299) hərbi çevriliş etdi və İran tarixində yeni səhifənin başlanğıcını qoydu.

Qeyd edək ki, qacarlar sülaləsi İran tarixində bir ləkə olmuşdur. Bu sülalə təhqiramiz və alçaldıcı Gülüstan və Türkmənçay müqavilələrinə imza atmışdı. Öz ölkəsinin vətənpərvəri olan Abbas Mirzəni çıxsaq, yerdə şərəfli bir hökmdar qalmaz. Hətta az-çox müəyyən mütərəqqi işlər görmüş Mirzə Tağı xan Əmir Kəbir, sui-qəsdin qurbanı olmuşdur. İranın maliyyə vəziyyəti xüsusilə Müzəffərəddin şahın hakimiyyətinin sonralarında daha da ağırlaşmışdı. Belə ki, xarici səfərlərə lüzumsuz yerə külli miqdarda xərc çəkilir, nəticədə isə dövlət xəzinəsi borca düşürdü. Dövlət gəlirləri borcları ödəmək üçün mənbə olmalı idi. Hətta gömrük yığımları və dövlət aksizləri Rusiya və İngiltərənin nəzarəti altına düşmüşdü. Vəziyyəti aydınlaşdırmaq üçün aşağıda qeyd olunan borcları sadalamaq olar:

- 1902-ci ildə (h. 1320) 75 il müddətinə 5 faizli bir milyon rubl borca görə İranın şimal sərhədlərində toplanan gömrük gəlirləri girov qoyulmuşdu.
- 1911-ci ildə (h.1329) Rusiyadan 15 il müddətinə 7 faizli 1.111.000 İngilis lirəsi.
- 1911-ci ildə (h. 1329) 5 il müddətinə 5 faizli 1.250.000 İngilis lirəsinə görə cənub limanlarında gömrük yığımlarından daxil olan gəlir İngiltərəyə girov qoyulmuşdu.
- 1912, 1913 və 1914-cü illərdə (h. 1330,1331,1332) dəfələrlə yenə də cənub əyalətlərinin gəlirləri 450.000 İngilis lirəsi müqabilində girov qoyulmuşdur.

İran hökumətləri müxtəlif dövrlərdə Rusiya və İngilis banklarından da borclar istəmişdilər. İstənilən yollarla İranı özündən asılı vəziyyətə salmaq niyyətində olan Rusiya, İrana onun xahişinin yerinə yetirəcəyini təklif etmişdir. Rusiya Girov Bankı İrana 22.5 milyon rubl maliyyə yardımı təklif etmişdir. Bu məbləğ 3.439.000 ingilis lirəsinə bərabər idi. Bu yardım bir şərtlə verilirdi ki, İran hökuməti İngilis Şahənşah bankına 500 min İngilis lirəsi həcmində olan borcunu qaytarsın və İranın yeganə kreditoru olsun. İranın cənub limanlarından başqa bütün gömrükxanalarnın bu borc müqabilində girov qoyulması şərtlənmişdi. Sonra belə bir öhdəlik də verilmişdi ki, gömrük yığımlarından əldə edilən gəlirlər müntəzəm ödənilmədiyi halda Rusiya hökuməti İran gömrükxanalarını yoxlamaq hüququnu əldə edəcək, zəruri hallarda isə onları öz nəzarəti altına götürəcək.

İran hökuməti bu borclara əlavə olaraq, 1901-ci ildə (h. 1318) Şahənşah Bankı vasitəsilə Hindistan hökumətindən 304281 İngilis lirəsi məbləğində borc götürmüş və xəzər dənizindəki balıqçılıqdan, parçalardan, teleqraf və Əhvaz və Xürrəmşəhr daxil olmaqla Fars körfəzindəki gömrükxanalardan əldə olunan gəlirləri də girova qoymuşdur. Ancaq bu istiqrazları İranın rifahına və inkişafına yönəldilmək əvəzinə, Müzəffərəddin şahın Avropaya iki əhəmiyyətsiz səfərinə sərf olunmuşdur. Belçikalı məsləhətçi Naus isə gömrük işləri ilə məşğul olaraq İranın maraqlarını deyil Rusiyanı müdafiə edirdi.

Belə bir şəraitdə İranın xarici dövlətlərdən iqtisadi, siyasi və maliyyə asılılığı daha da artmışdır. Bu öz növbəsində qüdrətli dövlətlərin İranda iştirakını şərtləşdirirdi və onun gələcək inkişafına

mənfi təsir göstərirdi. Ölkənin şimalında Rusiyanın təlim keçdiyi və gücləndirdiyi Kazak hissələri, cənubda isə İngilis Polisi ağalıq edirdi. Karun çayı boyunca gəmiçilik üzərində konsessiya hüququ İngilislərin əlində idi. Xəzər dənizində gəmiçilik hüququ isə Rusiyaya məxsus idi. Ruslar İranın şimal gömrükxanalarını, İngilislər isə cənub gömrükxanalarını idarə edirdilər. "Banke Şahi" İngiltərə adından Rusiya istiqraz və hesablaşma bankı isə çar hökuməti adından İranlıların üzərinə iqtisadi təzyiqlər göstərirdilər.

Rusiyada Sovet Hökumətinin qurulması İranda qüvvələr nisbətini dəyişdi. Sovet hökuməti Rusiya və İngiltərə arasında çar hökumətinin başladığı bütün məxfi müqavilələri dərc etdi. Onların arasında nüfuz zonalarına bölünməsi haqqında Rusiya və İngiltərə arasında bağlanmış müqavilədə vardır. Orada qeyd olunurdu ki, dünya müharibəsi bitdikdən dərhal sonra rus əsgərləri İran ərazisindən çıxarılacaqdır. Rus qoşunlarının İrandan çıxarılması 1918-ci ilin yanvarında başlandı, martında sona yetdi. İranda yalnız ingilislərin xidmətinə keçmiş general Baratovun komandanlığı altında ağ qvardiyaçı dəstələr qalmışdı. Belə bir vəziyyətdən istifadə edən İngilislər İranda öz mövqelərini daha da gücləndirdilər. Buna görə də 1919-cu il avqust ayının 9-da Vosuqəddövlə İngiltərənin Bağdaddakı Ali komissarı ser Persi Saksdan 130000 İngilis lirəsi alaraq, İngilis hökuməti ilə müqavilə bağladı **(58, 1919, №17)** Bu müqavilə "İranın inkişafı və rifahı üçün Böyük Britaniyanın yardımı haqqında saziş" adlansa da əslində praktiki olaraq İranı müstəmləkə asılılığına salırdı. İngilislər Məclis tərəfindən müqavilənin təsdiqini gözləmədən onun maddələrini yerinə yetirməyə tələsdilər. Ermitac Smitin maliyyə qru-

pu ləngimədən İrana gəldi. İngilislərin digər nümayəndələri də İran hökumətində mühüm vəzifələr tutdular. Lakin İran xalqının 1919-cu il müqaviləsi əleyhinə etirazları və ictimai rəyin təzyiqlərin Vosuqəddövlə hökumətinin süqutuna səbəb oldu. Bundan əlavə dost Sovet hökumətinin etirazları və tanınmış İran xadimlərinin, o cümlədən Əhməd Şah Qacarın etirazları, həmçinin bu müqavilə əleyhinə Amerika hökumətinin bəyanatı İranda İngiltərə siyasətinin məğlubiyyətinə gətirib çıxardı. Öz planlarının İranda həyata keçmədiyini görən İngilislər tutduqları istiqaməti dəyişdilər. Bunun səbəbi Rusiya ilə 2.500 km ümumi sərhədə malik olan İranın strateji mövqeyi həmişə böyük əhəmiyyətə malik olmuşdur. Buna görə də onlar İranda yeni strategiyaya əl atdılar. Onlar bu planı Əhməd şahın əli ilə həyata keçirə bilmədiklərinə görə hərbi çevriliş etmək və qacarlar sülaləsini devirmək üçün tədbirlər gördülər. İngilislər bu məqsədi həyata keçirmək üçün general Ayron Saydinin məsləhəti ilə İran-Qazax hissələrinin zabiti mayor Rza xanın üzərində dayandılar. Beləliklə, 1921-ci il fevralın 22-də (h. 1299, eshfəndin 3-də) kazaklar ingilislərin köməyi ilə hərbi çevriliş etdilər. Onlar Əhməd şahı məcbur etdilər ki, Seyid Ziyaəddin Təbatəbayini Baş nazir vəzifəsinə təyin etsin. Lakin onun kabineti xalq tərəfindən müdafiə olunmadı. Bir neçə hökumətdə Rza xan hərbi nazir vəzifəsini tutdu.

Rza xan 1923-cü ildə (h. 1302) ingilislərin köməyi ilə Baş nazir oldu və ingilislərin yeritdiyi yeni siyasətin həyata keçirilməsi üzrə aktiv fəaliyyət başladı. Rza xanın İngiltərə tərəfindən dəstəklənməsi, Əhməd şahın zəifliyi və ölkədə olmaması, Rza xan tərəfindən ictimaiyyətin siyasi cəhətdən aldadılması və rəqiblərin

dəf edilməsi sülalənin dəyişməsi üçün zəmin hazırladı. Nəhayət, Rza xan siyasi şəraitdən və ingilislərin yardımından faydalanaraq 1925-ci ildə (h. 1304) sülalə hakimiyyətini dəyişdirmək üçün Məclisi çağırdı. Deputatların bir çoxunun ondan asılı olduğu məclis Qacarlar sülasləsini taxtdan saldı və Rza xanı şah elan etdi. O zamandan etibarən Rza xanın İran üzərində idarəçiliyi və ingilislərin yeni siyasəti həyata keçirilməyə başladı. İngilislər öz nüfuzlarını möhkəmləndirmək üçün Rza xanı vətənpərvər, xarici müdaxilənin əleyhdarı kimi qələmə verməyə başladılar.

Rza xan şah olana qədər ingilislərin məsləhəti ilə ictimai rəyi öz xeyrinə dəyişməyə çalışmış və özünü şəriətin və etiqadın müdafiəçisi kimi göstərmişdir. Lakin hakimiyyətə gəldikdən dərhal sonra dinə qarşı çıxmağa və ölkədə Qərb mədəniyyətini güclü surətdə təbliğ etməyə başladı.

## 1.3. Məhəmməd Rza Pəhləvinin hakimiyyətə gəlməsi

Rza şah Pəhləvi, hakimiyyətə gələn dövrdə İran iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Kəndlərdə iqtisadi münasibətlərdə əvvəlki kimi feodal münasibətləri ağalıq edirdi. Kəndlilər torpaq sahibi deyildilər, istehsal etdikləri məhsulun isə yalnız yarısından 5,4 hissəsinədək onlara çatırdı, yerdə qalan hissəsi isə mülkədara qalırdı. Bundan əlavə kəndi natural məhsul formasında mülkədara qoyun, yumurta, toyuq, yağ, odun və başqa məhsulları pulsuz göndərirdilər. Kəndxuda seçmək hüqu-

qu da mülkədara məxsus idi. Kəndlərdə maşın və mexanizmlərə olduqca nadir hallarda təsadüf edilirdi. Kəndlilər mədəniyyət və səhiyyə müəssisələrindən məhrum idilər. İranın cənubunda və cənub şərqində kəndlilərin vəziyyəti daha ağır idi. Hökumətin bütün tədbirləri iri torpaq sahibliyinin hərtərəfli möhkəmləndirilməsinə yönəldilmişdi. Rza şahın hakimiyyəti dövründə kənd təsərrüfatı və istehsala dair qanunların əksəriyyəti feodalların hakimiyyətinin möhkəmləndirilməsi məqsədini güdürdü. Heç kəs xüsusi torpaq sahiblərindən vergi almağa cəsarət etmirdi. Maldarlıq nöqteyi-nəzərindən ixrac olunan maldarlıq məhsullarını istehsal edən köcərilərin oturaq həyat tərzinə vadar edilmələri böyük zərbə oldu. Onların ailələri adətən maliyyə imkanlarına malik deyildi və bütün sərvətləri bir neçə keçi, qoyun və atdan ibarət idi. Onlar köçəri tayfa başçıları və vergi toplayan dövlət məmurlarının zorakılığına məruz qalırdılar **(59, №471,1320).** Beləliklə Rza şahın idarəçiliyi şəraitində İranın daha çox milli sərvətləri dağıdıldı və onlara böyük zərbə vuruldu **(3, №70, 1320).** Əgər həmin siyasət davam etdirilsəydi, yaxın gələcəkdə İran maldarlıq məhsullarının ixracatçısından onun idxalatçısına çevrilə bilərdi və Argentinadan ət satın almağa başlayar və Avstraliyadan konservlər idxal edərdi. **(4,s.46)** Həmin dövrdən başlayaraq İslam İnqilabının qələbəsinə qədər İran xaricdən ət idxal etmək məcburiyyətində idi. İranda kapitalist münasibətlərinin inkişafına gəldikdə isə 1930-1941-ci illər ərzində bu istiqamətdə müxtəlif səbəblərə görə böyük tərəqqi müşahidə olunmamışdı. Mərkəzi hakimiyyətin möhkəmləndirilməsi, daxili sabitliyin və təhlükəsizliyin bütün ölkə üzrə hökm sürməsi, toplanmış kapitalın əv-

vəllər torpaqların satın alınmasına sərf olunmasına və kəndlilərin istismarından böyük gəlir əldə edilməsinə kömək edirdi. Artıq bunlar tədricən sənaye sahələrinə qoyulurdu.

Qeyd etmək lazımdır ki, Rza şah dövlət vəsaiti hesabına inşa edilmiş bir neçə böyük zavodu mənimsəyərək və İranın ən iri kapitalistinə çevrilmişdi. Həmçinin daxili sənayeyə dəstək haqqında qanunların təsdiq edilməsi, milli sənayenin inkişafı istiqamətində kapital qoyuluşunun artımına kömək edirdi. İran Milli Bankının statistik məlumatlarına görə, 1921-ci ildən 1941-ci ilə qədər qeydə alınmış kompaniyaların sayı 93-dən 1735 qədər, onların kapitalı isə 143 milyondan 1.863 milyon riala qədər artmışdı **(23, s.25).**

Qeyd etmək lazımdır ki, yaranmaqda olan milli burjuaziya həmişə feodallar ilə sıx əlaqələrə malik idi. Bu amil də həmişə ləngidici rol oynayır və ölkənin iqtisadi həyatının və sənaye inkişafının səmərəlilik dərəcəsini aşağı salırdı. Digər tərəfdən ölkənin zavod və sənaye mərkəzlərində yaranmaqda olan fəhlə sinfinin sayı İkinci Dünya müharibəsinin əvvəllərinə doğru artıq 650 min nəfərə çatmışdı. Qiymətlərin ikiqat bahalaşdığına baxmayaraq, fəhlələrin əmək haqqı əvvəlki səviyyədə qalmışdı. Maksimum əmək haqqı gündə 5-8 riala bərabər olduğu halda iş günü ərzində yemək xərcləri 12-14 rial təşkil edirdi. Qadınlar və uşaqlar da minimum əmək haqqı alırdılar **(23, s.25)**. Rza şah hökuməti xarici ticarətdən gələn gəlirdən dövlətin və xalqın rifah halının yüksəldilməsi yolunda heç bir şey etməmişdi. Onların hamısı şah sarayının ehtiyaclarının ödənilməsinə və hökumətin böyük xərcləri nəticəsində yaranmış büdcə kəsirinin ödənilməsinə sərf olunmuş-

dur. Bu məqsədlə əvvəlcə xarici ticarət üzərinə inhisar qoyuldu, sonra isə Şah bütün daxili ticarəti də özünə tabe edərək onların hamısını hökumətin əlində cəmləşdirdi **(41, №6683, 6684, 1941)**.

Xarici ticarət üzərində inhisar, tacir və komersantların nəhəng miqdarda malları və əmlakı gömrükxanaların anbarlarında xarab olması ilə nəticələndi. **(39, № 3276, 1320)**.

İstehsal olunan məhsullar daxili tələbatı ödəmək üçün kifayət etmirdi. Bu qərar yalnız daxili bazarda malların dəyərinin artmasına gətirib çıxardı **(40, №3277, 1320).**

İran, Rza şahın dövründə kapitalizm dünyası ölkələrinin xammal əlavəsinə çevrilmişdi. İranda yenicə inkişaf etməyə başlayan yüngül sənaye, avadanlıq baxımından xaricdən tamamilə asılı vəziyyətdə idi.

Rza şah, Hərbi Nazirliyə rəhbərliyi zamanı və sonralar 16 illik şahlığı dövründə bir sıra tədbirlər və təkmilləşdirmələr həyata keçirdi ki, onlardan bəziləri müsbət, bəziləri isə mənfi xarakter daşıyaraq xarici dövlətlərin, xüsusilə də İngiltərənin maraqlarına xidmət edirdi.

Rza şahın hakimiyyəti ilk öncə hökumət və ruhanilər arasında bəzi qarşılıqlı anlaşılmazlıqlarla müşayiət olunmuşdur.

Bu anlaşılmazlıqlar tədricən gizli mübarizəyə çevrilir, sonralar isə açıq xarakter alırdı. Rza şah məcburi hərbi mükəlləfiyyət və daimi ordu haqqında qərar qəbul etmişdi. Bu ruhanilər tərəfindən güclü etirazla qarşılandı və Qum şəhərində həyəcanlara səbəb oldu. Hacıağa Nurulla İsfahaninin dəvəti ilə o dövrdə üləmalardan bir çoxu etiraz əlaməti olaraq bir yerə cəmləşdilər. Amma İsfahaninin sirli ölümündən sonra üləmaların etirazları elə bir nəticə

vermədi, qərar isə həyata keçirildi **(5, s. 236)**. Müasir silahların və zabit heyətinin təlim və hazırlığına sərf olunan xərclər büdcənin artırılması zərurətinin meydana gəlməsinə gətirib çıxardı. Bu məxaric planının hazırlanması, gömrük rüsumlarından hasil olan gəlirlər və vergilərin köməyi ilə büdcənin balanslaşdırılması və dövlət büdcəsinin aidiyyəti üzrə xərclənməməsi hallarının qarşısının alınması cəhdləri ilə müşayiət olunurdu. Qeyd olunan tədbirlər bəzi nüfuzlu şəxslər və təbəqələrin maraqları ilə ziddiyyət təşkil edirdi ki, bu maneələri güc və hakimiyyətdən yararlanmaqla dəf etmək qeyri-mümkün idi. Bu isə İran hökumətinə hakimiyyətdən sui-istifadəyə bəhanə verir və onun agentlərinin, rəhbərlərinin, nəhayət, Rza şahın şəxsi diktaturası ilə nəticələnir. Ədliyyə naziri Əliəkbər Davər tərəfindən ilk vaxtlardan qəbul edilmiş dəyişikliklər ruhanilərin narazılığına səbəb olurdu.

Ölkədə abad yolların salınması, onun keyfiyyətinin qorunması, ölkə daxilində birliyin qorunması, iqtisadi inkişaf üçün ölkədə nizamsızlıqların və inqilabların qarşısının alınması zəruri əhəmiyyət daşıyırdı. Rza şah, İranda dəmiryol xəttinin çəkilməsində olduqca maraqlı idi. Belə bir xətt İranın ən ucqar regionlarını birləşdirə və onun iqtisadiyyatını yenidən qura bilərdi. Şah şəkər və şəkər tozu üzərinə əlavə vergi qoyaraq, bundan hasil olan vəsaitlə dəmir yolu tikintisinin sərf edilən xərcləri təmin etdi və Fars körfəzini Xəzər dənizi ilə birləşdirən xətt çəkdirməklə çoxsaylı tunel və körpülər inşa etdirdi **(5, s. 237)**.

Bir sıra siyasi xadimlər Rza şahın bu ideyasının siyasi məqsədlər güddüyünü və İngiltərənin maraqlarına xidmət etdiyini bildirirdilər. O zaman İran Məclisinin deputatı olan doktor Müsəddiq

bununla əlaqədar olaraq sessiyada çıxışında bildirmişdir: "Bizim dəmir yolu xəttimiz gəlir gətirsə də, bu yalnız Asiyadan Avropaya yük daşımaları sayəsində mümkün olacaqdır... Bu gün, 30 milyon xalq pulunu sərf etmək istədiyimiz bir vaxtda, mahiyyət etibarı ilə dövlətin və xalqın həyatının xəritə üzərinə qoyduğunuz bir zamanda bir qədər düşünün!" **(46, №1440, 1942)**.

O, həmçinin 1945-ci il sentyabrın 25-də dəmir yolu ilə əlaqədar Milli Məclisdə keçirilən iclasdakı çıxışında demişdir: "İran hökuməti əgər dəmir yoluna malik olmaq istəyirsə o, bu yolu Şərqdən qərbə doğru çəkməlidir ki, Avropadan Asiyaya yük və sərnişinlərin tranzitini təmin etsin və İnsanlar Qırmızı dəniz vasitəsilə Bombeyə üzməsinlər, dəmir yolundan istifadə edərək üç gün ərzində Hindistana getmək imkanı əldə etsinlər. Ancaq onu şimaldan cənuba çəkdilər və Zahedanı İranın qərbi ilə birləşdirə biləcək faydalı hissəsini inşa etmədilər. Mən əvvəlcədən görürdüm ki, bu xərclər dövlətin maraqlarına cavab vermir" **(49, c.2, s.85)**.

Rza şah hakimiyyətinin ilk çağlarından başlayaraq, ənənələrin, din və xalq adətlərinin dirçəldilməsi istiqamətində bir sıra tədbirlər gördü. Tus şəhərində Firdovsinin mavzoleyi tikildi, İbn Sina, Sədi, Hafiz kimi böyük şəxsiyyətlərin təbliği gücləndi. Sadə xalqın ağsaqqalları bu tədbirləri vəsaitin lazımsız yerə sərf edilməsi və hökumətin cəmiyyətin diqqətini şəriətdən yayındırmaq kimi qiymətləndirirdilər. Xüsusilə Firdovsiyə münasibətdə bu səylər əvvəlki zərdüştlük dövrünə qayıdış və onun tərənnümü kimi qiymətləndirildi **(5, c.3, s.238-240)**. Rza şahın qərb mədəniyyətinin təbliğinə yönələn siyasəti də öz növbəsində ruhanilərin ərəb mədəniyyətini dirçəltmək siyasəti ilə üst-üstə düşürdü. İdeoloji siyasə-

tin istiqamətlərindən hər biri, şəriət xəttindən uzaqlaşmaq hesab olunurdu və çıxış edənlər, üləmalar və ilahiyyatçılar tərəfindən tənqid və etirazlara məruz qalırdı. O dövrün üləmalarından bəziləri Seyid Həsən Modərres, Seyid Əbdülhəsən Taleqani, Hacıağa Nurulla İsfahani və Hacıağa Hüseyn Qeymi hökumətə qarşı fəal mübarizə apardıqlarına görə təqiblərə məruz qaldılar.

Yuxarıda qeyd olunan işlərdən başqa Rza şah digər tədbirlərdə gördü ki, bunlar da həmçinin ruhanilərin etirazlarına səbəb oldu. Bu dəyişikliklərə Avropa nümunəsi üzrə məktəb təhsilinin yenidən qurulması, kişi paltarlarından vahid geyim formasının tətbiqi və qadınların çadralarının qadağan olunması və s. aid idi.

Səhiyyənin yaxşılaşdırılması istiqamətinə yönəldilmiş bəzi islahatlar aparıldı. Rza şah politexniki, hüquq notarial və statistik yönümlü, xüsusilə pedaqoji sahələr üzrə fəaliyyət göstərən bir neçə ali məktəb təsis etdi və hətta Dövlət Universiteti də yaratdı.

Rza şahın bəzi müsbət tədbirlərinə baxmayaraq, onun Qərb mədəniyyətini ölkəyə gətirməyə çalışması və şəxsi hakimiyyətini gücləndirməsi, bir sıra mütərəqqi xadimlərin tənqidinə məruz qaldı. Bu və digər səbəblər, hətta Rza şahın əsassız şübhələri nəticəsində saray naziri Əbdülhüseyn Teymurtaş, Nüsrətoldövlə Feruz və Cəfərqulu xan Bəxtiyari, Əbdolmülk Dadgar, Seyid Həsən Tağızadə, Məhəmmədəli Foruqi, Zəkaolmülk kimi dövlət və hökumət xadimləri təqiblərə və işkəncələrə məruz qalaraq dünyalarını dəyişdilər.

Qeyd etmək lazımdır ki, Rza şahın şahlığı konstitusiyalı monarxiyanın zahiri atributlarını qoruyub saxlamış mütləq monarxiya idi. Onun "şahlıq hakimiyyəti" heç bir azadlığa yer qoymamışdı.

Onun qüdrəti əleyhinə hətta Məclis belə öz iradəsini itirmiş, Partiyalar və mətbuat hərəkətsiz hala salınmış və iflic vəziyyətində idi.

Rza şahın Darsinin lisenziyasının ləğvi istiqamətində apardığı danışıqlar və ingilis neft kompaniyası ilə müqavilənin yeniləşdirilməsi və müddətinin daha da uzadılması onun ingilis maraqlarından asılı olduğunu sübut edirdi. İngiltərə ilə bağlanmış yeni müqavilə İran cəmiyyətində antiingilis əhval-ruhiyyəni daha da möhkəmləndirdi. Məhz bu əhval-ruhiyyə gələcəkdə İran xalqının diqqətinin Hitler Almaniyasının siyasətinin antiingilis istiqamətinə cəlb olunmasına böyük təsir göstərdi.

Rza şahın hakimiyyətinin sonunda, onun diktaturası daha da möhkəmlənmişdi. Onun Almaniya ilə əlaqələri və Alman mütəxəssislərinin, mühəndislərinin və zabitlərinin İranda sayının tədricən artması, şah qoşunlarının narazılığına səbəb olmuşdu. Almaniya ilə iqtisadi münasibətlər xeyli əvvəl başlamışdır. Almaniyaya qarşı müharibədə müttəfiq olan İngiltərə və Rusiya belə hesab edirdilər ki, İranla Almaniya arasındakı dostluq onların maraqları üçün təhlükə doğurur. İrandan Alman mütəxəssislərinin çıxarılmasına dair dəfələrlə müttəfiqlərin irəli sürdükləri tələblərə baxmayaraq, Rza şah onlara məhəl qoymadı. Nəticədə SSRİ və İngiltərə 1941-ci ilin avqustunda cənub və şimaldan İran ərazisinə daxil oldular. Rza şah öz oğlu şahzadə Məhəmməd Rza Pəhləvinin xeyrinə taxt-tacdan əl çəkdi. Beləliklə İran işğalçıların hakimiyyəti altına düşdü. Gənc və təcrübəsiz şah dövləti idarə edə bilmirdi. Milli Məclisin deputatları hökumət əleyhinə çıxışlar edirdilər. 14-cü çağırış parlament sessiyasında, sağçı və solçu qüvvələrin çəkişməsi yeni həyəcanlar doğururdu. Müxtəlif parti-

yalar, məsələn, Mustafa Fatehin rəhbərliyi altında Antifaşist Partiyası, İran Tudə Partiyası, Xalq İradəsi Partiyası (Eradeye Melli) xaricdən yenicə qayıtmış Seyid Ziyaəddin Təbatəbayinin rəhbərliyi altında özlərinin təşkilatı strukturlarını yaradırdılar. Həmçinin yüzdən çox müstəqil və yarımmüstəqil qəzet və jurnallar, hökumətin hər hansı bir qərar qəbul etməsinə mane olaraq, qayda-qanun yaradılmasına əngəl törədirdilər.

İran xaricilərin işğalı altında olduğu bir şəraitdə biri-birinin ardınca hökumətlərin dəyişildiyi bir şərait yarandı. 1942-ci ildə Məhəmmədəli Foruqinin ölümündən sonra Hakimolmülk Baş nazir oldu. O, SSRİ-nin təqsiri üzündən yaranmış Azərbaycan məsələsinin həllinə cəhd göstərdi. SSRİ-nin bu zaman İranın Azərbaycan əyalətini ayıraraq onu Sovet Azərbaycanı ilə birləşdirmək məqsədilə SSRİ-yə qayıtmaq məqsədini güdən Seyid Cəfər Pişəvəri hərəkatını və onun Demokrat Partiyasını müdafiə edirdi.

Əhməd Qəvvaməssəltənə hakimiyyətə gəldikdən sonra bəzi nümayişkəranə addımlar ataraq öz əleyhdarlarını həbs və sürgün etdirdi.

Qəvvaməssəltənə İran və SSRİ arasında problemləri həll etməyə çalışırdı və bu məqsədlə Moskvaya səfər edərək Stalin və Molotov ilə danışıqlar apardı və nəticə etibarı ilə Sovet rəhbərliyini dilə tutaraq onları Pişevərini müdafiə etməkdən çəkindirə bildi. O, İran ərazisindən Sovet qoşunlarının çıxarılmasına nail oldu. Buna BMT-nin hədələri və ABŞ-ın ciddi narazılıqları da təsir göstərdi. Şübhəsiz ki, burada Qəvvamın yeritdiyi ağıllı siyasətin də böyük rolu oldu. Növbəti seçkilərdə Qəvvamın Demokrat Partiyası yerlərin çoxunu qazanmadığına görə o vəzifədən uzaq-

laşdırıldı. İran işğaldan azad olduqdan sonra ölkə daxilində tamamilə başqa bir atmosfer yarandı. Şah yenidən dövlət işlərinə müdaxilə etməyə başladı. Hakimolmülk yenidən Baş nazir vəzifəsinə təyin olundu. Ondan sonra isə Əbdülhüseyn Hafiz Baş nazir oldu. Bu baş nazirlər 30 yaşlı Məhəmməd Rzanın şahlığının dövlət idarəçiliyi ilə birləşdirilməsinə zəmin yaratdılar. 1949-cu ildə çağırılmış Məclis şaha bəzi səlahiyyətləri verdi. Şaha Məclisi buraxmaq hüququ verildi. Bu baxımdan atası kimi Məhəmməd Rza da İranda diktatura yolunu açdı. Mətbuat üzərində senzura, rejim əleyhdarlarının təqib və həbsləri davam etdirildi.

Qeyd etmək lazımdır ki, siaysi partiyaların meydana çıxması və inkişafı İranda ictimai-siyasi proseslərin inkişafında mühüm hadisə oldu. Belə ki, İranda Məşrutə Hərəkatı ilə eyni zamanda siyasi təşkilatlar və müxtəlif yönümlü partiyalar meydana çıxdı. Bəzən hətta onlar silahlı mübarizəyə belə əl atdılar. Amma ikinci Məclis cağırıldıqdan və Tehran ələ keçirildikdən sonra onların bir hissəsi siyasi partiya forması aldı. Onlardan ən mühümləri "Sosialist Partiyası", "İctimaiyyune-amiyyun", "İctimaiyyun - etedaliyun", "İttifaq və tərəqqi" partiyaları idi. İnqilabı təcrübəyə və güclü nizamnaməyə malik olan "İctimaiyyun-amiyyun" Partiyasının sonralar adı dəyişdirilərək "Demokrat Partiyası" qoyuldu. Bu partiyanın fəaliyyəti Rza xanın taxta çıxmasına qədər davam etdi. Rza şahın hakimiyyəti illərində ölkədə siyasi fəaliyyət tamamilə susduruldu. Bu dövrün xüsusiyyəti solçu və kommunist dünya görüşlərinin artması oldu. Rza şah siyasi səhnədən gedəndən sonra siyasi partiyalar yenidən fəallaşmağa başladılar. Bu proses 1953-cü ilin hərbi çevrilişinədək davam etdi.

XX əsrin birinci yarısında İranda parlamentarizm tarixini üç dövrə bölmək olar:

a) Konstitusiya hərəkatının başlanğıc mərhələsi 1906-cı ildə Nəsrəddin şah Qacar tərəfindən "Əsas qanun" haqqında fərmanın verilməsi ilə başlayır və 1925-ci ilin dekabrında başa çatır. Bu dövrə beş qanunvericilik məclisi daxildir.

b) Konstitusiya hərəkatının ikinci dövrü Məclisin qərarı əsasında şah tacının Pəhləvilər sülaləsinin banisi Rza şaha verilməsi ilə başladı. Bu mərhələdə Məclisin 6-cı sessiyasından 13-cü sessiyasınadək iclaslar keçirilmişdir. Bu dövrdə siyasi sabitliyi nəzərə alaraq, Məclisin həyatının sakit keçdiyini söyləmək olar.

c) Konstitusiya hərəkatının üçüncü dövrünün başlanması, İkinci Dünya müharibəsinin alovlanması və Rza şahın taxtdan uzaqlaşdırılması və taxt-tacın 1941-ci ildə qanuni varis Məhəmməd Rza Pəhləviyə verilməsi ilə eyni zamana təsadüf edir.

Qeyd edək ki, Məclisin ilk çağırışının deputatları əyanlardan, şahın qohumlarından, tacirlərdən, mülkədarlardan, ruhanilərdən və sənətkarlardan seçilmiş və konstitusiyalı quruluşun bünövrəsi sayılırdı.

Məclis qısa zamanda həyatın müxtəlif sahələrinə dair onlarla mühüm qərar qəbul etdi. Bu qanunlar əsasən ölkənin xarici asılılıqdan xilas olmasına, dövlət müstəqilliyinin gücləndirilməsinə və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasına yönəldilmişdir. Lakin 1908-ci il iyunun 23-də Məclisin ilk çağırışı qovuldu və İranda hərbi rejim quruldu. Qanunvericiliyin ikinci mərhələsi 1909-cu ilin aprelində başlandı. İkinci çağırış Məclisdə təbəqə sistemi ləğv olundu və müxtəlif problemlər və böhranlar meydana gəldi.

Müasir İranın parlamentarizm tarixində ilk dəfə olaraq, siyasi partiyalar və qruplar ölkənin siyasi arenasında demokratiyanın rəmzi kimi fəaliyyətə başlamışdı. Konstitusiyaya əsasən hökumət xalqa azad surətdə öz siyasi partiyalarını və təşkilatlarını yaratmaq və siyasi fəaliyyətlə məşğul olmaq hüququ vermişdi. Bu partiyalar Parlamentdə mübarizəyə başlamışdılar. Demokrate-Amiyyun və İctimaiyyune-Amiyyun partiyaları parlament partiyaları arasında ən böyükləri idi. İttifaq və Tərəqqi partiyası isə parlamentdə əhəmiyyətsiz yerə malik idi.

Milli Məclis qanunvericiliyin üçüncü mərhələsi Birinci Dünya müharibəsinin başlanması, Rusiya və İngiltərə tərəfindən İranın işğalı ilə üst-üstə düşdü.

Dördüncü çağırış Məclisinə seçkilər 1921-ci ilin iyununda başladı. Bu Məclisin dövründə ölkədə qeyri-sabitlik hökm sürdü. Ayətullah Seyid Həsən Modərres başda olmaqla Məclisin əksəriyyətini əhatə edən Dəyişikliklər Partiyası özünün parlament fəaliyyətinə başlamışdı. 1925-ci il dekabrın 13-də Məclisin beşinci çağırışında Rza xan Pəhləvi İran şahı seçildi.

Altıncı çağırış Məclisin iclası ilə 1926-cı ilin iyulunda konstitusiya hərəkatının ikinci dövrü başlandı. Bu məclis iqtisadi və təsərrüfat qanunlarının yaradılmasında, siyasi və iqtisadi müqavilələrin təsdiqlənməsində mühüm addımlar atdı. Dövlət quruculuğu sahəsində də tədbirlər görüldü. Bu dövrün ən mühüm tədbirlərindən biri 1935-ci ilin fevralında Tehran Universitetinin açılışı oldu. Müttəfiq qoşunları tərəfindən İran ərazisi işğal edildikdən sonra sentyabrın 15-də İranın yeni Baş naziri parlamentə gələrək Rza şahın oğlu Məhəmməd Rza Pəhləvinin xeyrinə taxt-

dan əl çəkməsi haqqında məktubunu oxudu. 1941-ci ilin noyabrında 13-cü çağırış Məclisin iclası ilə İranda konstitusiya hərəkatının üçüncü dövrünə start verildi. Doktor Artur Çester Milspo bu Məclis zamanı İranda fəaliyyətə dəvət olunmuşdur. Bu Məclis İran, SSRİ və İngiltərə arasında dostluq haqqında müqaviləni təsdiq etmiş, Almaniyaya müharibə etmək haqqında İran hökumətinin təklifini qəbul etmişdir. Məclis digər qanun və qərarlar da qəbul etdi. 14-cü çağırış Məclisə seçkilər isə xarici qoşunlar tərəfindən ölkənin işğalı şəraitində həyata keçirildi. Rza şahın dövründə təqiblərə məruz qalmış bəzi siyasi xadimlər də Məclisə üzv olmuşdular. O dövrün siyasi hadisələri Məclis deputat-larını iki qrupa (əksəriyyət və azlıq) ayırmışdı. Əksəriyyətə Seyid Ziyaəddin Təbatəbayi, azlığa isə doktor Müsəddiq başçılıq edirdi. Amerikalı müşavir doktor Milsponun fövqəladə səlahiyyətləri də məhz bu məclis tərəfindən ləğv edilmiş və neft axtarışı və çıxarılması üzrə xaricilərə konsepsiya verilməsi haqqında danışıqların aparılmasını, habelə müqavilə bağlanmasını İran hökumətinə qadağan etmişdi. Nəhayət, İranda Pişevəri başda olmaqla müstəqil hökumətin və Qazi Məhəmməd başda olmaqla kürdlərin separatçılıq hərəkatının məğlubiyyətindən sonra 15-ci çağırış Məclisə seçkilərə hazılıq üçün zəmin yarandı. 1950-ci ilin fevralında 16-cı çağırış Məclisin fəaliyyətə başlaması ilə mühüm tədbirlər həyata keçirildi. Məhz İran neftinin milliləşdirilməsi haqqında qanunun qəbul olunması da bu qanunvericilik dövrünün ən mühüm hadisəsidir. İslam İnqilabının qələbəsinə qədər İran Məclisləri 24-cü çağırışadək davam etdi və 19-cu çağırışdan sonra onların hakimiyyətdə olma müddəti daha 4 il uzadıldı.

Yuxarıda qeyd olunan bu üç dövr ərzində İranda çoxsaylı hökumət dəyişikliyi baş vermişdi. 1953-cü il hərbi çevrilişindən sonra hakimiyyətdə on iki nəfər baş nazir vəzifəsində fəaliyyət göstərmişdi ki, onlardan sonuncusu Şahpur Bəxtiyar hökuməti də 1979-cu il fevralın 10-da İslam İnqilabının qələbəsi ilə süquta uğrayır və baş nazir xaricə qaçır **(62, s.39-185)**.

# <u>II FƏSİL</u>

# ABŞ-MALİYYƏ EKSPERTİ ARTUR MİLSPONUN İRANA İLK EZAMİYYƏTİ

## 2.1. Milsponun İrana dəvət olunmasının səbəbləri

Qeyd etmək lazımdır ki, Şuster missiyası 1912-ci ildə İranı tərk etdikdən sonra İranın Gömrük xidmətinin Baş direktoru, ölkənin maliyyə naziri vəzifəsinə təyin olunur. Demokratlar, İranın Milli Ali Məclisinin xüsusiyyətləri, İranın Çar Rusiyası tərəfindən işğal edilməsi və xarici səfirliklərin Nazirlər Şurasındakı səsvermənin yekunlarına təsiri nəticəsində, Mernardın zorla maliyyə naziri vəzifəsinə seçilməsinə qarşı çıxa bilmədilər. Lakin Birinci Dünya müharibəsi nəticəsində onun İranın siyasi səhnəsindən qovulmasına zəmin yarandı.

Mernard üç illik idarəçilikdən sonra dövlət xərclərinin hökumət tərəfindən ödənilməsi üçün büdcədə pul qoymamışdı. Ölkədə dövlətin mədaxil və məxariclərini planlaşdırmaq üçün bacarıqlı mütəxəssislər yox idi **(46, s. 316)**. Qəvvaməssəltənənin birinci kabinetində (1921) amerikalı mütəxəssislərin dəvət olunma-

sı haqqında məsələnin qaldırılması ilə ölkədə maliyyə işləri gündən-günə pisləşirdi. Şuster və onun komandasının yardımı İran xalqının yadında idi. Qəvvaməssəltənə Şusterə ünvanladığı teleqramda ondan İrana qayıtmasını xahiş etmiş və onun əvvəlki səlahiyyətlərini qaytarmaq niyyətində olduğunu bildirmişdi. Lakin Şuster bu təklifi qəbul etmir. Buna görə də Qəvvaməssəltənə Şusterin dostu olan "Şahi" Bankının direktoruna müraciət edir. Bu da mümkün olmayanda, amerikalı ekspertlərin dəvət olunması istiqamətində tədbirlər görmək üçün İranın ABŞ-dakı fövqəladə və səlahiyyətli səfirinə göstərişr verilir. İranın Vaşinqtondakı səlahiyyətli səfiri də Şusteri İrana qayıtmaq üçün dilə tuta bilmədi. Ancaq Şusterin məsləhəti ilə  Milspo adlı iqtisadi və maliyyə məsələlərindən yaxşı baş çıxaran bir mütəxəssisin 14 nəfərdən ibarət nümayəndə heyətinin başında İran iqtisadiyyatını qaydaya salmaq üçün 1922-ci ilin noyabr ayının 24-də (h. ş. 1301-ci il azərin 4-ü) İrana gəldi. İyul ayının 25-də hökumət doktor Milsponun dəvəti haqqında aşağıdakı məzmunda xahişlə dördüncü çağırış Məclisinə müraciət etdi:

Müqəddəs Milli Məclis Şurası!

"Əgər hörmətli cənab deputatlar xatırlayırlarsa, Milli Məclis tərəfindən təsdiq olunmuş hökumət proqramında ölkənin maliyyə vəziyyəti diqqətlə təhlil olunmuş və ölkə iqtisadiyyatında çalışmaq və onu qaydaya salmaq üçün İran ilə minimum sərhədlərə malik olmayan dövlətlərdən mütəxəssislər dəvət olunması nəzərdə tutulmuşdur. Bu niyyətin davamı olaraq, hökumət danışıqlara girərək İrana layiqli mütəxəssislər göndərmək xahişilə ABŞ dövlətinə müraciət etdi. Amerikalı mütəxəssislərin Maliyyə

Nazirliyinə və Vergi Xidmətinə başçılıq etmələri nəzərdə tutulur. Vaşinqtonda keçirilmiş silsilə müzakirələrdən sonra ABŞ hökuməti bizim xahişimizə hörmətlə yanaşmış və İranın maliyyə xidmətinin Baş direktoru vəzifəsinə doktor Milsponu təklif etmişdir. Milspo barəsində aparılan araşdırmalar göstərdi ki, o, səriştəli və peşəkar iqtisadçı və maliyyə ekspertidir. Həm nəzəriyyə, həm də praktiki cəhətdən müvafiq müəssisələrə başçılıq etməyə, eləcə də müvafiq saziş imzalandıqdan sonra özünə seçdiyi digər mütəxəssislərlə birlikdə İranda xidmət etməyə layiq bir şəxsdir".

Bu zaman, o dövrün parlament adətlərinə uyğun olaraq, deputatlardan biri bunun əleyhdarı kimi çıxış etdi. Onun çıxışından sonra büdcə komissiyasına rəhbərlik edən mərhum Firuz Nüsrətoldövlə qısa çıxışı zamanı kürsüdən belə söylədi: "Cənablar! Bizim müəllimlərə və təlimə ehtiyacımız vardır. Öz cəhalətimizi etiraf etmək və biliyə can atmaq rüsvayçılıq deyildir. İcazə verin, məktəbə getməyən bir şəxsin möcüzə törədərək yüzlərlə müəllimi heyrətləndirməsinə inanmayaq. Məgər bu belə deyilmi? Biz, yüksək ixtisaslı xarici mütəxəssisləri dövlət müəssisələrimizə işə dəvət edərək, savadlı gənclərimizin təlim alması üçün bir növ çoxlu məktəblər açırıq ki, onlar təhsil alaraq, bundan böyük fayda götürsünlər və qısa zamanda savadlı mütəxəssislər və kamil insanlar olsunlar. Təlim, nəzəri və ya praktiki olur. Belə ki, praktiki təlimlər həmişə nəzəri təlimlərdən maraqlı olur və az vaxt tələb edir. Mən gözləyirəm ki, cənab deputatlar bu təklifi fərəhlə qəbul edəcəklər və yeni maliyyə işləri üzrə direktorunun gəlişi günü bu dövlətdə yeni eranın başlanğıc günü olacaqdır **(deputatlar yekdilliklə dedilər: "Düzdür!")**. Cənab deputatlar, mənim sizdən təvəq-

qem budur ki, siz deputat öhdəliklərinizi yerinə yetirərək xidmətə qəbul edilmiş Amerika mütəxəssisləri ilə dil tapmaq, özümüzün bütün nüfuz və hakimiyyətimizdən istifadə edərək onların əleyhinə sui-qəsdlərə qarşı çıxmaq barədə and içəsiniz. Deputatlar bir səslə dedilər: Düzdür, əhsən!" **(36)**.

Bu çıxışdan və daha bir neçə dəstəkverici nitqlərdən sonra parlamentdə səs çoxluğu ilə doktor Milspo və onun komandasının işə qəbul edilməsi məsələsi təsdiq olundu. Beləliklə, doktor Milspo 1922-ci il noyabrın 20-də Tehrana gələrək Maliyyə Nazirliyində fəaliyyətə başladı. Az sonra onun əməkdaşları da işə başladılar. Qeyd etmək lazımdır ki, IV çağırış Məclis açılanadək İran çoxsaylı maliyyə və iqtisadi çətinliklərlə üzləşmişdi. İlk öncə ona görə ki, Birinci Dünya müharibəsi gedirdi və bu amil ölkə iqtisadiyyatına xeyli ziyan vurulmasına şərait yaratmışdı. İlkin səbəb bundan ibarət idi ki, planlaşdırmanın olmaması üzündən ümumiyyətlə, dövlət daxilində düzgün və məntiqi bir maliyyə siyasəti sistemi yaradılmamışdı. Həmçinin buna təsir edən amil ölkənin baş xəzinədarı Mernardın özünün icraçılardan biri olduğu xarici və daxili qüvvələrin yersiz və daimi müdaxiləsi olmuşdur. Hökumət ölkənin acınacaqlı maliyyə vəziyyətinin yaxşılaşması istiqamətində heç bir konstruktiv qərar qəbul edə bilmədi və hərbi əməliyyatların nəticələri getdikcə özünü daha qabarıq formada göstərdi. Şimalda, cənubda və qərbdə İran hüdudlarından kənarda alovlanan müharibə bütün ticarət yollarını kəsmiş və dövlətin bütün maliyyə işlərini pozmuşdu. Əyalət və rayonların vergiləri dövlət xəzinəsinə ödənilmirdi. İranın köçəri tayfaları isə müharibəyə girmiş qonşu dövlətlərin təhriki üzündən daxili çə-

kişmələrə cəlb olunmuşdular **(46, s. 317)**. Belə bir vəziyyət ölkəni xaos və qan tökülməsinə sürükləyirdi. O dövrdə İran hökuməti öz minimal ehtiyaclarını "Şahi" və "İstiqraz" Banklarından alınmış çox da böyük olmayan və səmərəsiz istiqrazlar hesabına ödəmək qərarına gəlmişdi. Nəticə etibarilə isə hələ 1915-ci il noyabrın 15-də Çar Rusiyası qoşunları tərəfindən bilavasitə Tehranın tutulması qorxusu ilə əlaqədar, Milli Məclis Şurası buraxıldı. İşğalçılar müqabilində müqavimətin təşkili üçün III çağırış Məclisinin deputatları Qum və Borucerd şəhərlərinə getdilər. Hələ 1915-1920-ci illərdə ( h. ş. 1334-1339) IV çağırış Məclisi öz işinə başlayan zaman İran dövləti qeyri-müəyyən bir vəziyyətdə idi. Nə dövlətin xərclərinə nəzarət edə bilən Məclis var idi, nə də mədaxil və məxariclərə uyğun olaraq dövlət büdcəsini planlaşdıra bilən hökumət **(46, s. 318)**. Maliyyə işləri müvəqqəti baş nazirlərin istək və iradələrindən asılı idi. Bu kimi ədalətsiz müdaxilələr korrupsiyanı kəskin şəkildə gücləndirmiş və ölkənin maliyyə işlərini elə bir formada laxlatmışdı ki, IV Məclis çağırılan zaman hökumət dövlət müəssisələri və nazirliklərin qulluqçularının əmək haqlarını ödəmək iqtidarında deyildi. Belə bir vəziyyət idarəçiliyin təkmilləşdirilməsinə hər hansı bir şəkildə təsir göstərmək haqqında hökumətə hətta fikirləşmək imkanı belə vermirdi. Elə bir nazirlik ya müəssisə yox idi ki, hökumətin ona heç olmazsa ən azı dörd aylıq əmək haqqı borcu olmasın. Digər tərəfdən, bəzi nüfuzlu şəxslər Maliyyə Nazrliyinin işinə müdaxilə edərək istədiklərini edirdilər. Onların fəaliyyətinə mane olacaq kimsə yox idi. Doktor Milsponun gəlişinədək, hökumətin maliyyə durumu o dərəcə pisləşmişdi ki, ondan sonra qulluqçulara əmək haqqı

ödəmək mümkün olmadığından, pul əvəzinə kərpic almaq məqsədilə onlara xüsusi kuponlar verilirdi **(34, s. 152)**. Bununla əlaqədar büdcədə tarazlıq yaradılmırdı. Ölkənin gəliri ildən-ilə azalır və büdcə kəsiri daha da artırdı. Bu səbəbdən əmək haqqı üzrə borclar bir neçə aya çatan zaman, bir çox binalar illərlə tikilməmiş qalan zaman, tikinti materialları istifadəsiz tökülüb qaldığı bir vəziyyətdə, hökumət öz borcunu tikinti materialları və kitablarla ödəmək məcburiyyətində qalmışdı. Hökumət əmək haqqını ödəmək əvəzinə borc veksellləri və ya çeklər verirdi ki, onlar da bir çox hallarda banklar tərəfindən ödənilmirdi. Belə olduğu halda vekselllər və çeklər üzrə dəyəri bir neçə rial olan əşyaları bir tümənə dəyişmək barəsində sövdələşmələr gedirdi. Maarif Nazirliyinin əməkdaşlarından biri nazirlik işçilərinin əmək haqqı barədə yazırdı: "Yaz və payız fəsilləri ötüb keçməsinə və dekabr ayının yetişməsinə baxmayaraq, əmək haqqı ödənilmədi və nə zaman ödəniləcəyi də bəlli deyildir. İki hissəsi artıq çoxdan göndərilsə də, onlar hələ də gəlib çatmamışdır. Yerdə qalanlar da haradasa dolaşıb qalımışdır" **(35, s. 176)**.

Hər halda, doktor Milspo işə başlayan zaman Dövlətin maliyyə sistemi elə bir dərəcədə laxlamış və xəzinə o dərəcədə boşalmış, korrupsiya isə elə bir formada vüsət almışdı ki, heç bir tədbir fayda vermirdi. Ayrı-ayrı rayonlar gəlirlərin dövlət büdcəsinə köçürülməsinə müqavimət göstərir, paytaxtda isə nüfuzlu şəxslər belə öz gəlirlərinin hətta kiçik bir hissəsini belə ödəməyə razılıq verimirdilər. Şah isə dövləti sarsıtmış çətinliklərə baxmayaraq Avropada yaşayırdı. Dövlətin öz qulluqçularının və işçilərinin əmək haqqını ödəyə bilməməsinə, həmçinin dövlət xidmətinə hü-

ququ olan nəhəng miqdarda insanların mövcud olduğunu da xatırlatmaq lazımdır ki, bunlarda əlavə çətinliklər yaradırdı.

1921-ci ilin fevral ayının 21-də (h. ş. 1299-cu il esfəndin 3-ü) çevrilişindən sonra iki ilə yaxın müddət keçməsinə baxmayaraq, baş komandan Rza xanın səyləri ilə nail olunmuş ordudakı bəzi dəyişikliklərdən və bəzi qiyamların yatırılmasından başqa bütün dövlət müəssisələrinin ümumi vəziyyəti əvvəlki kimi dəyişilməz qalmışdı. Hətta Seyid Ziya kabinetinin həyata keçirdiyi təqiblər, həbslər belə heç bir nəticə vermədi **(9, s.10)**.

İranın nəzərdən keçirdiyiniz tarixi dövründə çətinlik törədən məqam, ola bilsin ən mühüm amil ondan ibarət idi ki, feodallar olduqca güclü idilər və bir qayda olaraq öz qanuni vergilərini ödəməkdən yayınırdılar. Dövlətdə nazirlər, əyanlar və feodalların özləri bu təbəqəyə (iri torpaq burjuaziyası) mənsub idilər. Buna görə də onlar vergilərin toplanmasına və dərin iqtisadi və sosial islahatların keçirilməsinə səy göstərmirdilər **(16, s.51-52)**.

Doktor Milspo öz xatirələrində yazırdı: "... Biz İrana gələn zaman, İranın təsərrüfat ilinin sonuna 4 aya yaxın vaxt qalmışdı. Bu vaxt dövlət xəzinəsi boş idi. Dövlət qulluqçularına əmək haqqının ödənişi və digər icbari dövlət ödənişləri üzrə borclar bir aydan 8 aya qədər idi. Hətta keçən ilin bəzi xərcləri belə ödənilməmişdi və böyük bir vəsait təşkil edirdi. Müəllimlər və polis işçiləri tətillərlə hədələyirdilər. Təqaüdçülərin isə sayları 50 minə çatmışdı ki, onlar Maliyyə Nazirliyini tutaraq orada oturaq aksiya keçirməyə hazır idilər. Bütün bunlar hökumətə, digər dövlət müəssisələrinə tam etimadsızlığa və ölkədə qayda-qanun pozuntusuna gətirib çıxara bilərdi. Həm ayrı-ayrı xaricilər, həm də

xarici dövlətlər müxtəlif tələblər irəli sürürdülər. Şah sarayı bir neçə ay idi ki, pul almırdı. Məclis deputatlarının da əmək haqqı gecikirdi. Təqaüdçülər borcların ödənilmədiyi halda dövlətə zəruri göndərişləri dayandıracaqları ilə hədələyirdilər. Vergi toplanması ilə dövlət gəlirlərini təmin edən Maliyyə Nazirliyinin işçilərinin də əmək haqqı ödənilməmişdi. Təbii ki, belə bir şəraitin hökm sürdüyü bir vaxt onlar nəzarətin olmaması nəticəsində sərəncamlarında olan pulları öz şəxsi mənafeləri naminə mənimsəyir, vergilərin toplanılması üzrə öz xidməti vəzifələrinin icrasında məsuliyyətlə səy göstərmirdilər. Məhz bu baxımdan bir neçə aydan sonra dövlətin gəlirlərinin sıfra enməsi güman edilirdi. Neft gəlirlərindən irəli gələn paydan isə 1923-cü il dekabrın sonunadək istifadə etmək olmazdı..." (9, s.63).

Milspo, qeyd edirdi: "Mənim sonralar başa düşdüyüm kimi İranın maliyyə durumu sarsılmış və laxlamış bir vəziyyətdə idi. Bu vəziyyət hər hansı bir qayda-qanun olmaması ilə daha da dərinləşirdi. Həkim xəstənin dişini çıxara-raq xəstənin revmatizminin müalicəsinə kömək etdiyi kimi, bizim də qarşımızda çürüməkdə olan mənbəni kəsib atmaqla iqtisadi xəstəliyi müalicə etmək vəzifəsi durur..." **(9, s.65)**. O, davam edərək yazırdı: "... Dövlət xəzinəsinin kəsri ildə bir milyon tümən təşkil edirdi. İran hökuməti özünü günahkar saymadığı üçün, xarici ticarətdə qarşılıqlı tarazlığa əməl etmək haqqında müxtəlif dövlətlərin şifahi bəyanatlarına fikir vermirdi...", "... Dövlətin xarici gəlirlərinin ikinci mühüm mənbəyi İngilis-İran Neft Kompaniyasının gəlirlərindən ayrılan pay idi. Bu gəlir 1921-ci ildə ən yüksək səviyyəyə çatmışdı. Ancaq biz İrana gələn zaman neft emalının artma-

sına baxmayaraq o aşağı düşməyə başlamış və iranlılar üçün ümidsizliyə səbəb olmuşdur" **(9, s.71)**.

Vergilərin toplanılmasına toxunan Milspo qeyd edirdi: "... dövlətin daxili vergilərinin toplanılması xeyli çətinləşmişdi. Belə ki, onlar elə bir qanunlar, adətlər və normativ aktlar qarışığı ilə toplanır ki, qeydə alınması üçün ayrıca kitab tələb olunur...", "... tayfa başçıları hələ də əvvəllər olduğu kimi onlara tabe olan qəbilələrdən vergi toplayırlar. Bu qrupda Xuzestandakı şeyx Məhmərə diqqəti cəlb edirdi. O, topladığı vergini dövlətə vermir və öz dairəsində topladığı vergilərdən gündən-günə daha da zənginləşirdi..." **(9, s.71)**.

"...Büdcənin tərtib edilməsi üçün mümkün imkanlara və zəruri şəraitə baxmayaraq Amerika nümayəndələrinin İrana gəlişinədək konstitusiyalı monarxiya hakimiyyəti 12 il ərzində İran dövləti üçün heç bir büdcə qəbul etməmişdi. 1921-1922-ci (h. 1301) təsərrüfat ilində böyük xərclərlə əlaqədar olaraq nazirliklərin məxaric büdcəsi təsdiq olunmadı, bütün müəssisələrdə, xüsusilə Maliyyə Nazirliyinin bəzi idarələrində nəzərdə tutulmuş xərclər Məclis tərəfindən onlar üçün nəzərdə tutulmuş limiti xeyli üstələyirdi..." **(9, s. 81).**

O, həmçinin qeyd edirdi: "Biz ora gələn zaman İranın maddi vəziyyəti hələ də parlaq keçmişin işıltılarına malik idi. Şahların volyuntarist qərarına rəğmən və qüdrətli xarici qüvvələrin göstərdiyi təzyiqlər nəticəsində böyük miqdarda gəlir mənbələri iranlıların əlində idi. Özəl sektorun borclarının həcmi və adambaşına düşən vergi böyük deyildi. Müəyyən miqdarda keyfiyyətini itirmiş pulların istifadəsi ilə dövriyyədəki pulların vəziyyəti

pisləşmişdi. İranda heç bir inflyasiya və pulun dəyərdən düşmə prosesi müşahidə olunmurdu. İctimai xidmət və hökumətin maddi vəziyyəti olduqca münasib görünürdü. Dövlətdə Bank sistemi fəaliyyət göstərirdi, əlbəttə, əhalinin tələbi üzrə deyil, amma bəzən hökumətə qiymətli xidmət göstərirdi..." **(9, s. 83)**.

## 2.2. Milsponun fəaliyyətinin əsas istiqamətləri

Yuxarıda qeyd olunduğu kimi, maliyyə çətinliklərini dəf etməyə yönəldilmiş bütün layihələr və səylər bəhrəsiz oldu və elə bir nəticə vermədi. Con nəticədə isə amerikalı məsləhətçilərin dəvət edilməsi qərarı qəbul olundu. İranın Vaşinqtondakı fövqəladə və səlahiyyətli səfirinin apardığı danışıqlardan sonra hökumət tərəfindən Milsponun işə qəbul olunması haqqında 17 maddədən ibarət qanun layihəsi işlənib hazırlanaraq Məclisin müzakirəsinə verildi. Onun müzakirəsindən sonra 1922-ci ilin iyunun 25-də (h. 4 mordad 1301) müvafiq qanun qəbl edildi.

Qəbul olunmuş qanuna əsasən doktor Milspo İranın vergi xidmətinin Baş direktoru vəzifəsinə təyin olundu. Bu qanuna görə Maliyyə Naziri ezamiyyətə görə məsuliyyəti öz üzərinə götürürdü. O öz öhdəliklərini bütün qanuni hüquqların tətbiqi ilə yerinə yetirəcəyinə söz vermişdi. Vergi xidmətinin direktoru belə bir hüquq aldı ki, onunla maliyyə naziri arasında fikir ayrılığı yarandığı halda öz rəyini şifahi və yaxud da yazılı şəkildə hökumətə çatdıra bilərdi.

Milsponun təyinatı haqqında Qanunda onun üzərinə qoyulmuş əsas öhdəliklər qısaca olaraq aşağıdakılardan ibarət idi:

- Vergi xidmətinin bütün işlərinin öz üzərinə götürülməsi;
- Qanuni rəhbərlik altında doktor Milspo tərəfindən büdcənin tərtib edilməsi və maliyyə naziri tərəfindən təsdiq olunması;
- Bilavasitə vergilərin yığımı, hesablanması və ictimai ödənclə əlaqədar olaraq Maliyyə Nazirliyinin, onun bütün şöbə və müəssisələrinin, habelə strukturlarının qaydaya salınması;
- Maliyyə Nazirliyinin qulluqçularının yerdəyişməsi və işdən azad olunması, onların vəzifələrinin yüksəldilməsi və aşağı salınması, eləcə də ona tabe olan bütün şöbələrin, həmçinin ümumi dövlət xərclərinin yığılması, qeydə alınması və ödənişi ilə birbaşa əlaqəsi olan digər müəssisələrinin qulluqçuları haqqında öz rəyini söyləmək;
- Bütün maliyyə məsələlərinə münasibət üzrə istənilən qərarın və ya fəaliyyətin qəbul edilməsinədək hökumətə öz rəyini təqdim etmək;
- Maliyyə məsələlərinə dair bütün beynəlxalq komissiyalarda və iclaslarda maliyyə nazirindən sonra İranı təmsil etmək hüququna malik olmaq;
- Sənaye və ya ticarət imtiyazları üzrə özünün peşəkar təkliflərini yazılı və ya şifahi surətdə hökumətə təqdim etmək;

Vergi İdarəsinin Baş direktoru yuxarıda sadalanan məşvərət verici və icraedici vəzifələrdən başqa yeni gəlir mənbələrinin yaradılması və dövlət pullarının istifadəsi və onların xərclənməsində qənaətlə əlaqədar müəssisələrdə işlərin yaxşılaşdırılması üçün Hesablama Palatası üzərində nəzarət etmək və bütövlükdə İran iqti-

sadiyyatına yardım etmək üçün hökumətin müzakirəsinə qanun layihələri təqdim etməyə borclu idi. Doktor Milsponun təyinatı haqqında qanuna əsasən onun dini və siyasi məsələlərə qarışması, xüsusi fəaliyyətlə məşğul olması və xarici dövlətlərin qulluqçuları ilə yazışmalara girməsi qadağan olunmuşdu. O, həmçinin nazirlərin səlahiyyətlərinə və İran qanunlarına hörmətlə yanaşmalı idi.

İran hökuməti həmçinin öhdəsinə alırdı ki, maliyyə nazirinin və gömrük xidməti direktorunun yazılı təsdiqi olmadan heç bir maddi öhdəliyi öz üzərinə götürməsin. Həmçinin yuxarıda göstərilən şəxslərin təsdiqi olmadan heç bir dövlət xərclərinə, eləcə də kapitalların yerdəyişməsinə yol verməməli idi.

Doktor Milsponun işə qəbul olunması haqqında müqavilə 1922-ci il avqustun 14-də Vaşinqtonda İranın səlahiyyətli naziri Hüseyn Əla ilə onun arasında imzalanmışdı. Doktor Milsponun zəmanəti üzrə onun daha bir neçə amerikalı əməkdaşı işə qəbul olundu. Doktor Milspo İrana yola düşən zaman Parijdə, Əhməd şah ilə və bir müddət şahın canişini olmuş Naserolmülk ilə görüşmüşdü. Bu görüşdə Əhməd şah Milspoya demişdi: "Ezam edilən ABŞ missiyası, İranın son ümididir" **(43, № 19, 1963)**.

İranın seçiminə təsir göstərən bu hadisə haqqında əksər yazılı əsərlərdə və kitablarda rast gəlinən mühüm səbəb bundan ibarət idi ki, İranda ilk Amerika müşaviri Morqon Şusterin özü haqqında xoş təəssürat yaratmış və İranda olduqca qısa müddət olmasına baxmayaraq (8 ay 4 gün) çox məhsuldar fəaliyyətə malik olmuşdu. İranın hakim dairələri onun missiyasının uğurlarına maraq və əminlik göstərirdilər. Bütün bunlar Amerika diplomatiyasına böyük fayda gətirmiş və Amerika siyasətinə münasibətdə

İranlılarda müsbət yanaşmaya kömək etmişdi. Rusiya və İngiltərə kimi işğalçı ölkələrə xas olan müstəmləkə istismarında amerikalıların maraqlı olmadıqlarına əminlik yaradırdı. Belçikalı və fransalı məsləhətçilərdən fərqli olaraq, özünü İran hökumətinin üzvü sayırdı və imkan daxilində daha yaxşı cəhətdən İranın maraqlarını ödəməyə çalışırdı. O özünün bütün qüvvəsini maddi rifah səviyyəsinin yüksəldilməsinə və İranın iqtisadi cəhətdən tərəqqisinə sərf etməyə çalışırdı. Buna görə də hökumət Birinci Dünya müharibəsindən sonra dövlət işlərini nizama salmaq üçün xarici müşavirlərin cəlb edilməsi haqqında qərar qəbul edən zaman ilk növbədə Şusterə müraciət olunmuşdu və onu dəvət etmişdilər ki, o yenidən İrana gəlsin. Ancaq Şuster İranın Amerikadakı səlahiyyətli səfirinin təkidli xahişlərinə baxmayaraq, İranda hər hansı bir missiyanı öz üzərinə götürməyə razılaşmadı və başqasını təklif etdi. Bu şəxs Amerikanın Xarici İşlər Nazirliyində iqtidsadi müşavir işləyən doktor Artur Çester Milspo idi. İranın Şusterə simpatiyasından başqa aşağıdakı səbəbləri göstərmək olar ki, İran amerikalı müşavirlərin dəvət olunmasında maraqlı idi:

- Amerika hökumətinin o zamanlar beynəlxalq işlərdə bitərəf olması;
- Amerika hökumətinin o vaxta qədər İranda iqtisadi maraqlar güdməməsi;
- İran hökumətinin şimaldakı neft yataqlarının işlənilib hazırlanması üçün Amerikaya konsesiya verməklə, İngiltərəyə qarşı başlıca kart kimi siyasi fayda almağa çalışması;
- Amerika hökuməti, İran hökumətinə istiqraz verməyə hazır olması;

- Amerika kapitalının cəlb edilməsi nəticəsində Rusiya və İngiltərənin nüfuz xətti üzrə İranın iki hissəyə bölünməsi təhlükəsinin arxa plana keçməsi;

Yuxarıda qeyd olunan çoxsaylı maliyyə çətinliklərinə baxmayaraq, doktor Milspo olduqca ehtiyatla işləməyə başladı. O öz kitabında da bu hadisələrə aydınlıq gətirərək yazırdı ki, öz fəaliyyətinə mövcud vəziyyətin diqqətlə təhlilindən və əsas tələbatı nəzərə almaqla başlamışdır. O, addım-addım irəliləyərək xalqa lazım və faydalı olan şeylərə nail oldu və nəticə etibarı ilə ölkənin iqtisadi və maliyyə işlərini nizama saldı. Əlbəttə, Milsponun ezamiyyətinin beş ili ərzində qəribə və üzücü çətinliklər olmuşdu. Bunlar hamısı onun dövlət qanunlarına qətiyyətlə və barışmaz əməl etməsindən irəli gəlirdi. Onun İran hökuməti ilə bağladığı müqaviləyə şərtsiz əməl olunurdu. Milsponun öz xatirələrində etiraf etdiyi kimi, bütün bu çətinliklər qeyri-adi tərzdə aradan qaldırılırdı. O, şəxsən çətinliklərin dəf olunmasına çox da təsir göstərməsə də nəticə onun üçün xüsusilə faydalı oldu. Belə ki, biz onun fəaliyyətini tədqiq etməyə başlayan zaman burada onun uğurlarının səbəbləri haqqında danışmayacağıq. Çünki bu barədə başqa bölmədə bəhs olunur. Milsponun fəaliyyəti dövründə qəbul edilmiş ən mühüm qərarlardan birini aşağıdakı kimi ifadə etmək olar:

Əl-qolu bağlayan vergilərin ləğv olunması və faydalı tariflərlə vergi ödənişi qaydalarının qəbul edilməsi ilə yanaşı dövlətin nüfuzlu və varlı şəxsləri, eləcə də yarım asılı vəziyyətdə olan əyalətlərinin qüdrətli hakimlərinin vergi ödənişinə cəlb edilməsi.

Vergi İdarəsinin təsis edilməsi və dövlətin torpaq ehtiyatlarına dair sərəncam verən idarənin ona birləşdirilməsi, İranın ək-

sər şəhərlərində vergi qulluqçularının nüfuzunu yüksəlməsinə və qiyamçı hakimlərə qarşı Rza xanın hərbi yürüşlərinin maddi cəhətdən təmin edilməsi ilə ölkə daxilində sülhün bərqərar olması və tiryəkdən istifadənin məhdudlaşmasına səbəb olur **(9, s.14)**. Dövlət qulluqçularının muzdla işə qəbul olunmaları haqqında qanunun tərtib olunması, rütbə və dərəcələr haqqında cədvəllər əsasında onların əməyinin vaxtı-vaxtında ödənilməsi, dövlət xəzinəsinin nizama salınması, İranın xarici istiqrazlar alınmasına ehtiyac duymadığı bir şəraitin təmin olunması **(36, s.152)**.

Bu hissədə də, biz danışıqlardakı ölçüyə və bu başlığın qısa olmasına əməl etməklə sadəcə olaraq doktor Milsponun ezamiyyətinin ilk illərində hayata keçidiyi əsas tədbirləri sadalamaqla kifayətlənirik: ölkənin başlıca xəzinədarlığı haqqında qanunun tərkibi və qəbul edilməsi. Bu olduqca sürətlə yaradıldı və fəaliyyətə başladı. Dövlətin bütün gəlirlərinin və xərclərinin ölkənin Baş xəzinədarlığında cəmlənməsi haqqında qərar qanun formasında qəbul olundu və dərhal fəaliyyətə başladı. Gəlirlər və xərclər üzrə mükəmməl büdcə işlənib hazırlanaraq Məclis tərəfindən təsdiq olundu. Cari xərclərlə yanaşı 400 min tümən tarixə salınmış borclar ödənildi. Bütün dövlət xərclərinə nəzarət üzrə effektli və tam nəzarət sistemi yaradıldı. Qohumbazlıq və tanışlıq prinsipləri üzrə vəzifə maaşlarının, təqaüdlərinin və digər ödənişlərin müəyyənləşdirilməsi qadağan olundu. Birbaşa vergiləri toplayan idarələr birləşdirildi və Dövlət Torpaq İdarəsi ilə birlikdə vahid idarəyə çevrildi.

Dövlət vergilərinin yığılmasının qaydaya salınması üzrə, xüsusilə ədalətli və vahid bir sistem üzrə birbaşa vergilərin yığılmasının möhkəmləndirilməsi üçün tədbirlər toplusu qəbul olundu.

Vergilərin yığılması və borcların bölüşdürülməsi üzrə xidmət sahəsi nəzərdə tutuldu. Vergilərin yığılması üçün qəti tədbirlər qəbul edildi. Tiryək istehsalının məhdudlaşdırlması haqqında qanun qəbul olunduqdan sonra, bu sahənin məhdudlaşdırılmasında maraqlı olmayan ayrı-ayrı qüvvələrdən ərizələr alındı. Buna görə də İsfahan və İranın digər vilayətlərində bu qanunun icra edilməsi üzrə tədbirlər görüldü. Tehran, Azərbaycan və Xorasan kimi böyük vilayətlərin idarəçiliyi qaydaya salındı. Bu şəhərlər birbaşa olaraq amerikalılara tabe idilər.

Birbaşa vergilər, dolayısı vergilər və ərzaq idarəsi birləşdirilərək Maliyyə İdarəsinin rəhbərinə tabe olundu. Qərb Nəzarət İdarəsi təsis olundu. Altı əsas əyalətdə yol rüsümlarının toplanması səlahiyyəti İctimai İşlər Nazirliyindən alınaraq Vergilər Nazirliyinə verildi.

Bütün dövlət müəssisələri üçün bütün dövlət satınalmaları zəruri təchizat idarəsində cəmləşdirildi. Bütün dövlət nəşirləri Milli Məclisin Nəşriyyatında cəmləşdirildi.

Zərbxana təmir olundu. Onun fəaliyyətində təkmilləşdirmələr nəzərdə tutulmuşdu ki, bu da vəsaitə qənaət etməyə imkan verirdi.

Bank işində tərəqqiyə nail olundu, həmçinin müddəti keçmiş bank borcları üzrə vaxtı keçmiş ödənclər də həyata keçirildi.

Büdcədə Urmiya, Səlmas və Sulduz şəhərlərinin bərpa edilməsinə dair vəsaitlər nəzərdə tutulmuşdu. Həmçinin Torbat şəhərində zəlzələdən ziyan çəkənlərə yardım, eləcə də Kermanşahda vəba xəstəliyinə, İranın cənubunda isə digər yoluxucu xəstəliklərə qarşı mübarizə üçün vəsait ayrılmışdı.

Təbriz-Culfa dəmir yolunun təmiri üçün də vəsait nəzərdə tutulmuşdu. Amerikalıların nəzarəti alıtnda Urmiya şəhərində abadlıq işlərinə çəkilən xərclərin ödənilməsi üçün 5 min tümən ehtiyat vəsait saxlanıldı. Çəyirtkə sürülərinin və malyariya xəstəliyinin yayıcısı olan ağcaqanadların məhv edilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü.

İstiqrazlar üzrə əsas təkliflər verildi, dəmiryol tikintisi təklif olundu. Lombard yaradıldı, həmçinin dövlətdən alınan borclar üzrə nağd hesablar üzrə təkliflər verildi.

Doktor Milspo neftə və momaeziyə dair qanun, eləcə də gümüş ixracatına qadağa qoyan qanun ətrafında müzakirələrdə iştirak etdi.

Dövlət qulluqçularının işə qəbul olunması qaydaları haqqında müfəssəl nizamnamə işlənib hazırlandı və mətbuatda dərc ediləndən sonra həyata keçirilməyə başladı.

Mədaxil, məxaric və hesablaşmalar üzərində nəzarətə dair komitə ləğv olundu. Baş İstintaq İdarəsi yaradıldı. Baş direktorun rütbəsi ləğv olundu. Müşavirlərin, onların yazılı və şifahi tərcüməçilərinin əmək haqqı daxil olmaqla Maliyyə Nazirliyinin büdcəsi bu idarənin keçən ilki büdcəsindən az idi. Maliyyə nazirliyində vəzifələr artıq intizama verilmirdi. Gözləməkdə olan təxminən 40 nəfər dövlət xidmətinə qəbul olundu və 400 nəfərdən çox şəxs büdcə mülahizələri ilə əlaqədar ixtisara salındı. Bu rəqəmdən daha çox işçi isə müxtəlif hüquq pozuntularına görə işdən azad edildi.

İdarələr arasında bir neçə il ərzində yığılıb qalmış aydınlaşdırılmamış rəsmi yazışmalara nəhayət, aydınlıq gətirildi. Maliyyə

Nazirliyinin yazışmaları isə daha ciddi və intensiv xarakter almışdı **(49, s.324-325)**.

Doktor Artur Milspo ABŞ nümayəndəliyinin keçirdiyi tədbirlərlə əlaqədar olaraq yazırdı: "İran iqtisadiyyatının nizama salınmasında iranlıların iştirakı və səyləri sayəsində böyük işlər görüldü. Gəlirlər artmış, xərclərə nəzarət başlamışdı ki, nəticədə xeyli qənaət əldə edilmişdi. Tədricən yığılmış məbləğ iqtisadiyyatın inkişafına və ümumi rifaha səviyyəsinin yüksəldilməsinə kömək edən işlərə sərf olunurdu. Büdcə kəsirinin və istiqrazların doğurduğu neqativ məqamlar ləğv olundu. Hesablar üzrə borclar ödənilməyə başlandı ki, bu da hökumətə etimad hissinin güclənməsinə səbəb oldu və hakimlərin şəxsi mənafelərindən doğan korrupsiyanın isə demək olar ki, qarşısı alındı. Bütün qanunlar icra olunmağa başladı. Balanslaşdırılmış büdcənin əsasına belə bir prinsip qoyuldu ki, əlavə xərclər əlavə vergilərlə ödənilməlidir. Bunu Milli Məclis də rəsmi şəkildə təsdiq etdi. Əgər Amerika müşavirlərinin gəlişindən sonra İranda hər hansı bir möcüzə baş vermişdisə, bu iranlıların əməyi sayəsində olmuşdur" **(43, №19, 1963)**.

Məcid Ektayi özünün "İranın maliyyə tarixi" adlı kitabında yazırdı: "Doktor Milsponun gördüyü tədbirlər nəticəsində gəlirlərin toplanması və xərclər üzərində nəzarət hər yerdə yerinə yetirilməyə başladı. O, vergi idarəsində və xəzinədə qayda-qanun yaratmaq üçün özünün qanuni hüquqlarından istifadə edir, büdcəyə ödənilməmiş vəsaitlərin toplanılması ilə məşğul olurdu. Daima qeyri tarazlıqda olan dövlət büdcəsi tədricən nizamlanmağa başladı. Doktor Milspo tərəfindən işlənib hazırlanmış və ilk dəfə 1922-ci ildə (h.1301) təsdiq olunmuş dövlət xidməti haq-

qında qanun bir neçə maddədən ibarət olmaqla bəzi düzəlişlərlə və əlavələrlə qəbul olunduqdan sonra uzun illər fəaliyyət göstərmişdi" (33, s.176).

Bütövlükdə Milsponun birinci ezamiyyəti zamanı onun səyləri İran üçün faydalı idi və özündən sülhsevər ölkə obrazı yaratmaqda Amerikaya kömək etdi. Çünki ABŞ geri qalmış ölkələrin inkişafına yardım etməklə özü haqqında yaxşı təəssürat yaratmaq niyyətini güdürdü.

Doktor Milspo özünün "Amerikalıların İrana Missiyası" adlı kitabında yazırdı: "1925-ci ilin (h.1304) yazından başlayaraq, biz ezamiyyətimizin 3 illik dövründən sonra 4 maliyyə ilini başlayan zamandan bu vaxta qədər mən əsas tədbirləri aşağıdakı tərzdə qısaca olaraq bu cür ifadə edə bilərəm. Qeyri-rəsmi hesablamalar göstərir ki, 1925-ci il martın 21-də sona çatmaqda olan maliyyə ilində büdcə kəsiri yarım faizədək ixtisar olunmuşdu, Məhsul tədarükü işini pozmuş və dövlət gəlirlərinin azalmasına kömək etmiş məhsul qıtlığına baxmayaraq, keçən illə müqayisədə vergilər 12% çoxalmış, yersiz xərclər üzərində möhkəm nəzarət qurulmuşdu. Bütün dövlət satınalmalarının cəmləşdirilməsi dövlət xəzinəsində 50 min tümən qənaətə səbəb olmuşdu **(9, s.83)**.

"İran Bankı"-nın (Rus İstiqraz Bankının yeni adı) bütün əmlakı və kapitalları Maliyyə Nazirliyində cəmləşdirildi. İran xalqı İran Milli Bankının yaradılmasına böyük maraq göstərirdi.

Borc sahiblərinin hüquqlarının satın alınması, xalqına olan borcların verilməsi və kəndlilərə dəyən ziyanın ödənilməsinə dair qanunlara Məclisdə baxılması təklif olundu. Qeyri-qanuni ticarət və qaçaqmalçılıq nəzərə alınmadan, idxalat və ixracat ara-

sındakı fərq daima azalırdı. Zərbxana gümüş idxalı ilə əlaqədar gecə-gündüz işləyirdi. Gömrük rüsumu, "Şimal" balıqçılıq kompaniyası və SSRİ nümayəndəliyi arasında problemlər ətrafında danışıqlar uzun sürsə də uğurlu nəticə vermədi. Belə görünürdü ki, İngiltərə hökumətinin bəzi yumşaq təklifləri, İran tərəfindən İngiltərənin borclarının ödənilməsi haqqında sazişin əsasında dura bilərdi. İranın iqtisadi vəziyyətini öyrənmək üçün Hollandiyadan mütəxəssis gəlmişdi **(9, s.215-216).**

Burada doktor Milspo ilə əməkdaşlıq etmiş İran Komissiyası üzvlərindən birinin rəyini misal çəkmək yerinə düşərdi: "... Onların ən birinci tədbirləri, səpələnmiş bütün maliyyə idarələrinin cəmləşdirilməsi oldu. Hətta onların bir hissəsi müdafiə nazirinin nəzarəti altında idi. Vahid iqtisadi siyasət bir əldə cəmləşdirildi. Maliyyə İdarəsinin rəisi qanunla ona verilmiş səlahiyyətlərindən istifadə edərək bütün vergilərin alınmasını və Hesablama Palatası üzərində nəzarəti bir əldə cəmləşdirdi. Olduqca mühüm faktlardan biri bu idi ki, amerikalılar o vaxtadək yalnız toplu şəklində mövcud olan qanunların həyata keçməsinə nail oldular. Onlar bu qanunları üzə çıxararaq onların icrası istiqamətində əməli tədbirlər gördülər. Müdafiə Nazirliyi onun tərəfindən qanun və qərarlara əməl olunması haqqında Maliyyə Nazirliyinin qeydlərini böyük təəccüblə qarşıladı, bir sıra hallarda isə ümumiyyətlə, onların mövcudluğu haqqında tam məlumatsızlıqlarını bildirirdi. Yadımdadır, xaricə ezam olunmuş diplomatların əmək haqqı tələb olunan zaman, ilk dəfə olaraq onların xaricdə olma müddətinin müəyyənləşdirilməsini tələb etdilər. Oradaca aydın oldu ki, bəzi diplomatlar orada qanunla müəyyən

olunmuş 5 ildən artıq qalmışlar. Onların əmək haqqı təqdim edilmiş siyahılar üzrə ixtisar olundu. Bu xarici İşlər Nazirliyinin kəskin etirazına səbəb oldu. Çünki nazirlik təsdiq edirdi ki, bəzi qanunların yerinə yetirilməsi mümkün deyildi. Maliyyə Nazirliyi və digər nazirliklər arasında bu cür hallar və rəqabət olduqca çox idi. Lakin Maliyyə Nazirliyinin mövqeyi həmişə eyni olmuşdu: Nə qədər ki qanunlar mövcuddur, onları mütləq yerinə yetirmək lazımdır. Əgər qanuna iddia varsa onu Məclisdən keçirərək dəyişdirmək lazımdır. Son nəticədə Maliyyə Nazirliyinin belə bir möhkəm mövqeyi qanunların yerinə yetirilmədiyi hallarda nazirliyin onların düzəlişləri üzrə təklif verməsinə kömək etdi. Bu cəhətdən, bu maliyyə idarəsi amerikalıların bu idarəyə rəhbərliyi nəticəsində əməldə ölkədə qanunçuluğu bərpa etdi.

Bir çox illər ərzində yerinə yetirilməmiş ən mühüm qanunlardan biri ümumi hesablaşmalara dair qanun idi. Mahiyyət etibarı ilə bu qanun büdcənin tərtibindən başlayaraq, vergi məmurunun əmək haqqının hesablanmasına qədər dövlətin təsərrüfat işlərində rəhbər tutulan əsas sənəd oldu və 1911-ci il fevralın 21-də (h.ş.1289, 2 esfənd) parlament tərəfindən təsdiqləndi. Ancaq amerikalılar 1922-ci ildə (h.ş.1301) işə başlayana qədər keçən 12 il ərzində bu qanun icra olunmadı. Sanki belə bir qanun ümumiyyətlə, mövcud olmamışdı. Amerikalıların fəaliyyətə başlamamışdan 5 ay əvvəl qəbul edilmiş növbəti qanun, dövlət qulluqçularına şamil olunurdu. Bu qanun da amerikalılar işə başlayandan dərhal sonra həyata keçirilməyə başladı və bu cəhətdən qulluqçuların və ehtiyatda olan qüvvələrin qeyri-müəyyən vəziyyəti dərhal müəyyənləşdi və dövlətdə işlərin nizama salınma-

sında böyük addım atıldı. Digər xidməti və vergi qərarları da var idi ki, Maliyyə Nazirliyi onları təsdiq və tətbiq edərək ölkənin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında böyük tərəqqi əldə etdi. Amerikalıların 5 illik idarəçiliyi müddətində iqtisadiyyatda böyük nailiyyətlər və tərəqqi əldə olundu ki, bu da dövlətin nüfuzunun artmasına kömək etdi. Amerikalıların xidməti təkcə maddi deyil, həm də mənəvi fayda gətirdi. Belə ki, dövlət xidməti haqqında qanunun qəbul edilməsi, əmək haqlarının vaxtlı-vaxtında ödənilməsi, qanun pozucularının cidd cəzalandırılması və bacarıqlı kadrların həvəslən-dirilməsi bütövlükdə bütün dövlət qulluqçularının və xüsusilə də Maliyyə Nazirliyi işçilərinin münasibətini və əhval-ruhiyyəsini dəyişdi.

## 2.3. Milspo missiyasının uğurlarının səbəbləri və onun əleyhdarları

Doktor Milspo 1922-ci ilin noyabr ayında (h.ş. 1301-ci ilin azər ayı) İran iqtisadiyyatı üzrə maliyyə məsuliyyətini öz üzərinə götürən zaman, iqtisadi vəziyyətin mürəkkəbliyinə və böyük çətinliklərə baxmayaraq, onun təkmilləşməsinə kömək edən ünsürlərdə fərqlənirdi. Şübhəsiz ki, onlarsız onu da vaxtilə İranı tərk etmiş Şuster missiyasının taleyi gözləyə bilərdi. İranın bütün ərazisində mərkəzi hakimiyyətin möhkəmləndirilməsi ən mühüm və başlıca amil idi. Şusterin dövründə bu hakimiyyət azca paytaxtın hüdudlarından kənara yayılırdı və bunun üçün də Şuster paytaxtın hü-

dudlarından kənarda vergiləri toplamaq üçün "Xəzinə jandarmeriyası" adı altında xüsusi bir silahlı qurum təsis etməli olmuşdu. Milspo isə daha əlverişli bir şəraitdə işə başladı. Çünki onun dövründə artıq hərbi nizam-intizam, mərkəzi hakimiyyətin qüdrəti və hərbçilər tərəfindən onun müdafiə olunması daha güclü idi. Davamlı qarışıqlıq dövründən və nizamsızlıqdan sonra İran ilk dəfə olaraq möhkəm mərkəzi hakimiyyətə malik oldu. Xarici silahlı qüvvələr ölkədən çıxarıldıqdan sonra tayfa başçılarının qiyamları yatırıldı və artıq kimsə müstəqillik haqqında danışmırdı. Yəni Milspo əvvəlki xarici müşavirlərin üzləşdikləri problemlərlə üzləşmədən işə başladı. Ölkəyə gəlişlərindən sonra xarici müşavirlərin üzləşdikləri çətinliklər, düzgün informasiya və statistik məlumatların, müxtəlif fitnələrin olmamasından və islahatların keçirilməsində maraqlı olmayan irticaçı elementlərin əks fəaliyyətindən irəli gəlirdi. İnsanların əl-qolunu bağlayan bəzi adət və vərdişlərlə əlaqədar, eləcə də tərcüməçilərlə bağlı çətinliklər qalmaqda idi ki, onların hamısı tədricən aradan qaldırılırdı.

Doktor Milsponun uğurunun ikinci səbəbi Avropada təhsil alıb ölkəyə qayıdan savadlı gənclər idi. Onların davranışları digərləri üçün nümunə rolunu oynayırdı. Həmçinin, uzun müddət belçikalı və fransalı məsləhətçilərin rəhbərliyi altında fəaliyyət göstərmiş çoxsaylı maliyyə nazirliyi və vergi idarəsi qulluqçularının mövcud olması idi. Bu amil bu idarələr üçün yeni kadrların təlimi zamanı yaranmış bir çox çətinliklərin aradan qaldırılmasına imkan verirdi.

Milsponun uğurunun üçüncü səbəbi əhalinin zəkasını oyadan və onlara vətənə məhəbbət dərsi verən Birinci Dünya müharibəsi

oldu. Bu müharibədə çar Rusiyasının, İngiltərənin və Osmanlı İmperiyasının açıq-aşkar təcavüzü, həmçinin gizli fəaliyyət və Almaniyanın kəşfiyyat xarakterli addımları, mərkəzi hakimiyyətin dağılmasına kömək edirdi. Dövlətin aradan getməsi təhlükəsi yaranmışdı. Xalq dostluq haqqında olan bütün müqavilələrin heç bir əhəmiyyətə malik olmadığını və xarici dövlətlərin müdafiə vədlərinə arxalanmağın qeyri-mümkünlüyünü başa düşürdü. Bütün bu vədlər boş sözlər idi və onların bütün təminatları kağız üzərində qaldı. Buna görə də xalq özü fikirləşməli və öz dövlətinin möhkəm özülünu yaratmalı idi. Birinci Dünya müharibəsinin yaratdığı vətənə məhəbbət hissi bu dövrün ən qiymətli nailiyyəti oldu. İran xalqı mənəvi cəhətdən elə bir formada təhqir olunmuş və alçaldılmışdı ki, müharibə bitdikdən sonra İran və İngiltərə arasında məşhur 1919-cu il müqaviləsi imzalanan zaman bütün İran xalqı ona qətiyyətlə müqavimət göstərmişdi. Lakin Amerikanın bu müqavilənin ləğv edilməsində əhəmiyyətli rol oynamasına gəlincə, bu xalqın düşüncəsində müsbət iz qoymuş, amerikalı mütəxəssislərin dəvət olunmasında əhəmiyyətli rol oynamışdır.

Milspo "Amerikalıların İranda missiyası" adlı kitabında qeyd etdiyi kimi dəfələrlə təkrarlamışdı ki, onun uğurlarının əksəriyyəti baş komandan Rza xanın şəxsi yardımı sayəsində əldə olunmuşdu. O, etiraf edirdi ki, əgər bu insan olmasaydı, onun missiyasının müvəffəqiyyətli sonu olmazdı.

Doktor Milspo öz kitabında yazırdı: "Yüksək rütbəli nazirlərin və yüksək mənsəbli bürokratların əksinə olaraq, Məclisin mütərəqqi nümayəndələrinin bir hissəsi yəni 10 il əvvəl Morqan Şusterin təkmilləşdirmə proqramını müdafiə edən şəxslər bu də-

fə də bizə kömək edib, bizi dəstəklədilər. Xoşbəxtlikdən onlardan başqa bizi dövlətin qüdrətli hərbi naziri Rza xan Pəhləvi də müdafiə etdi. Onun və yenidən yaradılmış, güclü İran ordusunun köməyi və dəstəyi olmadan, İrandakı bütün təşəbbüs və dəyişikliklər faydasız olaradı. Açıq etiraf etmək lazımdır ki, əgər onun yardımı və dəstəyi olmasaydı, amerika ekspertlərinin missiyası ilk başlanğıcından uğursuzluğa düçar olardı" **(15, s.22)**.

Rza xanın yardım və dəstəyinə, onun fəaliyyətinə və göstərdiyi yardıma Milsponun xatirələrində və 1924-cü ilin (h.ş. 1303) birinci kvartalı ərzindəki hesabatında rast gəlmək mümkündür. Bunlara nəzər saldıqda belə bir həqiqəti başa düşmək olar ki, Rza xan müxtəlif səbəblərdən ondan uzaq düşən zaman və yaxud da köçəri tayfalara qarşı hərbi əməliyyatlarla əlaqədar olaraq onun işləri və xahişlərilə məşğul olmağa imkan tapmamışdı. Milspo üçün bu istiqamətdə elə bir çətinliklər yaranmışdı ki, o hətta öz idarəsi daxilindəki işləri belə idarə edə bilmirdi. Təsadüfi deyil ki, bir neçə aydan bəri Məclisdə toz basmış 1924-cü il (h.ş.1303) büdcəsini təsdiq etmək, yubanmışdı. Ancaq Rza xan cənub yürüşündən qayıtdıqdan və şeyx Xəzəl məsələsi iki ay ərzində başa çatdıqdan sonra problemlər elə tezliklə və gözlənilmədən həll olundu ki, bu vəziyyət hətta Milsponu belə heyrətləndirdi. Halbuki o vaxta qədər onun üçün o qədər çətin olmuşdu ki, ünvanına söylənilən tənqidlər və iradları eşitmiş və ciddi surətdə istefa verməyə hazırlaşırdı **(9, s.11)**.

Hər halda torpaq sahiblərinin və digər əleyhdarların etirazlarına baxmayaraq doktor Milspo və onun əməkdaşları öz vəzifələrini yerinə yetirən zaman xüsusi müqavimətə rast gəlmədilər.

Hərbi nazirin və mütərəqqi deputatların onlara göstərdikləri dəstək və havadarlıq bütün vergi və gəlirlərin Maliyyə Nazirliyində toplanması başa çatdı və ölkədə mütərəqqi dəyişikliklərin başlanğıcı üçün zəruri baza yarandı **(16, s.53)**.

Doktop Milspo, xatirələrinin başqa bir hissəsində amerikalı ekspertlərin fəaliyyətinə hərbi nazirlik tərəfindən göstərilən yardıma toxunaraq qeyd edir: "Baş nazirdən və hərbi nazirdən aldığımız böyük dəstək nəticəsində bizdə missiyamızın heç bir təhlükə ilə üzləşməyəcəyinə inamı yarandı" **(9, s.169)**.

O, Məclisin bəzi deputatlarının dəstəyi haqqında yazırdı: "Məclisdə mütərəqqi deputatlar qrupu vardır ki, onlar amerikalı müşavirlərin missiyasının daha da möhkəmlənməsinə və uğruna səmimi qəlbdən inanırlar. Misal olaraq Mustafülmə-malek və Moşiroddövləni (Nazirlər Kabinetinin sabiq sədrləri), Kisfar və Şahruhi (zərdüştlərin deputatları) Hüseyn xan Əlam və Tağızadəni göstərmək olar" **(9, s.250)**.

Amerika məsləhətçiləri öz işlərinə başladıqları ilk anlardan etibarən uzun illərdən bəri dövlətə vergiləri və qanuni rüsumları ödəməkdən yayınan böyük torpaq sahiblərinin və əyanların müqavimətilə üzləşdilər. Milsponun öz əməkdaşlarının içərisindən seçdiyi vilayət üzrə maliyyə idarələrinin rəisi ilə yerli qarnizonların komandanları arasında fikir ayrılığı yaranırdı. Onların toqquşması isə bəzən vergi idarəsinin Baş direktoru doktor Milspo ilə hərbi nazir Rza xan arasında münasibətlərin pozulmasına və soyuqlaşmasına gətirib çıxarırdı **(16, s.52)**.

Düşmənlər və əleyhdarlar ölkənin maliyyə durumunun möhkəmləndirilməsini və belçikalı Mernardın və Nausun fəaliyyətlə-

ri zamanında olduğu kimi, ölkənin maliyyə işlərinin başında doktor Milsponun iştirakı ilə özlərinin məkrli planlarını bir daha həyata keçirə bilməyəcəklərini görəndə öz taktikalarını dəyişərək, Milspoya qarşı fitnə-fəsad törətməyə başladılar **(36, s.153)**.

Elə bu zaman dəmir yollarının tikintisi və şimal neft yataqlarının işlənib hazırlanması üzrə konsessiya kimi iqtisadi layihələrin hazırlanmasına başladılar. Məqsədləri isə bu idi ki, Milspo iş başında olan müddətdə İrana zəruri olan iqtisadi və ticarət sahələrinin inkişafı məqsədilə dəmir yolunun inşası əvəzinə onun "siyasi" istiqaməti tikilsin və yaxud Amerika-İngilis kompaniyasının pərdəsi altında cənub yataqlarının sahibləri şimal neft yataqlarını ələ keçirsinlər və onları İran xalqından oğurlasınlar. Növbəti məsələ ondan ibarət idi ki, doktor Milspo demişdi ki, Müdafiə Nazirliyi hökumət strukturudur və bütün digər nazirliklər tək Maliyyə Nazirliyinə tabe olmalıdır. Lakin Müdafiə Nazirliyinin rəhbərliyi bu fikirlə razılaşmadı.

Nəhayət, həm hökumətdə, həm də olduqca nüfuzlu siyasətçilərin çıxış etdikləri Məclisdə, Milspo əleyhinə çıxışlar başlandı. Milsponu müdafiə edən mütərəqqi deputatlar bu çıxışlara qarşı çıxdılar. Məsələn, o dövrün qəzetlərinin birində doktor Milspo əleyhinə bu kimi yazılara rast gəlinirdi: "Milsponun bizim iqtisadiyyatımızda qayda yarada biləcəyini düşünməyimiz böyük səhv oldu. Etiraf etməliyik ki, yüksək səlahiyyətlərə və verilən böyük dəstəyə baxmayaraq, onun fəaliyyəti nəticəsində biz böyük sıfır aldıq. Biz vergilərin toplanması məqsədilə onun sərəncamına qırx min silahlı verdik. Nəticədə isə onlarla borclular arasında çəkişmə yarandı və Milspo dövlət xərclərinin artırılmasına gətirib çıxaran belə bir siyasət qəbul etdi" **(30)**.

Burada doktor Milsponun məruzəsinə diqqət yetirmək yerinə düşərdi. O, artıq yuxarıda qeyd olunan 1920-ci ilin (h. ş. 1303) birinci kvartalı üzrə məruzədə Amerika mütəxəssislərinin əldə etdikləri nəticələrlə razı qaldığını ifadə edir. O, İran xalqını xəbərdar edirdi ki, iqtisadiyyatın təkmilləşdirilməsinə aparan yolda maneələr qoyulmuşdur. Bunlar son nəticədə məğlubiyyətə gətirib çıxara bilər. O qeyd edirdi ki, iqtisadi işlər təhriflərə məruz qalır. Milspo əlavə edirdi: "İqtisadi islahatlar və İranın iqtisadi binasının yenidən qurulmasını yalnız amerika mütəxəssisləri yerinə yetirməli deyildirlər. Onların əsas hissəsi və bu dəyişikliklərin əsası yalnız dövlət müəssisələri ilə əməkdaşlıq yolu ilə mümkündür və yerinə yetirilməlidir. Ancaq, təəssüflər olsun ki, bu gün biz belə bir əməkdaşlığı müşahidə etmirik" (157, 07.10.1924).

Daha sonra doktor Milspo amerikalıların nəzarəti altında keçirilən faydalı dəyişikliklər haqqında danışır və belə bir əməkdaşlığın olmamasına görə dövlət müəssisələrinə zidd fəaliyyət və islahtların ləngiməsinə görə tənqid edirdi. O yazırdı: "1924-cü ilin (h.ş.1303) keçən üç ayı ərzində bizimlə kifayət dərəcədə sıx əməkdaşlıq etmədilər. Bizim fəaliyyətimiz isə nəinki tənqidə məruz qaldı, həm də ona qarşı hərəkətlər oldu. Əsas layihələrdən bəziləri rədd edildi və ya onlar sadəcə, unuduldu. Faydalı müqavilələr qüvvədən salındı, dövlət rəsmiləri isə bizi müdafiə etmədilər və bizim idarənin gücləndirilməsi istiqamətində heç bir addım atmadılar. Büdcə təsdiq olunmadı, Poçt və Teleqraf Nazirliyi vicdansızcasına artıq xərcləri və qanuna zidd əməllərini davam etdirirdi. Bizi, hətta Məclisin iclasında vergilərin yığılması, büdcənin gəlir hissəsinin artırılması və xərclərə nəzarət üçün lazım olunan Ma-

liyyə Nazirliyinin xərclərini azaltmaqla hədələyirdilər. Təklif olunan büdcənin qəbulunun və əlavə vergilər üzrə təklif olunan qanun layihələrinin təsdiqlənməsi prosesinin ləngidilməsi nəticəsində istehsalın və iqtisadiyyatın inkişafı üzrə layihələri minimum bir il təxirə salmaq zərurəti meydana gəldi. Bundan əlavə, biz hətta xarici istiqraz haqqında xahişlə müraciət etməyə imkan tapmadıq". Sonra o, belə bir yekun nəticəyə gəlir: "Hazırda tamamilə aydındır ki, əgər ölkədə maliyyə vəziyyətinin təkmilləşməsi uğurlu sona yetməzsə məğlubiyyətə görə məsuliyyətin maliyyə sisteminin təkmilləşdirilməsi üzrə bizim təkliflərimizi inkar edən, bizim layihələri rədd edən, bizim işlərimizə müdaxilə edən və bizim üçün xeyli əlavə çətinliklər yaradan şəxslərin üzərinə düşür. Əgər mən İran xalqına vəzifə borcumun hansı səbəbə görə yerinə yetirilməsinin ləngidiyini, bəzən isə ümumiyyətlə, mümkün olmamasını sübut edə bilməsəm, onda bu o deməkdir ki, mən öz borcumu yerinə yetirmirəm" **(157, 07.10.1924).**

Baş komandan Rza xan, 1923-cü ildə, (h. aban 1302) Moşirəddövlənin kabineti istefaya çıxdıqdan sonra Şah tərəfindən baş nazir vəzifəsinə təyin olundu. Doktor Milspo yazırdı: "Rza xanın yeni vəzifəsi özünün təbiətinə görə belə tələb edirdi ki, onunla amerikalı maliyyə məsləhətçiləri arasında fikir ayrılığı yaransın. Bu, ona görə idi ki, Milspo indi siyasi vəzifə tuturdu, halbuki bu vaxta qədər o, siyasətlə məşğul olmurdu.... Hərbi nazir bizim üzləşdiyimiz problemlərlə yalnız qoşun göndərilməsi və ya hərbi əməliyyatlar haqqında məsələ gündəmə gələn zaman üzləşir. İndi isə eyni zamanda Baş nazir olan hərbi nazir dövlət büdcəsi məsələləri, vergi siyasəti, ərzaq və digər məsələlərlə məş-

ğul olmalıdır. Çünki bunlar birbaşa onun iradəsi və qərarları ilə əlaqədar idi. O, diqqətini bizim ləngiməyimizə, dövlət müəssisələri strukturlarının səpələnməsinə və bizim səriştəsizliyimizə yönəldir, şəxsən əmindir ki, biz yumaq kimi bir yerdə dayanaraq aramsız olaraq əllərimizi yelləyirik. Aktiv fəaliyyətimizə və daimi hərəkətlərimizə baxmayaraq irəli hərəkət edə bilmirik və əhali arasına narahatçılıq toxumu səpirik" **(9, s.177)**.

Əlbəttə, Milsponun çıxardığı nəticələr düzgün idi. Son nəticə etibarı ilə Rza şah, Milspo başda olmaqla Amerika məsləhətçilərinin fəaliyyətinin davam etməsi və müqavilənin vaxtının uzadılmasının əleyhinə çıxdı. Milspo yazırdı: "1927-ci ildə (h. 1306) İrandakı xidmətimizin beşinci ili başa çatan zaman, mənim fikrimcə, Rza şahda xaricilərə bir növ düşmənçilik hissi yaranmışdı və onda belə bir inam meydana gəlmişdi ki, özü ölkənin bütün maliyyə çatışmazlıqlarını onlardan yaxşı aradan qaldıra bilər. Bununla da o, xarici müşavirlərin fəaliyyətini dayandırdı. Mən sonralar nazirlərdən birindən eşitdiyimə görə o, demişdi: İran eyni zamanda iki şahı özündə yerləşdirə bilməz. İşlərə ya mən başçılıq etməliyəm, ya da Milspo" **(9, s.26).**

Doktor Milsponun yazdığı kimi, onun düşmənləri onu bir çox pozuntularda, o cümlədən təkcə Maliyyə Nazirliyi üçün yetərli olan büdcəni planlaşdırmaqla, məclisin təsdiqi olmadan xarici banklardan istiqrazlar almaqda, maliyyə və digər idarələrin yenidən qurulması məsələlərində insafsızlıqda, qeyri-qanuni və zorakı üsullarla vergilərin yığılmasında, maliyyə nazirinin məsuliyyət və mövqeyinin inkar edilməsində, ehtiyacdan artıq sayda tərcüməçilərin işə cəlb olunmasında, layiqli qulluqçuların işdən azad

olunmaları və onların ləyaqətsiz şəxslərlə əvəzlənməsində, peşəkar biliklərin olmamasında və işdə vicdansızlıqda və digər buna oxşar hallarda təqsirli bilirdilər. Milspo öz xatirələrində yazırdı: "Bizim üçün tənqidin əhəmiyyəti o qədər də önəmli deyildir, ancaq onun əks-sədası və əlamətləri bizi narahat edir. Ona görə ki, əgər məclisdən, ondan kənardan olan hücumlar hökumət və Məclis tərəfindən həqiqətən təsdiq olunardısa və onların fikirlərini dəyişdirmək yolları olmazdısa, şübhəsiz bu bizim tədbirlərin məğlubiyyətinə gətirib çıxara bilərdi..." **(9, s.186).**

O yazırdı: "Biz, yaranan vəziyyəti nəzərə alaraq, bununla əlaqədar əsl tövsiyələrimizi demək xahişi ilə hökumətə müraciət etməyi qərara aldıq. Buna görə də 1924-cü il iyulun sonunda Baş nazirə məktub göndərdik və bu məktubda onun diqqətini üzləşdiyimiz çətinliklərə və müşahidə etdiyimiz hüquq pozuntularına yönəldərək xatırlatdıq ki, əgər iş şəraitimiz dəyişməyəcəksə bizim missiyamızın müvəffəqiyyətli sonuna şans qalmayacaq... **(9, s.186)** Bu etiraf məktubunu göndərdikdən sonra mən Baş nazir və hökumət ilə görüşdüm və üzləşdiyimiz problemlər haqqında onlarla danışıqlar apardım. Mən qeyd etdim ki, hökumətdə üzləşdiyimiz gərgin vəziyyət və çətinliklər tam hiss olunur. Baş nazir bizi əmin etdi ki, əvvəllər olduğu kimi, Amerika mütəxəssislərinin uğurlu xidmətinə ümid edir..." **(9, s.191).**

Doktor Milsponun apardığı yarışmalar və danışıqlardan sonra vəziyyət amerikalılar üçün əlverişli məcraya yönəldi. Doktor Milspo işi o yerə çatdırdı ki, 1923-cü ilin aprelindən 1924-cü ilin fevralına qədər Məclisdə baxılmış büdcə layihəsi nəhayət ki, uzun müzakirələrdən sonra qəbul edildi. Bu doktor Milspo tərə-

findən Məclis, hökumət və Amerika missiyası arasındakı qarşılıqlı münasibətlərin şirin bəhrəsi kimi qiymətləndirilirdi.

Milsponun işə qəbul olunması haqqında müqavilənin ikinci bəndinə əsasən (9, s.191) doktor Milsponun fəaliyyətə başlaması anından etibarən, üç illik müddət sona yetdikdən sonra onun xidmətinin yerdə qalan daha iki ilini, qəbul və ya təxirə salmaqda tərəflər bərabər səlahiyyətlərə malikdirlər. 1925-ci ilin əvvəllərində (h. 1304) onun üç illik xidmət müddəti başa çatdı və tərəflər yerdə qalan iki illik xidmət müddətini ya qəbul etməli, yada rədd etməli idilər. Doktor Milspo işini davam etdirmək niyyətində idi və bu barədə hökumətdən icazə istədi. Milspo Amerikanın iqtisadi ekspertlərinin xidmət müddətinin davam etdirilməsi barədə hökumət tərəfindən münasibətin bildirilməsi üçün Baş nazirə müraciət etdi. Hökumət onların fəaliyyətinin davam etməsinə maraqlı olduğunu bildirdi. Lakin onun iqtisadi komandasının bəzi üzvlərinin ezamiyyət xahiş etmələri və onların arasında İrana qayıtmaq istəməyənlərin olması ilə əlaqədar Milspo Baş nazirə müraciət edərək razılıq veriləcəyi təqdirdə digər amerikalı ekspertlərin işə qəbul edilməsini xahiş etdi. Bunun üçün xüsusi qanun layihəsi işlənib hazırlanmış və Məclisin müzakirəsinə verilmişdi. Bu qanun layihəsinə Rza xan tərəfindən dəstək verilməsi sayəsində 12 Amerika mütəxəssisinin işə qəbul olunması haqqında qanun heç bir maneə ilə rastlaşmadan 1925-ci il mayın 18-də (h. 29 ordibeheşt 1304) Məclis tərəfindən qəbul olundu. Bu qanun qəbul olunan zaman Milspo Amerikada ezamiyyətdə idi. Beləliklə, ikinci dəfə işə başlayanda Milspo missiyası 16 nəfərdən ibarət idi. Onlardan biri kənd təsərrüfatı depar-

tamentinin rəisi, 8 nəfər müxtəlif quberniyalardan olan iqtisadi müşavir idilər.

Rza xan Pəhləvi, Amerika ekspertlərinin işə qəbul olunmasını alqışladıqdan sonra doktor Milspo öz ezamiyyətindən istifadə etmək və yolüstü Amerika məsləhətçilərini yığmaq üçün ABŞ-a yollandı. Amerikadan qayıtdıqdan sonra onun işə başlaması Qacarlar sülaləsinin devrilməsi və Rza xan Pəhləvinin İran taxt-tacına seçilməsi ilə üst-üstə düşdü. O, bu iki il ərzində Rza xanın yardımına və dəstəyinə arxalanaraq, İrana böyük xidmət göstərə bildi. Ancaq onun fikrincə, Rza şahın "İran özündə iki şah yerləşdirə bilməz" rəyi ilə əlaqədar olaraq, beş illik xidmət müddəti başa çatdıqdan sonra doktor Milspo ilə müqavilə uzadılmadı və o öz əməkdaşları ilə İranı tərk etdi.

Məlum olduğu kimi, Rza şah orduya və asayiş qüvvələrinə böyük əhəmiyyət verir və onları üstün tuturdu. Hərbçilər onun xarakterinin bu xüsusiyyətinə bələd idilər və buna görə də yüksək tələblər irəli sürürdülər. Bu mövzu, hərbçilər və ABŞ-ın iqtisadi ekspertləri arasında olan ziddiyyətlərdə yaxşı görünürdü və bəzi hallarda isə Baş komandan və Maliyyə İdarəsinin Baş direktoru arasında fikir ayrılığına gətirib çıxarırdı. Ola bilsin ki, bu məqam Milspo ilə müqavilənin 5 illik müddəti bitdikdən sonra onun uzadılmamasında, həlledici rol oynadı.

Bir dəfə Məclisə belə bir məlumat daxil olmuşdu ki, Baş komandan xəbərdarlıqsız cənub istiqamətində səfərə hazırlaşır və növbəti ayın əmək haqqı hesabına yardım kimi xəzinədən pul xahiş etmiş və Maliyyə Nazirliyinin amerikalı qulluqçuları onun bu xahişinə rədd cavabı vermişlər. Belə olduqda şah oraya bir neçə silahlı hər-

bçi göndərmiş və onlar güc tətbiqi yolu ilə zəruri məbləği verməyə vadar edilmiş və nəzərdə tutulan məbləğ alındıqdan sonra səyahət baş tutmuşdur. Milspo onun idarəsinin hərbçilər tərəfindən təhqir olunmasından çox incimiş və öz istefa ərizəsini maliyyə naziri Mirzə Məhəmmədxan Zəkaülmülk Foruqiyə təqdim etmişdi.

Maliyyə naziri Xüsusi Şuranın üzvlərini və Milsponu öz evinə dəvət edir və orada bir neçə saat davam edən iclas keçirilir. Milspo yalnız bir şərtlə istefa ərizəsini geri götürməyə razılıq verir ki, bu səkkiz deputat və nazirlər bir daha belə hallara yol verməsinlər və bu hərəkət bir daha təkrarlanmasın. Baş komandan isə öz tabeçiliyində olanların hərəkətlərini yazılı surətdə pisləməli idi. Şura üzvləri belə bir öhdəlik götürdülər ki, Maliyyə Nazirliyinin işinin pozulmasına yol verilməsin və xarici müşavirlərin işində çətinlik yaranmasın.

Foruqi bu iclasın protokolunu Baş komandan üçün Quma göndərdi. Lakin şah onu yalnız İsfahanda ala bildi. Şah orada Milsponun ikinci tələbini yerinə yetirdi və tabeliyində olanların hərəkətlərindən narazılığını bildirdi **(61, s.335-336).**

Bu səbəbə görə Milspo və hərbçilər arasında tez-tez ziddiyyətlər yaranırdı. Hərbçilər isə nəzarət altında olmaq istəmirdilər. Milspo tələb edirdi ki, bütün nazirliklər kimi, Hərbi Nazirlik də büdcədən bərabər məbləğ alsın və digərlərilə bərabər məbləğdə əmək haqqı alsınlar. Baş komandan isə dövlət gəlirlərinin yarısını orduya xərclənilməsini və bu vəsaitlərin büdcədən gecikdirilmədən ödənilməsini istəyirdi ki, bu da dövlət başçısı və maliyyə idarəsinin rəisi arasında ziddiyyətli bir məsələ idi. Onlar hər biri öz rəylərinə əsasən öz kurslarını davam etdirirdilər **(64, s.308).**

Əlbəttə, danışıqlar nəticəsində hərbçilər və Amerika maliyyə nümayəndəliyi arasında qarşıdurma bir qədər sakitləşdi. Ancaq, mahiyyətcə bu kül altında od idi və beş illik xidmət müddəti bitdikdən sonra vaxtın uzadılması məsələsində əsas səbəb oldu. Milspo ilə müqavilənin uzadılmasından imtina edilməsinin digər səbəbi isə ingilislərin İranda Amerika müşavirlərinin olmasından narazı olmaları idi. Onlar belə hesab edirdilər ki, amerikalıların İrana dəvət olmalarının səbəbi İran xalqının 1919-cu il müqaviləsinin əleyhinə etiraz etməsi olmuşdu və xarici ekspertlərin İranın maliyyə vəziyyətini düzəltmək üçün amerikalılardan istiqraz almaq üçün zəmin yaradacaqlarını düşünürdülər. Bu, İngiltərənin iqtisadi siyasətinə, xüsusilə neft məsələsinə zərbə vurmaqla yanaşı, İranın cənubunda ingilislərə rəqabət yarada bilərdi. Bütün yuxarıda qeyd olunan səbəblər 1922-ci ilin avqustunda imzalanmış müqavilə 1927-ci ilin avqustunda başa çatandan sonra uzadılmadı.

Hələ 1927-ci il may ayının 30-da Hacı Müxbirolsəltənə Hidayət baş nazir qismində öz kabinetini təqdim etdi və Nüsrətoddövlə (Firuz Mirzə) maliyyə naziri vəzifəsinə təyin edildi. Doktor Milspo yazırdı: "Şahzadə Firuzun (Firuz Mirzə Nüsrətoddövlə) maliyyə naziri vəzifəsinə təyin edilməsinin səbəbi mənə əzab vermək və istefaya vadar etmək məqsədi güdürdü..." **(43, №19, 1963).**

Firuz Mirzə həqiqətən də amerikalıların əllərini qısaltmaq tapşırığını almışdı və Milsponun gümanları həqiqətə yaxın idi. Nüsrətoddövlə və Milspo toqquşdular və hətta onların arasında yazışmalar baş verdi. Bu məktublarda maliyyə naziri tərəfindən ittihamlar və hücumlar öz əksini tapmışdır. Bu məktublar Milsponu alçaltmaq məqsədilə mətbuatda da dərc olunmuşdu.

Milsponun muzdla tutulmasına dair müqavilənin müddətinin uzadılması haqqında onunla danışıqlar aparılması üçün iki tərəf seçildi: maliyyə naziri Firuz Mirzə Müxbiroldövlə və saray naziri Teymurtaş. Mehdiqulu Hidayət (Müxbirpolsələtənə) aparılan danışıqlar barədə yazırdı: "....Milspo ilə saziş başa çatır, şah müqavilənin müddətinin uzadılmasının əleyhinə, Məclis və xalq isə lehinədir. Mustafa (baş vergi yığan vəzifəsi) şübhələnir və mübahisə davam edir. Mustafa özünü narazı göstərir və Teymurtaşın müdaxiləsi xoşuna gəlmir. Onun, "Teymurtaşın sözü, mənim sözümdür" deməsi pərdə arxası nə isə sövdələşmə baş verdiyini sübut edirdi. " **(36, s.373).**

Bütün yuxarıda qeyd olunanlardan aydın olur ki, Milspo özünün birinci missiyası zamanı İran üçün əhəmiyyətli və olduqca faydalı dəyişikliklərin mənbəyi olmuşdur. Bu faktı o dövrün bir çox görkəmli xadimləri və media mənsubları da təsdiq edirdi. Doktor Müsəddiq prinsip etibarı ilə xarici müşavirlərin dəvət olunması ilə razı olmasa da, Məclisdə müzakirələr zamanı demişdir: "... Kamil və çatışmayan cəhəti olmayan bir şey yoxdur, onun rəhbərliyi altında maliyyə işləri keçən beş ilə ərzində qənaətbəxş olmuşdu. Bizim hamımız bilirik ki, onun gəlişinədək qulluqçuların əmək haqqı xeyli gecikirdi, indi isə müntəzəm olaraq hər ayın sonunda ödənilir. Onun gəlişinədək bəziləri müxtəlif üsullardan istifadə edərək vergi ödənişindən yayınmağa çalışırdılar. Onun gəlişindən sonra isə buna son qoyuldu. Vergilərin alınmasında və dövlət xərclərinin ödənilməsində müəyyən nizam qoyuldu. Mahiyyət etibarı ilə bu qayda vergilərin vaxtında ödənilməsindən xərclərin vaxtında verilməsindən ibarət idi. Bu isə

maliyyə idarəsini nüfuza mindirdi. Xalq vergiləri vaxtlı-vaxtında ödəməyə vərdiş etməyə başladı və vergilərin ödənilməsindən yayınma hallarının əsasları unuduldu. Hər halda, onun səlahiyyətləri həmişə iki hissədən - təsərrüfat səlahiyyətləri və siyasi səlahiyyətlərdən ibarət olmuşdur. Mən həmişə onun siyasi səlahiyyətlərinin əleyhinə olmuşam və buna görə də maliyyə naziri şahzadə Firuz Nüsrətoddövlənin rəyini dəstəkləmişəm" **(33, s.176).**

Bütün yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, şübhəsiz, doktor Milsponun istefasının əsas səbəblərindən biri ola bilsin ki, Rza şahın narazılığı olmuşdur. Beş il ərzində Milsponun uğurlarının əsas səbəbi isə onun missiyasının Baş komandan tərəfindən dəstəklənməsi idi. Baş komandan İran taxtına çıxdıqdan sonra mütləq hakim olmaq istəyirdi və digər orqanlar kimi maliyyə işlərinə şəxsən rəhbərlik etmək niyyətində idi. Buna görə də Müxbirossəltənə kabinetində maliyyə naziri olan Nüsrətoddövlə Firuz Mirzə belə bir tapşırıq almışdı ki, doktor Milsponun vəzifədən azad olunması və ya ölkədən çıxarılması, yaxud da onunla imzalanmış müqavilənin müddətinin uzadılmaması üçün zəmin hazırlasın. O, bu vəzifəni yerinə yetirdi. Doktor Milsponun İrana birinci ezamiyyəti ilə əlaqədar yazıçıların, siyasi xadimlərin əksəriyyəti onun fəaliyyətini müsbət qiymətləndirməkdə həmrəydirlər. Onlar Milsponun birinci ezamiyyətindəki fəaliyyətini hökumət, dövlət, maliyyə və təsərrüfat strukturları üçün faydalı hesab edirdilər.

# III FƏSİL

# ARTUR MİLSPONUN İRANA İKİNCİ EZAMİYYƏTİ

## 3.1. Milsponun İrana ikinci ezamiyyətinin səbəbləri

1941-ci ilin avqustunda İranda Baş vermiş hadisələrdən sonra **(İranda buna "Şəhrivər hadisələri" də deyilir)** müttəfiq qoşunları İrana soxulur. Dövrün tələbinə uyğun olaraq, diktatura dövrünü demokratiya əvəz edir. Aclıq və xəstəliyə səbəb olmuş müharibənin ağır nəticələri bütün İranı bürüməsinə baxmayaraq, İran xalqına azadlıq qaytarılmışdı. Mətbuat səhifələrində diktatura dövrünün pis əməlləri və özbaşınalıqları haqqında çoxsaylı məlumatlar dərc edilirdi. Rza şah Pəhləvi ölkədən çıxarılaraq sürgün olunur və beynəlxalq vəziyyətdən, İranın daxili durumundan baş çıxarmayan şahın oğlu taxta çıxır. O dövrdə hökumətlər fasiləsiz olaraq qeyri-müəyyən şəraitdə biri-birini əvəz edirdilər. Belə ki, 6 aya yaxın idarəçilikdən sonra Məhəmmədəli Foruqi hökuməti 1942-ci ilin martında (h. esfənd 1321) istefaya gedir. Ondan sonra isə Soheyli hökuməti beş aylıq fəaliyyətdən sonra həmçinin 1942-ci ilin avqustunda istefaya çıxır.

Əhməd Qəvvam hökuməti də altı aya yaxın fəaliyyətdən sonra 1943- cü ilin yanvarında istefa verməli olur. Milspo məhz Qəvvam hökuməti zamanında dəvət olunmuşdu. İranın maliyyə vəziyyətinin olduqca pis olması ilə əlaqədar olaraq bəzi iranlı vətənpərvərlər üç qütblü dünya şəraitində öz ölkələrinin gələcəyi üçün narahat idilər. Tehran bəyannaməsi dərc olduqdan sonra onlar hələ də qorxurdular ki, İngiltərə və Rusiya müharibə bitdikdən sonra İran ərazisinin bölüşdürülməsi haqqında məxfi sövdələşməyə cəhd edəcəklər. Çünki 1907-1915-ci illər müqaviləsindən sonra İran belə bir tale ilə üzləşməli olmuşdu **(6, s.37).**

Bunun qarşısını almaq üçün belə bir fikir gəlmişdi ki, amerikalı ekspertlərin cəlb olunması ilə ABŞ hökuməti İranın müstəqilliyində daha çox maraqlı olacaq və bu dünya dövlətinin qüdrətindən istifadə edərək müharibə bitdikdən sonra Rusiya və İngiltərənin təxribatlarını zərərsizləşdirmək mümkün olacaqdır.

Qeyd etmək lazımdır ki, müttəfiq qoşunları İrana soxulduqdan sonra ərzaq və ilkin tələbat malları üzərində qiymətlər kəskin şəkildə artdı. Şəkər, şəkər tozu xüsusi dəftərçələr üzrə aparılmağa başladı. Vasitəçilərin və topdan satış mərkəzlərində satıcıların fəaliyyəti canlandı. Onlar müttəfiqlərin verdiyi böyük miqdarda pullardan istifadə edərək böyük miqdarda ərzaq alır və anbarlara doldururdular. Qida məhsullarının idxalı dayandırılır. Bütövlükdə ölkə üzrə yeyinti məhsullarının istehlakı müttəfiq qoşunlarının ehtiyaclarını ödəmək üçün güclü surətdə artır. Ərzaq qıtlığı yarandı. Xüsusilə ərzaq çatışmazlığı və bişirilən çörəyin keyfiyyət göstəricilərinin aşağı olması, ərzaq mağazaları və çörək dükanları qarşısında nəhəng növbələrin yaranmasına sə-

bəb oldu. Bütün bunlar yoxsullaşmaya, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, xəstəliklərə və s. şərait yaradırdı.

Ölkənin iqtisadi mexanizmi və maliyyə sistemi demək olar ki, dayanmışdı. Rabitə sistemi və əhalinin təhlükəsizliyi təhlükə altında qalmışdı. Oğrular və quldurlar əvvəllər Rza şahdan qorxduqları və baş qaldırmağa cəsarət etmədikləri halda, yaranmış vəziyyətdə daha da fəallaşırlar. Yollarda və aşırımlarda sərnişinlərin, hətta dövlət əmlakı necə qarətə məruz qalırdı.

İran hökuməti (Qəvam) məhz belə bir şəraitdə Amerika ekspertlərini cəlb etmək qərarına gəldi. Bu ABŞ prezidentinin xüsusi nümayəndəsi Vendel Vikinin İrana səfərindən və Ruzveltin "İranın müdafiəsi ABŞ üçün mühüm strateji vəzifədir və Amerika iranlılara hərtərəfli kömək edəcək" (7, s.339) açıqlamasından sonra baş verdi. İlkin olaraq dəvət olunan və işə başlayan general Ridli oldu. O, İran ordusuna müşavir qismində işə qəbul olundu. Rza şah zamanında ordunun bir hissəsi olmuş jandarmeriya onun taxtdan devrilməsindən sonra yenidən Daxili İşlər Nazirliyinin və general Şvartskopun komandanlığı altına keçdi. Onlardan hər biri öz komandanlığı altında müəyyən miqdarda zabitə və yüksək rütbəli zabitə malik idilər və onlar İran və Amerika hökumətləri arasında imzalanmış müqaviləyə əsasən xidmət edirdilər. Polisin başında Timerman adlı mülki məmur dururdu. Digər amerikalı ekspertlərdən meliorasiya üzrə müşavir doktor L.M.Vinzoru, Səhiyyə Nazirliyinin eksperti polkovnik Nyuvorsu, ərzaq üzrə məsləhətçi C.K. Şeridanı göstərmək olar.

Yuxarıda sadalanan ekspertlərdən əlavə, onlardan sonra İranın maliyyə, iqtisadi vəziyyətinin pozulması ilə əlaqədar olaraq,

Qəvamussəltənə Kabineti 1942-ci ilin ikinci yarısında (h.1321) ölkənin maliyyə və maddi durumunu qaydaya salmaq üçün ABŞ-dan iqtisadi müşavir dəvət etmək qərarını qəbul edir. Hökumət bu tədbir üçün şərait yaratdıqdan sonra ABŞ-dan maliyyə və iqtisadi məsələlər üzrə ekspert Artur Çester Milsponun İranda Maliyyə İdarəsinin başçısı vəzifəsinə təyin olunmasına dair qanun layihəsinin Məclisin müzakirəsinə verir.

13-cü çağırış Məclisinin müzakirələrindən belə bir nəticə çıxarmaq olar ki, deputatların əksəriyyəti xarici iqtisadi ekspertlərin, xüsusilə də ABŞ-dan Milsponun dəvət olunması məsələsilə razılaşmışdılar. Milsponun dəvət edilməsi ilə razılaşmayanlar iqtisadiyyat və maliyyə üzrə ekspertin dəvət olunmasının əleyhinə çıxmadılar və hesab edirdilər ki, ekspertləri müharibədə bitərəf mövqeyə malik kiçik ölkədən dəvət etmək lazımdır.

Doktor Milsponun dəvət olunmasını dəstəkləyənlər bunun səbəbi kimi onun işlərinin nəticələrindən və birinci uğurlarından razılıqlarını önə çəkir və kiçik ölkənin bütün dünyada maraqlarının təzminatçısı sayılan bir ölkə qismində Amerikanın gücü ilə hesablaşırdılar.

Milsponun dəvət olunmasının tərəfdarı olan deputatlar hesab edirdilər ki, İrana məsləhətçilər ən əsası müəyyən çatışmazlıqlara malik olan mühüm dövlət müəssisələri üçün lazımdır. Deputatların nöqteyi-nəzərincə, dövlət idarəçiliyinin təkmilləşdirilməsində ilkin addım olan çatışmazlıqların öyrənilməsinin gedişatında dəvət olunmuş xarici müşavirlərin bu çatışmazlıqların aradan qaldırılmasına kömək edəcəklər. Onlar belə hesab edirdilər ki, mənəvi tərəfdən müəssisə rəhbəri nə qədər ləyaqətli

və vicdanlı olsa belə, əgər o öz işçiləri əleyhinə hər hansı bir qərar qəbul edərdisə, onların hamısı ona qarşı çevrilərdilər. Belə bir halda xariciyə qarşı bu baş verməzdi və onlar ona qarşı müdafiə mövqeyi tutmazdılar.

Buna misal üçün o dövrün polisini misal çəkmək olar. Belə ki, əgər İran polisi xarici müşavirin rəhbərliyi altında olsaydı, casusluq təşkilatına çevrilməz və xalqa bu qədər iztirab və çətinliklər gətirməz, ölkədə diktatura qurulmasına yardım etməzdi. Onlar bu kimi faktlardan yararlanaraq amerikalı müşavirlərin dəvət olunmasını alqışlayır və hesab edirdilər ki, bir çox sahələrdə texniki məsələlər üzrə mütəxəssislərin olmaması faktı xarici müşavirlərin dəvət olunmasını zəruri edirdi. Onların nöqteyi-nəzərincə, bu yol bacarıqlı İranlılar tərəfindən bilik və vərdişlərə sahib olmaq yolu idi. Bəzi deputatlar isə müharibə şəraitində ümumiyyətlə, xarici müşavirlərin dəvət edilməsinin məqsədəuyğun olmamasını və ekspertlərin yalnız bloklara qoşulmayan və bitərəf olan bir neçə kiçik ölkədən dəvət edilməsini düşünürdülər. Onlar, ABŞ-dan ekspertlərin dəvət olunması səhv addım hesab edirdilər. Digərlərin qənaətincə isə Amerikadan məsləhətçilərin dəvət olunması düzgün idi. Belə ki, müxtəlif ölkələrdən məsləhətçilərin dəvət olunması fikir ayrılığına gətirib çıxara bilərdi.

Onların müxtəlif kiçik ölkələrdən mütəxəssislərin dəvət olunmasını qeyri-məqbul hesab etmələri isə qüdrətli ölkə siyasətçilərinin təzyiqinə məruz qalması ehtimalından irəli gəlirdi. Son nəticədə mütəxəssislərin Amerikadan dəvət edilməsi qərara alındı və bu qərar İran adətlərinə zidd yox, bəlkə zəruri hesab edilirdi. Deputatların digər qrupu Milsponun dəvət olunması lehinə səs

versələr hesab edirdilər ki, əgər Məclis əvvəllər iranlı gənc mütəxəssislərin təlim-tərbiyəsinə daha çox diqqət yetirsəydi, onlar bu gün ləyaqətlə idarəçilik sükanını öz əllərinə ala bilərdilər. Hazırda isə Məclis tərəfindən qəbul olunmuş bütün dəyişikliklər öz işində yaxşı mütəxəssis olması üçün münasib zəmin yaradır. Bu isə dövlətin maraqları ilə ziddiyyət təşkil edir. Bu cəhətdən, Milsponun dəvəti haqqında qanun layihəsi səs çoxluğu ilə 13-cü çağırış Məclisi tərəfindən qəbul olunur. Zaman göstərdi ki, Rza şah tərəfindən Məclisə təyin edilmiş deputatlar səhvə yol verdilər və onların Milspoya bəslədikləri ümidlər heç vaxt həyata keçmədi və bu dövlətin xeyrinə yönələn addım olmadı.

O dövrdə İran hökuməti belə hesab edirdi ki, İran iqtisadiyyatını qaydaya salmaq üçün xarici mütəxəssisin cəlb olunması zəruridir. Buna görə də əvvəllər bir neçə il ölkənin baş vergi idarəsinə düzgün və ləyaqətli rəhbərlik etmiş Milsponun bu işə cəlb etməyi qərara aldılar. Milspo, İran haqqında məlumata və zəruri təcrübəyə malik idi ki, məhz buna görə də ona üstünlük verildi. İranın ABŞ-dakı səfiri vasitəsilə Vaşinqtonda Milspo ilə danışıqlar və fikir mübadiləsi aparıldı. Bundan sonra onun dəvət olunması haqqında qanun layihəsi Məclisə təqdim edildi. Onun dəvət olunması haqqında qanun layihəsi bir çox cəhətdən əvvəlki ilə uyğunluq təşkil edirdi.

O, 18 min dollar məvaciblə 5 illik müddətə ölkənin Maliyyə İdarəsinin Baş direktoru vəzifəsinə təyin olundu və dövlətin bütün maliyyə işlərinə görə birbaşa məsuliyyət daşımalı idi. Milspo maliyyə nazirinin təsdiqindən sonra dövlət büdcəsinin tərkibinə tam hüquq aldı və lazım gəldikdə Maliyyə Nazirliyinin və digər

müəssisələrin strukturunda dəyişikliklər etmək hüququna malik idi. Bu dəyişikliklər vergi və hesablaşmalarla, həm də sosial yönlü vəsaitlərə qənaət edilməsi ilə əlaqədar idi. Milsponun işə qəbul olunması haqqında qanunda, ona dövlət xidməti haqqında qanuna uyğun olaraq maliyyə naziri ilə məsləhətləşmələrdən sonra Maliyyə Nazirliyinin və ya vergi xidməti işçisinin, həmçinin dövlət kapitalı ilə işləyən istənilən müəssisənin işçisini vəzifəyə təyin etmək, işdən çıxarmaq, mükafatlandırmaq, cəzalandırmaq və sosial xərclər haqqında hesabatları almaq hüququ verildi.

Bu qanuna görə İran hökuməti qərar qəbul olunana qədər, bütün maliyyə məsələləri haqqında maliyyə idarəsinin rəisi ilə məsləhətləşməyi öhdəsinə götürürdü. Yalnız maliyyə məsələlərinə baxıldığı zaman Milspoya Nazirlər Kabinetinin və Məclis Komissiyalarında iştirak etmək hüququ verilmişdi.

Belə qərara alınmışdı ki, Maliyyə İdarəsinin rəisinin və maliyyə nazirinin yazılı razılığı olmadan ictimai vəsaitlərin və əmlakın yerdəyişməsi, dövlət vergilərinin və aksizlərinin azaldılması və yüksəldilməsi mümkün olmayacaq və hökumət özünün bütün daxili və xarici maliyyə öhdəliklərində Maliyyə İdarəsinin rəisinin və maliyyə nazirinin yazılı razılığını alacaq. Milspoya maliyyə fəaliyyəti və vergi xidməti ilə əlaqədar bütün işlər, qanun və əmrlərlə tanış olmaq imkanı verilirdi. Maliyyə Nazirliyində xidmət üçün xarici müşavirlərin və onların müavinlərinin dəvət olunması işi yalnız onun tələbi və təklifi ilə mümkün idi. O, yeni gəlir mənbələrinin yaradılması və müəssisələrinin işlərinin təkmilləşdirilməsi, Hesablama Palatası üzərində nəzarətin yaradılması, dövlətin pul vəsaitlərinin köçürülməsi, ictimai xərclərə

qənaət edilməsi və dövlətin rifahı və iqtisadi inkişafı üçün hökumətə qanun layihələri vermək hüququ almışdı.

Əvvəllər olduğu kimi, Milspoya siyasi və dini həyata müdaxilə etmək və xüsusi ticarət şirkətlərinə malik olmaq qadağan edilmişdi. O, həmçinin İran qanunlarına əməl edəcəyi barədə öhdəlik götürmüşdü.

Tərəflər belə qərara gəldilər ki, Milspo ilə hökumət arasında səlahiyyət və öhdəliklərin şərhində və icrasında Maliyyə İdarəsinin rəisi və maliyyə naziri arasında fikir ayrılığı yarandığı halda, parlament tərəfindən qərar qəbul edilənə qədər heç bir qərar qəbul edilməsin.

Doktor Milsponun işə qəbul olunması haqqında qanun layihəsinə 13-cü çağırış Məclisinin 107-ci sessiyasında baxılması təklif olundu və bəzi düzəlişlərdən və müzakirələrdən sonra salonda iştirak edən 93 deputatdan 72-nin səsi ilə Məclis tərəfindən təsdiq olundu.

Doktor Milsponun işə qəbul olunması haqqında qanuna əsasən h. ş. 1321-ci il 21 abanda Məclisin ona verdiyi səlahiyyətlər bəzi aspektlərdən İran konstitusiyasına zidd olub, onu pozurdu **(16, s.55).**

8-ci, 9-cu və 11-ci maddələrdə bu kimi çatışmazlıqlar var idi və bu maddələr nəzərdən keçirilən və tətbiq edilən zaman konstitusiyanın pozulması aydın oldu. Çünki Maliyyə İdarəsinin rəisi onlara əsaslanaraq hökumətin və Məclisin rəyi, razılığı və yazılı icasəzi olmadan qərarlar qəbul edə bilərdi.

Doktor Milsponun işə qəbul olunması haqqında qanun, həm birinci və həm də ikinci ezamiyyət zamanı əsaslı fərqli cəhətlərə

malik idi. Milspo özü bu haqda yazırdı: "İranda vətənpərvərliyin yüksəlməsinin hiss olunmasına baxmayaraq, yeni proqram əvvəlkindən iki cəhətinə görə fərqlənir. Birinci fərq ondan ibarət idi ki, əvvəlki müqavilənin müddəalarında, mənimlə İran hökuməti arasında fikir ayrılığı yarandığı halda bizim məhkəməyə müraciət etməli olduğumuz nəzərdə tutulurdu. İndi isə bu məsələ deputatların narazılığına səbəb olmuşdur. Dövlətdə hakimiyyətin qeyri-sabitliyi ilə əlaqədar və yeni qanuna uyğun olaraq Məclis bu maddəyə baxmalı idi. İkinci cəhət ondan ibarət idi ki, əvvəlki müqavilə üzrə hökumət, istənilən konsessiya verilənədək və yaxud da iqtisadi-maliyyə fəaliyyətinə icazə verilənədək mənimlə məsləhətləşməli olduğu halda, yeni qanunda bu maddə mənim təklifimə əsasən çıxarılmışdır" **(156, s.53).**

Doktor Milspo 1943-cü il yanvarın 29-da öz oğlu ilə birlikdə Bağdad vasitəsilə Tehrana gəldi. O, maliyyə naziri Allahyar Saleh və digər rəsmilər tərəfindən qarşılanmışdı. Milspo səfərdən sonra bir müddət istirahət etdikdən sonra Maliyyə Nazirliyində işə başladı **(30, №175, 1943).**

Milsponun gəlişi İran mətbuatının əksəriyyəti tərəfindən işıqlandırıldı. Məqalələrin çoxunda birinci ezamiyyət zamanı onun fəaliyyəti barədə, həmçinin əhalinin mövcud iqtisadi çətinliklərindən bəhs olunurdu. Daxili mediadan əlavə xarici qəzetlərdə də bu mövzuda məqalələr dərc edilirdi.

Tehran qəzetinin məqalələrinin məzmununu qısaca olaraq belə ifadə etmək olar: "Doktor Milspo 20 il əvvəl İran iqtisadiyyatının paslanmış maşınını yerində tərpədə bilən, vergi ödəməkdən boyun qaçıranları bu işə vadar edən cəsarətli insandır. O, ilk də-

fə olaraq ölkə büdcəsini tərtib edərək onu parlamentdən keçirə bilmişdi. İndi isə o, İkinci Dünya müharibəsi nəticəsində və müttəfiq qoşunlarının iştirakı ilə yaranmış iqtisadi və maliyyə çətinliklərini həll etmək üçün İrana gəlmişdir". Bu məqalələrdə Milspoya xatırladılırdı ki, müasir İran 20 il əvvəl mövcud olmuş İrandan çox fərqlənir. Artıq ölkədə xaricdə təhsil almış gənclər var. Milli, Keşavərzi, Pişe və Hənər, Rəhni, Sepah kimi çoxlı banklar yaranmış, sığorta kompaniyası təşkil olunmuşdur. Son nəticədə isə Milspodan tələb edilirdi ki, bu kimi imkanlardan, xüsusilə də savadlı gənclərin potensialından daha yaxşı tərzdə istifadə edilsin. Fransanın "Azad Fransa" İnformasiya Agentliyi Milsponun gəlişi zamanı yazırdı ki, Amerika hökuməti bütün sahələrdə İran hökuməti ilə öz əməkdaşlığını davam etdirərək, doktor Milsponu baş maliyyə müfəttişi kimi İrana ezam etmişdir.

### 3.2. Milspoya fövqəladə səlahiyyətlərin verilməsi

Doktor Milspo özünün İrana gəlişinədək hər halda, özünün dediyi kimi, belə fikirləşirdi ki, İranın iqtisadi vəziyyəti və ya ən azı Maliyyə Nazirliyinin durumu, vaxtilə bu ölkəni tərk etdiyi səviyyədə qalmışdır. Buna görə də o özü üçün qısa müddətli ezamiyyət hazırlamışdı. Milspo yazırdı: "İranın Vaşinqtondakı səlahiyyətli nümayəndəsi bildirmişdi: Bu Nazirlik və İqtisadiyyat Nazirliyinin işləri, mən onları 1927-ci ildə qoyub getdiyim vəziyyətdə qalmışdır. Bu bəyanata əsaslanaraq, mən öz öhdəliklərimə dair səlahiyyətlər

aldıqdan sonra, öz işimə səkkiz əməkdaş cəlb etmək üçün nisbətən qısa ezamiyyət planlaşdırdım. Gəlişimə qədər yalnız altı əməkdaş ilə razılaşa bildim, onlar da mənimlə İrana gəlməyə razılıq verdilər" **(157, s.49)**. Daha sonra o yazırdı: "Tehrandakı Amerika Səfirliyi informasiya toplanmasına görə yarımkor və yarımkar, stenoqrafların və makinaçıların olmaması, eləcə də rabitə vasitələrinin çatışmazlığı səbəbindən isə yarımlaldır" **(157, s.50).**

Milsponun İrana gəlişi zamanı inflyasiya dəhşətli səviyyəyə çatmışdı. Tehranda və digər şəhərlərdə əhalinin qida məhsulları ilə təminatı çox çətinləşmişdi. Milspo bununla əlaqədar olaraq 21 mart 1943-cü təsərrüfat ilinin sonunda bircə kəsiri 50 milyon dollar təşkil edirdi. Əsasən Milli Banka aid olan borclar, yeni istiqrazlar, həmçinin 100 milyon dollardan çox təşkil edirdi. Büdcə kəsiri və dövlət borcları həqiqətən də olduqca böyük idi **(157, s.58).**

Ölkədə yük daşımaları tamamilə müttəfiqlərin nəzarəti altında idi. Praktiki nəzarətin olmaması ölkə daxilində malların normal bölgüsü məsələsinin həllinə imkan vermirdi. Tacirlər öz mallarının daşınması üçün böyük məbləğdə rüşvət verirdilər ki, bu da qiymət problemini böyüdürdü (157, s. 60).

Hər halda idarəçilik, maliyyə, iqtisadiyyat və digər sahələrdə həqiqətən problemlər var idi.

Doktor Milspo, Maliyyə Nazirliyinə baş çəkdikdən və bu nazirliyə tabe rəhbərlərlə tanışlıqdan sonra işə başladı. Təbiidir ki, o, nədən başlamağa və vəzifələrin müəyyənləşdirilməsi üçün vəziyyətin təhlilinə və məlumat toplanılmasına diqqət yetirirdi. Milspo, Maliyyə Nazirliyində fəaliyyətə başladıqdan bir həftə sonra Milli Bankın sədrinin və onun müavinlərinin seçilmə qay-

dası haqqında məsələ parlamentin gündəliyinə salındı. Hökumət bu məsələ haqqında qanun layihəsini baxılmaq üçün Məclisə təqdim etdi. Demək olar ki, iş başlanandan onun ilk addımı bu mövzu ilə əlaqədar idi. O, baş nazir Qəvvam Səltənəyə məktub yazaraq bu məsələ ilə əlaqədar öz fikrini bildirdi. Doktor Milspo bu məktubda yazırdı: "Mənə məlumat çatıb ki, İran Milli Bankının direktorunun və onun müavininin təyin olunması qaydası haqqında qanun layihəsi baxılması üçün Məclisə göndərilmişdir. Orada Milli Bankın direktorunun və onun müavinlərinin seçilməsi haqqında hazırda qüvvədə olan qayda dəyişdirilmişdir. Mənə məlum olduğu kimi, Milli Bankın direktorunun və onun 7 nəfərdən ibarət müavinlərinin seçilməsi Məclisə təklif olunmuşdur. Milli Bankın təsis olunması haqqında ilk təklif mənin tərəfimdən hələ İrana birinci ezamiyyətim zamanı verilmişdi.

Milli Bankın Nizamnamə kapitalı hökumət tərəfindən ödənilmişdir. Xərclərin və hökumət öhdəliklərinin aid olduğu onun dövriyyəsinin bir hissəsinə, həmçinin mənə verilmiş səlahiyyət də aiddir" **(33, №181, 1943).**

Milsponun fikrincə, Bank bəzi cəhətlərinə görə Maliyyə Nazirliyinin ən mühüm sahələrindən biri idi. Banka rəhbərlik inzibati və iqtisadi vəzifədir, onun texniki tərəfi xüsusilə mühümdür. Yaxşı olardı ki, Bankın direktorunu və ya rəhbərini qanunverici deyil, İcraedici orqan təyin etsin. Hökumətin məqsədi daha səriştəli şəxsi seçməkdən ibarətdir.

Şübhəsiz, bank fəaliyyəti haqqında ümumi qanunvericiliyə görə məsuliyyət məclisin üzərinə düşür. Buna görə də Sizdən xahiş edirəm ki, yuxarıda deyilənlərə uyğun olaraq deputatlar qə-

rar qəbul etməzdən əvvəl, bu məsələ üzrə mənim fikrimlə onları tanış etsinlər **(33, №181, 1943).**

Bu baxımdan, Milspo İranın qanunverici və icraedici orqanının işinə müdaxilə istiqamətində ilk addımını atmağa və ekspertlərin sırasının möhkəmlənməsi üçün yol açmağa çalışırdı. Milspo öz xatirələrində yazırdı: "O zamankı hökumətdə maliyyə naziri olan cənab Salehin xahişilə mən baş nazir cənab Qəvvama məktub yazaraq orada qanun layihəsilə əlaqədar öz etirazımı bildirdim (Milli Bankın direktorunun və onun müavinlərinin seçilməsi haqqında qanun nəzərdə tutulur). Cənab Qəvvam mənim mülahizələrimi deputatlara çatdırdı, onlar isə bu qanuna baxmaqdan imtina etdilər" **(157, s.95).**

Müzakirəyə çıxarılmış qanun layihəsinin ləğvinə gətirib çıxaran, Məclis və hökumətin başı üzərindən keçən yol budur. Milsponun işə qəbul olunması haqqında qanunun bəzi maddələri konstitusiyaya zidd idi. Belə ki, Milsponun əsaslandığı 8-ci maddə də belələrindən biri idi. Bu Əhməd Qəvvamın dövründə İranın daxili işlərinə Milsponun yeganə müdaxiləsi idi. Onun hökumətini 1943-cü il fevralın 13-də Soheyli hökuməti əvəz etmişdi. Soheyli hakimiyyətə gələndən sonra Milsponu öz yanına çağırmış və onların arasında bir neçə saat ərzində iqtisadi və maliyyə məsələlərilə əlaqədar fikir mübadiləsi olmuşdu. Onların ikinci görüşlərində isə Soheyli kabinetinin digər üzvləri də iştirak etmişdilər.

Doktor Milspo 1943-cü il martın əvvəllərində keçirdiyi mətbuat konfransında ali təhsilli və maariflənmiş gənclərin bəyənilməsi və xidmətlərinin etiraf olunması gedişində Maliyyə Nazirliyindəki qanunsuzluq və qeyri-mütəşəkkillikdən şikayətlənərək

bildirmişdi ki, bu nazirlikdə onun gəlişinə qədər bir neçə il ərzində keçirilmiş bütün təşkilati tədbirlər, düzgün və ağıllı bazaya əsaslanmamışdır. Jurnalistlərlə mətbuat konfransında Milsponun bəyanatına cavab olaraq "Keyhan" qəzeti yazırdı: "Cənab Milspo! İş əsassızlıqda deyil, nizamsızlıqdadır. İş ona görə nizamsızlıqdadır ki, bir qrup biliyə, təhsilə və təcrübəyə malik olmadan işləri öz əlinə almışdır. Bu sevimlilər, bu tiryək və dərvişizm tərəfdarları, iradəyə malik olmayan, yalnız onların işlətdiyi texniki sözlərdən istifadə etməklə çox mənalı ifadələr işlətməyə qadir olan baş nazirin, nazirlərin və məsləhətçilərin qarşısında onların əhəmiyyətini başa düşməyən köhnəlmiş baş direktorlar, hamını əmin etməyə çalışırdılar ki, əgər onlar olmasalar hər şey bitəcək, dövlət xəzinəsi boşalacaq və bununla da xalqın işi dayanacaqdır... Tamamilə aydındır ki, uzun müddət ərzində direktor və rəhbər vəzifələrində fəaliyyət göstərən bu cür şəxslər xalqın qanını sovuran zəli kimi bir mütəxəssis deyildi. Onların yüzü belə işləri yoluna qoymaq vəzifəsinin öhdəsindən gələ bilməzdilər. Buna görə də, əgər biz bu ölkədə işlərin öz məcrasında getməsini istəyiriksə, əsas vəzifəmiz doktor Milsponun ətrafını təmizləməkdən ibarət olmalıdır. Yaşlıların yerinə gəncləri işə cəlb etmək lazımdır və onlar həqiqətən də dövlətin fəxri olacaqlar" **(30, № 197, 1943).**

Doktor Milsponun ətrafının bacarıqsız əməkdaşlardan təmizlənməsinin zəruriliyini göstərən o dövrün demək olar bütün qəzetlərinin doktor Milsponun mətbuat konfransına münasibəti yekdil olmuşdur. 1943-cü il fevralın sonunda Milspo ilə razılaşdırılmış büdcə üzrə təkliflər işlənib hazırlandı. Orada Nazirlər Sovetinə təklif olunurdu ki, hər bir nazirliyin büdcəsini

müəyyənləşdirərək yeni il başlanana qədər büdcəni parlamentə təqdim etməyin mümkün olması məqsədilə onu açıqlasın. Bir halda ki, yeni ilə az qalmış bunları etmək mümkün olmazdı.

Doktor Milspo özünün ilk aylıq (21 yanvar-19 fevral 1943-cü il) hesabatında şəxsi nöqteyi-nəzərincə İran üçün iki əsas məsələ üzərində dayanmışdı. Bunlar təxirə salınmaz və dərhal qərar qəbul edilməsini tələb edən məsələlər idi. Birinci məsələ ərzaqla əlaqədar çətinliklər və qiymətlərin artımına şamil olunurdu. Doktor Milspo ərzaqla əlaqədar cənab Şrayderin məruzəsinə əsaslanaraq hökuməti buğda və arpan yığımında ləngimələrə yol verməkdə təqsirləndirirdi. Möhtəkirlərin və qaçaqmalçıların qəbul etdikləri tədbirlər, çörək bişirənlərin tabeçiliyinə aid qaydalar və çörək ilə düyü üzərində talon sisteminin tətbiqi nəticəsində taxıl məhsullarının satın alınması sövdələşməsi zamanı dövlət ağır itkilərə məruz qaldı. O, həmçinin hökumətin diqqətini qiymətlərin bahalaşmasına, onun maliyyə vəziyyətinə yönəltmişdi. Dövlət borclarının artması və büdcə kəsiri məsələləri, inflyasiya və dövlət qulluqçularının acınacaqlı maddi vəziyyəti üzərində dayanmırdı.

Milsponun fikrincə, yaşayış xərcləri 1936-cı il ilə müqayisədə dörd dəfə artmışdı. Lakin bir məsələ aydın deyil ki, o, bu rəqəmi haradan götürmüşdür. Çünki 1936-cı ildən bəri bu məsələ ilə məşğul olan yeganə müəssisə həmişə topdansatış sövdələşmə və əhalinin adambaşına düşən xərcləri üzərində nəzarət edən müəssisə İran Milli Bankı idi. Onun məlumatına görə, həyat dəyərinin göstəricisi 1936-cı illə müqayisədə 7 dəfə artmışdı. Topdan satış sövdələşmələrin göstəricisi isə 6 dəfə çox idi ki, bu cür səhvlərə onun bütün məruzələrində təsadüf olunurdu. O öz məruzə-

lərində pulun qiymətdən düşməsini göstərir, pul çapı ilə təmin olunan ərzağın dəyərinin ödənilməsində müttəfiqlərin tələbatları haqqında mövzu üzərində də dayanırdı. Bu inflyasiyaya gətirib çıxardı. Həmçinin şəhərlərdə talonla ucuz çörək satan dövlətin də itkilərinə gətirib çıxardı. O, inflyasiyanın iki əsas səbəbi kimi bunları müəyyənləşdirmişdi.

O, sadalanan mövzulardan başqa, əsas diqqəti büdcə balansının pozulması və hökumətin zəifliyindən irəli gələn, qiymətlərə ciddi nəzarət və idarəçilik sisteminin təkmilləşdirilməsi istiqamətindəki tədbirlərin həyata keçməsi prosesindəki gecikdirməyə yönəltmiş və möhtəkirliyi, habelə borc sənədləri üzrə oyunları inflyasiyanın artmasının əsas səbəbləri adlandırmışdır. Milsponun yazdığına görə 1942-ci ilin əvvəlləri üçün dövlət borcları 2400 milyon riala bərabər idi.

Maliyyə naziri, ilin sonunadək dövlətin borcunun bu məbləği xeyli üstələyəcəyini gözləyirdi. Milspo öz məruzəsinin sonunda İranda böhrandan çıxış yollarını təklif edirdi. O, bunları Maliyyə Nazirliyi və digər dövlət müəssisələrinin əvvəlki strukturunun bərpasında, qiymət üzərində nəzarətdə, geniş istehlak malları üzərində talon sisteminin tətbiqində, daxili istiqrazlarda, kənd təsərrüfatı və sənaye istehsalının artırılmasında, dövlət torpaqlarının, gümüş və qızıl pulların satılmasında, həmçinin dövriyyəyə yeni kəsilmiş gümüş xırda pulların buraxılmasında görürdü.

Doktor Milsponun səlahiyyətlərinə dair qanun layihəsi 1943-cü ilin aprel ayının 16-da Məclisin Ticarət və İqtisadiyyat Komitələrində baxıldı. Orada baş nazir də iştirak edirdi. Layihəyə dəyişikliklər və əlavələr edildi və aprelin 20-də Məclisdə bu qanunun ilk oxunuşu oldu.

Milspo 1942-ci il 22 oktyabr tarixli qanunla ona verilmiş səlahiyyətləri kifayət bilmədi və özünün hökumətə ilk məruzəsində ölkənin mürəkkəb iqtisadi vəziyyətini nəzərə alaraq, açıq şəkildə ona verilən səlahiyyətlərin genişləndirilməsi tələbi ilə çıxış etdi. Məclisin iclasında Milsponun səlahiyyətləri haqqında məsələnin ilk oxunuşu zamanı parlament ənənələrinə görə deputatlardan biri bunun əleyhdarı kimi çıxış etməli idi. Deputat Tehrançı demişdi: "Mən deputat olan andan etibarən öz tacir peşəmi buraxdım və qiymət artımına qarşı etiraz edirəm. Bundan başqa mən dəfələrlə qiymətlərin qalxması ilə əlaqədar hökumətə öz etirazımı bildirmişəm. Ancaq mənim bu qanun layihəsinə etirazım ondan ibarətdir ki, mən prinsip etibarı ilə xarici müşavirlərin işə qəbul edilməsinin əleyhinəyəm. Çünki indiki vəziyyət əvvəlki illərdən fərqlidir və hazırda bizim ölkəmizdə kifayət qədər maariflənmiş insanlar vardır. Əgər onlar satqınları cəzalandırsalar, o zaman hər şey tədricən normallaşacaq və muzdla xarici müşavirlərin tutulmasına ehtiyac qalmayacaq. Hökumət təsdiq edir ki, bu cür səlahiyyətlərlə qiymətlərdə artım prosesi dayanacaq. Bəziləri fikirləşirdilər ki, əgər biz müşavir tutarıqsa onda o bizimlə müttəfiqlərimiz arasında vasitəçi olacaq. Amma hələ bu baş verməmişdir. Bizim ərzaq üzrə müşavirimiz var. Bu sahədə vəziyyət ağırdır. Onlar ərzaq məhsullarının bir şəhərdən digərinə daşınmasının qarşısını almaq məqsədilə bütün nəqliyyat vasitələrinə nəzarət edirlər. Mən bilirəm ki, bu gün Bohbohanda kərənin bir kiloqramının qiyməti 4 tümənə bərabər olduğu halda, burada o 10 tümənə bərabərdir və bu kimi süni çətinliklər xarici müşavirlər tərəfindən yaradılır. Dəfələrlə bu haqda baş nazirə məlumat

verməyimə baxmayaraq, bir dəfə də olsun belə inandırıcı cavab almadım. Adətən müxtəlif şəhərlərdə eyni mallar üzərində qiymət fərqləri 300 %-ə çatır. Məhz bu səbəbdən də belə hesab edirəm ki, cənab Milspo səlahiyyətlər tələb etmək əvəzinə müttəfiqləri dilə tutmalıdır ki, onlar bizimlə əməkdaşlıq edərək işimizi mürəkkəbləşdirməsinlər. Mən əminəm ki, bizdə məhsul kifayət qədərdir və hətta bir neçə ilə də bəs edər".

Qəvvamussəltənə söylədiyinə görə, müttəfiqlər lirənin dəyərinin aşağı salınması barədə Milspoya vədə vermişdilər. Lakin Milspo bu məsələ ilə əlaqədar onlarla danışıqlar masasına oturmaqdan imtina etmişdi. Müttəfiqlər isə müqaviləyə uyğun olaraq bizə zəruri mallar göndərmək əvəzinə, belə cavab verdilər ki, mal bölgüsünün düzgün aparılmadığına görə onları göndərə bilməyəcəklər. Qəvvam deyirdi: "Onlar nəqliyyat problemini həll etmək əvəzinə, əlavə səlahiyyətlər tələb etdilər. Axı istehlakçılar təkcə iranlılar deyildi. Belə ki, malların xeyli hissəsi müttəfiqlər tərəfindən istehlak olunurdu. Bizim hazırda ixracatımız yoxdur və məhsullar İran daxilində paylaşdırılır. Belə bir halda Milsponun ixracatın dəyərini aşağı salmaq istəməsi gülünc görünür və bu addım ümumiyyətlə, dövlət və xalqın mənafelərinə cavab vermir və heç bir dövlət bununla razılaşa bilməz. Nəyə görə onlar hərbi vergi tətbiq etmirlər? Nəyə görə onlar digər qərarlar qəbul etmirlər? Bir dəfə mən Baş nazirə sual verdim ki, siz müttəfiqlər və bizim tərəfimizdən istehlak olunan məhsulların həcmini bilirsiniz? O, bu sualıma cavabında yox dedi. O zaman nə qədər ki bu məsələ aydın deyildi, qərar qəbul etmək mümkün idi. Biz çoxlu bank kağızı buraxdıq ki, onlar satın ala bilsinlər.

Lakin bizə qiymətləri aşağı salmağı təklif edirlər ki, bununla tamamilə müflisləşək? Əgər onlar hər şeyi dövlətdən alsaydılar və öz malları ilə ödəsəydilər, onda yaxşı olardı. Müşavirlər yaxşı bilirdilər ki, lirənin dəyərinin aşağı salınması onlara aid məsələ deyil və buna görə də bu barədə danışıqların aparılması əleyhinə idilər. Mən eşitmişdim ki, müttəfiqlər malları gətirib qara bazarda sərbəst qiymətlərə satırlar. Məsələn, çit parçanın hər metrini 3,6 tümənə satırlar. Belə olduğu halda iz dövlətin ziyanına öz mallarımızın qiymətlərini aşağı salmalı və dövləti uçuruma sürükləməliyik? Bu bir neçə gün ərzində cənab Milsponun özü siqaret və şəkər üzərində qiymətləri iki dəfə artırmışdır. Nəyə görə o, bizə şəkər göndərilməsi məsələsində müttəfiqlərlə razılaşmır" **(28, № 6150, 1943).**

Növbəti çıxışçı müşavirlərin müdafiəsinə qalxaraq, dedi: "Cənab Tehrançının bəyanatı haqqında demək lazımdır ki, o, xarici ekspertlərin dəvət olunmasının faydalı olmasına dərhal şübhələnmişdir. Burada böyük izahat verməyə ehtiyac yoxdur. Belə ki, bu məsələ artıq parlamentdə müzakirə olunmur və hazırda bu barədə danışıqların mənası yoxdur. Cənab Tehrançı, savadlı mütəxəssislərimizin biliklərindən faydalanmağı məsləhət görür. Qoy o, indiki və əvvəllki planların hazırlanmasında və onların həyata keçirilməsində Amerika mütəxəssisləri tərəfindən savadlı dövlət qulluqçularından istifadə edilməsinə şübhə etməsin. Buna görə də mən cənab Tehrançının rəyini təsdiq edə bilmərəm. Bu məsələ dəqiq tədqiqat tələb edir və bu işdə başqa bir səbəbin olmaması və həqiqətən də çatışmazlıqların ekspertlərin qabiliyyətsizliyinə aid olması məsələsi aydınlaşdırılmalıdır. Buna görə də bu isti-

qamətdə müsbət irəliləyişlərə nail olunmur. Cənab Tehrançı bildirmişdir ki, Milspo səlahiyyətlər tələb etmək əvəzinə yaxşı olardı ki, müttəfiqlərlə danışıqlar aparsın və ölkə daxili ehtiyacların təmin olunması istiqamətində onlarla razılığa gəlsin. Mən bəyan edirəm ki, müttəfiqlər ilə danışıqların aparılması yalnız hökumətin özünə aid olan bir məsələdir" **(28, №5150, 1943).**

Səlahiyyətlərin verilməsilə əlaqədar ortaya qoyulan layihəni müdafiə edən və növbəti çıxışçı olan Azadi, öz nitqinin bir hissəsində belə demişdi: "Xarici müşavirlərin dəvət olunması ölkə daxilində aparılan təkmilləşmə üzrə ən mühüm addımlardan biri oldu. Bu gün qiymətlər günbəgün artır və belə yüksək artım hər şeyi əzib dağıdır. O, hökuməti səlahiyyətlər verməyə vadar edir və onları bizim vicdanlı işçimiz və məsləhətçimiz olan cənab Milspoya verir. Cənab deputatlar özləri son bir il ərazində dəfələrlə bu tribunadan qiymətlərin artması və bahalıq barədə danışıb, hökumətə etiraz bildirərək soruşmuşlar ki, nəyə görə bu məsələ ilə əlaqədar heç bir tədbir görülmür. Hökumət isə bu məsələni öyrəndikdən sonra belə bir nəticəyə gəlmişdir ki, bu səlahiyyətlər olmadan heç bir nəticə əldə olunmayacaqdır. Eynilə, Amerikada qiymətlər artmağa başlayan zaman prezident bahalaşmanın qarşısını almaq üçün konqresdən səlahiyyətlər tələb edir və buna nail olur. Hökumət xalqının vicdanlı icraçı Milspoya bəslədiyi tam etimada əsaslanaraq, ona səlahiyyətlər verə bilər. Doktor Milsponun texniki məlumatlardan necə istifadə etdiyinə və hansı tədbirlər gördüyünə diqqət yetirmək lazımdır. Axı onun tənqidi üçün bizim yolumuz bağlı deyil. Dövlətə ziyan vuracaq hər hansı bir iş görülərsə biz etiraz edə bilər" **(28, №5150, 1943).**

Azadi, sanki qanun layihəsini tamamilə oxumamış və görməmişdi ki, nazirə yalnız Maliyyə İdarəsinin direktoru üzərində müşahidəçi rolu verilmişdi və maliyyə naziri Milsponun gördüyü işlərdən xəbərsiz idi **(28, №5150, 1943).**

Parlamentin deputatı Bohbohani də öz çıxışında səlahiyyətlər haqqında qanun layihəsinin olduqca mühüm məqamları üzərində dayanaraq demişdir: "Əvvəla, qiymətlərdə artımın səbəblərini müəyyənləşdirmək və aydınlaşdırmaq lazımdır ki, verilən səlahiyyətlər bu vəzifələri həll etməyə kömək edə bilərmi?" O, qiymətlərin artımının üç səbəbini göstərmişdir. 1- Lirənin qiymətinin qeyri-stabil olması. 2 - Möhtəkirlik, alver və borc vekseli. 3- Müttəfiqlər tərəfindən azad şəkildə aparılan alqı və satqı işləri. O demişdi: "Nəzərimcə, səlahiyyətlərin verilməsi göstərilən səbəblərin aradan qaldırılmasına səbəb olmayacaq. Bu qanunun digər məqsədi xalqın bütün ehtiyaclarının hökumətin əlində cəmləşdirilməsindən ibarət idi. Nəyə görə hökumətin bu vəzifəni öhdəsindən gələ bilməyəcəyinə əmin olmaq üçün bizə keçmişin təcrübəsi kifayət etmir? Doktor Milspoya gəldikdə, əlbəttə, ki, ona kifayət qədər etibar edirlər. Amma bu dəfə şərtlər kəskin şəkildə dəyişmişdir" **(28, №5150, 1943).**

Deputatlar arasında Milspoya səlahiyyətlərin verilməsi leyhinə və əleyhinə olanlar var idi. Əleyhidarların əksəriyyəti xarici bir şəxsə qanunvericilik hüququnun verilməsini tənqid edirdilər. Amma buna baxmayaraq hətta tənqid edənlər belə onun lehinə səs verdilər, çünki XIII çağırış Məclisinin tərkibi qanunvericilik hüququnun Milspoya verilməsi ilə razılaşmağı tələb edirdi. Buna görə də səlahiyyətlər haqqında qanun bir səs üstünlüyü ilə yə-

ni 71 səslə qəbul olundu. Səlahiyyətlər haqqında qanuna əsasən Milspo qeyri-ərzaq mallarının əldə edilməsi və bölgüsü işində böyük iqtisadi səlahiyyətlər aldı. Həmçinin bu səlahiyyətlər xammal və istehsal məhsullarına, onların ixracına və idxalına, anbarlara yığılması və bölüşdürülməsi metodlarına malik idi. Bu səlahiyyətlərə dövlət binalarının və əkin sahələrinin icarəyə verilməsi hüququ, əmək və xidmətlərə görə ödənclərin verilməsi hüququ da daxil idi. O, həmçinin istehsal və satışa icazə vermək hüququ, ədalətli qiymətlərlə satış üçün malların verilməsi hüququnu almışdı. Baha satılan malları müsadirə etmək, talonları çap edib bölüşdürmək, sabit qiymətlərlə alver edən dövlət mağazaları açmaq, həmçinin digər tədbirlər keçirmək hüququ aldı. Bütün bunlar Milsponun özünün şəxsi nəzarətinə verildi. O, bundan əlavə qiymət təyini üzrə idarə yaratmaq, 10 milyon rialadək istiqraz götürmək, həmçinin iqtisadi bölmədə daha bir neçə amerikalının dəvət edilməsi hüququnu əldə etmişdi.

Səlahiyyətlər haqqında qanunla nəzərdə tutulmuş formada iqtisadiyyat üzrə tam səlahiyyətlərin verilməsi hələ hər şey demək deyildi.

Qanunun 8-ci maddəsinə uyğun olaraq Milspoya qanunvericilik hüququ verilmişdi ki, bu cəhətdən üzərinə heç bir məsuliyyət götürməyən xarici ekspert, qanunvericilik prosesində iştirak etməklə yanaşı, maliyyə naziri və Nazirlər Şurasının səlahiyyətlərinin yerinə yetirilməsi prosesində də iştirak edir. Bununla yanaşı Milspo, parlament qarşısında da heç bir məsuliyyət daşımırdı. O, bu qanunla bütün iqtisadi və maliyyə məsələlərinin açarını onun əlinə verildiyini bilirdi. Bu səlahiyyətlərin mövcudluğu, bu

hadisənin İkinci Dünya müharibəsi dövrü ilə üst-üstə düşməsi, müttəfiq qoşunlarının, xüsusilə ABŞ-ın hərbi hissələrinin ölkədə mövcud olması onda belə bir özünə inam hissi yaratmışdı ki, son anlaradək bu səlahiyyətləri itirmək istəmirdi. Milspo bu səlahiyyətlərə malik olmaqla və amerikalı mütəxəssisləri cəlb etməklə, onları iqtisadi və təsərrüfat sahələri üzrə ən mühüm və başlıca vəzifələrdə yerləşdirmək və dəstəkləməklə, İranda xarici müşavirlər rejiminin qurulması istiqamətində daha bir addım atdı.

Maraqlıdır ki, Məclisdə səlahiyyətlər haqqında qanuna dair müzakirələr zamanı onun əleyhdarları və tərəfdarları mətbuatda geniş çıxış zamanı qarşılıqlı ittihamlar irəli sürərək biri-birlərini təhqir edirdilər. Ancaq nəticə etibarı ilə qanun 1943-cü il mayın ikisində (h. 13 ordibeheşt 1322) qəbul olundu. İclasda iştirak edən 85 millət vəkilindən 71-i bu qanunun lehinə səs verdi. Lakin deputatlar arasında elələri də tapılırdı ki, biri-birinin köməyinə gələrək həm Məclis daxilində, həm də ondan kənarda qanun əleyhinə intriqa və təbliğatı genişləndirirdilər. Onlar son nəticədə o qədər qeyd və dəyişikliklər aparmışdılar ki, qanun bütün ilkin xüsusiyyətlərini itirmişdi.

Məclisdə torpaq sahiblərini və tacirləri təmsil edən möhtəkirlər, qanunda onların maraqlarına toxunan hissələri dəyişmişdilər **(33, s.171).**

Milspoya fövqəladə səlahiyyətlərin verilməsi haqqında 1943-cü ilin aprelində qəbul olunmuş qanun Tehranda həyəcanla qarşılandı. Maliyyə naziri Allahyar Saleh, etiraz əlaməti olaraq, istefa verdi. Məclisdə qanun layihəsinin müzakirəsi başlayan zaman etiraz əlaməti olaraq bütün mağazalarla yanaşı Tehran ba-

zarı da bağlandı. İran Ticarət Palatası etiraz əlaməti olaraq xüsusi bəyanat dərc etdirdi. Böyük xalq kütlələri küçələrə çıxaraq Amerikanın planlarına qarşı nifrət hissi və etirazlarını nümayiş etdirdilər. Həftəlik "Pars" toplusu 1944-cü ildə bu hadisələrlə əlaqədar olaraq yazmışdı ki, bu günlərdən etibarən "İranın başı üzərindən böyük təhlükə yarandı".

Milsponun tələbi ilə bir sıra qəzetlər bağlandı və redaksiyalardakı iş otaqları möhürləndi. Belə bir şəraitdə XIII çağırış Məclis Amerika Səfirliyinin etirazına rəğmən Milspoya fövqəladə səlahiyyətlərin verilməsinə dair qanun layihəsinin müzakirəsini dayandırdı. ABŞ diplomatiyası ingilislərin yardımına bel bağlamağı qərara aldı və bu məqsədlə Milspo missiyasının tərkibinə bir ingilis də daxil edildi. Elə buna görə ingilislər bu qanun layihəsini aktiv surətdə dəstəkləməyə başladılar. Milspo, Məclidə 1943-cü il mayın 4-də müvafiq qanunun qəbulundan sonra dərhal özünün fövqəladə səlahiyyətlərindən yararlanmağa başladı. O, İran və ABŞ arasında ticarət əlaqələrinə dair qanunu Məclisdən keçirdi. Bu qanun İranın qapılarını Amerika mallarının üzərinə açdı və bu malları gömrük rüsumundan azad etdi. Bu müqavilə İrana o dərəcədə ziyan vurmuşdu ki, İran hökuməti onun məxfi saxlanılması məcburiyyətində qalmışdı **(11, s.27).**

"Mehre İran" qəzeti 15 mart 1943-cü il tarixli sayında, səlahiyyətlər haqqında qanunun maddələrinin təhlilindən sonra fövqəladə səlahiyyətlərə həsr olunmuş baş məqaləsində belə yazırdı: "Biz inanırıq ki, qanunların işlənib hazırlanması parlamentin başlıca işidir. Heç bir vəzifə və digər qüvvə bizdə olan hakimiyyətin əsası nöqteyi-nəzərindən qanunların verilməsi səlahiyyətlə-

rinə malik deyildir. Məgər İran parlamenti qanunverici hakimiyyət deyildirmi? Biz, qanun və qaydaların digər səlahiyyətli şəxs tərəfindən müəyyən edilməsini qəbul edə bilmərik və hətta baş nazir Qəvvama da belə bir hüquq verməmişik. Halbuki o, parlament qarşısında rəsmi və qanuni məsuliyyət daşıyır".

"Baxtar" qəzeti 15 mart 1943-cü il tarixli sayında yazırdı: "Qanunlar parlament tərəfindən işlənib hazırlanmalıdır".

Hökumətin təklif etdiyi qanun layihəsi qeyri-ərzaq məhsullarına, xammala, istehsal olunan məhsullara, bu malların idxalına və ixracına, onların anbarlara yığılmasına, daşınmasına, saxlanılmasına və bölgüsünə, həmçinin bitdikdən sonra 6 ay müddət ərzində bütün hallarda əmək haqqının ödənilməsinə və icarə haqqının müəyyən edilməsinə məhdudiyyətsiz sərəncam hüququ aldı. Bundan əlavə, vətəndaşlara məxsus malların müsadirəsinə dair qanun da onun əl-qolunun daha da açılmasına səbəb olmuşdu.

"Mehre İran" qəzeti 16 mart 1943-cü il tarixli sayında, Milsponun səlahiyyətləri haqqında yazırdı: "Bu qədər qanun qəbul etməyin! Xarici ticarətin məhdudlaşdırılması haqqında qanun hökumətə idxalat və ixracat mallarını məhdudlaşdırmaq hüququ verir. Bu qanun hələ ləğv olunmamışdır və onun sərəncamları hələ də qüvvədədir... Qanun qəbul etməyin, onu yaxşı icra edin!"

"Setare" qəzeti isə 16 mart 1943-cü il tarixli buraxılışında yazır: "Biz cənab Milspoya demək istəyirik ki, bugünkü iranlı 20 il öncəki iranlıdan fərqlənir. Bu gün alimlər, ziyalılar və vətənpərvərlər, qanunvericilik səlahiyyətlərinin hökumət tərəfindən kiməsə, hətta bu şəxs Milspo olsa belə, verilməsilə heç vaxt razılaşmazlar".

"Səadəte bəşər" qəzeti 16.03.1943 tarixli sayında yazır: "Qanunvericilik yalnız Məclisə məxsusdur. O, həmişə işə başlamağa hazır olmalı və təcili araşdırmalardan sonra düzgün qərar qəbul etməlidir".

"Keyhan" qəzeti 30.03.1943 tarixli buraxılışında doktor Mədəninin məqaləsini dərc etmişdi. Məqalədə deyilir: "Doktor Milsponun Məclisdən xahiş etdiyi səlahiyyətlər heç bir halda qanuna zidd deyil və şübhəsiz ki, onun xahişi ilə razılaşmaq olar".

Milspo özünün ikinci məruzəsində yazırdı: "Keçmiş məruzəmdə mən göstərmişdim ki, bizim qarşımızda duran mühüm vəzifələr, bəzi qüvvələrin maraqları ilə ziddiyyət təşkil etdiyinə görə müqavimət və əks təsirlə üzləşmişik. Çox ehtimal fəaliyyətimizə ziyan dəyəcək və onlar uğur qazanmayacaqlar. Həmin məruzədə mən yardım üçün hökumət və Məclisə müraciət etdim. Biz çətinliklərimizin İran mətbuatı tərəfindən başa düşüləcəyinə və fəaliyyətimizin düzgün şərh olunmasına və aydın başa düşülməsinə ümid edirik. Hazırda öncə barəsində danışdığım əks təsir və müqavimətlə üzləşirik. Bir çox İran qəzetləri bizim təkmilləşdirmə üzrə planlarımızı tənqid atəşinə tutur, onların mənasını təhrif edirlər. Əgər bu kimi hərəkətlər davam etdirilərsə, mən zəruri halda onların adlarını dərhal açıqlamaq məcburiyyətində qalacağam.... Mən tənqidi olduqca səmimi qəbul edirəm. Bir şərtlə ki, o kömək göstərilməsi və müsbət nəticələr əldə edilməsinə yönəlmiş olsun" **(28, №5164, 1943).**

Bu cəhətdən Milspo yardım haqqında xahiş ilə hökumətə və Məclisə müraciət edərək, öz mövqeyinin möhkəmləndirilməsi istiqamətində səy göstərdi.

Milsponun fövqəladə səlahiyyətləri haqqında qanun layihəsi, İranın siyasi və partiya dairələrində müxtəlif çatların yaranmasına səbəb oldu. Hökumət qarşıda duran vəzifələri aydınlaşdırmaq və ictimai rəyi bu qanun layihəsinin qəbuluna cəlb etmək məqsədilə bəyanatlarla çıxış etməklə çoxsaylı iqtisadi çətinlikləri və qiymətlərin intensiv artmasına toxunaraq, inflyasiya və veksellərlə möhtəkirlik, zəruri malların düzgün bölüşdürülməməsi ilə əlaqədar səbəblər üzündən çoxsaylı müflisləşmələrdən narahatlığını bildirdi ki, bu da mövcud vəziyyətin ağırlığının dövlət qulluqçuları, fəhlə və kəndlilərin çiyinlərinə düşdüyünün və bu səbəbdən də bu vəziyyətin mümkün qədər tez və ədalət əsasında aradan qaldırılmasının zəruriliyinin göstəricisidir. Problemin yeganə həlli yolu veksel möhtəkirliyi və qaçaqmalçılıqla mübarizənin başlanması ilə yanaşı, hər növ qara bazara qarşı mübarizə aparılmasıdır. Bu mübarizənin yeganə üsulu Milspoya fövqəladə səlahiyyətlərin verilməsidir. Bu bütün problemlərin həll edilməsi, bütün fəlakət və mənfi halların aradan qaldırılmasının açarıdır" **(33, s.171-173).**

Son nəticədə, ictimaiyyətin etirazlarına rəğmən, hökumətin dəstəyi ilə səlahiyyətlər haqqında qanun layihəsi İran parlamenti tərəfindən qəbul olundu. Bu səlahiyyətlər nəticəsində, iranlı gənclərin imkanlarını nəzərə almayan və yaranmış yeni şəraitdə məsuliyyətsiz xarici ekspert Milspoya, Məclisdə öz səviyyəsində qanunlar müəyyənləşdirmək hüququ verdi. Mahiyyət etibarı ilə parlamentarlar belə xalq tərəfindən seçilməmişdilər. Ona görə ki, XIII çağırış Məclisin üzvləri tamamilə Rza şah tərəfindən təyin edilmiş və Təhlükəsizlik İdarəsində hazırlanmış siyahı üzrə seçil-

mişdi. Bundan əlavə, Məclis deputatlarının əksəriyyəti belə hesab edirdilər ki, Amerika iranlılar üçün nəyin yaxşı olduğunu onların özlərindən yaxşı bilir. Onlar Amerikaya İranı Sovet təhlükəsindən qoruya biləcək qüvvə kimi baxır və buna görə də Milsponun xahiş etdiyi səlahiyyətlərin ona verilməsini zəruri sayırdılar. XIII çağırış Məclisi tərəfindən Milspoya fövqəladə səlahiyyətlərin verilməsinə dair qanun layihəsinin təsdiq edilməsindən sonra qiymətlərin, icarə haqlarının, nəqliyyat xərclərinin artımı, eləcə də bəzi mallar üzərində məhdudiyyətlərin qoyulması və sairəyə dair qərarların təsbit olunması haqqında bəyanatların, əsasnamələrin və sərəncamların yazılması prosesi davam edirdi. Bu qərarların dərc olunması ilə eyni zamanda qəzetlərdə nəqliyyat daşımalarındakı çətinliklər, qiymətlərin qalxması, icarə haqqının yüksəldilməsi, ilkin tələbat malların düzgün bölüşdürülməməsi haqqında Milsponun qəbul etdiyi tədbirlərin ölkədə iqtisadi vəziyyətə təsir göstərmədiyi barədə məqalələr çap olunurdu.

1943-cü ilin mayında Milspo üç həmkarının işə qəbul olunması haqqında qanunu baxılmaq üçün Məclisə verir. Təxminən bir aydan sonra daha üç əməkdaşın işə cəlb olunmasına dair daha bir qanun Məclisin müzakirəsinə verilir. Məclis bu iki qanunu birləşdirərək altı amerikalı ekspertin işə qəbul olunması haqqında qərarı 1943-cü il iyunun 20-də təsdiqləyir. Bu qanun 8 maddədən ibarət idi və Milsponun özünün də işə qəbul olunması haqqında qanunla bir çox cəhətdən oxşarlığa malik idi və yalnız əmək haqqının, eləcə də səlahiyyətlərin ölçüləri ilə fərqlənirdi. Bundan əlavə gəlir vergisinə dair qanun da Məclisin müzakirəsinə verildi.

Milspo 1943-cü ilin mayında işləri dayandırmış mühəndislər haqqında bəyanat yaydı. Bu bəyanat bəzi deputatlar və mətbuat tərəfindən İran daxili siyasi işlərə müdaxilə kimi qiymətləndirildi. Milspo, bu bəyanatda tətilçilərin sözlərinə əsaslanaraq, zavod və şaxtalarda mühəndis heyətinin tətil etməsinin səbəblərini etiraf etdi. Milspo göstərirdi ki, mühəndislərin tələb etdiyi qanun layihəsi onun tərəfindən təsdiq edilmiş, lakin oraya belə bir müddəa əlavə edilmişdir ki, ölkə üzrə bütövlükdə bütün əmək haqqı cədvəli hökumət tərəfindən qaydaya salınacağı vaxta qədər əmək haqqına əlavəni almayacaqlar. O, bunun səbəbini bir tərəfdən ehtiyacı olan bütün dövlət qulluqçularının əmək haqqının artırılmasının hökumətin imkanları daxilində olmaması kimi, digər tərəfdən isə mühəndis heyətinin əmək haqqının artırılmasına dövlət tərəfindən işçilərin müəyyən təbəqəsinə dəstək kimi qiymətləndirirdi ki, bu dəstək də qulluqçular arasında qeyri-bərabərliyə gətirib çıxarırdı və bu da ədalətsizlik olardı. Göstərilən bəyanatın mühüm bəndi mühəndis işçilərə əlavə ödənişlərdən imtina edilməsi haqqında üçüncü maddə idi. Orada deyilirdi: "Əgər mühəndislərin əmək haqqına əlavələr indi ödənilərsə, bu işə çıxmadığına, hökumət əleyhinə tətilə və ən böhranlı anlarda hökumətin fəaliyyətinin çətinləşdirilməsinə görə onlara mükafat verilməsinə bənzəyərdi. Aksiyaçıların hərəkətləri dövlət gəlirlərini azaltmış və hətta mənim departamentimin işlərinə belə təsir göstərmişdir" **(28, №5183, 1943).**

Milsponun dərc etdiyi bəyanat, xüsusilə onun işlətdiyi ifadələr hökumətin öz vətəndaşlarının ayrı-ayrı qruplarının tətilərinə münasibətini əks etdirirdi. Hətta əgər bu tələblər olduqca qanu-

ni görünsə belə adətən bu cür bəyanatları hökumət dərc edir. İranın Vergi İdarəsinin baş direktoru olan Milspo hətta Milli Məclisdən fövqəladə səlahiyyətlər alsa belə bunu etməməli idi və ən azı, bu bəyanat hökumətin adından dərc olunmalı idi. Milspo bir tətilin çoxsaylı tətillərə çevrilməsi və bu prosesin nəticə etibarı ilə işləri kökundən laxlada bilməsindən qorxurdu. O, özünün gizli məqsədlərinə - xarici müşavirlərin hakimiyyəti rejiminin qurulmasına nail ola bilməsinə nail ola bilməyəcəyindən çox ehtiyatlanırdı. Belə bir mövqe, onun daha böyük hakimiyyətə çatmaq və öz nüfuzunu daha da möhkəmlətmək istəyini bir daha sübuta yetirirdi. Milsponun, mühəndis kadrlarının tətili haqqında bəyanatı, Məclisin bəzi deputatları tərəfindən İranın daxili siyasətinə müdaxilə kimi qiymətləndirildi. Deputatlardan biri bu barədə demişdi: "Milli Məclis, İranın hökuməti və xalqı, doktor Milsponu əvvəlki ezamiyyət zamanı daxili siyasətə bir dəfə də olsun qarışmadığı üçün ölkəyə dəvət etdilər. Lakin təəssüflər olsun o, İrana yenidən dəvət olunan zaman artıq iki dəfə daxili siyasətə qarışmışdır. Ola bilər ki, mühəndislərin tətil aksiyalarında Milsponun ölkənin daxili siyasətinə qarışmasından irəli gəlmişdir. Onun bəyanatla çıxış etməsinə heç cürə haqq qazandırmaq olmaz və o, yalnız əmək haqqının miqdarı barədə öz fikirləri və münasibətini söyləyə bilər" **(28, №5183, 1943).**

Milspo əmin idi ki, asanlıqla istədiyi səlahiyyətlərə malik olacaq. **(76, s.97).** O, öz məqsədlərinə çatmaq istiqamətində 14 və 15 saylı qərarlar verdi ki, bu qərarlar un və buğda ticarətinin qadağan olunması ilə əlaqədar idi. Bu addım çörəyin bahalaşmasına gətirib çıxardı ki, bu məsələ kəndli fermerlərin və ailələrin na-

rahatlığına səbəb olurdu. Çörək bölgüsündə problemlər meydana gəldi. Çörək dükanları və çörək sexləri qarşısında nəhəng növbələr yarandı. Hətta keyfiyyətsiz kəpəkli arpa çörəyi belə çatışmırdı. Nəticədə qara bazar meydana gəldi. Əhalinin yoxsul təbəqələri bir müddət çörək ala bilmədi. Mətbuat səhifələrində belə bir vəziyyətlə əlaqədar şikayətlər dərc olunmağa başladı. Deputatlar Məclisdəki çıxışlarında Milsponun pis niyyətlər güddüyünü bildirərək onun qərarlarından çoxunun əleyhinə etiraz edirdilər. Məsələn, deputat Tehrançı 1943-cü ilin iyulun 25-dəki çıxışında bildirmişdir: "Milspo özünün əvvəlki qərarlarına baxmayaraq, Məclisin rəyinə zidd olan qərarlar qəbul edir və daşıdığı səlahiyyətlərlə bir yerə sığmayan işlər görür. Milspo cəsarətlə taxıl ticarətini ləğv etmiş, əhaliyə yalnız un verəcəyini vəd etmişdir ki, bu da xalq və dövlətin maraqlarına ziddir. Mən təəccüblənirəm ki, nəyə görə Nazirlər Şurası bu qərarların verilməsinə maneçilik törətməmişdir" **(28, №5231, 1943).**

1943-cü ilin iyulunda Ərzaq Nazirliyinin ləğv olunması haqqında qərar qəbul edildi. Möhtəkirliyi qadağan edən qanunların icrası üzərində nəzarət İdarəsi isə bütün əməkdaşları, əmlakı, hesabları və aldıqları kreditlərlə birgə Milsponun nəzarəti altına keçdi.

Milspo 1943-cü ilin avqust və sentyabr aylarında İranın Daxili İşlər Nazirliyinin işlərinə açıq müdaxilə etdi. Hadisə isə belə olmuşdu. Milspo əmr verərək Robertsonu (Qiymətlərin Nizamlanması üzrə İdarənin rəisi) və Qroufordu (taxıl və çörək şöbəsində müavin) Maliyyə Nazirliyinin Statistika Nazirliyi ilə yaratdığı müştərək komissiyada Maliyyə Nazirliyinin nümayəndələrini təyin etdi. Bu komissiya çörək talonlarının miqdarını təyin

etmədi və Tehran əhalisinin siyahıya alınmasını müəyyənləşdirməli idi. O, əmrin bir surətini daxili işlər nazirinə göndərdi. Daxili işlər naziri öz cavabında, bu işin həmişə DİN-in funksiyalarına aid olduğunu bildirərək Milsponun bu əmrinə yazılı etiraz etdi. Buna cavab olaraq, Milspo ona müraciət etdi və əvvəlki mövqeyində qalaraq heç bir reaksiya vermədi.

Mətbuat Milspo və daxili işlər naziri arasında yaranmış fikir ayrılığını daha da qızışdırdı və münaqişə Məclisin müzakirəsinə çıxarıldı. Sonda deputatlar daxili işlər nazirini haqlı çıxardılar **(28, №5272, 1943).** Vəziyyət getdikcə pisləşirdi. Milsponun qərarları nəinki yaralara məlhəm qoymadı, bəlkə ona duz da səpdi. Tədricən xalqın ümidləri və intizarı boşa çıxırdı. Xalq artıq Milsponun fəaliyyətinə olan etibarını itirmişdi. Mətbuatda şikayət və etirazlar dərc edilirdi. Məclisin deputatları problemlərin yeni həll yollarını axtarmalarına baxmayaraq bu istiqamətdə heç bir müsbət nəticəyə nail ola bilmirdilər.

Milspo irəli sürdüyü təşəbbüslərdən uğur əldə edə bilmədi. O, uğursuzluğun səbəblərini tamamilə başqa şeylərdə görürdü və 1943-cü ilin iyul və avqust aylarındakı məruzələrində hökumətdən onun təşəbbüslərinə tam dəstək verməsini və onun əvvəllər Məclisə göndərdiyi qanunların təcili təsdiq olunmasını tələb edirdi. Milspo gəlir vergisi və 60 amerikalı ekspertin işə qəbul edilməsinə dair qanun layihələrinin qəbul edilməsində israrlı idi. O öz məruzəsində amerikalı ekspertlərin fəaliyyətlərinin davam etməsi məsələsinin bu qanunların qəbulundan asılı olduğunu bildirirdi. O yazırdı: "Biz tərəqqinin olmadığını gördükdə, yeganə həll yolu kimi Tehranda bütün başlıca vəzifələrin amerikalıların əlinə

verilməsini lazım bildik. Buna görə də Amerika Səfirliyinin zəmanəti ilə mən qanun layihəsi işləyib hazırladım, hökumət isə onu 1943-cü il iyulun 29-da Məclisə verdi" **(157, s.107).**

Milsponun nə yazdığını nəzərə alsaq başa düşərik ki, ABŞ-ın Xarici İşlər Nazirliyi Tehrandakı Səfirliyi vasitəsilə Milsponun qərarlarına və fəaliyyətinə rəhbərlik edirdi. Maliyyə eksperti xatirələrində yazırdı: "Mənə izah etdilər ki, ABŞ-ın Xarici İşlər Nazirliyi bu dəfə birinci ezamiyyətimlə müqayisədə daha çox maraqlıdır. Məndən tələb edirdilər ki, Səfirlik ilə sıx əlaqə saxlayım və daima bütün hadisələr barədə nazirliyə hesabat verim" **(157, s.102).**

Milspo, iranlıların iqtisadi proseslərə rəhbərlik etməyə qadir olmadıqlarına və gələcəkdə də bunu edə bilməyəcəklərinə əmin idi.

Milspo və Məclis arasında ziddiyyətli məqamlar təkcə onun taxıl və un ticarətinə dair əmr və qərarlarına aid deyil, həm də 60 amerikalının muzdla tutulması və gəlir vergisinə dair layihələrində də özünü qabarıq şəkildə göstərirdi. Bu layihələrin Məclisə göndərilməsinə baxmayaraq onlar təsdiq olunmadı. Beləliklə ziddiyyətlər daha da dərinləşdi.

XIII çağırış Məclisi işinə başlayan zaman müttəfiq qüvvələri İrana soxuldular. Milsponun səlahiyyətlərinin sonuna az vaxt qaldığına görə deputatlar belə ümid edirdilər ki, komitə və komissiyalarda gəlir vergisi haqqında qanunu onun səlahiyyətlərinin müddətinin bitməsinə qədər ləngidib saxlasınlar ki, ekspertlər bu qanunu qəbul etmədən çıxıb getsinlər. Doktor Milspo öz xatirələrində yazırdı: "Cənab Dreyfus **(ABŞ-ın İrandakı fövqəladə və səlahiyyətli səfiri - Ə.S.)** və mən belə qənaətə gəldik ki, öz qüvvələrimizi Məclisə və deputatlara göstərmək vacibdir. Buna

görə də mən 1943-cü il oktyabrın 14-də aşağıdakı məzmunda baş nazirə məktub ünvanladım ki, Məclisin yeritdiyi süründürmə taktikası öhdəliklərimin icra olunmasına güclü çətinlik törədir və hətta onları mümkünsüz edir. Buna görə də noyabrın ikisində İran hökuməti ilə bağladığım kontrakt ləğv edilməsi və ABŞ-a qayıtmaq qərarına gəlmişəm" **(157, s.112).**

Milspo missiyasının bütün üzvləri də oxşar məktublarla baş nazirə müraciət edərək bildirdilər ki, əgər Milspo istefaya çıxsa, onlarda istefa verəcək və İranı tərk edəcəklər. Amerika ekspertlərindən ibarət qrupun bu addımı bunu göstərməli idi ki, Milsponun rəhbər göstərişləri olmadan işləmək mümkün olmayacaqdır. Mislpo daha sonra yazırdı: "Amerika məsləhətçilərinin yekdil hərəkəti və səlahiyyətli Amerika səfiri tərəfindən bizim ultimatuma verilən dəstək gözlənilən nəticəni verdi və İran hökumətini tərpənərək fəaliyyətə başlamağa vadar etdi. İran şahı məni qəbuluna çağırdı və təqdim olunmuş qanunların parlamentdən keçəcəyini vəd etdi. Şah bəzi deputatları yanına çağırdı və təqdim olunmuş qanunların tezliklə qəbul ediləcəyi barədə onlara inandırıcı vədələr verdi. Saray naziri şəxsən Məclisə gələrək deputatlara belə məsləhət gördü ki, amerikalı ekspertlərə maneçilik törətməsinlər. Nəticədə 60 amerikalı məsləhətçinin işə qəbul olunması haqqında qanun 1943-cü il oktyabrın 23-də Məclis tərəfindən qəbul olundu və bununla da bizim narahatçılığımız başa çatdı. Gəlir vergisi haqqında qanun Məclisin reqlamentinə uyğun olaraq, Məclisin İqtisadiyyat üzrə Komitəsinə verildi və onun açıq müzakirəsinə başlanıldı. Nəhayət, bu qanun da 1943-cü il noyabrın 11-də qəbul olundu **(157, s.111).** Bu qa-

nun qəbul edildikdən sonra onun bəndləri İran sərmayədarları və kapitalistləri tərəfindən yerinə yetirilmədi və nəticədə qanunun qəbul edilməsi üçün aparılan bütün mübarizələr dövlətə heç bir fayda gətirmədi.

a) Milsponun, Orta Şərq üzrə Komitədə İranın qanuni payından istifadə edilməməsi istiqamətindəki fəaliyyəti;

Amerikalı ekspertlərin dəvət olunmalarının ən mühüm səbəblərindən biri İranın Orta Şərq Komitəsində cəmlənmiş payının istifadəsiz qalmasından ibarət idi. Amma Milspo 1943 və 1944-cü illər üçün İranın tam payını almaqdan imtina etdi və aylıq hesabatlarında bu sahəyə aid ola biləcək hər hansı bir rəqəm gətirmədi. Milspo, bu məsələ ilə əlaqədar daima mətbuat və Məclis tərəfindən tənqidlərə məruz qalmasına baxmayaraq, heç vaxt bu barədə verilən suallara məntiqi, dəqiq və inandırıcı cavablar vermirdi.

Bu məsələdə Milsponun yürütdüyü siyasət İngiltərənin maraqlarına tam cavab verirdi. Bütün bunlar ondan ibarət idi ki, istənilən ölkə ona ayrılmış paydan müəyyən olunmuş vaxt ərzində istifadə edə bilməsin və bu yardıma ehtiyac duyulmasın. Tələb olunmayan bu məhsullar o zaman İngiltərə tərəfindən Orta Şərqin digər alıcılarına satılır və bundan çoxlu miqdarda maddi, siyasi və hərbi fayda götürülürdü. Belə bir şəraitdə 1943-cü ildə İran üçün Orta Şərq Komitəsi tərəfindən nəzərdə tutulmuş mal payı 40 min ton yükdən ibarət idi ki, bu paydan istifadə olunmamışdı. 1944-cü ilin birinci yarısında 13 min ton yük istifadəsiz qalmışdı. Nəticədə Amerikanın Orta Şərq üzrə Komitəsinin Mal Bölügüsü İdarəsi belə bir qərar qəbul etdi: "Yaxın Şərqdə Mal Bölgüsü İdarəsinə belə bir məruzə təqdim olunmuşdur ki, İranda toxuculuq

malları çox olduğundan bu mallar anbarlarda iylənir və yararsız hala düşür. Buna görə də Vaşinqtondakı Mal Bölgüsü Komitəsi 1944-cü il üzrə İrana düşən payı tamamilə silmişdir".

Milspo bu suallara cavab vermək əvəzinə yaydığı bəyanatda İranı və  iranlıları təhqir etmişdi.

Milsponun fəaliyyəti o dərəcədə səhv hesablanmışdı ki, 1944-cü ilin əvvəllərindən 4 ay vaxt keçməsinə baxmayaraq, İrana düşən pay hələ də elan olunmamışdı. İranlı tacirlər, hansı miqdarda əmtəə kütləsi ilə hesablaşmalı olduqlarını və hansı zəruri malları İrana daxil edə biləcəklərini bilmirdilər. Sənaye, Sənətkarlıq və İncəsənət Nazirliyi də İranın kvotası haqqında heç nə bilmirdi. Birləşmiş yəhudi tacirlər qrupu və Amerika ekspertləri İran bazarında mövcud vəziyyətdən tam xəbərdar idilər. 1943-cü ildə İrana ayrılmış paydan 500 ton toxuculuq məhsulu qalmışdı ki, bundan da istifadə olunmadı. İranda çit parçanın 1 metri 120 riala satılırdı. Tacirlər qrupu çitin metrini 4 riala satmağı təklif etsələr də, bu təklif Amerika ekspertləri tərəfindən qəbul edilmədi.

Orta Şərq Komitəsində İranın qanuni kvotasından istifadə olunmamasına dair çoxsaylı tənqidi yanaşmalara baxmayaraq, Milspo quru və əhəmiyyətsiz rəqəmlərdən başqa bir şey dərc etməmiş və öz hesabatlarında belə yazmışdı ki, İranın qanuni kvotası üzrə maksimum mal almaq üçün maksimum səylər göstərmişdir. O öz məruzəsində yazırdı: "1943-cü ildə İranın istifadə olunmamış mal kvotası barədə çoxlu danışıqlar olmuşdu. Amma bu bir həqiqətdir ki, bu il mənim rəhbərliyim altında işləyən təşkilat hazırda əmtəə kvotası, idxalata və malların daşınmasına icazə verilməsinin qayğısına qalmaq üçün kifayət qədər vaxta malik

deyildir. Nəticədə isə biz, baş vermiş hadisələr haqqında deyil, baş verə biləcək hadisələr haqqında məsuliyyət daşımalıyıq".

Milsponun fəaliyyəti nəticəsində xalq ağır vəziyyətə düşmüş, qiymətlər isə sürətlə artmışdı. Əhalinin alıcılıq qabiliyyəti tədricən aşağı düşürdü. Qara bazar isə qızıl yığan kapitalistlərin və alıcıların (Əlbəttə, Milspo ilə məxfi əlaqələrə malik olan) xeyrinə möhkəmlənir və çiçəklənirdi.

Doktor Kiyanuri, "Tudə" Partiyasının mərkəzi klubundakı çıxışında vurğulamışdı: "Müttəfiqlərin 1943-cü ildə İrana öz nəqliyyatları ilə 50 min ton müxtəlif mallar göndərməyi vəd etmələrinə baxmayaraq, nəyə görə yalnız 10% mal göndərilmiş, 40 min ton vəd olunmuş mallar isə çatdırılmamışdır?" (5, №236).

Milspo, Tehran qəzetlərindən birinə verdiyi müsahibəsində (onu müdafiə edən ingilislərin əlaltısı idi) Orta Şərq Komitəsində İranın mal kvotasından istifadə edilməməsinin səbəblərini göstərmədən bu vəziyyət haqqında verilən suala cavabında bildirmişdir: "Müxtəlif maneələr üzündən 1943-cü ildə şəkərin tam kvotasının idxal edilməsi mümkün olmamışdır, amma qəbul olunmuş qərarları və Orta Şərq üzrə Komitə ilə vicdanlı əməkdaşlığı nəzərə alaraq, 1944-cü il üçün ayrılmış bütün malların alınmasına ümid edirik".

"Mərde emruz "qəzetinin müxbiri, İranın payına düşən mal kvotasının alınması yolundakı yaranan çoxsaylı çətinliklərin səbəbləri haqqında Milspoya belə bir sual ilə müraciət etmişdir: "Düzdür ki, bu maneələr İranın xəzinəsinə bir milyard rialdan çox zərər dəyməsinə səbəb olmuşdur?" Milspo cavabında bildirmişdir: "Təsdiq edirəm ki, keçən ilin kvotası İran tərəfindən ta-

mamilə istifadə edilməmişdir. Amma səbəblərin sadalanması ətraflı xüsusi bir bəyanat tələb edir. Hazırda biz bu bəyanat üzərində işləyirik və yaxın gələcəkdə onu dərc edəcəyik". Ancaq Milsponun qeyd etdiyi bəyanat heç vaxt işıq üzü görmədi.

XIV çağırış Məclisində ilk xalq deputatı olan doktor Müsəddiq, iclasda həyati əhəmiyyət daşıyan bir məsələ qaldırdı. 1944-cü il iyulun 23-də bu iclasda yarım rəsmi "Əsre eqtesad" qəzeti statistik rəqəmlərə əsaslanaraq, hökuməti məsuliyyətli olmağa çağıraraq bildirmişdi: "Hörmətli deputatların diqqətinə çatdırıldığı kimi, Orta Şərq üzrə Komitə tərəfindən ayrılmış İranın mal kvotasından xalq istehlakı üçün 40 min ton mal istifadə olunmamışdır. Bundan əlavə, deyildiyi kimi, cari ilin kvotasından 18 min ton istifadə olunmamışdır. Biz bu ziyankarlığın səbəbini bilmirik. Çünki vaxt ötüb keçir və İran artıq heç nə almayacaq. Hörmətli deputatlar bilməlidirlər ki, kvota üzrə kifayət miqdarda mal kütləsinin alınmaması səbəbindən məhsulların qiyməti olduqca bahalaşacaq. Hansı səbəbə görə, cari ilin keçən altı ayı ərzində İrana ayrılmış kvota tamamilə alınmamışdır? (25, 100). Xalq arasında belə deyirlər ki, Milspo pul vəsaiti olmaması səbəbindən keçən il 40 min ton mal idxal edə bilməmiş və bununla da yığılmamış gömrük rüsumlarından xəzinəyə xeyli ziyan vurmuşdur. İlkin istehlak malları sayılan şəkər və toxuculuq mallarının qiymətləri hətta orta təbəqə üçün əlçatmaz idi. Belə bir təsəvvür yaranmışdı ki, 1944-cü il bir daha təkrar olunmayacaq, lakin hazırda görürük ki, cari yarım ilin kvotasında 13 min ton zəruri mallar olunmamışdır və onlar İran üçün artıq itirilmişdir. Əgər müttəfiqlər İran üçün bu malları ayırmışdılarsa,

Milspo isə onların alınmasından və daşınmasından imtina etmişdisə, o zaman bu, bizim cəmiyyətin satqınlığıdır. Əgər müttəfiqlər bizim mal payımızı verməkdən imtina edirlərsə, bu o deməkdir ki, Milspo yenə də üzərinə düşən öhdəlikləri yerinə yetirməmişdir. Belə ki, o İran hökumətinin nümayəndəsi hesab olunur və öz əmək haqqını İran xəzinəsindən alır. O, hansı səbəbə görə çətinliklərə dözdüyünü vicdanla xalqa söyləməlidir ki, hökumət və Məclis də öz növbəsində zəruri qərarlar qəbul etsin".

Müsəddiq, Məclisdəki çıxışından əlavə Milspoya ünvanladığı məktublarında mövcud problemlərə toxunmuş və onlara cavab tələb etmişdi. O, Milsponun məktublarından birinə cavab olaraq yazdığı 515-6075 saylı məktubunda səkkiz məsələ ortaya qoymuşdu ki, ilk üç sual aşağıdakı şəkildə ifadə olunmuşdu:

1. 1943-cü il üzrə mal kvotası üzrə İrana düşən payın həcminin 40 min ton olmasında səbəb nə idi?

2. Cari yarımildə İran tərəfindən 13 min ton idxalat malları alınmamasının səbəbi nə idi?

3. Gömrük rusumlarından, yol vergilərindən, yük daşımalarından əldə olunan gəlir formasında idxalat üzrə payın vaxtında ala bilinməməsi İran xəzinəsinə nə kimi zərər vurub? **(28, № 5535, 1944).**

Doktor Müsəddiq öz məktubunda suallara cavab verilməsi üçün qarşı tərəfə 20 gün möhlət vermişdi. Lakin Milspo ona cavab verə bilməzdi.

Müsəddiq əvvəllər də öz çıxışlarında Milsponun mənfi fəaliyyəti ilə əlaqədar parlamentdə bu və digər məsələlərə toxunmuş və tənqidi mövqeyini bildirmişdir. Xüsusilə 08.04.1944-cü il tarixli

iclasda baş nazir Səid hökumətinin təklif etdiyi planın müzakirəsindəki çıxışında demişdir: "Məlum olduğu kimi, 1943-cü ildə müttəfiqlər İrana 50 min ton xalq istehlakı malları göndərməli idilər, ancaq onlar əhəmiyyətsiz bir hissəni hökumətə və daha az bir hissəsini tacirlərə vermiş, 40 min tonunu isə göndərməmişdilər. Əgər biz nəzərdə tutulmuş toxuculuq mallarını alsaq, xəzinə gömrük yığımları formasında 200 milyon rial gəlir əldə edər və bütün əhalinin çitə olan ehtiyacı təmin olunardı. Mənə məlum olduğu kimi, kəndlərdə vəziyyət belə idi ki, əgər kim dünyadan köçürdüsə, hətta onun kəfəni üçün belə çit tapılmırdı. Tezliklə belə bir vəziyyət şəhərdə də müşahidə olunacaq. Hazırda cari ilin 4 ayı artıq arxada qaldığına baxmayaraq, malların göndərilməsi məsələsi indiyə qədər hələ də qeyri müəyyən vəziyyətdə qalır. Kimsə bu ləngimənin səbəbini bilirmi? Nəyə görə xalq çətinliklərə və qıtlığa, hökumət isə ziyanlara dözməlidir?" **(28, №5435, 1944).**

XIV çağırış Məclisində Tehrandan olan deputat Cəlal Abdeh, çıxışında Milsponun fəaliyyəti haqqında demişdir: "Tələb və təklif qanununa görə, doktor Milspo ölkədə daha çox mal olması istiqamətində səy göstərməli olduğu bir halda, hətta müttəfiqlərin İran üçün ayırdığı kvotanı almağı belə təmin etmədi. Bu ilin ilk altı ayının kvotası 47 min ton təşkil edirdi ki, ondan da 4 min tondan istifadə olunmuşdur. 30 milyon kq şəkər tozu, 10 milyon kq çay, kağız, pambıq parça, kətan, çit və digər zəruri mallardan ibarət ikinci yarımilin kvotasından isə heç nə idxal olunmamışdır. Əgər bu idxalat həyata keçirilsəydi, biz bəzi problemlərimizi həll etmiş olardıq. Bu, bazarda qiymətlərin qalxmasının səbəblərindən biri idi" **(53, s.303-310).**

Məşhəddən seçilən deputat Əmir Teymur Qalalı, Məclisin iclasında Milsponun fəaliyyətini tənqid atəşinə tutaraq, demişdi: "Bizim müttəfiqlərlə bağladığımız müqaviləyə əsasən, onlar bizim xalq istehlakı mallarına olan tələbatımızı təmin etməyi öhdələrinə götürmüşlər" **(28, №5628, 1944).**

İranın mal kvotasından istifadə olunmaması ilə əlaqədar Milsponun səhv addımları XIV çağırış Məclisin deputatlarının və digər yüksək rütbəli İran rəsmilərinin tənqidinə məruz qaldı.

b) Milsponun, Tehrana un və taxılın gətirilməsinə qadağa qoyulması istiqamətində fəaliyyəti;

İranda şəhrivər hadisələrindən və müttəfiqlərin İran ərazisinə soxulmalarından sonra, müttəfiqlərin silahlı qüvvələri tərəfindən ərzaq məhsullarının əlavə istehlakı meydana çıxdı. Buna görə də yerli əhalinin tələbatı tam ödənilə bilməzdi. Buna həm də əlverişsiz hava şəraiti də təsir göstərirdi. Yaranmış şərait elə bir ərzaq siyasəti qəbul etməyi tələb edirdi ki, bu siyasət əhalinin ərzağa olan minimum tələbatını təmin edə bilsin. Əvvəllər kəndlilər maneəsiz olaraq un və taxılı heç bir maneə ilə üzləşmədən şəhərə gətirirdilər.

Milspo özünün fövqəladə səlahiyyətlərindən istifadə edərək, Tehrana və İranın digər böyük şəhərlərinə, o cümlədən Təbrizə un və taxıl daşınması xüsusi fərmanla qadağan etdi. Sovet İttifaqı SSRİ-yə göndərilmə məqsədilə torpaq sahiblərindən və kəndlilərdən böyük miqdarda taxıl və arpa satın almışdı. Bu qıtlıq İranın digər əyalətlərindən taxıl gətirilməsi hesabına ödənilməli idi. Lakin Milspo bunun əksini etdi. Səhv siyasət və ayrı-ayrı amerikalı müşavirlərin İrandakı özbaşınalıqları ərzaq və

xalq istehlakı mallarının çatışmamasına təkan verdi. Qiymətlər sürətlə qalxmış, xalqın çətinlikləri isə çoxalmışdı. Məsələn, taxıl üzrə İranın ən məhsuldar əyalətinin mərkəzi olan Təbrizin əhalisi elə bir çörək qıtlığı ilə üzləşmişdi ki, çörək sexlərində çörək əvəzinə bişmiş kartof satırdılar. Nəticədə isə 1944-cü ilin əvvəllərində əhali işi dayandıraraq əyalət idarəçiliyinin binasına hücum etdi. Məclis Komissiyasının məlumatına görə o zaman hökumət kifayət miqdarda taxıl ehtiyatına malik idi. Bu ehtiyatlar əyalətin müxtəlif hissələrində idi və yalnız onun daşınması üçün vasitələr tələb olunurdu. Amma ərzaq üzrə amerikalı ekspert əhalinin təchizatı üzrə qətiyyətli tədbirlər görmək əvəzinə Tehrana qaçdı. Orada onun vəzifəsi yüksəldildi və o, İranın sənaye inkişafı məsələləri üzrə baş müşavir təyin olundu **(21, s.173).**

Tehranda da Təbrizə oxşar vəziyyət idi. Belə bir vəziyyət qaçaqmalçılıq və gizli qara bazarın genişlənməsi üçün əlverişli şərait yaradırdı. Mətbuat və deputatlar öz çıxışlarında Milsponu tənqid edirdilər. Lakin Milspo və onun əlaltıları tənqid və etirazlara heç bir əhəmiyyət vermədən istədiklərini edirdilər... Milspo belə bir siyasət yürüdürdü ki, un xüsusi milli çörək sexlərinə yox, onun öz İdarəsindən asılı olan dövlət çörək zavodlarına verilsin **(11, s.25).**

Doktor Məhəmməd Müsəddiq, 1944-cü ilin aprelin 8-də özünün Məclisdəki çıxışında o dövrün hökumətinə sual verərək parlamentarlara müraciətlə demişdi: "Əvvəla, qeyd etmək lazımdır ki, bu dövlətdə kimsə, nə Məclis nə də hökumət öz öhdəliklərinə tam əməl etmir. Əgər biz öz vəzifələrimizi yerinə yetirsək, hökumət də öz vəzifələrini yerinə yetirməyə məcbur olacaq

və hər şey tədricən qaydaya düşəcəkdir. XIII çağırış Məclisi Amerika ekspertlərilə əlaqədar qərar qəbul edir və xalq da bu qərarla razılaşır. Belə qərara gəlindi ki, ABŞ-dan 1 ya 2, maksimum 3 ekspert dəvət etmək olar, nəinki bir alay Amerika müşaviri. Onlar demək olar ki, İranın bütün nazirliklərini və dövlət müəssisələrini ələ keçirmişlər. Ekspertlər, malik olduqları təcrübə və biliklərdən yararlanaraq dövlətə fayda verilməsi məqsədilə dəvət olunurlar. Ərzaq məsələsi ilə əlaqədar demək istərdim ki, vəziyyətin yaxşılaşmasına ümidimizi itiririk. Məsələn, keçən il düyünün hər xarvarı 400 tümənə satılırdısa, bu il onun qiyməti artıq 1425 tümənə çatmışdı.... Milsponun fəaliyyəti ərzaq qaçaqmalçılığının geniş vüsət almasına gətirib çıxardı. Mən bilmirəm ki, Tehrana ərzaq məhsullarının gətirilməsinin qadağan edilməsinin mənası nədən ibarətdir. Əgər Tehrana taxıl daşınması sərbəst buraxılsaydı, artıq bizim zəruri taxıl ehtiyatımız olardı və bu da 1944-cü ilin tələbatını tam ödəyə bilərdi. İndi isə təəssüflər olsun ki, Tehran anbarları boşdur, evlərdə də hamının taxıl ehtiyatı tükənib. Bütün bunlar cənab Milsponun qərarlarının nəticəsidir" **(49, №1273, I c., s.197).**

Doktor Məhəmməd Müsəddiq, Məclisdə digər bir çıxışında demişdir: "Hökumət nəzərdə tutulan işi ona görə edə bilmədi ki, Milspo buna etiraz edə bilərdi!... Ərzağın iri şəhərlərə sərbəst daşınması qaçaqmalçılıq hallarının və dövlətin nəqliyyat xərclərinin azalmasına gətirib çıxara bilərdi" (52, №1276). O, 1944-cü il iyulun 24-də Məclisin 46-cı sessiyasında etdiyi çıxışında demişdir: "Tehranın Taxıl İdarəsinin rəisi Tehran sakinlərinə bildirmişdir ki, taxılın (buğda və arpa) bütün nəqliyyat növləri ilə da-

şınması qadağan edilir. Mən düşünürəm ki, bu fərman nə xalqın, nə də dövlətin xeyrinədir. Güman edək ki, Tehranın çörəyə olan tələbatının təmin edilməsi üçün 100 min ton taxıl tələb olunur. Bu tələbatın bir hissəsi sakinlərin özləri tərəfindən ödəniləcəkdir. Bu da bir çox üstünlüklərə malik olacaqdır:

1. Hökumət bu miqdarda taxılın tədarükündən azad olunacaq.
2. Hökumət nəqliyyat vasitələri ilə kifayət dərəcədə təmin olunmadığına görə, əhali nə qədər daşısa hökumətin xərcləri də bir o qədər az olacaqdır.
3. Əgər əhalinin sərbəst ərzaq daşımasına icazə verilsə, bu zaman daha təhlükəsiz və hücuma məruz qalmayan dövlət nəqliyyatından istifadə olunacaqdır ki, bu da hökumətə nəqliyyat vasitələrinin icarəyə verilməsindən əlavə gəlir gətirəcəkdir.
4. Taxıl idxalına icazə verilmədiyi halda, o qaçaqmalçılıqla gətiriləcək. Bu xərcləri artırır və cəmiyyətin, xüsusilə dövlət məmurlarının mənəviyyatını pozur" **(49, №1273, 1943).**

Mətbuat və Məclisdə xarici ekspertin fəaliyyətinin tənqidinə onun özünün münasibəti maraqlıdır. Belə ki, Milspo nəinki tənqidi qəbul etmir, onlara həm də inandırıcı cavablar belə vermir, əksinə, bu tənqidi əsassız adlandırırdı. Maraqlıdır ki, demokratiya tərəfdarı olan Milspo, onun ünvanına yönəldilmiş və əsaslandırılmış tənqidə cavabda oxşar münasibət bəsləməmiş, sadəcə olaraq onu tənqid edən adamların məhkəməyə cəlb olunmasını tələb etmişdir. O, mahiyyət etibarı ilə öz münasibəti ilə təşəbbüsü əlinə almağa səy göstərirdi. Ancaq artıq gec idi. Milspo İrana ikinci ezamiyyətindən qayıtdıqdan sonra nəşr etdirdiyi kitabında yazırdı: "Əgər biz Tehran elevatorlarında kifayət miqdarda taxıl ehtiyatı-

na malik ola bilsəydik, Tehrana taxıl idxalı üzərindəki məhdudiyyətlərin ləğv edilməsi haqqında Məclis deputatlarının təklifi məna kəsb edərdi. Ancaq əsas səbəb ondan ibarət idi ki, bizdə bu ehtiyatlar yox idi. Bundan başqa, idxal olunan taxılın möhtəkirlik predmeti olmayacağına tam əminlik yox idi" **(157, s.109).**

Amma Milsponun açıqlamaları yanlış idi. Son nəticədə Tehrana və digər böyük şəhərlərə ərzaq idxalı üzərinə qoyulmuş qadağanın gizli məqsədləri aydın oldu. Azad bazarda taxılın bir xarvarının 200 tümən təşkil etdiyi halda, elevatorlar taxılın hər xarvarını 60 tümənə satmağa vadar edirdi. Nə qədər ki, böyük şəhərlər ən böyük istehlakçılar idi, bu şəhərlərin alıcılarının müttəfiqlərlə rəqabət yaratmaması və onlar taxılı dövlət qiymətləri üzrə satın alına bilməsi üçün Milspo Tehrana taxıl idxalına icazə vermişdi **(22, s.174).** Başqa sözlə desək, Rüs və İngilis Səfirlikləri ilə birgə vasitəçilər, İran xalqının ərzağını satın alaraq ölkənin şimal limanları vasitəsilə Rusiyaya, cənub limanları vasitəsilə Böyük Britaniya tərəfindən ələ keçirilmiş ölkələrə göndərmək ilə məşğul idilər. Əlbəttə, əgər Tehrana taxıl idxalına icazə verilsəydi, şübhəsiz ki, əhali öz tələbatını ödəmək üçün çörəyi üç qat qiymətə ala bilərdi. Təbiidir ki, taxılın da qiyməti qalxa bilərdi. Milspo isə istəyirdi ki, bu cür malların qiymətləri qalxmasın. Bütün bunlar iranlıların xatirinə deyil, Ruslar və ingilislərə görə edilirdi ki, İranı ələ keçirmiş müttəfiqlər onlara lazım olan ərzağı ucuz qiymətlə satın ala bilsinlər. Bunun üçün elə bir şərait yaradılmışdı ki, ərzaq kəndlərdə və yaxındakı şəhərciklərdə saxlanılırdı ki, torpaq sahibləri nağd pula ehtiyac duyan zaman özlərinin artıq mallarını ucuz dövlət qiymətlərinə sata bilsinlər. Bu cə-

hətdən, yoxsul İran xalqının hesabına öz aylıq əmək haqqını alan doktor Milspo belə bir çətin və özünə məxsus şəraitdə göstərdi ki, öz dövlətinin dostlarına sədaqət və inamla xidmət edir. Ərzaqla təminatın talon sistemini yaradan zaman Mislpo sui-istifadə üçün elə bir şərait yaratmışdı ki, bu barədə o dövrün daxili işlər nazirinə açıq etiraf etməli olmuşdu **(50, №1615, 1943).**

O, fövqəladə səlahiyyətlər haqqında qanundan və böyük şəhərlərdə taxıl idxalı üzərinə qoyulmuş qadağalara bənzər fərmanlar nəşr etməklə, xalqın və Məclis üzvlərinin narazılığına səbəb olurdu. Buna baxmayaraq o öz mövqeyindən geri çəkilmədi və əməli şəkildə özünü XIV çağırış Məclisə qarşı qoydu ki, bu da Məclisdə onun əleyhinə geniş və güclü əks cəbhənin yaranmasına gətirib çıxardı.

c) Milsponun İran ordusunun ləğv edilməsi istiqamətindəki məqsədləri;

Milspo, onun tərəfdarları və seyid Ziyaəddin Təbatəbayi, mədəniyyəti, kənd təsərrüfatı və səhiyyəni inkişaf etdirmək bəhanəsi ilə ordunu ixtisar etməyə hazırlaşırdılar. O, büdcənin ixtisar edilməsi bəhanəsi ilə yuxarıda sadalanan istiqamətlərin inkişaf etdirilməsi məqsədilə ordunu ixtisar etmək və yalnız jandarmeriya qüvvələrini saxlamaq niyyətində idi. Mislpo "Raade emruz" qəzetinin redaktoruna verdiyi müsahibədə ordu büdcəsi ilə əlaqədar demişdi: "Güc strukturlarından hər birisi 1944-cü il üzrə büdcədə vəsaitlərinin xeyli artırılmasını xahiş edirlər və tamamilə aydındır ki, əgər onların xərcləri artırılarsa, bu zaman kənd təsərrüfatı, mədəniyyət və səhiyyə üçün heç bir inkişaf mümkün olmayacaqdır... Güc nazirlikləri üzrə büdcə xərclərinin artırılması ilə əlaqədar

müxtəlif təkliflər vardır. Lakin mənim şəxsi rəyim bundan ibarətdir ki, bütün bu nazirliklər malik olduqları forma və strukturda bu gün artıqlıq edirlər. Onlardan heç biri çəkilən xərclərə dəyməz və onların hər biri daha sadə və vicdanlı idarəçilik növü üçün xeyli struktur dəyişikliklər tələb edirlər. Mən hökumətə bildirdim ki, cari ildə qeyd olunan nazirliklərdən heç birinin büdcəsini artıra bilmərəm. Mən həmçinin hökumətə bildirdim ki, hansı güc nazirliyinin xərclərini artırmaq və hansını azaltmaq lazım olduğunu həll etmək, hökumətin vəzifəsidir **(17, №173, 1944).**

O dövrdə müdafiə naziri olmuş İbrahim Zənd, doktor Milsponun "Raade emruz" qəzetinə verdiyi müsahibəsinə cavab olaraq yazırdı: "Ölkə boyu təhlükəsizliyin bərqərar edilməsi və qorunub saxlanılması, bütövlükdə nəinki bu gün, bəlkə gələcək üçün də olduqca vacib bir məsələdir. İndiki vəziyyəti bilən, İranın gələcəyinin qorunub saxlanmasında maraqlı olan, eləcə də tam təhlükəsizliyin hökm sürməsi üçün güc strukturlarının zəruri bir amil olmasını başa düşən insanlardan asılıdır. Kənd təsərrüfatının, mədəniyyətin və səhiyyənin inkişafı ilk növbədə sabitlik və təhlükəsizlik tələb edir ki, bu yalnız ordunun sayəsində mümkün ola bilər" **(42, №178, 1944).**

Milspo öz kitabında yazırdı: "Ordu silahlı qüvvələrdə qulluq edənlərin sayının azaldılmasına ehtiyac duyur. Sonra isə onun strukturu tamamilə dəyişməlidir. Böyük sayda yüksək rütbəli zabitlər ehtiyata və təqaüdə buraxılmalıdırlar. Ordunun şah sarayı ilə əlaqəsi isə ümumiyyətlə, kəsilməlidir. Əlbəttə, ordunu buraxmaq ümumiyyətlə, düzgün bir iş olardı. Onun yerini isə yaxşı təchiz edilmiş jandarmeriya tutardı" **(157, s.105).**

Milspo və Seyid Ziyaəddin Təbatəbayi görünür, buna inanırdılar ki, əvvəlki Rza şah diktaturasının dayağı olduğu kimi o, növbəti diktaturanın yaradılmasında da həmin rolu oynaya bilər.

Bu nöqteyi-nəzərdən də ordu buraxılmalıdır. Milspo öz kitabında etiraf edirdi: "O, (Seyid Ziya) əmin idi ki, ordunun buraxılması və jandarmeriyanın möhkəmləndirilməsi vəzifəsinin öhdəsindən uğurla gələcək. Bu işdə biz onunla həmrəy idik" **(157, s.115).**

Ordu büdcəsinin ixtisar edilməsi ilə əlaqədar Məhəmməd Rza şah Pəhləvi və Milspo arasında keçirilmiş görüşdə Milspo belə bir şey haqqında öz rəyini bildirmişdi ki, əgər orduya ayrılan büdcənin həcmi artırılarsa, bu zaman kənd təsərrüfatı, mədəniyyət və təhsilin təkmilləşdirilməsinə və inkişafına vəsait çatmayacaqdır. Milspo yazırdı: "Şah cavab verdi: Yaxşı, əgər bu belədirsə, belə bir halda hələlik kənd təsərrüfatı, təhsil və səhiyyənin təkmilləşdirilməsini təxirə salın. İlkin növbədə isə ordunun tələbatını ödəyin" **(157, s.105).**

Milsponu qənaətincə, dövlət gəlirlərinin üçdə birindən çoxu güc strukturlarına xərclənməməli idi. 120 min ac-yalavac hərbiçi və jandarm əvəzinə 60 min yüksək hazırlıqlı və silahla təchiz olunmuş əsgərə malik olmaq yaxşıdır. İstedadlı və savadlı gənc zabitləri həvəsləndirmək yolu ilə ölkədə təhlükəsizlik və sabitlik üçün yaxşı şərait yaratmaq mümkündür. "Raade emruz" qəzetinin redaktoru Müzəffər Firuz Milsponu müdafiə edərək yazırdı: "Bu cür ağır vergilərin səbəblərindən biri, orduya ayrılan faydasız xərclərdir... Əgər Maliyyə Nazirliyinin işində yarımçıq vəziyyət və səhvləri görsək də eybi yoxdur, ordu büdcəsinə münasibətdə Milsponun rəyi təqdirə layiqdir" **(43, №180).**

Bu gün nəzərdən keçirdiyimiz hadisələrdən yarım əsrdən artıq bir vaxt keçdiyi bir halda biz yenidən geriyə boylansaq, başa düşmək olar ki, əgər Milsponun planı həyata keçmiş olsaydı, İranın bütövlüyü və müstəqilliyi həqiqətən böyük təhlükəyə məruz qalardı. Həqiqətən də onun məkrli niyyətləri baş tutsaydı və İran ordusu ləğv edilsəydi, bu zaman iki ildən sonra İran Azərbaycanında və Kürdüstanında müstəqillik uğrunda hərəkatlar alovlanan zaman, kim və hansı qüvvə Sovet silahı ilə silahlandırılmış bu iki əyalətin Kommunistlərini yatıra bilərdi və İranı süqut və parçalanmadan qoruyardı?

Əlbəttə belə bir faktı inkar etmək olmaz ki, bundan 8 il sonra İran ordusu 1953-cü il 18 avqust qiyamında iştirak etdi və Məhəmmədrza pəhləvinin diktaturasının qurulmasında həlledici və effektli rol oynadı. Ancaq heç bir sağlam düşüncəli insan dövlətin müdafiə mexanizmini ona görə məhv etməz ki, nə vaxtsa bu mexanizm hakim rejimə zərbə vuracaq və diktatura qurulacaqdır. Aydındır ki, xarici təcavüz əleyhinə silahlı qüvvələrin müdafiə rolunu da unutmaq olmaz. Əgər ehtiyat üçün hansısa müstəsna tədbirlər görmək zəruridirsə, bu zaman bu problemi həll etmək üçün daha məntiqi yol etibarsız zabitlərin istefaya göndərilməsidir.

Buna oxşar hadisələr İslam İnqilabının qələbəsindən sonra da baş verdi. Belə ki, o dövrdə də ordunun buraxılması haqqında danışırdılar. Ancaq uzaq görən və müdrik şəxsiyyət İmam Xomeyni (r ə), ordunun buraxılmasına razılıq vermədi. Əgər belə bir hal baş versəydi, BƏƏS rejimi İran üzərinə hücum edən zaman onu kim müdafiə edərdi və şübhəsiz bu İranın böyük çətinliklərlə üzləşməsinə səbəb olardı.

Göründüyü kimi, Milsponun əsas təsir vasitələrindən biri olan ordunun buraxılması amili, əslində İranda Amerika məsləhətçilərindən asılı olan bir rejimin qurulması üçün şərait yaratmaq idi. Bununla da dövlətin iqtisadi, siyasi və hərbi sahələrində onların nüfuzunu təmin etmək olardı. Əlbəttə ki, Milspo özünün İrana ikinci ezamiyyəti zamanı aldığı məlumatlar əsasında və Amerika hökumətinə vermiş olduğu və çap etdirdiyi məsləhətləri əsasında, bir neçə ildən sonra Amerika İranın siyasi, hərbi və iqtisadi strukturlarına nüfuz etdi.

d) İranın şimal neft yataqlarına dair məsələ ətrafında yaranmış siyasi böhranda Milsponun rolu;

İkinci Dünya müharibəsinin hərbi əməliyyatları İrana çatan zaman neftə dair qüvvədə olan yalnız iki müqavilə mövcud idi. Neft konsessiyası haqqında birinci müqavilənin ilk aparıcı müəssisələri İngilis- İran neft kompaniyası və daha az əhəmiyyət kəsb edən, İran və Rusiya tərəfindən birgə idarə olunan "Kəvir-Huriyan" Kompaniyası idi. İngilis-İran Neft Kompaniyası öz sərəncamında İranın cənub-qərbində çox da böyük olmayan sahəyə malik idi. "Kəvir-Huriyan" Şirkətinin sahəsi isə Səmnan şəhərindən şimalda yerləşmiş olduqca kiçik bir ərazini əhatə edirdi. İranın yerdə qalan torpaqları isə hər hansı bir konsessiyanın altında deyildi. Lakin təkcə Sovet İttifaqının işğalı altında olan şimal əraziləri deyil, İranın cənub-şərq hissəsi, xüsusilə Bəluçestan neft yataqları ilə zəngin idi.

1943-cü ilin payızında, Tehran konfransından az sonra İngilislərin "Şell" Kompaniyası öz nümayəndəsini İrana göndərdi. Məqsəd İranın cənub əraziləri üzrə müqavilə bağlamaq üçün

danışıqlar aparmaqdan ibarət idi. 1944-cü ilin yazında daha iki kompaniyanın - "Standart Vakum Oyl" və "Sinklert Oyl"un nümayəndələri onun səylərini davam etdirdilər **(26, s.271).** Bu şirkətlər danışıqlar aparılması və İranın şərqində və cənub-şərqində Xorasan və Bəluçestan əyalətlərində konsessiyalar alınması məqsədilə Tehrana gəldilər.

1944-cü il sentyabrın ikinci yarısında Sovet-İran Müştərək Şirkəti neft emalı üzrə danışıqlara başladı. SSRİ-nin xarici işlər üzrə komissarının müavini Sergey Kaftaradze texniki və siyasi ekspertlərdən ibarət nümayəndə heyətinin başında İrana gəlir və bu səfər hamını təəccübləndirir. Sovet Nümayəndə heyətinin məxfi missiyası və məqsədləri haqqında müxtəlif şayiələr gəzirdi. Lakin gözlənilmədən Sovet komissarı özü bu missiyaının sirrini açır. O, Semnandan şimalda neft emalı üzrə müzakirələr əvəzinə, İranın şimalında, Sovet işğalı zonasında yerləşən bütün əraziyə şamil oluna biləcək yeni konsessiyanın verilməsini xahiş edir.

Amerika tədqiqatçısı Harri Rubin yazırdı: "Mahiyyət etibarı ilə İran hökuməti Amerikanın diqqətini daha çox cəlb etmək məqsədilə şimal ərazilərində Neftin emalı üzərində konsessiya ilə əlaqədar olaraq danışıqlar üçün Amerika neft kompaniyalarını dəvət etdi. **(Şimal əraziləri burada tam dəqiq bölünməmişdi, Amerika kompaniyaları Xorasan və Bəluçestanda konsessiyalara nail olmağa çalışırdı-kursuv Ə.S.).** Sovetlər bu məlumata inandılar və hesab etdilər ki, İranın şimalı onların maraq zonasıdır. Onlar belə güman etdilər ki, bu zonada yerləşən neft yataqlarının emalı üzərindəki konsessiyalarda üstünlük onlara məxsus olmalıdır".

Nə qədər ki göstərilən dövrdə İranda bütün iqtisadi qərarlar Milspo tərəfindən qəbul edilirdi, hökumət isə adətən onun rəyinə qulaq asırdı və onlara əməl edirdi amerikalı tədqiqatçı tərəfindən yazılanlar aşağıdakı kimi oxunmalıdır:

İrana gəlmiş həmin iki Amerika şirkəti, Bəluçestanda neft emalı üzərində konsessiya xahişi ilə çıxış etmişdir. Milspo dəvət olunmuşdu ki, onun nüfuzundan və İrandakı amerikalı hərbçilərin gücündən istifadə edərək Bəluçestandakı neft yataqlarını ələ keçirsinlər.

Baş nazir Məhəmməd Səid Marağeinin hökuməti zamanı E.E.Kurtus və Herbert Hever adında iki neft eksperti Amerikadan İrana gəldi. Onların İranın bütün ərazisində neft ehtiyatlarının dəyərini təyin etmək istəyirdilər ki, Səid hökuməti ilkin razılıq ilə neft kompaniyalarına müsbət cavab verə bilsin. Əlbəttə, İranın neft ehtiyatlarını qiymətləndirmək üçün mütəxəssislərin seçilməsində mübahisə etmək olardı. Ancaq burada mühüm cəhət bu deyil, dəvətin vaxtı və dəvət edənlərdir. Ona görə ki, bu dövrdə İranda Amerika qoşunları var idi. İranın şimalı isə qırmızı ordu tərəfindən tutulmuşdu. Bu dəvətdə başlıca rol oynayan doktor Milspo o dövrün şəraitində öz dövləti üçün neft konsessiyası əldə etməyə çalışırdı. Tamamilə aydındır ki, Milsponun belə bir fəaliyyəti Moskvadakı Sovet rəhbərlərini qıcıqlandırırdı.

Milsponun dəvət etdiyi iki Amerika eksperti bir neçə ay İranda qaldıqdan və müvafiq tədqiqatlar apardılar. Onlar neft böhranı başlandıqdan və müharibə şəraitində xaricilərə neft konsessiyalarının verilməsi haqqında hər cürə danışıqların dayandırılması haqqında İran hökuməti tərəfindən qərar qəbul edildikdən sonra Amerikaya qayıtdılar.

Mahiyyət etibarı ilə İranın şimal neft yataqları ətrafında böhran iki hadisənin dərc olunması ilə başladı:

1. Üç iri qərb kompaniyasının nümayəndələri Bəluçestan əyalətində neft yataqlarının işlənilib hazırlanması üzrə konsessiya alınması haqqında danışıqların aparılması üçün gizli olaraq İrana ezam edilmişdilər.

2. Doktor Milsponun məsləhəti ilə İran hökuməti ölkənin bütün ərazisində neft ehtiyatlarının müəyyənləşdirilməsi və bu məsələ ilə əlaqədar hökumətə hesabat təqdim edilməsi üçün iki amerikalı eksperti dəvət etdi.

Amerikalı mütəxəssislərin İrana dəvət olunmasına aydınlıq gətirilməsi tələbi ilə Bocnurd əhalisinin nümayəndəsi 1944-cü ilin iyul ayının 9-da Məclisin iclasında hökumətə müraciətlə çıxış etdi. O, İran hökumətini gizli fəaliyyət göstərməkdə günahlandırdı **(28, №5529, 1944).**

Həmin iclasda Zahidan şəhərindən nümayəndə, Tudə Partiyası fraksiyasının üzvü Rza Radmaneş də amerikalı mütəxəssislərə görə hökuməti tənqid etdi.

Baş nazir Məhəmməd Səid Marağei onlara cavabında bildirmişdi: "İndiyədək qəbul olunmuş bütün qərarlar məsələnin tədqiqi xarakterini daşıyır və heç bir qəti qərar qəbul olunmamışdır. Tədiidir ki, qəti qərarın qəbul olunmasından öncə hökumət Məclisə məruzə etməli idi və Məclisdə baxıldıqdan və hörmətli deputatların rəyləri nəzərə alındıqdan sonra, əlbəttə ki, dövlətimizin maraqlarının qorunması və nəzərə alınması ilə konkret fəaliyyətə başlamaq olardı" **(28, №5529, 1944).**

Bu iki parlament tələbi və onlara cavablar, ingilis və Amerika neft kompaniyalarının İran hökuməti ilə məxfi danışıqlar apar-

masına heç kəsdə şübhə yeri qoymadı. Bu danışıqlar, neft emalı üzrə konsessiya almaq məqsədini güddüyündən, hamı Sovet hökumətinin kəskin münasibətini gözləyirdi. Beləliklə, 1944-cü ilin sentyabrında şimal neft yataqları ətrafında böhran yarandı.

Sentyabrın 14-də Kavtaradze Tehrana gəldi. Uzun mübahisə və didişmələrdən sonra 1944-cü il oktyabrın 18-də Səid hökuməti elan etdi ki, hərbi əməliyyatlar tam bitənə qədər neft hasilatı üzrə istənilən xarici dövlətə konsessiya verilməsi haqqında məsələ üzərinə İran tərəfi moratorium qoyur. Kavtaradze bunu Sovet İttifaqına rədd cavabı kimi qiymətləndirdi və bunun Moskva və Tehran arasında münasibətləri korlayacağı və Sovet hökuməti ilə Məhəmməd Səid hökuməti arasında əməkdaşlığı qeyri-mümkün edəcəyi ilə hədələdi. Belə bir şəraitdə Tudə Partiyası 1944-cü il oktyabrın 26-da İranın şimalında neft hasilatı üzrə SSRİ-yə razılıq verilməsinə dair tələblərə qarşı mitinq və aksiya keçirilməsi haqqında qərar qəbul etdi və Səid hökumətinin istefası tələbini irəli sürdü. Aksiyalar Tudə Partiyasına böyük zərbə vurdu. Yaranmış vəziyyət nəticəsində Səid hökuməti istefa verdi. Murtuzaqulu Bəyat başda olmaqla yeni hökumət təşkil olundu.

Belə bir şəraitdə qəti tədbirlər görülməli idi. Doktor Məhəmməd Müsəddiq belə bir layihə təklif etdi ki, gələcəkdə qurulacaq bütün hökumətlər digər ölkələrə heç bir neft konsessiyası verməsinlər. Bu layihə 1944-cü il noyabrın 1-də Məclis tərəfindən qəbul olundu.

Beləliklə, iki aya qədər Tehranda gözləyən Sovet diplomatı Kaftaradze əliboş Moskvaya döndü. Sol yönümlü "İrane ma" qəzeti özünün baş məqalələrindən birində yazırdı: "Cənab Milspo!

İndiki neft böhranına görə bütün məsuliyyət məhz sizin üzərinizə düşür. Cənab Milspo! İran və Sovet İttifaqı arasındakı münasibətlərə xələl gətirməyə Baş naziri Səidi siz vadar etdiniz" (29, 1944).

Ser Rayder Bolard yazırdı: "Mənim bu vəzifəyə amerikalını təklif etməyim İranın baş nazirini çox təəccübləndirdi və o, belə bir təklifin mənim tərəfimdən irəli sürüləcəyinə inanmırdı" **(11, №314, 1944).**

Sovet hökuməti doktor Milsponun fəaliyyətinin əvvəllərində onun təyinatına heç bir müqavimət göstərmirdi və hətta onun planları ilə razılaşaraq, onları dəstəkləyirdi. Bəzən onu hətta İranda Sovet siyasətinin agenti və icraçısı olan Tudə Partiyası da müdafiə edirdi. Tudənin rəsmi orqanı olan "Rəhbər" qəzeti yazırdı ki, kapitalistlər və xainlər qrupunun müqaviməti və pozuculuq fəaliyyəti ona lazımi uğur əldə etməyə imkan vermədi.

Tudə Partiyasının Milspoya qarşı tənqidləri daha kəskin və zəhərli olmuşdu. Milsponun İranda İngilis və Amerika imperializminin agenti adlandırırdılar. Qəzet onu İranın xarici siyasətinə müdaxilədə ittiham edirdi. Sovet işğal hakimiyyət orqanları Milspo tərəfindən göndərilən məmurlara maneçilik törədirdilər. Sovet Səfirliyi Tehranda akkreditə olunmuş digər xarici səfirliklərdən fərqli olaraq, diplomatik etikanı pozaraq Milsponun görüş haqqında xahişlərini yerinə yetirmirdilər.

## 3.3. Milsponun İranda fəaliyyətinə xitam verilməsi

XIV çağırış Məclisi işə başlayan andan etibarən deputatların Milspo əleyhinə çıxışları ara vermirdi. Hamı söhbətini onun fövqəladə səlahiyyətlərindən başlayır, daha sonra isə fəaliyyətinin müsbət nəticələrinin olmaması ilə əlaqədar çıxışlar edirdilər. Milsponun səlahiyyələrinə daxil olmayan işlərə müdaxilə etməsi də vurğulanırdı. Təbiidir ki, bəzi qəzetlər onun səlahiyyətləri əleyhinə çıxış edir, bəziləri isə onu yalnız amerikalı olduğuna görə müdafiə edirdilər. Milsponun əleyhdarları isə bu qəzetləri satqınlıqda günahlandırırdılar. Milsponun iqtisadi səlahiyyətlərinin mövzusu rəqabət aparan partiya cərəyanlarının ondan istifadə edərək biri-birinə hücum etmələrinə səbəb olurdu. Məclisdə mübahisələr artıq adi bir hala çevrilmişdi.

"Tudə" Partiyasının tərəfdarları və sol yönümlü qəzetlər Seyid Ziyaəddini və onun tərəfdarlarını imperializmin agentləri, eləcə də İngiltərə və Amerikanın maraqlarının müdafiəçiləri adlandırırdılar.

"Raade emruz" qəzeti 1944-cü ilin iyun ayının birində özünün birinci səhifəsində yazmışdı: "İran və Amerika arasında qarşılıqlı münasibətdə Milspo missiyasının qorunub saxlanılması, zəruri şərtdir. Bu qarşılıqlı münasibətlər bizim müstəqilliyimiz, İranın iqtisadi rifahının təzminatçısıdır. Missiyanı İrandan qovmayın, amma yol verdikləri səhvlər barədə onlara məlumat verin!" **(42, №175, 1944).** Bu qəzet başqa bir sayında yazırdı: "Cənab baş nazir Səid! Sizin təqsiriniz ucbatından Milsponun missiyası istefaya çıxandan sonra xalq üçün olduqca güclü siyasi və iqtisadi böhran yaranacaq. Missiyanın gedişindən sonra böhranın

güclənəcəyi təqdirdə öz cavabdehliyiniz üzərində düşünmüsünüzmü və belə bir halda ölkənin rifahı necə təmin olunacaqdır? İran xalqına cavab verin!" **(42, №194, 1944).**

Həmçinin "Raade emruz" qəzetinin redaktoru Müzəffər Firuz yazırdı: "Biz, Milspo missiyasını İrandan çıxarılması prosesinin hər hansı bir formada sürətləndirilməsini cinayət hesab edir və bu böyük satqınlığın müqabilində son nəfəsimizə qədər müqavimət göstərəcəyik" **(42, №194, 1944).**

"Ajir" qəzetinin 1944-cü il 28 iyul tarixli buraxılışında "Satqınları tanıyın!" başlığı altında dərc edilən məqalədə deyilirdi: "Bu gün biz öz fikrimizin üstündə qalırıq və amerikalı müşavirlərdən iqtisadi səlahiyyətlərin tamamilə geri alınmasını zəruri sayırıq. Biz hətta cənab Milsponun işə qəbul olunması haqqında qanun əleyhinə etiraz etmkələ yanaşı onun diktator sərəncamlarını konstitusiya quruluşunun əsaslarına zidd hesab edirik" **(8, №163, 1944).**

"Rəhbər" qəzetinin 264-cü sayında dərc olunmuş doktor Kiyanurinin çıxışında qeyd olunurdu: "Amerika məsləhətçilərinin əvvəllər yaxşı təsəvvür yaratdıqlarını bilənlərin hamısı, onların bu dəfə də uğur qazanacaqlarına ümid edirlər... Lakin təəssüflər olsun ki, bizim ümidlərimiz doğrulmadı" **(41, №264, 1944).**

"Setare" qəzeti isə Milsponu müdafiə edir və belə hesab edirdi ki, Məclisdə və mediada bütün bu müqavimət və etirazların təşkilatçısı iri torpaq sahibləri, parlament əksəriyyətini təşkil edən və ona rəhbərlik edən deputatlar tərəfindən təşkil edilir.

"Nedae ədalət" qəzeti Ədalət Partiyasına bağlı idi. Bu qəzet bir çox hallarda hökumətin fikrini ifadə etmiş, Milspo ilə uzun mübarizə aparmış və onun ölkədən çıxarılması tələbi ilə haki-

miyyətə müraciət etmiş, hətta 1945-ci ilin yanvarında Amerikanın iqtisadi missiyasının bütün üzvlərinin məhkəməyə verilməsilə əlaqədar məsələ qaldırmışdı.

Bəzi mətbuat orqanlarında isə belə bir fikir irəli sürülürdü ki, doktor Milspo ona verilmiş səlahiyyətləri İran xalqının xeyrinə istifadə edə bilmədi və yaxud da istifadə etmək istəmədi. Nəticədə isə özünə güvənməsi, tərsliyi, bacarıqsızlığı və digər çatışmazlıqları səbədindən İran xalqını çətin vəziyyətə saldı.

XIV çağırış Məclisinin deputatları, xüsusilə də doktor Məhəmməd Müsəddiq dəfələrlə Milsponun fövqəladə səlahiyyətlərinin qanuna zidd olması və onun fəaliyyətindəki çatışmazlıqlar barədə məsələ qaldırmışdı. 1944-cü il iyulun 5-də keçirilən iclasda doktor Müsəddiq İran və ABŞ arasında yaxşı münasibətlərə toxunaraq bildirmişdi ki, Milspo mövzusunun qarşılıqlı münasibətlə heç bir əlaqəsi yoxdur. O, daha sonra bildirmişdir: "Hökumətin Milsponun fövqəladə səlahiyyətləri üzərində nəzarət etməsinə dair məsələ ilə əlaqədar son zaman baş verənlərdən, konstitusiyanın hər hansı zərərdən amanda qalması və onun müstəqilliyimizin və azadlığımızın əsası kimi qoruyub saxlamaqdan başqa digər məqsəd güdülməmişdir. Belə ki, Konstitusiyanın 28-ci maddəsində deyilir: Ölkədə hakimiyyətin 3 qanadı (qanunverici, məhkəmə və icraçı) bölünməli və biri-birindən asılı olmamalıdır. ABŞ-ın hər hansı bir vətəndaşından soruşsanız ki, bu nə deməkdir, cavabında bildirər ki, bu hakimiyyətlərdən heç biri digərinin işinə qarışa bilməz. Buna görə də qanunların verilməsi Məclisə məxsus səlahiyyətdir və daha başqasına veriləsi deyil. Biz isə müşahidə edirik ki, cənab Milspo icra hakimiyyətinin nümayəndəsi olaraq özü

üçün qanunları müəyyənləşdirmək hüququ tələb edir. 60-cı maddəyə görə nazirlər parlament qarşısında məsuliyyət daşıyırlar. 67-ci maddəyə əsasən, əgər Milli Məclis mütləq əksəriyyətlə hökumətə və ya hər hansı bir nazirə öz narazılığını bildirirsə, həmin rəsmi və ya nazir tutduğu vəzifədən azad olunur... Keçmiş və indiki müharibədə ölkənin vəziyyətini müqayisə edən istənilən şəxs belə bir nəticəyə gələr ki, iranlı öz dövləti üçün nəyin lazım olduğunu hamıdan yaxşı bilir və öz evinin idarəsinin öhdəsindən hamıdan yaxşı gələ bilir. Yalnız bir şərtlə ki, kənar şəxslər bizim işlərimizə müdaxilə etməsinlər" **(28, 96-97).**

"Milspo əleyhinə hər hansı mübarizə ABŞ ilə mübarizəyə bərabərdir" nəzəriyyəsinin müəllifi Yəzd şəhərindən deputat seçilmiş Seyid Ziyaəddin Təbatəbayi, 1944-cü il aprelin 14-də Məclisdə çıxış edərkən Milsponu müdafiə etmişdi. O yazırdı: "Mənim fikrimcə, xarici müşavirlərə səlahiyyət vermək və onların bilik və təcrübəsindən istifadə etmək lazımdır" **(48, №1276, 1944)**.

Bəzi deputatların fikrincə, maliyyə naziri yalnız tənqidlə məşğul olurdu. Maliyyə naziri hətta bildirmişdi ki, dövlət xəzinəsində nə qədər pul vardır **(49, №1276, 1944).** Fövqəladə səlahiyyətləri olan Milspo özündən o qədər razı idi ki, maliyyə naziri ilə görüşməyə belə razılıq vermirdi (30). İş o yerə çatmışdı ki, maliyyə naziri Milspodan xahiş edirdi ki, onunla görüşsün. Halbuki lazım gəldikdə Milspo dərhal nazir qarşısında dayanmalı idi. Milspo cavabında bildirmişdi: "Qoy nazir mənim işlərimin çoxluğunu nəzərə alaraq cümə axşamı gəlsin".

Həmin iclasda doktor Müsəddiq bildirmişdi: "Milspoya verilən səlahiyyətlər əsasən islahatların keçirilməsi və cəmiyyətin ri-

fah halının yüksəldilməsi üçün nəzərdə tutulmuşdur. Lakin təəssüflər olsun ki, biz bunun əksini gördük. Belə ki, əhalinin çətinliklərinin aradan qaldırılması və islahatlar aparılmasına maneələr yarandı. 13-cü çağırış Məclisi öz üzərindən səlahiyyətləri götürərək ölkəni elə bir şəxsin ixtiyarına verdi ki, onun özü himayəyə ehtiyac duyur. **(48, №1276, 1944).** Maliyyə nazirinin vəzifəsi yalnız artıq Milspo tərəfindən imzalanmış kağızların imzalanmasından ibarət idi" **(48, №1276, 1944).**

İlkin razılaşmaya əsasən, Milspo üç aylıq möhlət tələb etmişdi ki, bu da keçən müddət ərzində İran iqtisadiyyatında heç bir müsbət nailiyyət əldə olunmadığının dolayısı yolla etiraf edilməsi demək idi. Nəhayət, Məclis deputatları Milspodan fövqəladə səlahiyyətlərin alınması haqqında qanun layihəsi işləyib hazırladılar. Deputatlardan 60 imza toplandı və bu layihə Baş nazir Bəyata təqdim olundu ki, o da öz növbəsində layihəni Məclisin müzakirəsinə verdi. Bu qanun uzun sürən müzakirələrdən sonra 1945-ci il yanvarın 7-də böyük səs çoxluğu ilə qəbul edildi.

Hüseyn Keyostovan özünün "Mənfi balans" adlı kitabında yazırdı: "Mislpoya fövqəladə səlahiyyətlər verilməsinin tərəfdarı olanlar və onun dövlətə fayda verəcəyinə təzminat verənlər sonda öz səhvlərini başa düşsələr də bu səhvi düzəldə bilmədilər. Ona görə ki, iqtisadiyyat naziri Məclisdə böyük sayda tərəfdara malik idi. Onlar hər cür fitnə-fəsadla məşğul olurdular və bu səlahiyyətlərdən istifadə edir və mahiyyəti belə bir fikirlə ifadə olunan xüsusi silahdan istifadə edirdilər ki, Milspo ilə hər cürə qarşıdurma Amerika ilə qarşıdurma deməkdir" **(28, 88).**

Doktor Milspo Məclis deputatlarını ələ almaq məqsədilə onlara bazar qiymətlərindən on qat ucuz müxtəlif əşyalar və ya avadanlıq verirdi. Hər halda Bəyat kabineti hakimiyyətə gələndən sonra Milsponun fövqəladə səlahiyyətlərdən məhrum edilməsi məqsədilə zəmin hazırlandı. Belə ki, Məclisdə onun heç bir tərəfdarı yox idi. Bir vaxtlar Milsponun ən etibarlı havadarı olan Seyid Ziyaəddinlə əlaqədar, Məclisdə 50 nəfərlik bir qruplaşma da var idi. Ancaq gəlir vergisinə dair qanunun təsdiqindən sonra bu qruplaşma da Milsponun əleyhdarları sırasına qoşuldu.

Milspo tərəfdarlarının onu rəqibinə qoşulmasına baxmayaraq, təşəbbüsü Milli Cəbhə ələ keçirdi. Onun üzvləri Milsponun İrana vurduğu zərəri izah edir və onun bu hüquqlardan məhrum edilməsini tələb edirdilər. Tehrandan olan deputat Cəlal Abdeh onu rəsmi olaraq təqsirləndirdi. Onun sözlərinə görə Milspo İranda şəkər qamışı, pambıq və tütün istehsalını məhv etmək niyyətini güdmüşdür ki, bu məhsulların Amerikadan idxalına şərait yaransın.

Təsadüfi deyildi ki, Bəyatın təşkil etdiyi hökumətin planları müzakirə olan zaman, deputatlar Milsponun fövqəladə səlahiyyətlərdən məhrum edilməsi üçün təcili tədbirlər görməsi üçün baş nazirə təzyiq göstərdilər.

1994-cü il yanvarın 7-də doktor Milsponun fövqəladə səlahiyyətlərinin ləğvi haqqında qanun səs çoxluğu ilə qəbul edildi. 20 deputat bu məsələdə bitərəf, 6 deputat isə qanun əleyhinə səs verdi. Beləliklə, doktor Milsponun fövqəladə səlahiyyətlərinin Milli Məclis tərəfindən ləğvinə dair qanun qəbul olunur.

1945-ci il yanvarın 8-də, səlahiyyətlərin ləğvinə dair qanunun təsdiqlənməsindən sonra amerikalı müşavirlər baş nazirlə görüşərək vəzifələrini icra etmək xahişilə ona müraciət etdilər. Bundan sonra Milsponun baş nazirlə görüşü oldu. 1945-ci il fevralın əvvəllərində Milspo baş nazirə ünvanladığı məktubunda işini davam etdirməklə razılaşmaq üçün şərtlər irəli sürdü. Onların sırasında Milli Bankın direktorunun vəzifədən kənarlaşdırılması haqqında məsələ də var idi. O, bunu özünün vəzifələrindən biri sayırdı və bu şərtin yerinə yetirilməyəcəyi təqdirdə öz xidmət müddətini bəhmən ayının 3-dək məhdudlaşdıracağını bildirmişdi.

Bəyat öz cavabında onun şərtlərini qəbul etmədi və ona belə məsləhət gördü ki, İqtisadiyyat Nazirliyində işini davam etdirsin. Sonra isə Milli Bankın direktorunun dəyişdirilməsi haqqında Məclisin rəyinin tələb edilməsinin zəruri olması qərarına gəldi. Bu vaxta qədər Milspo öz fəaliyyətini davam etdirməli idi. Məclisdə Bank direktorunun işdən çıxarılmasının səlahiyyətli olması hqqında məsələ Milsponun xeyrinə bitmədi. Bütün deputatlar və hakimiyyət nümayəndələri Milspo qanun nöqteyinəzərin-dən Milli Bankın direktorunu işdən çıxarmaq səlahiyyətinə malik olmadığını düşünürdülər.

Baş nazir 1945-ci il fevralın 1-də Milsponun irəli sürdüyü şərtləri qəbul etmədi və məsələyə Nazirlər Şurasının iclasında baxılmasını və onun hökumət tərəfindən həll edilməsini təklif etdi. Nazirlər Şurası, Milsponun şərtlərini qəbul etmədi və bu şərtlərin dövlət qanunları ilə ziddiyyət təşkil etdiyini bildirməklə bu təkilfləri bir növ İranın daxili işlərini müdaxilə kimi qiymətləndirdi. Baş nazirdən cavab almayan Milspo istefa xahişilə ona

müraciət etdi. O, məktubunda yazırdı: "Belə hiss edirəm ki, hökumət mənim xidmətimin davam etməsini istəmir və mənə alternativ axtarır. Buna görə də mən geri qayıtmağa hazırlaşıram və əgər hökumət mənim səlahiyyət müddətimin bitdiyini təsdiq edərsə, imzalanmış müqaviləyə uyğun olaraq mənimlə hesablaşarsa bu yaxşı olardı".

Hökumətlə Milspo arasında olan fikir ayrılığı, həmçinin onun istefası və Baş nazir ilə yazışmaları haqqında məsələyə baxılması məqsədilə Milli Məclisin xüsusi iclası fevralın 7-də keçirildi. Məktubların məzmununa baxıldıqdan və vəziyyət haqqında məruzədən sonra, onun istefasının hökumət tərəfindən qəbul edildiyini nəzərə alaraq, deputatların əksəriyyəti məsələni bağlı hesab etdilər. Onlar işi rəsmiləşdirmək üçün qərarı təsdiqlədilər və bir daha ona baxmadılar. Milsponun məktubuna gəldikdə isə qeyd etmək lazımdır ki, ona cavab verilmədi.

Milsponun istefa məsələsi qəbul olunduqdan sonra, Baş nazir maliyyə nazirinə sərəncam verdi ki, Milspo ilə danışıqlardan sonra onunla hesablaşmaq qaydasını müəyyənləşdirsin və o razı salınsın.

Baş nazir Bəyatın göstərişi ilə idarəçilik prinsiplərində heç bir dəyişiklik edilmədi. İdarəçiliyə aid bütün işlər inzibati məsələlər üzrə Milsponun müavini cənab Bikslinin ixtiyarında qaldı. İqtisadiyyata aid işlər isə iqtisadi məsələlər üzrə müavin cənab Blekin öhdəliyində qaldı.

Milspo 1945-ci il fevralın 27-də Pol Qordon ilə (Məşhəd maliyyə idarəsinin rəisi) birlikdə ötən aya görə hökumətin qulluqçulara əmək haqqı ödəyə bilmədiyi, xəzinənin boş olduğu və iq-

tisadiyyatın tənəzzülə uğradığı bir şəraitdə İranı tərk etdi və Bağdad vasitəsilə ABŞ-a yollandı.

Müqavilə onun etibar müddətinin başa çatmasından öncə pozulduğuna görə İran hökuməti Milsponu razı salmaq üçün tədbirlər görməli idi. Buna görə də Milspo 1945-ci il noyabrın 20-dək boşalmış İran xəzinəsindən 1500 dollar maaş alırdı **(17, №382, 1945).**

Ekspertlər vasitəsilə İrana tabeçilik rejimini qəbul etdirməyə dair amerikalıların planları Milsponun gedişi ilə puça çıxdı. Milspo fəaliyyətinin son aylarında tabeçiliyində 75 ekspert saxlayır və onların sayını 200-ə çatdırımaq niyyətində idi. Belə ki, onların hamısı mühüm iqtisadiyyat, maliyyə, kənd təsərrüfatı və sənaye idarələrinə başçılıq edirdilər.

Milspo ən əhəmiyyətli dövlət vəzifələrini amerikalılar arasında aşağıdakı qaydada bölmüşdü:

Baş Gömrük İdarəsinin rəisi Harold Qrişam, baş nazir xəzinədar N.K.Lekon, Daxili Gəlirlər üzrə Baş İdarə rəisi - Reks A. Piksli idi. Kadrlar İdarəsinin başçısı vəzifəsinə isə Vilyam Brauninq təyin olunmuşdu. Bunlar iqtisadiyyatda ən mühüm vəzifələr idi. Lakin amerikalılar xalq təsərrüfatının digər sahələrində də ən mühüm vəzifələri tuturdular. Hətta strateji sahə hesab olunan ölkənin Taxıl İdarəsi də Forest Kraufordun rəhbərliyi altında idi.

Bu fəslə yekun vuraraq qeyd etmək olar ki, Milspo dəfələrlə qeyd etmişdi ki, başlıca və ən mühüm dövlət vəzifələri amerikalı məsləhətçilərə verilməli idi. O, dəfələrlə özünün sərəncam və məruzələrində, habelə kitabında bu məsələyə toxunmuşdur. O, amerikalı məsləhətçilər vasitəsilə İrana elə bir qayda-qanun qə-

bul etdirmək istəyirdi ki, ingilislər 1919-cu il müqaviləsi nəticəsində qurmağa çalışmış və onun acı nəticələrini dadmışdılar.

Bu baxımdan, Qərbin təxminən bir rüb ərzində iki ardıcıl cəhdi - yəni ölkəni asılı vəziyyətə salmaq istiqamətində 1919-cu ildə İngilislər tərəfindən edilən birinci cəhd və daha sonra isə amerikalılar tərəfindən edilən ikinci cəhd uğursuzluqla nəticələndi. Birinci cəhd Müdərris İsfahani, ikinci cəhd isə Məhəmməd Müsəddiq tərəfindən darmadağın edildi. Bütün bunlar bir daha təsdiq edir ki, iqtisadi inkişaf məsələlərində İran həmişə özünün bacarıqlı və qabiliyyətli kadrlarına arxalanmalı və onlara etimad göstərməlidir.

# NƏTİCƏ

ABŞ-ın maliyyə eksperti Artur Çester Milsponun İrana ezamiyyəti və onun müşavir qismində ölkədə fəaliyyətinin bir sıra nəticələri və dərsləri oldu. Əvvəla qeyd etmək lazımdır ki, Milspo İran hökumətinin dəvəti əsasında ölkəyə gəlmiş və Maliyyə İdarəsinin rəisi kimi iki ezamiyyəti dövründə 7 il ərzində, İranda fəaliyyət göstərmişdir. Əslində onun bir amerikalı kimi ölkəyə dəvət olunması İran dövlət xadimlərinin Rusiyaya və İngiltərəyə etibar etməmələrinin səbəbi idi. Milspo özünün fəaliyyəti dövründə ölkədə baş vermiş mühüm dəyişikliklərin şahidi olmaqla yanaşı, tutduğu vəzifə sayəsində görkəmli dövlət xadimləri və siyasətçilər, eləcə də qəzet sahibləri və millət vəkilləri ilə yaxndan tanış olmaq imkanına malik olmuşdu. O, birinci ezamiyyəti dövründə İranda mövcud ağır iqtisadi duruma və yaranmış çoxsaylı maneələrə baxmayaraq, güclü mərkəzi hakimiyyət, daxili sabitlik, hərbçilərin dəstəyi, xarici qüvvələrin İrandan çıxarılması, köçəri tayfalar və müstəqillik arzusunda olan yerli hökumətin qiyamlarının yatırılması, savadlı gənclərin və əvvəllər belçikalı və fransız mütəxəssislərin rəhbərliyi altında işləmiş çoxsaylı qulluqçuların mövcud olması kimi səbəblər, eləcə də

İran xalqının Birinci Dünya müharibəsinin gedişində aldığı vətənpərvərlik dərsinin təsiri nəticəsində müsbət nəticələrə nail ola bildi. Milsponun özünün etiraf etdiyi kimi bu şərait Rza xan tərəfindən yaradılmışdı. Təsadüfi deyildi ki, Morqan Şusterin İranda işlədiyi zaman belə bir şəraitin olmaması üzündən o, müsbət nəticələr əldə edə bilməmişdi.

Yaranmış ağır iqtisadi vəziyyətdə, dövlət xəzinəsinin boşaldığı, dostbazlıq və qohumbazlığın vüsət aldığı bir zamanda, ucqar şəhərlər və əyalətlərin, həmçinin nüfuzlu şəxslərin yığdıqları vergilərin dövlət xəzinəsinə daxil olmaması səbəbindən büdcə böyük bir kəsirlə üzləşmişdi. Milspo yaranmış vəziyyətlə tanışlıqdan sonra hökumətin əsas ehtiyaclarını nəzərə alaraq, öz tərəfdarlarının yardımından istifadə edərək ölkənin maliyyə vəziyyətini qaydaya sala bildi. Onun ən mühüm işləri istehsalçıların əlqolunu bağlayan vergilərin ləğvi, bütün şəhərlər və əyalətlərdə daimi vergi xidmətinin təhvil olunması və vergi məmurlarının nüfuzunun möhkəmləndirilməsi, eləcə də gəlirli və faydalı vergilərin və tarazlaşdırılmış büdcənin tətbiqindən ibarət olmuşdur.

Milsponun işi qənaətbəxş olduğundan ezamiyyətindən üç il keçəndən sonra onun hökumət ilə müqaviləsi Rza şahın köməyi ilə daha iki il müddətinə uzadıldı ki, bu da müqavilənin şərtlərindən irəli gəlirdi. Milspo bu iki ili müvəffəqiyyətlə başa vuraraq amerikalı ekspertlərinin müşayiəti ilə Amerikaya getdi. Onun faydalı fəaliyyəti, ölkənin daxili işlərinə müdaxilə etməməsi və istismarçı niyyətləri güdməməsi İranda ona şöhrət və şərəf gətirdi.

Milspo, birinci ezamiyyəti zamanı İranda yaxşı etibar qazanması, 1942-ci ildə onun ikinci dəfə daha beş il müddətinə İranın

Maliyyə İdarəsinin rəisi vəzifəsinə işə dəvət olunması ilə nəticələndi. Belə ki, 1943-cü il aprelin 2-də Məclis dövlət büdcəsinin tarazlaşdırılması və əhalinin ərzağa olan tələbatının təmin edilməsi, qiymət artımının dayandırılması, lizinq haqqında qanundan istifadə edərək daxili yük daşımaları istiqamətindəki probleminin həll edilməsi və yeni iş yerlərinin yaradılması məqsədilə Milsponun fövqəladə səlahiyyətlərini təsdiq etdi. Amma sonrakı olaylar belə göstərdi ki, amerikalı ekspert qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün heç bir iş görməmiş və mahiyyət etibarı ilə bunu istəməmişdi. İkinci ezamiyyəti zamanı onun fəaliyyətinin nəticələrindən biri büdcənin qeyri-sabitliyi oldu. Büdcə Milsponun fəaliyyəti nəticəsində balanslaşmadı, əksinə, hökumət 1943-cü ildə 1,406,923,441 rial həcmində büdcə kəsiri ilə üzləşdi ki, 1944-cü ildə bu göstərici 611,862,784 rial oldu.

1943-cü il şəraitində hökumət vergi toplanılmasından 309 milyon rial gəlir əldə etdi. 1944-cü ildə isə Milspo vergilərin həcmini 80%-dək artırdı. Aktiv ticarətə baxmayaraq dövlət tərəfindən bu sahə üzrə yalnız 302 milyon rial gəlir əldə olunmuşdu. Bundan başqa böyük sayda amerikalı məsləhətçilərin saxlanılması üçün milyonlarla pul vəsaiti təşkil edən xərclər də hökumətin çiyinlərinə düşmüşdü. İş İran Milli Bankında saxlanılan istiqrazlara da çatdı. Hökumətin Milli Banka olan borcu 1940-cı illə müqayisədə 634525323 rial artaraq, 1944-cü ildə 450737027130 riala çatmışdı. Digər tərəfdən Milspo İran hökumətinə məsləhət gördü ki, istiqraz verilməsi xahişilə xarici dövlətlərə müraciət etsin.

Ərzaq çətinliyinin yaranması Milsponun fəaliyyətinin digər mənfi nəticəsi oldu. O, ərzaq üzərində talon sisteminin tətbiqi ilə

uğur əldə etmədi, əksinə, müxtəlif qərarlar dərc edərək, müxtəlif məhdudiyyətlərə münasibətdə öz siyasətini qəbul etdirərək məhsul tədarükündə uğur əldə etməsi və qara bazarın yaranmasına və qiymətlərin artmasına zəmin yaratdı. Digər tərəfdən o, kəndlilərin istehsal etdiyi artıq taxılı aşağı qiymətlərlə müttəfiqlər tərəfindən satın alınmasına imkan yaratmışdı. Bu qaydanı o öz köməkçilərinin yardımı ilə qəbul etdirirdi. O, taxıl və un ticarəti üzərində inhisar tətbiq edərək, bu məhsulların qıtlığına şərait yaratdı. Əhali üçün istehsal edilən çörəyin keyfiyyəti olduqca aşağı səviyyədə idi. Belə ki, Milspo özünün 14 və 15 saylı sərəncamları ilə taxıl və unun azad ticarətini qadağan etdi və əhalinin çörəyə olan ehtiyacının təmin edilməsi prosesində çətinlik yaratdı. Böyük şəhərlərə taxıl və unun gətirilməsini qadağan edərək, çörək üzərində qiymətlərin xeyli yüksəlməsinə zəmin yaratdı, onu aşağı qiymətə müttəfiqlərə satdı. Məsələn, bir xarvar taxılın qiyməti 200 tümən olduğu halda, Milspo kəndliləri məcbur edirdi ki, onlar taxılın bir xarvarını 60 tümənə müttəfiqlərə satsınlar.

Milspo həmçinin dərman preparatları və parça kimi malları gömrük anbarlarında saxlayır, onları satışa göndərmir və bununla da dövlətə və xalqa böyük maddi ziyan vururdu. Milspo mal bölüşdürülməsində İranın imkanlarından istifadə edərək müttəfiqlərə kömək etməyə və bu halda ilk növbədə İranın deyil, onların maraqlarını nəzərə almağa çalışırdı. Buna görə də İranın ixracat mallarının dəyərini olduqca aşağı səviyyədə saxlayırdı.

Amerika ekspertləri tərəfindən yaradılmış ərzaq qıtlığı elə bir səviyyəyə çatmışdı ki, İranın taxıl üzrə ən məhsuldar rayonlarının mərkəzi sayılan Təbrizdə fəaliyyət göstərən çorək sexləri

1943-cü ilin fevral və mart aylarında əhaliyə çörək əvəzinə pişmiş kartof verməyə başlamışdılar. Bunun nəticəsində martın 16-da əhali tətil edərək, valinin iqamətgahına hücum etdi. Məclisin ərzaq üzrə Komissiyasının məlumatına və kifayət miqdarda ərzaq taxıl ehtiyatının mövcudluğuna baxmayaraq, bu məhsulların əhaliyə çatdırılması üçün lazımi nəqliyyat vasitələri yox idi.

Nəqliyyatın ayrılmasına və daxili daşımalara şəxsən nəzarət edən Milsponun nümayəndəsi dərhal zəruri tədbirlər görmək əvəzinə, Tehrana qaçmış və xidməti vəzifəsi daha yüksəldilmiş, sənaye inkişafına rəhbər təyin olunmuşdu.

Milsponun fəaliyyətinin mənfi cəhətlərindən biri də onun mallar üzərində qiymətlərin artırılmasına zəmin yaratması idi. Belə ki, əhalinin alıcılıq qabiliyyətinin səviyyəsinin aşağı salınmasını özünün məqsədlərindən biri kimi elan edən Milspo, bu məqsədlərə çatmaq istiqamətində heç bir addım atmadı və əksinə, onun aşağı düşməsinə kömək etdi. 1944-cü ilin iyun ayı üçün əhalinin həyat bahasının səviyyəsi 1250% təşkil edirdi. Halbuki bu göstərici 1936-cı ildə 75%-ə çatırdı. Milsponun idarəçiliyi dövründə qiymətlərin artım göstəricisi 1908% qədər artmışdır.

Milspo möhtəkirliyin aradan qaldırılması istiqamətində heç bir tədbir görmədi, əksinə, müxtəlif mallarla azad ticarət üzərinə məhdudiyyət tətbiq etməklə qıtlığın daha da artmasına yardım etdi ki, bu da qara bazarın meydana gəlməsi və qiymətlərin artmasına gətirib çıxardı.

Qeyd etmək lazımdır ki, İranda nəqliyyat daşımalarında çətinliklərin yaradılması da onun mənfi fəaliyyətinin nəticələrindən biri idi. O, xüsusi fərman vermişdi ki, bundan da yük nəq-

liyyatının sahibkarları istifadə edirdilər. Dövlət tədarükçüsünün iş şəraiti böyük gəlir gətirirdi. Buna görə də böyük miqdarda ərzaq mallarının daşınılmaması ölkədə ərzaq qıtlığına, qiymət artımına, əhalinin yoxsullaşması və narazılığına səbəb olurdu. Nəticədə isə ərzaq çatışmazlığı yaranır, qiymətlər artır, əhali yoxsullaşır və narazılıqlar daha da artırdı.

Qeyd etmək lazımdır ki, İranda yeni iş yerlərinin yaradılması prosesinin pozulması da Milsponun fəaliyyətinin nəticəsi idi. Milspo hətta təhsilli iranlılar üçün də iş yerlərinin yaradılması istiqamətində heç bir iş görmür, əksinə, öz tədbirləri ilə işsizliyin vüsət almasına zəmin yaradırdı. O, təcrübəli İranlı qulluqçuları işdən uzaqlaşdıraraq, işə onu müdafiə edən yaltaqları, heç bir ixtisası olmayan şəxsləri cəlb edirdi ki, bu hərəkətləri ilə İranın iqtisadi və maliyyə müəssisələrinə xeyli ziyan vurmuşdu. O, bir tərəfdən büdcənin kəsirinə əsaslanaraq iranlı qulluqçuları ixtisar edir, digər tərəfdən isə amerikalıları işə dəvət edir, onlara dörd qat artıq əmək haqqı verirdi. Onun fəaliyyəti dövründə hər hansı mütəxəssisin yeganə göstəricisi onun ingilis dilini bilməsi idi. Hətta mütəxəssis ona tapşırılmış işdən baş çıxarmasa belə buna məhəl qoyulmurdu. Dördüncü dərəcəli tərcüməçinin əmək haqqı ixtisaslı fəhlənin əmək haqqından 500 rial çox idi **(45, №264, 1944).** Milspo İranda sərvət və zənginliyin yaradılmasına nəinki yardım etdi, bəlkə öz fəaliyyəti ilə onu daha da ixtisarlaşdırdı. Misal olaraq qeyd etmək lazımdır ki, o, İran pambığını satın alaraq satmış, pullarını isə kəndlilərə vaxtında ödəməmişdi. Nəticə etibarı ilə bu addım pambığın satış qiymətinin aşağı düşməsinə, kəndlilərin bu bitkinin becərdilməsinə maraq göstərməmə-

lərinə, İranın pambıq ixracatının dayandırılmasına və bu məhsulun digər ölkələrdən idxal olunması zərurətinin meydana gəlməsinə səbəb oldu.

Orta Şərq üzrə Komitəyə yalan məlumat verməklə bu qurumun azdırılması İrana düşən mal normasının alınmamasının səbəbi idi. Milspo uydurma bəhanələrlə və İran əhalisi barədə yalnış məlumatlar verməklə, ölkənin zəruri mallara olan ehtiyacını aşağı salmış və bununla da yaxın Şərq ölkələrinin təchizatı üzrə Komitənin ayırdığı normada İranın payını azaltmışdır. Bununla da o, ölkədə mal qıtlığı yaratmış, qiymətlərin yüksəlməsinə və əhalinin həyat səviyyəsini aşağı salmışdır. Məsələn, ayrılmış 60 min ton şəkər və 6700 ton çay norması alınmamış və elə bir vəziyyət yaranmışdı ki, 1 kq şəkərin qiyməti 5 rialdan 120 riala qədər, 1 kq çayın qiyməti isə 35 rialdan 200 riala qədər artmışdı. Əvvəllər metri 10 rial olan pambıq parçanın qiyməti 100 riala qədər artmışdı. O vaxtkı maliyyə naziri özünün Məclisə məruzəsində deputatların sorğusuna cavab olaraq bildirmişdi ki, mal bölgüsü üzərinə inhisar tətbiq edən Milspo bu vəzifənin öhdəsindən gələ bilməmiş və gömrüyün anbarlarında 40 milyon metr pambıq parça yığılıb qalmışdır. Milspo bu məsələ barədəki izahatı ilə naziri və deputatları inandıra bilmədi. Belə ki, 1943-cü il üçün İrana nəzərdə tutulmuş mal payından 40 min tonu istifadə olunmamışdı. 1944-cü ilin ilk altı ayı ərzində isə 13 min ton müxtəlif mallardan istifadə olunmamışdı. Nəticədə Orta Şərq üzrə mal bölgüsü Komitəsi Vaşinqtonda belə bir bəyanatla çıxış etdi: "Komitə belə bir məlumat almışdır ki, İranın anbarlarında böyük miqdarda pambıq və parça yığılıb qalaraq xarab olur.

Bununla əlaqədar olaraq, Komissiya 1944-cü il üçün İranın normasını tamamilə azaltmaq qərarını qəbul etdi. Milspo nəinki müsbət nəticələrə nail olmağa can atmadı, bəlkə öz qarşısına belə məqsədlər də qoymadı. Onun qarşısında başqa bir vəzifə dururdu - İranı müstəmləkəyə çevirmək. Buna görə də onun gördüyü bütün işlər bu məqsədin həyata keçirilməsi məqsədilə edilirdi. Belə ki, ABŞ hökuməti tərəfindən onun qarşısında belə bir vəzifə qoyulmuşdu. Amerika hərbçilərinin İranda yerləşməsi isə bu prossesin daha kobud şəkildə həyata keçirilməsi demək idi. O özünü İran Konstitusiyasının təzminatçısı elan etmiş və onun özünün etiraf etdiyinə görə İranda bir partiyalı hökumət yarada bilərdi.

Milsponun başlıca vəzifəsi İranı Amerikaya tabe etdirməkdən ibarət idi. Milspo öz işinə başlayandan bir ay yarım müddət keçdikdən sonra, lazımi malları satın alınması məqsədilə ona 1,5 milyon rial həcmində kredit ayrılması haqqında qanun parlamentdən keçirildi. Belə bir bahalı layihəni təmin etmək üçün ABŞ-dan İran üçün maliyyə yardımının xahiş edilməsi haqqında məsələ qaldırdı. Öz ölkəsinin xeyrinə Milsponun fəaliyyəti ona kö-mək etdi ki, Amerika İkinci Dünya müharibəsinin sonunda İranın ticarət dövriyyəsində üçüncü yeri tuturdu. 1945-ci ildə Amerika xarici ticarətinin 25%-i İranın payına düşürdü. Xatırladaq ki, İran və ABŞ arasında ticarət haqqında müqavilə 1943-cü ildə Vaşinqtonda imzalanmışdı və Milsponun köməyi ilə Məclisdə təsdiq olunmuşdu. Bu baxımdan Amerika İranın xarici ticarətində Almaniyanın yerini tutdu. Milspo Amerika şirkətləri tərəfindən neft yataqlarının kəşfiyyatı və neft emalı üz-

rə konsessiya alınması üçün iki amerikalı mütəxəssisin dəvəti ilə İranı Amerikaya daha sıx bağlamaq niyyətində olsa da, uğursuzluğa düçar oldu. Ancaq o, SSRİ-nin həssaslığı üzündən bu məsələyə, şimal neft zonaları məsələsi üzrə SSRİ və İran arasında böhranlı münasibətlər yarada bildi.

Milsponun vəzifələrindən biri İranın daxili işlərinə müdaxilə idi. O, bununla əlaqədar götürdüyü öhdəliklərə rəğmən Baş nazir Əhməd Qəvamossəltənəyə ünvanladığı məktubunda özü üçün Milli Bankın direktoru və onun iki müavinini müəyyənləşdirmək hüququnu tələb edir və bununla da İranın daxili işlərinə qarışmağa çalışırdı. O öz əmri ilə Milli Bankın direktoru Ebtehacı tutduğu vəzifədən kənarlaşdırmış və Bədri onun yerinə təyin etmişdi. Lakin hökumət və Məclisin güclü müqaviməti ilə qarşılaşmışdı. Milspo tərəfindən verilən sərəncama əsasən, onun idarəsinin işçilərinin siyasi fəaliyyətdə iştirak etmələri və siyasi partiyalara daxil olmaları qadağan olunurdu **(30, №340, 1943).** O, həmçinin tətil zamanı mühəndis kadrlara xitabən bəyanatla çıxış etmiş və onları işdən qovulmaqla hədələmişdir. Bəzi hallarda isə əmr qaydasında onlara töhmət verərək xəbərdarlıq etmiş və yaxud da işdən kənarlaşdırmışdı. Məsələn, Şahrud şəhərinin Vergi İdarəsinin rəisi cənab İbrahim belə bir talelə üzləşmişdi **(29, №475, 1944).** Milspo İranda İngilis siyasətinin məşhur əlaltısı Seyid Ziyaəddin Təbatəbayi ilə dostluq əlaqələri qurmuşdu ki, qarşılıqlı yardım ilə İran istiqlaliyyətdən məhrum edilsin.

Milspo, çit parçanın qıtlığı və insanların bu mala olan tələbatının ödənilə bilmədiyi halda gömrükxananın anbarlarında saxlanılan 900 min metr parçanı Təbatəbayinin yaxın dostu və si-

lahdaşı parça alverçisi Rəşidiana verir ki, o da öz növbəsində bu malları azad bazarda baha qiymətə satsın. Rəşidian bu sövdələşmə hesabına on milyonlarla rial gəlir əldə edir və ondan Təbatəbayinin məqsədləri üçün istifadə edir **(29, №309, 1944).**

Milspo həmçinin Ədliyyə Nazirliyinə ünvanladığı məktubunda belə bir tələb ilə çıxış etmişdi ki, idarədə qanununu pozan əməkdaşlar onun razılığı olmadan məsuliyyətə cəlb olunmasınlar. O, daxili işlər nazirinə ünvanladığı digər məktubunda əməkdaşlarının ərzaq talonları bölgüsünün zəruriliyi bəhanəsi ilə əhalinin siyahıya alınması prosesində iştirak etmələri tələbini irəli sürmüşdü. Belə ki, o zamana qədər əhalinin siyahıya alınması həmişə Daxili İşlər Nazirliyinin funksiyalarına daxil olmuş və heç vaxt Maliyyə İdarəsinin səlahiyyətində olmamışdı. Bu tələblə bağlı Milspo və daxili işlər naziri Tadeyan arasında ziddiyyət yarandı. Onun daxili işlərə qarışmaq və qərarlar qəbul etmək istəyi o qədər böyük idi ki, gəlir vergisi haqqında qanunun Məclis tərəfindən qəbul edilməsinin 60 amerikalı ekspertin işə qəbul olunması ilə şərtləndirirdi. Digər tərəfdən də onun hökumət tərəfindən öz səlahiyyətlərinin genişləndirilməsi haqqında tələbi, öz imkanlarının genişləndirilməsinə, İranın daxili işlərinə müdaxiləyə yönəlmişdi. Milspoya fövqəladə səlahiyyətlər verilməsi haqqında qanunun Məclis tərəfindən qəbul olunması, amerikalı eksperti səlahiyyətlərinin maliyyə nazirinin səlahiyyətlərindən artıq olan məsuliyyətsiz bir xarici məmura çevirdi. Beləliklə Milspo da Nazirlər Kabinetinin iclaslarının iştirakçısı oldu, öz fəaliyyətinin nəticələrinə görə isə Məclis qarşısında cavabdehlik daşımadı. Buna görə də 14-cü çağırış Məclisi onun səlahiyyətlə-

rini ləğv edən zaman İranda öz işini davam etdirmək istəmirdi. Çünki bu səlahiyyətlər olmadan qarşısına qoyulmuş məqsədə - Amerikaya münasibətdə İranın müstəmləkə vəziyyətinin möhkəmləndirilməsinə nail ola bilməzdi. Milsponun İranın daxili işlərinə müdaxilə dərəcəsi o qədər böyük idi ki, İranın maliyyə naziri cənab Zərrinkiyəfşə ünvanladığı məktubda (18.11.1944) Maliyyə Nazirliyi üzərində nəzarət tələb edir və bildirirdi ki, ondan başqa rəhbər yoxdur.

Amerika ekspertlərindən istifadə, Milsponun İranın Amerikaya tabe edilməsi istiqamətində fəaliyyətinin uğrunun zəruri şərti idi. Milspo öz kitabında etiraf etdiyi kimi, o, amerikalı məsləhətçilərin İran idarəçiliyində başlıca vəzifələrdə yerləşdirilməsini öz qarşısına məqsəd qoymuşdu. O yazırdı ki, 60 amerikalı müşavirin işə qəbul olunmasına dair qanun layihəsi ABŞ Səfirliyinin göstərişi ilə onun tərəfindən hazırlanmışdır. Milspo qanun layihəsini hazırlamış və 1943-cü il iyulun 29-da baxılmaq üçün Məclisə təqdim etmişdir. Bütün bu addımlarda məqsəd İranın tabe edilməsi, bu ölkənin amerikalılar tərəfindən idarə edilməsi və xarici müşavirlərin İranın daxili işlərinə qarışa bilmələrindən ibarət idi. Milspo İranı müstəqilliyə layiq olan bir ölkə hesab etmirdi. Bunu onun mətbuat konfranslarından birində söylədiyi sözlər də sübut edir. Onun sözlərinə görə İran, Amerikanı öz xilaskarı kimi tanımalıdır. Onun fikrincə, Milspo və onun komandası olmasaydı bu iğtişaşların yaranmasına və İranın Şimal bölgəsinin Sovet İttifaqı, cənubunun isə İngiltərə tərəfindən işğalına, eləcə də beynəlxalq hərbi qüvvələr tərəfindən bu ölkənin ələ keçirilməsinə və İranda yeni diktatura yaranmasına gətirib çıxarardı.

Milsponun ən mühüm vəzifələrindən biri İran ordusunun zəiflədilməsi idi. O, büdcə xərclərinin artması ilə pərdələnərək ordunun saxlanılmasına yönələn xərclərin artırılması əleyhinə çıxır və ordunun sayının azaldılması istiqamətində çalışaraq onun strukturunu elə bir tərzdə dəyişdirmək istəyirdi ki, daha sonra onu ləğv etmək mümkün olsun. O, İranı elə bir dərəcədə zəiflətməyə çalışırdı ki, Amerika hökuməti asanlıqla məqsədlərinə çata və İranı müstəmləkəyə çevirə bilsin. Bu cəhdlər İranda müxtəlif qoşunların olduğu bir şəraitdə baş verirdi. Amerikalı mütəxəssislər bu zaman silahlı qüvvələrdə, jandarmeriya və polisdə komandanlıq edirdilər.

Nəhayət, doktor Müsəddiq tərəfindən edilən etirazlar nəticəsində Məclis 1945-ci il yanvarın 8-də fövqəladə səlahiyyətlər haqqında qanunu ləğv etdi. Beləliklə, bu dövrdə Milspo və onun sayı 75 nəfərə çatan məsləhətçilər qrupu İranı tərk etməli oldular. Belə bir şəraitdə Amerika ekspertlərinin ziyankar fəaliyyətləri nəticəsində iqtisadi böhran güclənmiş, İran xəzinəsi boşalmış, İran xalqı böyük iqtisadi çətinliklərə məruz qalmışdı. Milspo qarşısına belə bir vəzifə qoymuşdu ki, Amerika qoşunlarının ölkədə olmasından istifadə edərək, iqtisadi çətinlikləri artırsın, habelə ekspertlər vasitəsilə orduya nəzarət etsin və İranın daxili işlərinə müdaxilə edərək bu ölkə üzərində müstəmləkə asılılığı yaratsın. Lakin onun bu niyyətləri puça çıxdı. Milspo, ingilislərin 1919-cu ildə İrana qəbul etdirməyə can atdıqları qaydanı qurmağa çalışırdı və özü uğur qazanmasa da, ABŞ dövləti amerikalı hərbi ekspertlərin biliklərindən faydalanaraq bu biliklərdən daha sonralar da İranda öz nüfuzlarının artırılması məqsədilə istifadə edirdi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


*Azərbaycan dilində:*

1. Məmmədli Atamoğlan. "İran İkinci Dünya müharibəsi illərində”. Bakı: Hüquq ədəbiyyatı, 2000, s.156.

*Fars dilində:*

2. تهران 2 . «دفتری . «کلید استقلال ایران احمد متین
3. عباس مسعود. «چادرهای سیاه». روزنامه اطلاعات. شماره 701 مورخ 17/8/1320
4. .«عبدالصمد کامبخش «نگرش به جنبش کمونیستی و کارگری صفحه 46
5. ، عبدالحسین زرین‌کوب. «روزگاران». انتشارات سهان جلد 3 .صفحه 236 تهران 1375
6. عبدالحسین مهدوی. «ایران و موفقیتها» . (کنفرانس نویسندگان (در سفارت ایران در لندن، صفحه 37 1944
7. عبدالرضا هوشنگ مهدوی «تاریخ روابط خارجی ایران» ، صفحه 339
8. روزنامه آژیر . 1944
9. آرتور چستر میلسپو: «مأموریت آمریکاییها در ایران». صفحه مترجم حسین ابوترابی. انتشارات پیام 1356 .14
10. بولارد بویفوش . تلگرام شماره 314 مورخ 22/10/1942
11. .«بولارد سر ریدر اسکراین و سر کلارمونت. «شترها باید بروند ترجمه حسین ابوترابی. انتشارات تهران 1362

12. دکتر جواد شیخ‌الاسلام. «تاریخ مناسبات خارجی ایران». بخش اوله از اشغال نظامی ایران در سال 1320 تا کودتای سال 1332. دانشکده حقوق و روابط بین‌الملل دانشگاه تهران. کتاب درسی برای ترم دوم سال تحصیلی 69-70. صفحه 51-52
13. نشریه «داد». 1323
14. نشریه «مهاوند». 1323
15. دکتر جواد شیخ‌الاسلام. «روابط خارجه ایران از کودتای نظامی در سال 1299 تا مه‌له شهریور سال 1320». تهران. دانشکده حقوق و روابط بین‌الملل. سال تحصیلی 1369-70. با استناد به بخش دکتر میلسپو: حضور آمریکائیها در ایران». صفحه 22
16. دکتر جواد شیخ‌الاسلام. کتاب درسی. «تحولات سیاسی در ایران در سالهای 1320-1332». صفحه 55. دانشکده حقوق و علوم سیاسی دانشگاه تهران 1369-1370
17. جبهه ملی آزادی ایران. تهران. صفحه 173
18. جبهه ملی آزادی ایران. تهران. صفحه 174
19. جبهه ملی آزادی ایران. تهران. صفحه 25
20. ایرج ذوقی. «ایران و کشورهای ابرقدرت در سالهای جنگ جهانی دوم». تهران. انتشارات پژنگ. جلد 2، صفحه 172-174. 1368.
21. جورج لنچاوسکی. «غرب و شوروی در ایران: سی سال رقابت». مترجم حورا یاوری. تهران. انتشارات ابن‌سینا. صفحه 331-332. 1351
22. جلال‌الدین مدنی. «تاریخ سیاسی معاصر ایران». قم. نشرنامه مدنی حوزه علمیه. جلد 2. صفحه 123-140. 1361
23. نشریه «عصر اقتصاد». 1323
24. نشریه اطلاعات. 1322
25. حسین کی‌استوان. «سیاست رسمی متوازن». تهران. انتشارات نشریه مظفر. صفحه 100. 1327
26. حسین پلهقی. «آمریکائیها در ایران». 1348
27. موازنه منفی در مجلس چهاردهم. تهران. نشریه. حسین کی‌استوان. مظفر. صفحه 88.
1327.
28. روزنامه «ایران». 1944، 1924، 1940
29. روزنامه «ایران ما». 1944
30. روزنامه کیهان. 1943
31. مهدی ملک‌زاده. «تاریخ قانون اساسی ایران». جلد چهارم صفحه

. با استناد به بکلروف، 172-174
32. مهدی کیلنفر «سیاست آمریکا در ایران».
33. مجید اکتایی. «تاریخ اقتصاد ایران». تهران. انتشارات دهخدا. نشریه سوم صفحه 176. 1352
34. مجید اکتایی. «تاریخ دارایی ایران». نشر سوم. صفحه 176. 1353
35. مهدیقلی هدایت. «خاطرات و خطرات». تهران. تجارت سیفعلی زوار». نشریه چهارم صفحه 373. «1363
36. بررسی طرح پیشنهادی میلسپو در خصوص واگذاری اختیارات» به او». روزنامه کیهان. شماره 207 مورخ 23 اسفند 1321
37. نشریه «مهر امروز». 1323
38. روزنامه «مهر ایران». 1323
39. نشریه «تجدد ایران». شماره 3276 مورخ 20/8/1320. با استناد به نامه نمایندگان مجلس ایران.
40. م فرهمند. کارمند اداره تحقیقات بانک ملی ایران. 1320
41. نشریه «رهبر». 1323
42. نشریه «باد امروز». 1323
43. تقویم جهان شماره 19. صفحه 174. 1342
44. عبدالعظیم رضائی «تاریخ هزار ساله ایران». جلد چهارم صفحه 127. انتشارات اقبال. تهران 1373.
45. رحیم رحیم‌زاده. «تاریخ مناسبات آمریکا و ایران». صفحه 316 کتابخانه طهوری مهر 1350
46. نشریه «ستاره». شماره 1615 مورخ 22/6/1322 و شماره 1440 مورخ 8/8/1321
47. سیاست موازنه منفی». جلد دوم صفحه 85. از گزارش مصدق در» مجلس چهاردهم.
48. پروتکل سخنرانیهای ایراد شده در مجلس چهاردهم شماره 1276 صفحه 303-310 مورخ 26/1/1323
49. صورت جلسه تندنویس شده‌ی سخنرانیهای ایراد شده در مجلس چهاردهم شماره 1273 مورخ 20/2/1323. جلد اول. صفحه 197
50. حسین کی‌استوان. «سیاست موازنه منفی». صفحه 89-90
51. صورت جلسه تندنویس شده‌ی نشست مجلس چهاردهم در مورخ 3/5/1323.
52. . صورتجلسه نشستهای مجلس چهاردهم شماره 1276 مورخ 24/1/1323 صفحه 283-297

53. نشریه اطلاعات شماره 5441 مورخ 27/1/1323
54. بخشی از سخنان دکتر مصدق در مجلس چهاردهم مورخ 26/12/1323. صورت جلسه های نشست های مجلس چهاردهم شماره 1276
55. سخنرانی دکتر آبده در مجلس. شماره 1276 مورخ 26/12/1323
56. صورت جلسه های مجلس چهاردهم شماره جلسه 1346، شماره 89 صفحه 165. در کتابخانه ملی جمهوری اسلامی ایران نگهداری میشود.
57. استخراج از روزنامه «ایران». 24 بهمن 1323. شماره 2 (مجلس چهاردهم جلسه 102، 19 بهمن 1323،
58. فرخی یزدی. «سیاست خارجی ما». روزنامه طوفان. شماره 17 اولین سال انتشار مورخ 24/10/1919
59. شیروانی «رفع نارسایی های موجود در زمینه دامداری». روزنامه اطلاعات شماره 471 مورخ 28/8/1320
60. جلسه فتح‌الله اسفندیاری 1335
61. یحیی دولت‌آبادی و حیات یحیی. تهران. انتشارات فردوسی. نشر چهارم جلد 4. صفحه 335-336. 1362
62. زهرا شجیعی «سیاستمداران برجسته ایران از آغاز انقلاب مشروطه تا انقلاب اسلامی». انتشارات سخن. تهران. جلد سوم صفحه 185 39. 1372
63. «مشاور یا دیکتاتور»- نشریه طوفان. 26/11/1926
64. مرگان شوستر: «تاریخ ایران». مترجم محمد حسین صاحب بهمن؛ 1966
65. محمدرضا عسکری «حقوق مطبوعات». تهران دانشگاه علوم روابط اجتماعی.
66. مهدی فرخ «خاطرات سیاسی». انتشارات امیرکبیر لندن 1347.
67. قاسم‌زاده «تاریخ مشروطه ایران». تهران. انتشارات امیرکبیر 1978.
68. گوئل کهن «تاریخ سانسور در مطبوعات ایران». جلد دوم تهران 1961
69. م. محمود. «تاریخ روابط سیاسی ایران و انگلیس در قرن نوزدهم». جلد هشتم دانشگاه تهران 1947
70. جلال‌الدین مدنی «تاریخ معاصر سیاسی ایران». جلد دوم قم 1982
71. عبدالله مستوفی. «تاریخ اجتماعی و اداری ایران». جلد سوم تهران 1962
72. محمد مصدق. «کاپیتولاسیون و ایران».
73. م. مصدق. «سخنرانیهای تاریخی دکتر مصدق». تهران. انتشارات

جاویدان.
74. احمد مورخ‌الدوله سپهر. «ایران در جنگ بزرگ». نشر دوم. تهران انتشارات ادیب . 1983
75. مکی خلیلی. «خاطرات سیاسی». تهران 1981
76. کی‌استوان. «سیاست موازنه منفی در مجلس چهاردهم». جلد دوم. تهران. انتشارات اگاه 1981
77. احمد متین دفتری. «اساسنامه مربوط به مسائل مدنی». دانشگاه تهران 1970
78. حسن معاصر. «برقراری مشروطه در ایران». تهران. انتشارات ابن‌سینا 1974
79. کاظم معتمدنژاد. «روش تحقیقات در مطبوعات». تهران دانشگاه روابط عمومی
80. حسین مکی. «کتاب سیاه». انتشارات امیرکبیر.
81. مولانا. «خط روابط اجتماعی در ایران». دانشگاه روابط عمومی
82. نظام‌الاسلام. «تاریخ بیداری ایرانیان». جلد دوم. انتشارات آگاه. 1357
83. محمود افشار. «سیاست اروپا در ایران». مترجم سید ضیاءالدین دهشیری 1979
84. جان اولدن. «تاریخ ماموریتهای آمریکاییها در ایران» . مترجم ساحل آذری. انتشارات نورجهان 1954
85. سایکس سر پرسی. «تاریخ ایران». مترجم فخر داعی گیلانی 1956
86. سنر. «نفوذ آمریکا در ایران». 1989
87. چارلز عیسوی. «تاریخ اقتصاد ایران». مترجم یعقوب آژند. 1983
88. م کاشفیم. «سیر تحول صنعت در ایران و خاورمیانه». تهران 1981
89. نظام‌الاسلام کرمانی. «تاریخ بیداری ایران». تهران 1953
90. لسانی. «طلای سیاه یا بلای ایران». تهران 1950
91. حسین مکی . «تاریخ بیست ساله ایران». جلد دوم تهران 1979
92. ملکی. «تاریخ مختصر جبهه ملی». تهران 1953
93. فریدون منصوری. «استعمار بریتانیا و مسئله اروند رود». تهران 1997
94. منصوره اتحادیه. «احزاب سیاسی در مجلس سوم». تهران 1992
95. احمدخان ملک ساسانی. «سیاستگزاران دوره قاجار». تهران 2000
96. محمد مصدق. «خاطرات و تألمات». چاپ نهم 1999
97. ح. مامند: «رضا شاه: سقوط و پس از سقوط». چاپ دوم 1999
98. محمد امین رسول‌زاده. «گزارشاتی از انقلاب مشروطه». صفحه 360

تهران. 1998
99. نفت. اسناد. تهران. 1951
100. نهضت ملی ایران گلشائی و مصدق تهران 1979
101. محمدرضا پهلوی «به سوی تمدن بزرگ». تهران 1978
102. رضا خان. سفرنامه خوزستان تهران 1976
103. رضاقلیخان هدایت «تاریخ روضة‌الصفای ناصری». جلد نهم تهران 1962
104. فواد روحانی. «صنعت نفت ایران بیست سال پس از ملی شدن». تهران 2536
105. فواد روحانی «تاریخ ملی شدن صنعت ایران». تهران 1973
106. تیموری. «عصر بی‌خبری یا تاریخ امتیازات در ایران». تهران. 1953
107. حسین فردوست. «خاطرات: ظهور و سقوط سلطنت پهلوی». جلد اول و دوم تهران 2000
108. منوچهر فرمانفرمائیان. «از تهران تا کاراکاس. نفت و سیاست در ایران». تهران 1994
109. م. فاتح. «پنجاه ساله نفت ایران». تهران. 1954

***Rus dilində:***

110. Абдуллаев З.З. "Начало экспансии США в Иране". М., 1963.

111. Абдуразаков Б. "Происки английского и американского империализма в Иране" (1941-1947), 1959.

112. Агаев С.Л. "Германский империализм в Иране" (Веймарская Республика. Третий Рейх). М., 1969.

113. Агаев С.Л. "Иран в период политического кризиса". 1920-1925 гг. (Вопросы внешней политики). М., 1970.

114. Агаев С.Л. "Иран: Внешняя политика и проблемы независимости". 1925-1941. М., 1971.

115. Акопов Г.М., Сухарев И.А. Империалистические блоки: реальность и перспектива". М., 1969.

116. Алибейли Г.Д. "Иран и сопредельные страны Востока". 1946-1978 гг. М., изд. "Наука", 1989, 253 с.

117. Алиев С.М. "История Ирана. XX век". М., изд. ИВ РАН-Кросден, 2004, 643 с.

118. Алиев С.М. "Антиимпериалистическое и демократическое движение в 1949-1953 - Иран очерки новейшей истории". М., 1976.

119. Алиев С.М. "Нефть и общественно-политическое развитие Ирана в XX", 1985.

120. Андроше Канне. "Нефтяная лихорадка". Пер. с венгерского. М., 1980.

121. Башкиров А.В. "Экспансия английского и американского империализма в Иране". М., 1954.

122. "Ближний и Средний Восток" (экономика и история). М., 1983.

123. "Большая Советская Энциклопедия". XVI том - 781 с.

124. Бондаревский Г.Л. "Английская политика и международные отношения в бассейне Персидского залива". М., 1968.

125. Бочкарев Ю. "Военные договоры иранской реакции с США".

126. Васильев А.М. "Персидский залив в эпицентре бури". М., 1983.

127. "Вопросы международных отношений в Азии". М., 1982.

128. Демин А.М. "Современная иранская деревня". М., 1977.

129. Дорошенко Е.А. "Шиитское духовенство в современном Иране". М., 1985.

130. Иванов М.С. "Иран в 60-70-х годах XX века". М., 1977.

131. Иванов М.С. "Иран сегодня". М., 1969.

132. Иванов М.С. "Новейшая история Ирана". М., 1965.

133. Иванов М.С. "Очерк истории Ирана". М., Госполитиздат, 1952, 467 с.

134. "История Ирана". М., Изд-во. М., 1977, 488 с.

135. Ключников В.В. И, Сабанин А.В. "Международная политика новейшего времени в договорах, нотах и декларациях". М., 1929.

136. Кулагина Л.М. "Экспансия английского империализма в Иране в XIX - начале XX в". М., 1981.

137. Лаврентьев А.К. "Империалистическая политика США и Англии в Иране". М., 1960.

138. Меликов О.С. "Установление диктатуры Резашаха в Иране". М., 1961.

139. Мирошников Л.И. "Английская экспансия в Иране" (1914-1920). М., 1961.

140. Нишанов М. "Антиимпериалистическое движение в Иране" (1951-1953). Ташкент, 1973.

141. Орлов Е.А. "Внешняя политика Ирана после второй мировой войны". М., 1975.

142. "Политика США на Ближнем и Среднем Востоке". М., 1960.

143. Попов М.В. "Американский империализм в Иране в годы второй мировой войны". М., 1956.

144. Примаков Е.М. "Персидский залив: нефть и монополия". М., 1983.

145. Рачков М.В. "Американский империализм в Иране в годы второй мировой войны". М., 1956.

146. Туганова О.Э. "Политика США и Англии на Ближнем и Среднем Востоке". М., 1960.

147. Ульяновский Р.А. "Неоколониализм США и слаборазвитые страны Азии". М., 1963.

148. Школьников Б.А. "Иран в конце 50-х - начале 60-х годов XX в". М., 1985.

149. Элвела Саттон Л. "Иранская нефть. К истории "политики силы". Перевод с английского". М., 1956.

150. Бондаревский Г.Л. "История расширения влияния Америки в Иране" səhifə 26-27. "Alfa" Nəşriyyatı "Tudə" Qapalı Səhmdar Nəşriyyatı 1358-ci il (1979).

151. Барри Рубин. " Война сверх держав в Иране" səhifə 31. Tərcüməçi: Mahmud Şərqi.

152. Бережков Валентин. "Конференция глав великих держав в Тегеране в 1943 г". Vida İzədinin tərcüməsi. Tehran, "Toka" Nəşriyyatı 1357-ci il (1978).

153. Мамонтов Н.П. "Правление царя и Мохаммед-Алимерзы".

154. Иран: Очерки новейшей истории. М., 1976.

155. Абдуллаев З.З. "Начало экспансии США в Иране". М., 1963 год.

***İngilis dilində:***

156. D-r Arthur Chester Millspaugh. American Task in Persia. Washington Brooking institute, 1946.

157. D-r. Arthur Chester Millspaugh. America Task in Persia. New York (The century 1925).

158. Times. 07.10.1924 .

159. Iran, Ministry of Finance, Report of the Administrator

General of finance of Iran (1943-1944) Tehran: Bank Melli Press. 1945.

160. Artaud, Denis, La reconstruction de I' Europe: 1919 - 1929, Paris, PUF, 1973.

161. Vatandoust Gholam. R. İranian Oil and Willam Knox D'Arcy The Mane Myth, Journal of Social Sciences and Humantities, Shriaz University, 1993.

162. Milza, Pierre, et Berstein, Serge, Lefacisme italien: 1919-45, Paris, Seuil, 1980.

163. Perkins, Frances, Roosovelt, Paris, Le Livre du jour, 1947.

164. Heravi. Mehdi, Iranian-American Diplomacy, Brooklyn. 1970.

165. Jones, Gcoffrey, Banking and Empire in Iran, Cambridge, 1986.

166. Kelly. J.B, Britain and the Persian Gulf, Oxford, 1991.

167. Mc Daniel. Robert, The Shuster Mission and Persian Constitutional Revolution, Minneapolis, 1974.

168. Pasha Saleh. Ali, Cultural Ties Between Iran and The U.S, Tehran, 1976.

169. Sabahi. Houshang, British Policy in Persia Cass, 1990.

170. Venessa. Martin. Islam and Modernism The Iranian Revolution of 1906, London, 1989.

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

**ƏFŞAR SÜLEYMANİ**
**MOLLA YUSİF**

# İRAN-ABŞ MÜNASİBƏTLƏRİ:
## MALİYYƏ EKSPERTİ A.Ç.MİLSPONUN İRANDA FƏALİYYƏTİ (1922-1927 VƏ 1943-1945-Cİ İLLƏR)

*(MONOQRAFİYA)*

**NƏŞRİYYAT REDAKTORU:**
*N.HACIOĞLU*

**KOMPÜTER TƏRTİBATI:**
***Sahib QƏNİYEV***

**YIĞICI:**
***Xəyalə MİKAYILOVA***

**KORREKTOR:**
***Ceyran ABBASOVA***

Çapa imzalanmışdır: 09.10.2007
Formatı 60x84 1/16.
Fiziki ç/v 12,25; ş.ç/v 11,39.
Tirajı 500.

QANUN NƏŞRİYYATI

***Bakı, AZ 1001,***
***Natəvan döngəsi 1.***
***Tel:*** *493-84-30; 431-16-62;*
*437-52-84; 498-76-04*
***Faks:*** *493-84-30; 498-76-04*
***E-mail:*** *ms@azdata.net*
***Web:*** *qanun.az*